**ELŞƏN MİSİR OĞLU NƏSİBOV**

# İNKİŞAF VƏ SÜLH

# İDEYALARI

**IV KİTAB**

***Və Təbiət haqqında düşüncələr...***

**BAKI-2014**

**Elmi redaktoru: Aygün Əsgərzadə**
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

**Rəyçi: Pərvanə İbrahimova**
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

**E.M. Nəsibov. İnkişaf və sülh ideyaları. IV kitab. Və Təbiət haqqında düşüncələr... Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2014, 252 səh.**

"İnkişaf və sülh ideyaları. IV kitab" adlanan əsər bundan əvvəl çap olunan eyni adlı üçcildlik əsərin davamıdır. **Kitab iki fəsildən ibarətdir.** Birinci fəsildə inkişaf və sülh ideyalarının əsasları fəlsəfi və elmi aspektlərlə izah olunur. İnkişaf və sülh kriteriyalarının şərtləndirici vəhdət məzmunu açılır. Sülh və inkişaf haqqında sinergizm məzmunlu fikirlər bildirilir. Sülhün inkişafa, inkişafın isə sülhə başlanğıc verməsinin və nəticələr üçün şərtləndirici amillər kimi əsasları izah olunur. Bu hissədə həmçinin Azərbaycanda sülh və inkişafın ardıcıl qaydada davam etməsi üçün yeni ideyalar öz əksini tapır. Belə qənatə gəlinir ki, gələcəkdə yerinə yetirilməsi mümkün olan yeni ideyalar həm mövcud material-maddi mühitdən formalaşır, mövcud şərait ideyaların meydana gəlməsinin əsaslarında dayanır, həm də idealizm üzərində qurulan gələcək baxışlar ideyaların meydana gəlməsinin əsaslarını ortaya çıxarır. Reallıqla ideallıq arasında üzvi vəhdətin mövcudluğu nəzəri baxımdan izah olunur.

Bu kitabın digərlərindən fərqləndirici xüsusiyyəti həm də ondan ibarətdir ki, ikinci fəsildə təbiət və kainat haqqında hipotetik düşüncələr yer alır.

Kitab sosioloqlar, siyasətşünaslar, siyasətçilər, psixoloqlar, təbiət fəlsəfəsi ilə maraqlananlar və geniş oxucu kütləsi üçün faydalı ola bilər.

**ISBN 978-9952-8142-9-3**

$$N\frac{3701020000-119}{H098-2014}$$ **qrifli nəşr**

***© Nəsibov E.M., 2014***

# MÜNDƏRİCAT:

## I FƏSİL:

**ÜMUMİ HİSSƏ. İnkişaf və sülh haqqında bəzi düşüncələr.....5**

**İnkişaf –qeyri-müəyyənlikdən müəyyənliyə keçən proses kimi ..........................................................................43**

**İnkişafın vertikal (şaquli, dik) və horizontal (üfqi) modeli: məkan, resurs və əhali nisbətində ...............................................50**

**İnkişaf və sülhün vəhdəti-sinergizm ..........................................55**

**Münaqişələrin həlli variantları (üsulları) və sülhə nail olmaq modelləri.....................................................................59**

**Səkkiz günlük iş həftəsinə keçmək və onun əhəmiyyəti. "7+1" prinsipinin tətbiqi. "Ümumdünya hərəkətsizlik günü"nün təsis olunması..............................................................73**

**Qafqazın Avro-Asiya ((Şərq-Qərb, Şimal və Cənub, Xəzər regionu aralığında) sülh məkanına çevrilməsi və xalqlararası mehribançılığın və dostluğun təmin edilməsi-Yeni humanitar məzmunlu və kompozisiyalı Qafqazın formalaşması ................73**

**Azərbaycan elminin problemləri, gələcək inkişaf istiqamətləri və əsasları-Azərbaycan Milli Elmlər Akademiyasında islahatların zəruriliyi..................................................................81**

**Azərbaycanda təhsil və elmin vəhdəti. Yeni təhsil islahatları ..96**

**Azərbaycanda dövlət uşaq bağçalarının maksimal həddə ləğv edilməsi (özəlləşdirilməsi) və dövlət büdcəsinin sosial yükünün azaldılaraq vacib istiqamətlərə yönəldilməsi ................................... 102**

**Dövlət rəhbəri və hakimiyyət rəhbəri anlayışlarının oxşar və fərqli məzmunu....................................................................113**

**Azərbaycanda Ümumxalq Məclisinin təşkili 127**

**Qrafiklər bölməsi.......................................................................139**

**NƏTİCƏ .....................................................................................146**

## II FƏSİL:

**ÜMUMİ HİSSƏ................................................................148**
**Düşüncələr....................................................................171**
**Həqiqət və qeyri-həqiqət...................................................191**
**Düzgünlük və qeyri-düzgünlük..........................................194**
**Sadəlik və mürəkkəblik.......................................................199**
**Müəyyənlik və və qeyri-müəyyənlik ..................................202**
**Stabillik və qeyri-stabillik...................................................204**
**"Sıfır", mütləq yuxarı hədd, mütləq aşağı hədd və dəyişkənlik-rəng dəyişməsi və mövcudluğun yoxluğu......207**
**Kəmiyyət və keyfiyyət .......................................................210**
**Mütləq və nisbi ..................................................................212**
**Səbəb və nəticə...................................................................213**
**Başlanğıc və son.................................................................214**
**Mütləq dəyişkənlik və nisbi hərəkətsizlik..........................216**
**Hərəkət və hərəkətsizlik......................................................217**
**Tərkib və bütöv...................................................................218**
**Müsbət və mənfi (pozitivlik və neqativlik)........................220**
**Uzaq və yaxın məsafə ........................................................221**
**Sübutlar və faktlar ..............................................................222**
**Nəzəriyyə və təcrübə .........................................................223**
**Obyektivlik və subyektivlik................................................224**
**Aşkarlıq və gizlilik.............................................................227**
**Fakt və güman, fərziyyə, təxmin, ehtimal ........................228**
**Enerji və enerjisizlik .........................................................229**
**İşıq və qaranlıq (nisbi işıqsızlıq) .......................................231**
**Varlıq və yoxluq ................................................................233**
**Forma və məzmun..............................................................235**
**Sistem və sistemsizlik ........................................................236**
**Qüvvə və sürət ...................................................................237**
**Zaman və məkan ................................................................238**
**Canlı və cansız aləm ..........................................................243**
**Material-maddi və mənəvi aləm.........................................244**
**Təbiət və fövqəltəbiət haqqında .........................................246**
**İstifadə olunmuş mənbə və ədəbiyyat................................249**

## ÜMUMİ HİSSƏ.
## İnkişaf və sülh haqqında bəzi düşüncələr

Fəlsəfi məzmun etibarilə inkişaf bir proses olaraq, müəyyən məkanda obyekt və subyekt rolunu oynayan elementlər arasında olan əlaqələrin sistemli və vəhdət təşkil edən əsasıdır. İnkişaf burada sinergizmdən-vəhdətin ümumi nəticələrindən irəli gələrək fərdiyə nisbətən çox olan faydasından meydana gələn təzahür olaraq ortaya çıxır. İnkişaf həm də elementlərin artan cədvəllər üzrə və bu baxımdan ümumiləşən, horizontal və vertikal olaraq çoxalma ilə dəyişən formasının və məzmununun təzahürüdür. İnkişaf göstəriciləri bir proses olaraq rəqəmlərlə ifadə olunur. Rəqəmlərlə ifadə olunma bu prosesin tərkibini induktiv və deduktiv əsaslarla dərk etməyə imkan verir. İnkişaf müstəvisində müsbət və mənfi elementlər nisbətində daima dəyişiklik meydana gəlir. İnkişaf elə bir prosesdir ki, bu zaman həyata keçən dəyişikliklər resursların artmasını özündə əks etdirir.

İnkişafın rəqəmlərdə əks olunması (ifadə olunması) yuxarı ilə yanaşı, aşağı göstəricilərdə də ola bilir. Məsələn, iqtisadi inkişaf sayəsində maddi-material resursların zaman –zaman artması yuxarı artan cədvəllə nəticələnir. Lakin iqtisadi inkişaf sayəsində kasıbçılığın aşağı düşməsi isə azalan cədvəlləri (burada kasıbçılığı ifadə edən rəqəmlərdə) özündə əks etdirir. Cədvəllərdə olan artma və azalmalar nəticə etibarilə pozitivliyə xidmət edir. Deməli, inkişaf müsbət və mənfini tarazlayan və əsasən müsbəti üstün edən bir prosesdir. Mənfiliyin yuxarı göstəricisini pozitivlik aşağı salır. Məsələn, kasıbçılıq mənfi göstəricidir, mənfi haldır, çatışmazalıqdır. Resursların artması bu mənfi koordinatları müsbətlərlə əvəzləməyə başlayır. Eləcə də inflyasiya mənfi halları meydana gətirən yüksək rəqəmlərlə göstərilir. İqtisadi sistemin güclənməsi sistemdəki bu zəif vəziyyəti, neqativliyi aradan qaldırmağa xidmət edir. **Deməli, inkişaf rəqəmlərin artması və azalmasında ifadə olunan**

**dəyişən müqayisə prosesidir**. İnkişaf sayəsində mücərrəd müstəvidə pozitivliklər və mənfiliklər arasında şərtləndirici vəziyyətlər meydana gəlir. Bir koordinatda və ucluqda azalma digər koordinatda artmanı və yaxud da əksinə baş verən prosesləri özündə ehtiva edir.

İnkişafın fəlsəfi mahiyyəti və hər bir koordinat müstəvisində əsas məqsədi xeyirxahlığı (xidmətləri) təmin etməkdən ibarətdir. **Çünki inkişaf prosesləri insanların hərəkətlərini zəruri edən maraqların təmin edilməsinə əsaslanır.**

İnkişaf zamanı çoxlu sayda müxtəlif tərkibli və ölçülü elementlər qarşılıqlı şərtləndirici, yəni səbəb və nəticə rolunu oynayan vəziyyətlərdə olurlar. Bu elementlərə həm subyektlər, həm də subyektlərin istifadə etdikləri alətlər (vasitələr) kimi əhəmiyyət kəsb edən ünsürlər aid edilir. Deməli, inkişaf münasibətləri və əlaqələri həyata keçirən subyektlər arasında olan fəaliyyətin təzahürüdür, eləcə də fəaliyyəti təmin edən vasitələrin –obyektlərin və istifadə olunan alətlərin qarşılıqlı təminedici və şərtləndirici əsasıdır, nəticəsidir. İnkişaf zamanı vasitələrin sayı çoxaldılır və onların istifadə obyektləri, məkanları genişləndirilir. İnkişaf bir proses kimi əlaqələrin çoxalması və sistemli qaydada təkmilləşməsi ilə xarakterizə olunan vəziyyətlərə malik olur. Hərəkət dalğaları həm bir-birini şərtləndirir, biri-digərinə başlanğıc verir, həm də yeni nəticələrin meydana gəlməsinin əsaslarını ortaya çıxarır. Bunun nəticəsində dalğalar yaranır və dalğalar bütün sahələri əhatə edir.

İnsanların cəm halda fəaliyyəti cəmiyyətin və dövlətin inkişafına zəmin yaradır. Çünki bu kollektivçilik potensialın mənbəyinə çevrilir. İnkişaf prosesləri horizontal olmaqla universal, şaquli olmaqla (xəyali xətlər üzrə) isə konkret və məxsusi kateqoriyadır. Qeyd edildiyi kimi, inkişaf universal kateqoriyadır və bu kateqoriyanın universallaşması isə ayrı-ayrı sahələr üzrə konkret inkişaf tendensiyalarının cəmindən

meydana gəlir. İnkişaf həm parçalayıcı (burada paylara ayrılma və bölünmə nəzərdə tutulur), həm də bütövləşdirici funksiyanı daşıyan bir prosesdir. İnkişaf sayəsində proseslərdə iştirak edən ünsürlər, vasitələr müəyyən məkanlar üzrə “qatlarla” bölünür, paylanılır. Bu, o deməkdir ki, müəyyən məkanda mövcud olan vasitələr həm mərkəzləşir, həm də ətraflara doğru dalğalı qaydada artan proseslərə çevrilir. Ümumi məkan üzrə bölünmə və birləşmə sayəsində imkanlar itmir və bu zaman imkanların paylanılması prosesləri meydana gəlir. Paylanma zamanı rəqabət də ortaya çıxır ki, bu da nəticədə mübarizənin genişlənməsinə səbəb olur. Bunun nəticəsində inkişaf sistemlər daxilində və sistemlər arasında mübarizələrlə xarakterizə olunan vəziyyətlərin meydana gəlməsinin təzahürü olaraq formalaşan prosesə çevrilir. Hər bir inkişaf sistemində-coğrafi-sosial-siyasi sistemlərdə- inkişaf **horizontal** və **üfiqi** formaya malik olur. Bu kimi formaların meydana gəlməsində məkan və məkan üzərində cəmləşən resurs amili böyük önəm kəsb edir. Hər bir məkan daxilində mövcud olan elementlərin hərəkətləri və hərəkətlərdə olan say hərəkətlərin trayektoriyasını horizontal və üfqi formaya salır. Bu formalar bir-birini şərtləndirir və daxili baxımdan zənginləşməyə xidmət edir. Elə xəyali piramidal struktur inkişafın məkana olan nisbətini, eyni zamanda inkişaf vəziyyətlərinin horizontal və şaquli əsaslarını əks etdirir. Dövlətin resurslarının zəngin olması və bu resursların istifadəsində tətbiq edilən rasional metodlar və sistemli yanaşma təbii şəkildə dövlətin iqtisadi inkişafının bütün formalarının meydana gəlməsində şərtləndirici əhəmiyyət kəsb edir.

İnkişaf müxtəlif kəmiyyətə malik olan mərkəzlərin yaradılması (məsələn, piramidal strukturda şaquli və üfqi hərəkətlərin nəticələri ilə meydana gələn asılı fəaliyyət göstərən müxtəlif ölçülü mərkəzlər) və onlar arasında trayektorik bağlılığın çoxaldılması ilə xarakterizə olunan bir prosesdir. İnkişaf mərkəzləri potensial mərkəzləri hesab

olunurlar və onlar arasında əlaqələr trayektorik bağlılıqla təmin olunur. Elementlərin sistemlər daxilində təsirlərə məruz qalması yeni elementlərin meydana gəlməsi üçün əsasları ortaya çıxarır. İnkişaf- fizikanın dili ilə ifadə etsək-çoxlu sayda elementar zərrəciklərin meydana gəlməsi ilə xarakterizə olunan bir prosesdir. Proseslər zamanı sistemdə peydah olan yeni elementlər də öz növbəsində yeni trayektoriyaların meydana gəlməsini şərtləndirir. Çünki inkişaf prosesində maraqlar bütün elementlərin (burada aidiyyatı elementlər) hərəkət vəziyyətini təmin edir. Qarşılıqlı hərəkətlərin sürətli forması bütün elementlərin hərəkətlərinə təsir edir. Deməli, inkişaf sistemə tabe olan və sistemlə tənzim edilən proseslərdən ibarət olan bir vəziyyətdir.

Sistemli qaydada elementlərin çoxalması, tərkib hissələrdən yeni bütövlərin əmələ gəlməsi, sistemli xarakterli bütövlərin çoxalması və onlar arasında əlaqələrin genişlənməsi elə ardıcıl və davamlı inkişafın özüdür. Davamlı inkişaf müəyyən müstəvini əhatə edən və ardıcıl dalğaları özündə cəmləşdirən bir prosesdir. İnkişaf trayektoriyalarının başlanğıcı bir trayektoriyanın daxilindən meydana gəlir və burada ümumi və şəbəkəli əsaslı forma və məzmun ortaya çıxır. Ardıcıl inkişaf qeyri-müəyyənliyin müəyyənliyə çevrilməsi ardıcıllığı ilə müşahidə olunan bir vəziyyətdir. Bu, bütün trayektoriyaların daxilindən ortaya çıxır və sanki, bir ağac budaqlarında olan yarpaqları və saplaqları bənzədir. Ardıcıl inkişaf müstəvisində (sistematik xarakterli) ən son hədləri görmək mümkün deyil və bu prosesdə sadəcə olaraq genişlənən sərhədlər bir-birini əvəzləyir. Bununla da müstəvi daxilində yalnız şərti olaraq meydana gələn hədləri görmək olar. Əvvəlki sərhədlər növbəti sərhədlər üçün baza mənbə rolunu oynayır və əsas qüvvə, həm də cəzbedici mərkəz kimi əhəmiyyət kəsb edir. **Buradan da belə nəticələr ortaya çıxır ki, inkişaf qaydalara və normalara tabedir və hər bir proses başlanğıcı və sonu olan qaydalardan və**

**normalardan ibarətdir.** Sərhədlərin genişlənmə üzrə normalarla dəyişməsi elə inkişaf proseslərini xarakterizə edən hallara çevrilir. Fikirin ümumiləşdirilmiş nəticəsi inkişafın sistemli xarakterə malik olmasını meydana gətirir.

İnkişaf haqqında ideyaları irəli sürməkdə başlıca məqsəd baza reallıqdan çıxış edərək, mövcud sistemlər daxilində və sistemlər sərhədlərini keçməklə artan elementlər sahəsində ideallığı yaratmaqdan ibarətdir. Burada düşüncələrin trayektoriyası meydana gəlir və artan düşüncələr şəbəkəsi real və mövcud zaman prosesləri üzərində yenilikləri, yeniləşən proseslərin obrazlarını yaradır. Ardıcıl şəkildə meydana gələn ideyalar gələcək inkişaf proseslərinin surətini beyində arxetip şəkildə əks etdirir, gələcək proseslərin ilkin və başlanğıc obrazını yaradır. Bu hal da mövcud material aləmi xassələndirən proseslər üzərindən meydana gəlir. İnkişaf material aləmə yeni təsirlərin zəruriliyindən meydana gələn proseslərə çevrilir. Material aləmin hərəkətə gətirilməsi elə insanların düşüncələrində qıcıqları yaradır və nəticə etibarilə müəyyən düşüncə prosesləri formalaşır. Gələcək inkişaf əslində mövcud inkişaf xüsusiyyətlərindən doğan bir vəziyyət, forma və məzmun olaraq düşüncələrdə canlanır. Canlanma da pozitivliyə söykəndikdə, inkişafa mane olan ünsürlərin aradan qaldırılması halları və fəaliyyətin müvafiq tərkib hissələri meydana gəlir.

İnkişaf və sülh ideyalarının zəncirvari olaraq meydana gəlməsi təbii ki, şaxələnən istəkləri ifadə etməkdən ibarətdir. Bu, humanitar inkişafa, bəşəri tarazlığa söykənir. İnkişafın məqsədləri onun xeyirxah vəzifələri (inkişafın məsuliyyəti adını da qoymaq olar) ilə birləşdikdə bəşəri dəyərlərin artması halları meydana gəlir. Düşüncələrin pozitivliyi inkişaf proseslərini nəticə və proses etibarilə bəşəriyyətə (humanizmə) bağlayır. Bəşəri düşüncələrin inkişaf xüsusiyyətləri material aləmdən də xeyirxah məqsədlərlə istifadənin əsaslarını ortaya çıxarmış olur. Bu idealların real gerçəkliklərdə mütləqləşməsi

(obrazının, əlamətinin aşkarlanması) maddi aləmin pozitiv fəaliyyətinə səbəb vermiş olur. **Bəşəri inkişaf humanizm düşüncələri ilə humanitar fəaliyyətin vəhdətində meydana gəlmiş olur**. Bəşəri inkişaf da öz-özlüyündə resursların nisbi ədalət əsasında bölünməsinə söykənən inkişaf kimi böyük əhəmiyyət daşıyır. Bu zaman ümumi (hamıya faydalı olan) enerji sferası formalaşmış olur. Ümumi enerji sferası isə ümumi enerji mənbəyinin güclənməsinə səbəb olur. İnsanlar bəşəri düşüncələri əməlləri ilə sintez etdikdə alınan nəticələr də daha çox fəlsəfi məzmunlu olur və pozitiv nəticəli formalaşır. Fəlsəfi məzmun da eyni zamanda xeyirxahlığa və yaxşı əməllərə səbəb vermiş olur. Fəlsəfi məzmun baza etibarilə ümumi nəticəni faydalı olmağa cəlb edir. Bu baxımdan da inkişaf və sülh ideyalarının vəhdəti elə fəlsəfi sintezlərdən (burada pozitiv məzmunlu dərin sintezlərdən) və nəticələrdən ibarət olur. Sülh və sabitlik tarazlı inkişafa, tarazlı inkişaf isə sülh və sabitliyə xidmət etdikdə rəvan və gözəl duyğulu yaşayış forması, cəmiyyət və dövlət quruluşu meydana gəlir. Sülh və sabitlik **xoşbəxtlik formulasının** tətbiqini şərtləndirən inkişaf meyarlarını ortaya çıxarır. Sülh və sabitliyin təmin edilməsi insan hüquqlarının yüksək səviyyədə təmin edilməsindən asılı olur. İnsan hüquqlarının ali formalı təminatı universal inkişaf proseslərindən, tarazlı inkişaf modellərindən meydana gəlir.

Biz pozitiv istiqamətlərdə düşündükcə düşüncə sistemlərini yaradırıq. Düşüncə sistemləri ideallıqla reallığın vəhdəti ilə xarakterizə olunan sistemdir. Düşüncələrin təkmilləşməsi elə ideallıq sistemlərinin zənginləşməsidir. Düşüncələrin əməllərlə praktiki vəhdəti isə insanlarda yüksək iradəni tələb edir. Deməli, iradə düşüncə və əməl arasında elementləri transfer edən və bununla da təsir yaradan bir amildir, kriteriyadır. İradə düşüncə və əməllərin vəhdətini meydana gətirdikdə və fəaliyyət həyata keçirildikdə inkişafın xeyirxah məqsədləri formalaşmış olur. Xeyirli istəklərin (burada universal faydalı

istəklər, yəni çoxları üçün faydalı istəklər nəzərdə tutulur) zəncirli vəhdəti elə inkişaf prosesləri müstəvisinin də ümumən xeyirli olmasını şərtləndirir. Deməli, müsbət istiqamətlərə yönələn inkişafın arxasında məhz davamlı istəklər dayanmış olur ki, bu da xasiyyətlərdə müdrikliyə, kamallığa söykənir. **Buradan da belə nəticələrə gəlinir ki, inkişafın xeyirxah məqsədləri əslində ali məqsədlərdir və bu baxımdan rəvanlığı, estetik gözəlliyi və ülvi məqsədləri özündə daşıyan nemətlərdir.** Belə bir bəşəri ideyadan çıxış etmək olar ki, inkişaf insan əməyinin məhsuludursa, onda, daima xeyirxah amallara xidmət etməlidir. Bəşəri amallar da bəşəri sülhün qorunub saxlanılmasına söykənməlidir.

**Bəşəri sülə xidmətləri nəzəri əsaslarla aşağıdakı istiqamətlərdə konkretləşdirmək və ümumiləşdirmək olar. *(Bu, hər şeydən öncə resursların əldə olunmasının və istifadəsinin pozitiv və tarazlı nəticələrinə söykənməlidir. Həmçinin insanların total qaydada və fərdi əsaslarla iştirakdan kənarda qalmamasına əsaslanmalıdır*):**

**-resurslardan istifadə zamanı daxili ruhi aləmin əməllərlə praktiki vəhdətini yaratmaq;**

**-resursların tarazlı qaydada əldə edilməsi üçün imkanları gerçəkləşdirmək;**

**-resursların əldə edilməsində və istifadəsində xeyirxahlıq nəzəri ideologiyasını vahid trayektorik məzmunlu xətlərdə saxlamaq;**

**-nəzəri bilikləri xeyirxah praktiki əməllərlə, yəni xeyirxah istifadə ilə tamamlamaq, pozitiv nəticələrə və istifadə hallarına çalışmaq;**

**-başlanğıc və sonlar, eləcə də səbəblər və nəticələr arasında xeyirxah amallara söykənən bağlılığı meydana gətirmək;**

**-sistemli nəzəri-ideal fikirləri bildirmək, onları daima düşüncələrdə saxlamaq və ümumən bəşəri düşüncələr sistemini yaratmaq;**

**-düşüncələrin xeyirli əməllərə çevrilməsi üçün iradələrin xeyirxah istək və arzularla birləşdirilməsini təmin etmək;**

**-istəklərlə əməllərin bağlayıcılığını təmin edən iradə zəncirliliyini saxlamaq;**

**-şəxsi (fərdi) maraqlarla universal (cəmiyyətin, dövlətin, əhalinin, xalqın, dünya sakinlərinin) maraq arasında təbii vəhdəti yaratmaq və universal maraqlara dözüm nümayiş etdirmək, maraqların fərdiliyi prinsipini də qəbul etmək;**

**-xeyirli əməlləri neqativ əməllər üzərində daima təsirdə saxlamaq;**

**-bəşəriyyətin əsasını təşkil edən tərkib rəngarəngliyini qoruyub saxlamaq və bunu düşüncələrdə inkişaf etdirmək, yəni dərinləşdirmək və s.**

İnkişaf tələbatlara hesablanan bir prosesdir. Lakin bir çox hallarda inkişaf prosesləri tələbatların həcmini də üstələyir. **(Qeyd: inkişafa nail olmaq üçün tələbləri çoxaltmaq lazımdır. Cəmiyyətdə müəyyən tələbləri təbliğ etmək, tələb sahələrini yaratmaq və müvafiq istiqamətlərdə təşviqat həyata keçirmək lazım gəlir. Tələb sahələri məhz inkişafın şaxələnməsinin əsaslarını meydana gətirmiş olur. Yeni tələb sahələri də təkliflərin yeni sahələrindən meydana gəlir. Əgər sabit inkişaf tələb və təklif arasında tarazlı dinamikanın mövcud olması ilə xarakterizə olunursa, sürətli və qeyri-sabit inkişaf isə bu tarazlığın pozulması və sonradan bərpa olunması ilə xassələnir).** İnkişaf zamanı insan tələbatları həm ödənilir, həm də onun yeni tələbatları meydana gəlir. Deməli, inkişaf maddi-mənəvi aləmdə element

çoxalmasının əsaslarını təşkil edir. Element çoxalmaları da maraqların böyüməsinə səbəb olur.

İnkişaf prosesləri zamanı nəzərdə tutulan ideallıq öz yerini daima reallıqla əvəzləyir. İnkişaf prosesləri zamanı reallıqda əksini tapan gözlənilməz idellıq da meydana gəlir. Bu anda gələcək inkişaf ideyaları müəyyən zaman hüdudlarında reallığa, real obyektivliyə çevrilir. Bu baxımdan da inkişaf prosesləri həm obyektiv reallığın şəbəkəli əsaslarla formalaşmasına xidmət edir, yəni real proseslərin gələcək istiqamətləri və silsilə formaları meydana gəlir, həm də ideallığın gələcək obyektinə çevrilir. Bu səbəbdən də inkişaf prosesləri ideallıqla reallığın bir-birini əvəzləməsində təzahür olunan bir proses kimi əhəmiyyət kəsb edir. Real görülən işlər üzərində yeni ideyalar meydana gəlir ki, bu da nəticədə ideyaların şəbəkə xarakterli olmasına söykənir.

İnkişaf zamanı daha çox yeni təzahürlər (əlamətlər) meydana gəlir. Təzahürlər həm elementlərdə, həm də proseslərdə öz əksini tapır. Təzahürlər, yeni rənglər və görünüşlər trayektoriyası və sistemlilik elə inkişafın növbəti mərhələlərinin şərtlənməsində böyük rol oynayır. Belə nəticəyə gəlmək olur ki, inkişaf bütövləşmə proseslərinin cəm halda çoxalmasıdır. İnkişaf proseslərində həm də parçalanmalar da var. Bu zaman da yeni mahiyyət və gerçəklik meydana gəlir. Formadan yeni formalar və məzmunlar ortaya çıxır. **Forma və məzmunların qeyri-müəyyənlikdən müəyyənliyə doğru artması prosesləri yaşanır. Qeyri-müəyyənliyin müəyyənliyə çevrilməsi artıq bütöv aşkarlanan sistemin (mücərrəd olan və zaman-zaman reallaşan) tərkib hissəsinə çevrilir.** Bununla yanaşı, forma və məzmun dəyişmələri zamanı material aləmdə yeni kimyəvi məzmunlar və fiziki formalar da üzə çıxır. Bu forma və məzmunlar təbii olaraq əvvəlki forma və məzmunların inkarı sayəsində meydana gəlir. İnkişafın zamanı elə inkarların zamanı ilə müəyyən olunur. İnkarların zamanı da forma və məzmun dəyişmələrinin zamanı

ilə eynilik təşkil edir. **Ümumi olaraq belə qənaətə gəlmək olur ki, inkarların zamanı elə inkişafın zamanıdır.**

İnkişafın tarazlı forması həm bir məkanda baş verir, bu, həmin məkanın universal və məxsusi tarazlığını yaradır. İnkişafın digər bir tarazlı forması isə (buna **məkanlararası üfiqi tarazlıq** da demək olar) nisbi olaraq və müşahidə edilən dəyişikliklərlə məkanlar arasında (birləşmiş məkanlarda) meydana gəlir. Məsələn, bir neçə inkişaf etmiş dövlətdən ibarət olan Avropa regionunda üfiqi tarazlı inkişaf forması (bir neçə dövlətin inkişaf sistemləri arasında şərti bərabərliyin olması) meydana gəlməkdədir. Regional davamlı sülh də məhz bu tarazlı inkişaf formasından ortaya çıxır. Tarazlı inkişaf müəyyən məkanlar üzrə payların bölünməsinin əsaslarını yaradır. **(Qeyd: məkanlar elə dövlətlərin və xalqların özündə, onların yerləşməsində, məskunlaşmasında əks olunur. Müəyyən coğrafi sərhədlərdə maraq göstərən və bundan irəli gələrək hərəkət sferasına malik olan dövlətlərin özləri elə məkan anlayışını, region anlayışını yaradırlar. Region sosial, siyasi, milli və iqtisadi amillərə söykənir. Bu kimi tərkiblər regionların universal xassələrini və kriteriyalarını meydana gətirir. Regionların sistemlərinin tərkib ünsürləri elə məhz regionların ümumsistemli xarakterini formalaşdırır. Yəni dövlətlər toplusu müəyyən məkan üzrə əlaqələr sistemini yaradır).** Regionlar arasında kəskin inkişaf fərqlərinin olması isə qeyri-tarazlığın yaranmasına səbəb olur. Məsələn, Rusiya ilə Avropa arasında mövcud olan iqtisadi sistem fərqləri bu iki region arasında qeyri-tarazlıqların, müəyyən xətlərə istinadən uyğunsuzluqların yaranması ilə əlamətlənir. Qeyri-tarazlıqlar regionlar arasında kəskin rəqabətin əsaslarını yarada bilir. Hətta belə vəziyyətlərdə mövcud olan sülh və sabitliyin pozulması halları da meydana gələ bilir. Tarixən sənaye və aqrar əsaslı regionlar arasında fərqlər səbəb olmaqla mübarizələr, uyğunsuzluqlar baş veribdir. Bu gün də həmin

proseslər davam etməkdədir. **(Qeyd: kainatın hərəkətdə olması və elementlər baxımından tərkib fərqləri insanların xarakterində də əks olunur. İnsanların yaşadıqları cəmiyyətlər də fərqli olur və onlar arasında münasibətlərə də bu fərqlər təsir edir. Münasibətlərin və əlaqələrin mənşəyini elə kainatda axtarmaq daha məqsədəmüvafiqdir. İnsanların təbii xüsusiyyətləri onların əməllərində əks olunur və məkanlar arasında rəqabət də məhz maraq müxtəliflyindən, bundan irəli gələrək istək, niyyət, arzu və hərəkət fərqlərindən ortaya çıxır).**

**Sülh** daha çox dinamik və sabit inkişaf proseslərinin özündə meydana gəlir. Sülh bir vəziyyət olaraq elə sabit inkişaf proseslərinin sistemli formasının əks olunmasıdır. Burada ona görə sabit inkişaf vəziyyətləri olur ki, mexanizmin zamanla işləməsi (ölçülərə tabe olması və zamanla nisbi əsaslarla bərabər bölünməsi) sabit dinamizmə tabe olur. Sülh müxtəlif müstəvilərdə və panellərdə "yavaş və sakit" hərəkət vəziyyətlərinin özüdür. İnkişaf sabitliyi daha çox makromühitdə müşahidə edilir. Sabit hərəkətlərdə isə dəyişiklik (fərqlər) makro yox, daha çox mikromühitdə hiss olunur. Bu o deməkdir ki, sabit iqtisadiyyat makrosəviyyədə **tarazlı dinamik inkişaf zamanı** meydana gəlir və burada inkişaf sürəti tam fərqlə hiss olunmur. Sıçrayışlı proseslərdə isə bu tarazlıq yüksəkliyə doğru pozulur və makrodinamizm meydana gəlir və sonradan isə mikrodinamizmin tarazlığı (nisbətən böyük tarazlıq) ortaya çıxır. Pozulma isə görünən və hiss olunan element dəyişmələrində xarakterizə edilir. Bu baxımdan da belə qəbul etmək olar ki, ən optimal inkişaf elə makrotarazlı inkişafdır və mikrodəyişən mühitin inkişafıdır. Bu halda iqtisadiyyat sistemlərinin təkmil formaları təşkil olunur.

Hamımıza məlumdur ki, insan həyatı əsasən iki aləmdən təşkil olunur. Bunların birində material aləm hesab etdiyimiz cisim, digərində isə material aləmin sonu olan **(həm də material aləmin yetkin forması hesab edilə bilən, yəni**

**cismanı aləmin tərkibi və ali forması olan)** ruhi **(psixi, mental)** aləm dayanır. Hər iki aləm birlikdə fəaliyyət göstərir və biri-digərinə (qarşılıqlı olaraq)  xidmət edir. Ümumi həyat sisteminin və onun maddi-mənəvi aləminin əsası və tərkibi də məhz bu iki strukturdan təşkil olunur. Buna görə də insan ayrı-ayrı strukturlardan ibarət olan vahid bir varlıq hesab olunur. İnsanın əsas məzmunu (ali və şüurlu məxluq kimi) onun mənəviyyatında cəmləşir. Mənəviyyat isə maddi aləmin yuxarısında qərarlaşır və maddi aləmi özünə xidmətə yönəldir.

İnsan varlığının mürəkkəbliyi məhz onun qəbul etdiyi və göndərdiyi siqnalların xüsusiyyətləri ilə müəyyən olunur. Məlumdur ki, insanların cismani olaraq bütün daxili orqanları bir-birinə siqnal göndərir ki, bu da həmin orqanların qarşılıqlı fəaliyyətinin əsasını təşkil edir. Siqnallar isə insanları daha da yüngül elementli aləmə, yəni ətraf hissi aləmə, bağlayır. **Buradan belə çıxır ki, insanlar daxili və xarici (ətraf aləm) təmas quruluşları olan mürəkkəb varlıqlardır.** Maraqlar, tələbat və ehtiyaclar da məhz bu daxili aləmlərin bir-birini tarazlamasından meydana gəlir. Daxili aləmin orqanları zərurət, ehtiyac və tələbat əsasında fəaliyyət göstərirlər. Ümumiyyətlə isə iki daxili aləm arasında siqnal ötürücülüyü mövcud olur və bu siqnal ötürücülüyü də ehtiyac və tələbatların tarazlanması proseslərinin həyata keçirilməsini tələb edir. Buradan da belə nəticələrə gəlmək olur ki, insan iki mühüm şərtləndirici mürəkkəb strukturdan ibarətdir. İnsan həm də ətraf sistemlə əlaqə saxlayan bir quruluş rolunu oynayan məxluqdur. İnsan adlanan bütöv mexanizm həm öz daxilini tənzim edir, həm də ətraf aləmlə şərti ölçülər hüdudlarında-makro və mikro səviyyədə təmasda olur. Makrotəmas geniş fəaliyyətdir, müdriklik, kamallıqdır, mikrotəmas isə universallıqdır, adilikdir, yəni bütün insanlara xas olan ümumidir. Makrotəmasda (mənəviyyatın nisbətən yuxarı mərhələsi üzrə qurulan təmasda) olan insanlar nisbətən daha çox qabiliyyətə və istedada malik olurlar. Belə hesab etmək

olar ki, makrotəmas enerjinin bolluğundan yaranır. Bu təmasda olan insanlarda enerji mübadiləsi sürətlə həyata keçirilir. Enerji mübadiləsi sayəsində daha çox işlər görülür. Makrotəmas tarazlı nizamın əsasını təşkil edir və belə hesab etmək olar ki, makrotəmasda olan insanlar daha çox təsirli olurlar və öz daxili nizamları ilə fərqlənirlər. Həmçinin belə qəbul etmək olar ki, kamallıq və yetişkənlik də bu makronizamın əsasındadır. Makronizamın üzvünə çevrilmək üçün düşüncələri və prakitiki fiziki əməlləri artırmaq zəruri amilə çevrilir. Deyilənlərdən belə nəticələrə gəlmək olur ki, **insan öz kainatına bağlı olan və müqayisədə iki səviyyədə (özündə makro və mikro səviyyədə) olan mikronizamdır.** Tarazlanma prosesləri (daxili quruluşun tarazlanma prosesləri) bir neçə kompleks mərhələdə həyata keçirilir. Bir şərti tarazlıq digərini tamamlayır, yaxud da digərini şərtləndirir və ona başlanğıc verir. Tarazlıq kompleksləri və bu istiqamətdə həyata keçirilən fəaliyyət, o cümlədən rəqabət mübarizəsi forma və məzmun dəyişmələrini kompleks şəkildə özündə cəmləşdirən **inkişaf mühitini** meydana gətirir. Müşahidələr göstərir ki, **makronizamlı insanlar daha çox idarəçiliyə, hökmə, eləcə də sabit inkişaf xüsusiyyətlərinə, mikronizamlı insanlar isə itaətkarlığa, maddi aləmə daha çox bağlılığa meyil edirlər.** Makronizama malik olan insanlarda bu təbiət quruluşu birinci növbədə anadangəlmə olur, sonra isə qazanılır. Onu da nəzərə almaq lazımdır ki, maddi aləmin mənəvi aləmə nisbətən tez-tez dəyişikliklərə məruz qalması maddi aləmdən asılı qalan insanlarda gərginlikləri (stress və depresiya hallarını) daha çox yaradır. Makronizamlı insanlarda isə maddi aləmin mənəvi aləmin tarazlı formasına təsir göstərən halları mənfi qıcıqları meydana gətirir. Lakin daxili böyük tarazlıq bu pozulmanın bərpa olunmasına yardımçı olur. Asılılıq sistem olduğundan sistemdə olan element dəyişmələri təbii ki, insan xarakterinin də dəyişmələrinə səbəb olur ki, bu da özlüyündə gərginlikləri meydana gətirir.

Ümumiyyətlə, insan bərk materiya (burada torpaq üzəri nəzərdə tutulur) üzərində qərarlaşan və öz cismi ilə bərk materiyaya təsir edən, onun üzərində hərəkət edən material – maddi-bioloji-aləmdir. Bu baxımdan da məlumdur ki, bərk materiyanın nisbətən yumşaq (burada sümük, qan, hüceyrə, toxuma və əzələlərdən ibarət olan kompleks birləşmə, sinergetik birləşmə nəzərdə tutulur) tərkibidir. İnsan şüurunu isə bərk yumşaq materiyadan tam yüngül materiyaya keçid nəticəsi kimi qəbul etmək olar. Deməli, **insan şüuru siqnalların (ən kiçik zərrəciklərin) beyində qərarlaşan hissəsidir.** Siqnalların emalı prosesləri məhz beyin mərkəzlərində yerinə yetirilir. Burada cismani struktur həm də psixi struktura təsir edir. Psixi struktur cismanı strukturdan qidalanır, eləcə də ətraf aləmlərdən siqnalları qəbul edir və cismani struktura da ötürür. Bu baxımdan stress, həyəcan, depressiya halları insan fiziologiyasına öz təsirlərini göstərir. Strukturlar həm də bir-birilərini qoruyurlar. Birində olan nizamsızlıq digərinə təsir edə bilir. Bir struktur digərini qoruyur və digərində baş verən nizamsızlığı aradan qaldırmağa çalışır. Birinə gələn zərbə digərinə təsir edir. Burada hər bir strukturun həm ayrı-ayrılıqda, həm də ümumilikdə qoruyucu funksiyaları formalaşır. **(Qeyd:** belə qəbul etmək olar ki, bütün canlı aləm siqnallarla idarə olunduğundan, insanların digər canlılarla əlaqələri-siqnal bağlılıqları, vardır. Burada siqnalların xüsusiyyətləri, fərqləndirici əlamətləri məhz hər bir canlı aləmin özünəməxsus materiya quruluşundadır. Lakin belə təxmin etmək olar ki, bütün canlılarda universal siqnal bağlılığı mövcuddur, bu siqnalları birləşdirən ortaq element hissəcikləri var. Deməli, qohum növdə (cinsdə) olanlar siqnallarla bir-biriləri ilə əlaqəlidir).

**İnkişaf (burada cəmiyyətin, dövlətin və ümumilikdə insan həyatının inkişafı nəzərdə tutulur)** dedikdə, bu ifadənin məzmununda, tərifində insan həyatını təşkil edən iki mühüm baza istiqamətin inkişafı- maddi-material aləmin

inkişafı və mənəvi (ruhi-psixi) aləmin inkişafı nəzərdə tutulmalıdır. Birində olan inkişaf -element çoxluğu- təbii şəkildə digərinə təsirdə özünü göstərir. Ümumi əsaslı tarazlı inkişaf o halda yaranır ki, maddi və mənəvi struktur bir-birini nisbi və mütləq əsaslarla tamamlamış olur. Bu tamamlama proseslərində həm şərtləndiricilik yaranır, həm də mühafizə məsələsi zəruri amilə çevrilir. Yəni tarazlıq o halda uzun müddətli olur ki, hər iki aləm elementlərin artması prosesində özünü qorumuş olur. **Bu, nisbətin pozulmaması anında baş verir. Maddi-material tarazlıq özünü daha çox mənəvi tarazlıqla qoruya bilir. Bu halda rəvan inkişaf meydana gəlir. Rəvan inkişaf isə artan proseslərlə təmin olunur və mərhələlərdə ümumi bərabərlik yaranır. Yəni dinamik artma proseslərinin özündə hərəkət və davamediciliyin bərabərliliyi meydana gəlir. Burada zaman, məkan, koordinat bərabərliyi mütləq və nisbi şərtləndirici amilə çevrilir. Bütün bərabərliklərin nizamlanması prosesləri mənəvi aləmin bərabərli əsaslarla təsirində özünü göstərir. Buradan belə nəticələrə gəlmək olur ki, əslində insan iradəsinə bağlı olan material-maddi aləmin tarazlığı insanın mənəvi-ruhi aləminin tarazlı siqnalları ilə idarə olunur. Mənəvi aləm çox hallarda ard-arda "basılan tormoz" funksiyanı yerinə yetirir. Bu funksiya isə hərəkətin nizama salınmasına xidmət edir. Mənəvi aləm daima material aləmi izləyir, onu müşaiyət edir.**

**İnkişaf** həm materiyaya olan əlaqələrdə özünü göstərir, həm də şüurun inkişafında, dərketmənin dərinləşməsində ortaya çıxır. Burada hər iki tərəfin nisbət tarazlığında baş verən ümimiləşdirici proseslər inkişafın meydana gəlməsinin əsaslarını yaradır. Inkişaf həm siqnallardan ibarət olur (material aləmin təzahürü elə siqnaldır, əks olunmadır), həm də siqnalların təzahüründən, siqnalların material aləmə təsirindən meydana gəlir. Düşüncənin rasionallığı və dərinləşməsi, kompleksləşməsi, horizontal (üfqi) və şaquli (vertikal)

mücərrəd formada dərinləşərək zənginləşməsi təbii ki, bu düşüncənin həm öz tərkibini (idealizmi), həm də material aləmə olan təsir dərəcəsini artırır. Məsələn, müəyyən bir texniki –texnoloji vasitə üzərində təkmil düşüncə həmin vasitənin yenidən təkmilləşməsinin əsaslarını meydana gətirə bilir. Texnoloji vasitələrin istifadəsi zamanı ortaya çıxan yeni zərurətlər, yəni nəticələrin yeni təzahürləri meydana gətirməsi həmin texniki vasitə üzərində yeni münasibətlərin meydana gəlməsini zəruri edir və insanlar daha da təkmil və sadələşdirilmiş, iş əmsalı yüksək olan texnoloji vasitənin (***burada daha çox iş görməyə şərait yaradan, daha da yüksək texniki qabiliyyəti olan və bu baxımdan da müvafiq zamana görə əvvəlkinə nisbətən daha çox və keyfiyyətli məhsul əldə etmək qabiliyyətinə malik olan texnoloji vasitələr nəzərdə tutulur. Həmçinin istifadəsində sadələşdirilmiş metodların üstünlük təşkil etdiyi texnoloji vasitələr də təkmil vasitələr hesab olunur***) əldə edilməsinə çalışırlar. Yəni əvvəlki texniki vasitələr **inkar olunur**, onların fəaliyyət xüsusiyyətləri və parametrləri inkar olunur və bazasında yenilərinin əldə eidlməsinə səy göstərilir. Deməli, inkişaf üçün düşüncə siqnalları yeni əksolunma siqnallarını yaradır. Bu baxımdan da qəbul etmək lazımdır ki, inkişaf mənəvi-maddi-material aləmin siqnallar mübadiləsindən meydana gəlir. (**Üçüncü qrafikdən** də abstraksiyanın dərk olunması mümkündür. Bax, qrafiklər bölməsi).

İnkişaf şüur-materiya vəhdətinin qarşılıqlı fəaliyyətinin nəticə təzahürüdür. Hər iki halda inkişaf elementlərin sistemli, yəni məqsədəmüvafiq qaydada, rasional əsaslarla düzülüşündən yaranan təzahürdür. Material-maddi aləmin inkişafı o təzahürdür, əlamətdir ki, burada artıq istifadəyə münasib edilən müəyyən elementlər əldə olunur (forma dəyişməsi yolu ilə və çevrilmələrlə, yəni yeni məzmun əmələ gətirməklə), əldə olunan elementlərin sistemli, yəni müəyyən istiqamətlər üzrə təqribi bərabərlik və bundan irəli gələn fərqlər

üzrə düzülməsi və işləməsi prosesləri yaşanır. Mövcud forma və proseslərin inkar olunması həmin forma və proseslərin yeni istiqamət və tərkiblərinin əmələ gəlməsini şərtləndirir. Buradan da forma və məzmundan ibarət **sistemlilik** yaranır. İnkişaf prosesləri sistemli xarakterə malik olduğundan həm mövcud bazanın dəyişməsinə xidmət edir, həm də mövcud baza üzərində yeni dəyişikliklərin meydana gəlməsinin əsaslarını formalaşdırır.

İnkişaf **proseslərin özünün (elementlərin hərəkətindən yaranan təzahür)** sistemli təsnifatında, yəni müəyyən istiqamətlər üzrə dərəcələnməsində də meydana çıxan təzahürdür. Bütün proseslərin şərti alt (baza) və üst (yuxarı) qatları (tərkib hissələri) bir qayda olaraq əlaqəli şəkildə mövcud olur, təzahür edilir. İnkişaf prosesləri şərti başlanğıc və şərti son arasında mücərrəd bir paneli yaradır. Bu paneldə dəyişiklik zamanla əks olunur, elə zamanın özünü yaradır. İnkişaf bu baxımdan elementlərin sistemli əsaslarla qarşılıqlı şərtlənməsindən meydana gələn çoxluq, bolluq əlamətidir. İnkişafın yaranmasında çevrilmələr, forma dəyişmələri mühüm rol oynayır. Onu da nəzərə almaq lazımdır ki, inkişaf insanların təbii xüsusiyyətlərindən irəli gələn və təbii proseslərin davamlı əsasları olan, lakin insanlar tərəfindən çox hallarda **süni** adlandırılan məqsədəmüvafiq proseslərin cəmidir. İnsanların əməli ilə meydana gələn təzahür (elementlər bolluğu) **subtəbiilikdir. Süni proseslər** də əslində insanların iradələrinə tabe olan və iradələrindən kənarda qalan proseslərin məcmusudur. Burada məqsədəmüvafiqlik də şərtidir və insanların həyata keçirdikləri proseslərin özündən yaranır və mövcud olan proseslərin yeni istiqamətləndirilməsindən meydana gəlir**. İnkişaf buna görə də inkar olunan proseslər cəmindən ibarətdir**. İnkişafın hər bir anı, yəni dəyişikliklərin trayektorik ardıcıllığı həm inkar olunur, həm də təsdiq olunur. Bundan da eyniliklər və paralelliklər, ziddiyyətlər və şaxələnmələr, o cümlədən sistemləşmə və strukturlaşma

prosesləri üzərə çıxır. **Deməli, inkişaf proseslərin sistemləşməsi və sistemləşmənin daha da mükəmməlləşməsi ilə xarakterizə olunan prosesdir. Mükəmməlləşmə özündə sadəliyi cəmləşdirir və sadəlikdən də mürəkkəblik meydana gəlir.** Bu sistemləşmə həm material aləmdə özünü göstərə bilir, həm də materiyanın nəticəsi olan şüurda əks olunur. Hər ikisi bir-birinin məkanını böyüdür. **(Abstraksiya üçün, -bax, qrafik-1).** Deməli, inkişaf iki baza istiqamətli mövcudluğun artması və bu istiqamətlərin bir-birinə təsir etməsi ilə yaranan vəhdətin təzahürüdür. Şüur artır, siqnalları çoxalır, qıcıqları artır. Təsirlə əmələ edilən (əməl üçün istiqamətlənən) siqnalları da genişlənir. **Deməli, əməl də genişlənir.** İnkişaf prosesləri insanları bir tərəfdən maraqlarının artırılmasına sövq edir, digər tərəfdən də maraqların artmasının qarşısını alır. Yəni normalara salır ki, bu normalar da mühafizəedici funksiyanı yerinə yetirir. İnkişaf elə bir prosesdir ki, burada materiya aləminin siqnalları şüura təsir edir, təsir məkanında emal olunur və yeni siqnallar hesabına yeni nəticələr əldə edilir. İnkişaf nəticələr arasında olan əlaqələr bütövünün təsvirdir, material və mənəvi aləmdə əksini tapmasıdır. **(Qeyd: nəticələr daima bir-birini əvəz edən olur. Hər bir hərəkətin dəyişməsi-davamediciliyi, elə nəticələrin ortaya çıxmasıdır. Nəticələr trayektoriyası da dərəcələnir. Bu, elə dəyişmənin təzahürünün dərəcələnməsidir. Bu dərəcələnmə xüsusi olaraq trayektoriyalarda (xəyali trayektoriyalar) öz əksini tapır. Hər bir hərəkətin başlanğıcı ondan əvvəlki hərəkətin sonu hesab olunur. Bu zaman əlamət dəyişə bilir, həm də forma dəyişikliyə məruz qala bilir. Trayektoriyada hərəkətin təzahür formasının dəyişməsi elə müvafiq elementin məkan dəyişməsi ilə də ola bilər. Yəni bu o deməkdir ki, eyni bir cism hərəkət trayektoriyasında mexaniki hərəkət edir. Bu hərəkət zamanı məkan dəyişir. Məkanın dəyişməsi məkan formasının dəyişməsi anlamına gətirib çıxarır. Deməli, formanın məkan dəyişməsi elə**

**zamanın meydana gəlməsinin əsaslarını şərtləndirir. Zaman əslində elə elementlərin dəyişməsinin ədədlə, ən kiçik an, saniyə, dəqiqə, saat, gün, sutka, ay, il və s. ilə hesablanmasıdır. İnkişafın zaman əsası hərəkətdə olan elementin nəticələrinin ədəd hesabı ilə çoxlu əsaslarla dəyişməsidir, yəni yerdəyişmənin, həmçinin yeni elementlərin əmələ gəlməsinin hesablanmasıdır. Günəş sistemində (daxili sistemdə) zamanın hesablanması əsasən Ayın və Yerin Günəş ətrafında təkrarlanan dövriyyə ilə (çevrə hərəkəti) hərəkəti ilə müəyyən olunursa, insan həyatının inkişafında, yəni insanın əl əməyinin nəticəsində bu, təbii elementlərə (Günəşə və Aya) soykənməklə yanaşı, həm də əldə olunan nəticələrə bağlı olur. Buradan da belə nəticə ortaya çıxır ki, insan kainatın davamedici zamanında (həm də buna makro zamansızlıq da demək olar) yeni zamanları özü üçün meydana gətirəndir. Deməli, kainatda zaman daha çox insana aid olandır, çünki onun şüuru daha da inkişaf etmişdir. Digər canlılar üçü də zaman onlara məxsus olan fərdi dövrüdür. Bu fikir -təbiət insanlar üçün yaradılıbdır- fikrini tamamlayır).** İnkişaf, bu baxımdan maddi-mənəvi aləmin əsas təsiredici iki mühüm tərəfidir. Bundan da reaksiyalar ortaya çıxır. **Hər iki təsir qeyri-müəyyənliyi müəyyənliyə** çevirir. Fikir material aləmin kəşfi ilə aydınlaşır. Deməli, inkişaf müəyyən proseslər və qeyri-müəyyən proseslər vəhdətindən ibarət olan şərti və mütləq bütövdür. Riyazi müstəvi üzrə bu bütövun şərti sol tərəfi qeyri-müəyyən, şərti sağ tərəfi isə müəyyəndir. Həmçinin şərti yuxarı tərəfi müəyyən, şərti aşağı tərəfi isə qeyri-müəyyəndir.

**İnkişaf** nisbi heçlikdən **(qeyd: içində nəisə olduğuna görə "heçlik" də mütləqdir, çünki hər şey həm də mütləqdir. Nisbilik dəyişəndə mütləqliyə çevrilir. Deməli, mütləq və nisbi şeylərin, düşüncələrin əsasını hərəkət, qüvvə və enerji təşkil edir. Mütləq-müəyyən və qeyri-müəyyən olur)** meydana gələn mütləq varlıqdır, mütləq şeylərin məcmusudur

və mütləq şeylərin obyektiv təzahürüdür. İnkişaf subyektiv mütləqliyin obyektiv mütləqliyə çevrilməsi prosesidir. Subyektlərin əməyinin məhsulu olan şeylər (əşyalar) reallıqda obyektivliyin məhsuludur. **Düşüncə varlığı** (mövcudluğu) və material aləmin varlığı inkişafın şərtləndiricisidir. İnkişaf həm material aləmdə mövcud olur, həm də düşüncələrdə yer alır. Düşüncələrin qeyri-müəyyənlikdən müəyyənliyə keçməsi və bu müəyyənliyin təcrübə ilə vəhdət təşkil etməsi (düşüncələrin təcrübələrdə yer alması) inkişafın reallaşmasının, real gerçəklikdə təzahür olunmasının əsaslarını meydana gətirir. Deməli, inkişaf həm inkar olunan düşüncə və reallıqdır, həm də bu inkardan yaranan, törəyən məhsuldur. İnkişaf prosesləri qeyri-müəyyən mövcudluğu müəyyən edir. **Bu baxımdan da şüur-materiya vəhdəti yaranır. Deməli, inkişaf şüur-materiya vəhdətindən sistemli qaydada zəncirvari olaraq, həm də şərtləndirici əsaslarla meydana gələn mövcudluqdur.** Bu mövcudluq daima artandır, genişlənəndir. Materiyanın çoxluğu siqnalları artırdığına görə inkişaf elə bu siqnalların artmasında özünü göstərir. Yəni material aləmin inkişafı mənəvi aləmin də inkişafını şərtləndirir.

Sahələr üzrə sistemli, ardıcıl düşünmə trayektoriyaları və şəbəkələri elə düşüncə inkişafıdır ki, bu da material aləmin obyektiv və subyektiv təzahüründən formalaşır. Mənəvi aləmin düşüncə formasının təkmilliyi həm də makrokosmosdan gələn siqnallar əsasında meydana gəlir. Bu, hissiyyatın artıqlığını (nisbi normadan çoxluğunu) meydana gətirir. Bundan da inkişafın nizamlanması prosesləri meydana gəlir. Məsələn, güclü alimlər, dövlət və hökumət rəhbərləri və tanınmış elmi-siyasi və ictimai xadimlərin əksəriyyəti, böyük sənətkarlar məhz güclü nizamın (həm daxilən, həm də ətrafla əlaqəli qaydada) təzahürü olaraq yetişirlər. Güclü nizam isə ardıcıl hərəkətlərdən (təlimlərdən) meydana gəlir. Ardıcıl və böyüyən, şaxələnən hərəkətlər nizamlama proseslərinin zənginləşməsini özündə əks etdirir və buna səbəb olur. Nizamlı şəxslərdə

hissiyyatın nisbətən çox olması müşahidə olunur. Çox güman ki, bu yüksək hissiyyat dərəcəsi də makrokosmosdan meydana gəlir.

İnkişafa getmək və inkişafı sürətləndirmək, bu baxımdan da gələcək zamanı daha da tez yaxınlaşdırmaq üçün əməyin və istirahətin mövcud zamanla hesablanmasında da dəyişiklik etmək olar. (Qeyd: sürətli və birtərəfli xaotik hərəkət, qeyri-tarazlı hərəkət heç də dinamik və tarazlı inkişafın yaranmasına böyük səbəb ola bilməz. Bu, o halda belə nəticə verər ki, birtərəfli hərəkətin nəticələri ondan asılı olan digər elementlər üçün də faydalı olsun). **Məsələn, inkişafa daha da stimul vermək və istirahətlə inkişaf arasında tarazlığı nisbətən yüksək səviyyədə təmin etmək məqsədilə, həmçinin müəyyən xidmətlərlə səmərəli təmin olunmaq üçün rasaional əsaslarla yeddi günlük həftə sistemindən imtina edərək, <u>səkkiz günlük iş və istirahət</u> rejiminə keçmək olar.**

**İnkişaf özündə kompleks dəyərləri və komponentləri əks etdirən bir mühitdir.** Burada hər bir komponent digəri üçün səbəb rolunu oynayır. Əgər səbəb sübutdursa, sübut da faktdırsa, onda, komponent bir fakt olaraq sübut rolunu oynayır.

Ümumiyyətlə, **inkişafa təsir göstərir:** <u>tarixi-coğrafi amillər; tarixi nailiyyətlər və dəyərlər</u> **(*bu, xalqın tarixən qazandığı maddi-mənəvi dəyərlərin cəmindən ibarətdir. Hər bir xalq tarixin ibrət dərsindən yetişir, özünü dərk edir. Özünüdərkin zaman əsası da inkişafdan ortaya çıxır. İnkişafın zərbələri də özünüdərkə stimul yaradır. Mübarizədə olan xalqlar daha tez şablonlardan azad olmağa can atırlar. Bu da sürətli inkişafın əsaslarını təşkil edir. Sürətli inkişaf elə bir mühitdir ki, bu görünüşdə şərti olaraq şablonlar proseslərdən kənarlaşdırılır və yeni şablonların üzə çıxmasına qədər rəvan sürət mövcud olur. Şablonlar isə hərəkət trayektoriyasında mövcud olan və çox istifadədə olan, həm də yeni tələblərə cavab verməyən, yaxud da yeni*

***tələblərin meydana gəlməsinin qarşısını alan elementlər və meyarlardır***); cəmiyyət və onun xüsusiyyətləri (***bu xüsusiyyətlər elə cəmiyyətin hərəkət mühitindən hiss olunur. Sivil və rasional cəmiyyətlərin ruhunda daima təzələnmələr hiss olunur***); dövlət və xalq vəhdətinin əsasları ***(xalqın dövlətə bağlı olması və onun strukturunu, bütöv məzmununu tamamlaması, eləcə də dövlətin xalqa xidmət etməsinin səviyyəsi)***; cəmiyyət və xalq vəhdətinin əsasları ***(dövlətdə xalqın öz cəmiyyətini hansı dəyərlərlə qurmasının əsasları)***; dövlət və onun xüsusiyyətləri ***(burada dövlətin dini və ya da dünyəvi-rasional əsaslarla qurulması nəzərdə tutulur)***; dövlət quruluşu və onun mental dəyərlərə uyğun olması amili ***(burada xalqların öz xarakterlərinə uyğun dövlət quruluşunda yaşamaları nəzərdə tutulur. Hakimiyyətin xalqı özünəməxsus obyektə çevirməsi də burada mühüm rol oynayır. Məsələn, şərq xalqlarının yalançı respublika quruluşlarını özlərinə şamil etmələri əslində onların inkişafına zərbə vurur. Bu, həm də onların mental dəyərləri ilə uyğunsuzluq təşkil edir. Şərq xalqlarına islahatçılığa əsaslanan monarxiya rejimləri xasdır);*** dövlətin ərazisi, coğrafi şəraiti, o cümlədən iqlim şəraiti, torpaq şəraiti ***(burada kənd təsərrüfatı üçün yararlı torpaq sahələrinin ümumi nisbətdə faizi və turizm imkanları nəzərdə tutulur)***; dövlətin hansı regionda mövcud olması ***(dövlətin inkişaf etmiş və ya da inkişaf etməkdə olan ölkələrin əhatəsində olması)***; resurslarla zənginliyi ***(burada təbii sərvətlərin bolluğu və maddi amillərin, məsələn, insan potensialının çoxluğu amilinin mövcudluğu nəzərdə tutulur)***; resurslardan istifadənin rasional əsasları ***(burada sistemli iqtisadiyyat və ərazi və regionlar üzrə tarazlı iqtisadiyyat sistemləri nəzərdə tutulur)***; mövcud vasitələrə kapital əsaslarla baxılması ***(mövcud vasitələrdən yeni vasitələrin alınması üçün həmin vasitələrin istifadəsində kapital dəyərlərinin formalaşdırılması)***; vasitələrə və predmetlərə (əşyalara) dəyər verilməsi ***(qazancların qiymətləndirilməsi və onun təkrar***

***kapital əsasına çevrilməsi)***; elementlər dövriyyəsinin faydalı nəticələr verə biləcək əsaslarla təşkil olunması ***(burada iqtisadiyyat strukturları arasında səmərəli əlaqələrin təşkil olunması nəzərdə tutulur)***; nəticələr arasında rasional əsaslı panelin yaradılması ***(burada bir və ya da kompleks əsaslı nəticələrdən yeni-yeni nəticələrin əldə edilməsinin əsasları nəzərdə tutulur)*** və s.

**Sülh** istəniləndir və inkişafı şərtləndirəndir, çünki nisbi sabit sürətli dəyişən vəziyyətdir. ***(Nisbi sabit sürət dedikdə, burada kəskin şəkildə dəyişməyən və mütləq və kəskin dəyişikliklərlə müşahidə edilməyən vəziyyətlər başa düşülür).*** Deməli, sülh sabit inkişaf vəziyyətinin başlanğıcıdır, həm də sabit inkişaf vəziyyətinin özüdür. Cəmiyyətin sabit inkişaf təzahürü rasional əsaslarla mövcud olduqda, yəni inkişafın sabit dinamikliyi təmin edildikdə sülh və sabitlik vəziyyətləri meydana gəlir. (Qeyd: məlumdur ki, sülh vəziyyətləri daha çox dinc şəraitdə yaşamaq, mülayim yaşamaq vəziyyətləridir. Hər hansı bir silahlı qarşıdurmanın əksi olan vəziyyətdir). Təbii ki, **müharibə inkişafı** və **sülh inkişafı** var. Burada da **hərbi döyüşlər dövrünün inkişafı** və **müharibənin şərtləndirdiyi qeyri-tarazlı inkişaf ümumilikdə** müharibə inkişafına aiddir. Müharibə inkişafı müəyyən məkanda, yəni dövlətdə və cəmiyyətdə quruculuq prosesinin sadəcə olaraq bir və ya da bir neçə tərəfi ola bilər. Məsələn, müharibə zamanı silah istehsalı arta bilər. Hərbi geyimlər istehsalı sürətlənə bilər. Digər tərəfdən isə əmək resurslarının çatışmazlığı, kadr potensialının itkiləri, sənaye sisteminin və ümumilikdə iqtisadiyyat sisteminin şərti natamamlığı qeyri-tarazlı inkişafı (birtərəfli inkişafı) yarada bilir. Birtərəfli inkişaf isə tarazlı istehsalın mövcudluğu demək ola bilməz. Bu, yalnız müəyyən məkanda olan sülh və sabitlikdən doğan bir vəziyyətdə ortaya çıxa bilər. Tarazlı istehsal üçün mövcud cəmiyyətin bütün müəyyən sahələrinin inkişafı labüd olur. Bu isə böyük resursların zəruriliyi məsələsini ortaya qoyur. Müharibə vəziyyəti isə

böhran vəziyyəti olduğundan resursların (maddi və material, burada həm də mənəvi) tarazlı əsaslarla təmin olunmasında problem yaradır. **Sülh inkişafı da iki mühüm istiqamətdə təmin oluna bilər: birincisi, sülh dövründə ardıcıl olaraq təmin edilən inkişaf vəziyyətləri, ikincisi isə sülhün yaratdığı, yəni sülhün başlanğıc şərt olduğu inkişaf vəziyyətləri.**

Sülhün rasional və sabit davamlılığı elə inkişafın nəticəsi olaraq təmin ediləndir. Deməli, sülh üçün insan əməyinin obyekti olan resursların əldə edilməsi lazım gəlir. İnkişaf sayəsində qeyri-müəyyənliyin müəyyənliyə çevrilməsi prosesləri yaşanır, lazımi tələbat məhsulları əldə olunur. Əldə edilmiş tələbat məhsulları da yeni tələbat məhsullarının əldə olunmasını təmin edir. **Bu anda inkişaf prosesləri dalğalanır**. Deməli, tələbatın tam sonu yoxdur və bu, inkişafın nisbi son həddinə bağlıdır. **Lap son hədd isə inkişafsızlıqdır, hərəkətsizlikdir, tıxanmadır. Deməli, inkişafın ifrat həddi elə inkişafsızlıqdır.** İnkişafın uzun müddəti üçün resurslar (istifadə olunmayan resurslar) lazımdır. Bununla yanaşı, məkan amili də xüsusi önəm kəsb edir. Məsələn, dünyada baş verən qloballaşma prosesləri inkişafı zaman-zaman öz nisbi sonuna çatdırır, çünki əhali artır, resurslar isə istifadə olunur. Əlavə təbii resursların artması isə təbii olaraq qeyri-mümkün hala çevrilir. İnkişafın ifrat sürəti təbbi tarazlığın ifrat pozulmasına gətirib çıxara biləcəkdir. Buna görə də çox sürətli inkişaf təhlükəlidir və inkişaf vəziyyətini pikə qaldırmaqla sona çatdıra bilər. Yəni hər şeyin təzədən başlanması zərurəti ortaya çıxa bilər. İnkişafın davamediciliyi xəyali piramidanın ucunda (burada yuxarıya doğru təkmilləşmədən söhbət gedir. Yuxarıya doğru təkmilləşmə isə texniki inkişafın şərti pik həddidir) inkişafsızlıqla, nisbi sonluluqla şərtlənə bilər.

**İnkişaf və sülh kateqoriyalardır.** Eləcə də bir-birini həm reallıqda, həm də ideallıqda şərtləndirəndir. Məlumdur ki, hər bir kateqoriya (məfhum və digər kateqoriya ilə vəhdətdə

anlayış olmaqla) özünün məzmununu ifadə edən sadə və mürəkkəb formalı və məzmunlu **tərifə** məxsusdur. Tərif bir kateqoriyanın digər kateqoriyalarla zəruri əlaqəsini meydana gətirir. Həm də bu əlaqədən yaranır. Kateqoriyaların vəhdəti anlayışların formalaşmasının əsaslarını təşkil edir. Tərif kateqoriyaların törəmə xassələrini (fikirlərdə və obyektə münasib olaraq əməllərdə, fəaliyyətdə, praktiki əməllərdə) formalaşdırır. Kateqoriyaların şərtlənməsi elə onların məzmunlarının formalaşmasının əsaslarını təşkil edir. **Tərif elə kateqoriyaların qarşılıqlı birləşməsindən meydana gələn məzmunu ifadə edir. Kateqoriyaların şərtləndircilik əsasında vəhdəti anlayışların meydana gəlməsinə səbəb olur.** Eləcə də kateqoriyaların vəhdəti sadə və mürəkkəb fikir məzmununu və müəyyən həcmli mətni ortaya çıxarır. **(Qeyd: ümumiyyətlə, heç bir kateqoriya tək halda məzmun verə bilməz. Kateqoriyaların vəhdəti düşüncə və nitqin vəhdətidir. Onun məzmunu digər kateqoriyalarla bağlayıcılığında meydana gəlir. Kateqoriyaların konseptual əsasları yaranır. Buradan belə bir məntiqi nəticə hasil olur ki, qavrayış özü elə (qavrama prosesləri) kateqoriyaların sadə birləşməsindən və ardıcıl birləşmədən ortaya çıxır. Yəni kateqoriyaların vəhdətindən (burada formal –sadə məntiq və dialektik mürəkkəb məntiq nəzərdə tutulur) elə təfəkkür formalaşır. Təfəkkür də öz məlumat sintezinə görə sadə və mürəkkəb məzmunlu olur. Mürəkkəb düşüncəli təfəkkür daha çox enerjili olur və siqnalları kəmiyyətcə daha çox qəbul edir).** Kateqoriyalar təfəkkürün istiqamətlər üzrə formalaşmasının əsaslarını meydana gətirmiş olur. Məsələn, zaman, məkan, şərait, imkan, gerçəklik, mahiyyət, forma və məzmun kimi kateqoriyalar **inkişafın** əsas istiqamətlərini formalaşdırır, inkişafın şərtləndirici tərkib ünsürünə çevrilir. Bu, həm mücərrəd təfəkkürdə mövcud olur, həm də obyektiv konkretliliyin və konkret mütləqliliyin əsasını təşkil edir. Burada kateqoriyalar müəyyənedici, tərkib

aşkarlayıcı rolu oynayır. İnkişaf burada digər kateqoriyaları istiqamətləndirmə funksiyasını yerinə yetirir. İnkişaf universal məzmunlu konkret kateqoriya olmaqla yanaşı, digər kateqoriyaların da istiqamətlənməsini, universallaşmasını şərtləndirir. İnkişaf həm nəticə, bu baxımdan yaranışın mahiyyətini əsaslandıran kateqoriya kimi əhəmiyyətə malik olur, həm də başlanğıc şərtləndirici funksiya daşıyır. İnkişaf **mütləq** və **nisbi**, **nisbi daimi** və **nisbi müvəqqəti** hərəkətlərin məcmusundan meydana gələn bütöv bir vahidə çevrilir. Burada qeyri-müəyyən mütləq olan şeylər müəyyən mütləq olan şeylərə çevrilir, yəni aşkarlanma prosesləri sürətlənir. Aşkarlanma prosesləri arasında baş verən davamedici proseslər sistemli ardıcıllığın əsaslarını meydana gətirmiş olur. Bu ardıcıl sistemli proseslər də özlüyündə inkişaf adlanan prosesli məzmuna malik ola kateqoriyanın meydana gəlməsini şərtləndirir. İnkişaf sülh üçün lazım olan təminedici resursların meydana gəlməsini şərtləndirir və inkişaf sayəsində ortaya çıxan resurslar sülhün yaranması üçün müəyyən bazanı yaradır. Stabil davam edən sülh əsasən stabil inkişaf proseslərinə bağlı olur və ondan asılı qalır. Stabil inkişaf isə resursların tarazlı qaydada istifadəsi proseslərindən meydana gəlir.

**Sülh** özü də sabit inkişaf kateqoriyasının təmin olunmasında böyük rol oynayır. **(Qeyd: <u>zaman anlayışı</u> nisbi və mütləqin mövcudluğunda, qeyri-müəyyənlik və müəyyənlikdə əks olunur. Zaman dəyişmələri və ardıcıllığı məhz nisbi və mütləqdə təzahür edilir, çünki nisbi və mütləq olanlar elə dəyişmələrdən meydana gəlir, təzahür olunur. Bu dəyişmələri də hərəkətlər yaradır. Nisbi hərəkət mütləq hərəkətə çevriləndə zaman sürətlənir. Zamanın qarşısını bir qədər almaq üçün mütləq hərəkəti nisbi hərəkətə çevirmək, yəni yavaşıtmaq mümkündür. Burada "+"-ın və "-"-ın bir-birnə çevrilmə nisbətləri və dəyişmələr elə müəyyən koordinatlarda nisbi və mütləq prinsipləri meydana gətirir. <u>Zaman mütləq və nisbi ilə xarakterizə</u>**

**<u>olunan dəyişmələrdə təzahür edir.</u> Sürətin azalması zamanın uzanmasını, sürətin artması isə zamanın qısalmasını müəyyən edir. <u>Zaman həm də məkan kateqoriyasında</u> əks olunur. Burada, -məkanda, müstəvidə,- koordinatlar mühüm rol oynayır. Bir koordinatla digər koordinat arasındakı məsafə əsasən nisbi və mütləq sürətdən, həmçinin yavaş və sürətli yerdəyişmələrdən meydana gəlir. Deməli, zaman məkanda olan sürətdən asılı olur. Hər bir cismin zamanı var. Hətta ən bərk cisimlərin də zamanı mövcuddur. Bu, daha çox bərk cisimlərin ətraf elementlərlə olan qarşılıqlı təsirindən və bərk cisimlərin tərkib dəyişmələrindən (forma və məzmun etibarilə) meydana gəlir. Deməli, zaman çevrilmələrlə xassələnən əlamət və təzahürdür, əks olunmadır.**

**İdeallığın da öz zamanı var. İdeallıq gələcək reallıqların əsasıdır. Bu baxımdan da hesab etmək olar ki, ideallqla reallığı cəmləşdirən sülhün də zamanı var və sülhün qorunub saxlanılması üçün enerji və enerjisizlik nisbəti də mövcud olmalıdır. Yəni orta mövqe götürülməlidir və taraz vəziyyətlər yaranmalıdır. Müəyyən məkan üzrə birtərəfli inkişaf enerjinin artmasına gətirib çıxara bilər ki, bu da onunla əlaqəli olan digər məkanla nisbətdə sülhün pozulmasına səbəb ola bilər. Bu baxımdan da bütün hərəkətlərdə nisbi və universal bərabərlik prinsipləri qorunub saxlanılmalıdır).**

Kateqoriya həm də məfhumların, fikirlərin şərtləndirici tərkibinin əsaslarını meydana gətirmiş olur. Əgər biz fəlsəfi kateqoriyaları (fəlsəfi məfhumları) təsnif etsək, onları bir-birini şərtləndirici vəhdətdə axtarsaq, səbəb və nəticə, nisbi və mütləq başlanğıc və nisbi və mütləq sonluqlarda müəyyən etsək, onda, belə nəticələrə gələ bilərik ki, inkişaf cəm halda, həm də universal və məxsusi hallarda **zərurət kateqoriyasıdır**, bu baxımdan məhz **zamanın zərurəti** (zamanda zəruri olaraq

ortaya çıxan) kateqoriyasıdır. **(Qeyd: zaman kateqoriyası da mövcudluq, hərəkət və enerji sayəsində meydana gələndir. Hər bir kateqoriya törədicidir (şərtləndirəndir) və törəyəndir (şərtlənəndir). Zaman kateqoriyası müəyyən müstəvidə elementin mövcud hərəkət trayektoriyasında meydana gəlmək və itirilməklə başlayandır).** Bu baxımdan da **inkişaf hədəf, məqsəd kateqoriyasıdır. İnkişaf təfəkkürdə mövcud və gələcək zaman arasında bağlayıcı mücərrəd bütöv bir paneldir.** İnkişafın "gizlənmiş" müstəvisi isə qeyri-müəyyənlikdir. Bu qeyri-müəyyənlik həm də **inkişafın gələcək müəyyənliyidir**. İnkişafın tərkibini yaradan çoxlu sayda kateqoriyalar da vardır. Məsələn, sülh özü inkişafı şərtləndirən bir kateqoriyadır. Sülh həmçinin inkişafla vəhdət kateqoriyasıdır və şərtləndirici qarşılıqlı kateqoriyalardır. Məsələn, sülh və sabitlik olmasa inkişaf olmaz- dedikdə, biz burada qarşılıqlığı görürük. Sülh özü də vəziyyəti xassələndirən və digər kateqoriyaların anlayış kimi məzmununu yaradan başlanğıc kateqoriyasıdır.

**Sülh haqqında düşüncələr.** Məlumdur ki, hər bir proses və prosesin tərkibini təşkil edən elementlər düşüncənin obyekti ola bilir. Belə qəbul etmək olar ki, düşüncənin özü də elə siqnallardan, elementar zərrəcik axınlarından ibarətdir. **(Qeyd: düşüncənin obyekti mücərrəd və konkret elementlərdən və proseslərdən ibarətdir. Düşüncənin funksiyası elə qeyri-müəyyənliyi müəyyən etməkdir. Düşüncənin ardıcıllığı da müəyyənliyi qeyri-müəyyənliyə çevirir. Düşüncə həmçinin müəyyən mütləq tərkiblə qeyri-müəyyən mütləq tərkib arasında əlaqəni və xassəni müəyyən etmək funksiyasını yerinə yetirir. Bu halda yarımbütövlər aşkar olunur, təfəkkürdə dərk olunur və nəticə etibarilə zəka tədricən işıqlanır. Düşüncə artdıqca zəka da nurlu olur. Deməli, faktlar, sübutlar biliklərdir, bunlar da qaranlıqları işıqlandırmaq üçündür. Yarımbütövlər düşüncənin**

**artmasına müvafiq olaraq öz sayını və məkanını artırır. Yəni aşkarlanmanın miqyası genişlənir. Bütövün daha yaxşı dərk olunması tərkibin də ondan da aydın şəkildə dərk olunmasına imkan yaradır. Çünki bütöv elə tərkiblərdən ibarət olur. Hər tərkibin funksiyası tək halda yox, bütöv tərkibində (sistem vahidində) daha yaxşı dərk oluna bilir. Çünki bütövün ümumi əlamətləri elə tərkibin daha geniş əlamətlərindən ibarətdir. Tərkib öz xassəsinin əsasını elə bütöv içərisində tamamlayır. Tərkibin tək özünü bütövsüz yaxşı dərk etmək mümkün deyil. Bu halda onun digər tərkib elementlərlə əlaqəsini ayırd etmək çətin olar. Tərkib element öz məkanında həm özündən, həm də ona bağlı olan əlaqədən ibarət olduğundan, bununla da digər məkanlara keçdiyindən, həmin elementi dərk etmək üçün məkanlar və elementlər əlaqəsini dərk etmək, əlaqələrin xassələrini aşkarlamaq lazım gəlir. <u>Bu baxımdan da hər bir element öz sistemində özünün əhatəli və geniş xassəsinə malik olur.</u> Buna görə elementi sistem daxilində dərk etmək onun geniş funksiyalarını aşkarlamaq deməkdir. Bu nöqteyi-nəzərdən də sülh kateqoriyasının dərk olunması əsasən ona bağlı olan və onu şərtləndirən digər kateqoriyalarla əlaqəli məzmunda daha da əhəmiyyətli və faydalı ola bilir. Sülhün məzmunu inkişafda və inkişafı şərtləndirən elementlərdə, yəni maddi resurslarda və mənəvi yüksəkliklərdə özünü təsdiq etmiş olur)**. Bu halda düşüncə onun xassəsini və əlamətlərini, o cümlədən forma və məzmununu, təyinatını və s. özünün başlıca vəzifə və məqsədinə çevirir. Sülh də bir vəziyyətdir və müəyyən elementləri müəyyən koordinatlarda bərabər əsaslarla öz ətrafında cəmləşdirir. **(Qeyd: düşüncənin dərəcələnməsi və əhatə etməsi məhz onun obyektinin əhatə dairəsini müəyyən edir. Düşüncənin obyektinin əhatə dairəsi elə düşüncənin özünün kəmiyyətini yaradır. Bu baxımdan da düşüncənin kəmiyyəti də dəyişə bilir. Yəni düşüncə öz**

**obyektinə münasibətdə öz kəmiyyətini, tərkibini dəyişə bilir, azalıb-artır). Sülh-** müəyyən müstəvidə xəyali və konkret olaraq müəyyən elementlərin müəyyən koordinatlar üzrə bərabər (burada tam və təqribi bərabərlik nəzərdə tutulur) şəkildə düzülüşünü təzahür etdirən vəziyyətdir. Sülh həm də sabitliyin və inkişafın davamediciliyinin əsaslarını müəyyən etmək və ona başlanğıc vermək üçündür. Onu da qəbul etmək olar ki, inkişaf həm də müharibə şəraitində meydana gələn bir vəziyyətə çevrilir. Lakin bu zaman qeyri-tarazlı inkişaf meydana gəlir. Qeyri-tarazlı inkişaf zamanı elementlər digər sistemlər üzrə düzülüşə malik olurlar. Bu an təbii ki, sabit vəziyyətdən (sabit və istənilən universal əsaslarla istənilən sistemdən) fərqlənir. Müharibə anında da bərabərlik olur, lakin bu bərabərlik heç də sülh bərabərliyini çox tərkibdə özündə ehtiva edə bilmir. Sülh ilə xassələnən və şərtlənən inkişaf çox hallarda davamlı və sabit olur. Davamlı inkişafın özü də sülhün qorunub saxlanılmasını təmin edir. **Davamlı inkişafın zamanı** sülhün davamediciliyi ilə eyni ola bilir. Bu baxımdan inkişafın qarşısının alınması və sürətinin zəifləməsi qeyri-sabitliyin başlanması ilə düz mütənasiblik təşkil edə bilir. Deməli, inkişaf sürətinin azalması sabitlik üçün lazım olan resursların əldə edilməsinin qarşısını alır. İnkişaf sürətinin azalması onu sabit davam edən sürət zamanı müşaiyət edən sülhün pozulmasına səbəb olur. İnkişafın artması da sülhün pozulmasına gətirib çıxara bilir. Deməli, sülh əslində nisbi yavaş sürətin təzahürüdür ki, bu da mülayim əsaslardan ortaya çıxır.

Sülhün uzun zamanı maraqların bağlılığından meydana gəlir. Bununla yanaşı, inkişafın sürət tempinə bağlı olur. İnkişaf bu baxımdan sülh ilə immanentlik, vəhdətlilik, sıx bağlılıq təşkil edir. Burada sülh dedikdə, daha çox cəmiyyətdə insanlar, müəyyən qruplar arasında yaşanan mehriban və səmimi münasibətlər vəziyyətləri nəzərdə tutulur. Bu da dincliyə, razılığa, sakitliyə, bunlardan irəli gələn sabitliyə bağlıdır.

Müharibələr etmək, əsəbi vəziyyətləri yaratmaq və emosiyaların əmələ tətbiqi (əsəbi vəziyyətlərdə hərəkətlər) də insan xarakterindədir. İnsanlar bu kimi hallarda mövcud olmuş vəziyyətləri korlayırlar. Müharibə zamanı insanların münasibətlərində də qeyri-tarazlıq yaranır. **Müharibə bir vəziyyət olaraq, sülh zamanı mövcud olmuş tarazlığın dəyişərək nisbi şəkildə qeyri-tarazlı vəziyyətlərə keçməsidir. Müharibələr anında əsasən cəmiyyətin və dövlətin siyasi sistemləri öz funksiyasını dəyişə bilirlər, yəni sistemin funksiyaları sabit vəziyyətdə olduğundan fərqli xarakter kəsb edir.** Bu baxımdan da müharibə və sülh əsasən bir-birinə keçən vəziyyətlərdir. Məlumdur ki, sülh müharibə vəziyyətinin əksidir. Sülh sabit və inkişaf edən cəmiyyətin əsaslarını yaradır. Sülh bir vəziyyətdir və görünüşdür, həmçinin hərəkət vəziyyətidir. Çünki hərəkət olmadan maraq və mənafe də təmin oluna bilməz. Hərəkət olmadan həyatın özünün də olması qeyri-mümkündür.

Sülhün qorunub saxlanılması üçün qeyri-müəyyənliyin müəyyənliyə çevrilməsi prosesləri yaşanır. Sülhün qorunub saxalanılmasında resursların əldə edilməsi böyük önəm kəsb edir. Sülh özü də müəyyən olunan, bu baxımdan qeyri-müəyyən olunanların aşkara çıxarılması ilə meydana gələndir. Sülhün uzun müddətliliyi də məhz resursların bərabər şəkildə əldə olunmasına və paylanmasına əsaslanır.

Sülhün əbədi olaraq qorunub saxlanılmasında əsas səbəb (uzun müddətli və davamlı motiv) resursların müəyyən məkanlarda maraqları olan subyektlər arasında ardıcıl qaydada tarazlı paylanmasıdır.

**İnkişaf və sülhün zamanı.** Sülh və inkişafın zamanı şərtləndirici əsaslara görə ardıcıllığa malikdir. Zaman dəyişən, yəni müstəvilərdən-müstəvilərə, koordinatlardan-koordinatlara keçən proseslərlə əlaqəlidir. Burada elementlərin dəyişməsi və məkanların dəyişməsi elə zamanın əsaslarını meydana gətirmiş

olur. Proseslər hərəkətlərdən meydana gələn konkretləşdirici və ümumiləşdirici məfhumdur. Proseslərin başlanğıcı və sonu, nisbi və mütləq koordinatlar arasında olan hərəkətin ədədlərlə hesablanması və hərəkətin həcminin (burada mücərrəd kütləsinin) çərçivələr həddində məkana olan nisbəti elə zamanla müəyyən olunur. Hərəkətin davamediciliyinin məsafəyə olan nisbəti zamanı əmələ gətirir. Müəyyən koordinatlar arasında davam etmiş bəlli məzmunlu hərəkətin (xəyali təsvir əsasında müəyyən olunan) zamanla nisbəti ilə hərəkətin həcmini (hərəkətin müəyyən çərçivələrdə cəm halda kütləsini) hesablamaq olar. Bu anda hər bir şərti nöqtədə hərəkətin kütləsini tapmaqla ümumi cəmini müəyyən etmək olar. Zaman əslində həm də hərəkətin kəmiyyətini (kütlə, həcm və s. ilə ifadə oluna bilən) müəyyən edən kriteriyalardan biridir. Hərəkət həm mexanikada konkret halda mövcud olur, həm də mücərrəd əsaslara söykənir. Yəni canlı aləmin, canlı strukturun daxili hərəkəti mücərrəd əsaslı hərəkətləri xassələndirir. Bu baxımdan da inkişafın və sülhün həm də mücərrəd zamanları mövcuddur. İnkişafın zamanı müəyyən başlanğıc və son arasında əldə edilmiş resursların kəmiyyəti ilə müəyyən oluna bilər. Məsələn, başlanğıcı bir il olub şərti sonu isə beş il olan dövrdə inkişafın kəmiyyəti onun həm zamanını mütləqləşdirir, həm də bu müvafiq zaman trayektoriyasında kəmiyyətini müəyyən edir. Deməli, nəticə etibarilə inkişafın mütləq və mücərrəd əsasları meydana gəlmiş olur.

İnkişafın zamanla müəyyən olunması və güclü inkişaf **gələcək zaman** anlayışını ortaya çıxarır. Gələcək zamanların bir-birini sürətlə əvəzləməsi isə inkişafın xəyali piramidal nöqtəsinə aparıb çıxara bilər. Bu baxımdan da inkişafın zamanının şərti ən yuxarı həddi elə zamansızlığa, yəni yeni başlanğıca aparıb çıxara bilər. Deməli, inkişaf müəyyən bir vahid müstəvi çərçivəsində hissə müstəvilərindən ibarət olan mücərrəd panellər çərçivəsində meydana gəlir. Bu mücərrəd panellər də əslində elementlərin tərkib hissələridir. İnkişafın

zamanı da təbii olaraq proseslərə müvafiq qaydada bölünə bilər. Burada konkret ümumi və xüsusu halların zamanı və universal və ümumi halların zamanı anlayışları meydana gəlmiş olur. İnkişafın zamanının başa çatması normalar və elementlərin məkan nisbəti ilə əlaqəlidir. Elementlərin məkan nisbəti elə hüdudları və normaları yaradır. İnkişaf öz hüdudlarından kənara çıxarsa (xəyali olaraq belə təsəvvür edək), onda, zamanı da tez yetişdirə bilər. Deməli, zamanın davamediciliyi elə hüdudlar və sərhədlərdən asılıdır. Məsələn, kainatdakı cisimlər də öz hüdudlarından (burada normalardan və hədlərdən) kənara çıxarlarsa özləri üçün zamanı dəyişə bilərlər, yəni özlərini məhv edə bilərlər, **nisbi zamansızlığa** düçar ola bilərlər. Buradan da belə nəticə hasil olur ki, **zaman həddi ilə məkan hüdudu düz mütənasibdir. Məkanın sərhədlərinin keçilməsi mövcud olan zamanın yeni elementlər hesabına və məkanlar hesabına dəyişməsidir. Zaman və məkan münasibətində norma əsas bağlayıcı, birləşdirici amil rolunu oynayır. Hərəkətlər sistemində formalaşmış sistemlərdən kənara çıxmaq həmin sistemin elementləri üçün yeni zamanları meydana gətirir. Deməli, zaman əslində sistemlə müəyyən olunan bir kriteriyadır. Sistemin dağılması zamanın dəyişməsidir, heçə enməsidir.**

İnkişafın sabit qaydada davam etməsi və inkişafın sabit əsasları **sülhün zamanını** sabit saxlayır. Sülhün və sabitliyin (cəmiyyətdə dincliyin və əmin-amanlığın) zamanı isə inkişafın sürətli zamanı ilə tərs mütənasibdir. Belə ki, inkişafın həddən artıq sürəti və digər məkanlarda olan uyğunsuzluqlar sülhün zamanını qısalda bilər. Hər bir halda sürətli hərəkət hərəkətdə olanın zamanını qısalda bilir. Sülhün zamanı inkişafın sabit zamanına bağlıdır. Sülhün ömrü bu baxımdan da tarazlı inkişafın əsaslarını yaradır.

**İnkar və inkişaf.** İnkar mütləq bir tələb və zərurət olmaqla təfəkkürün sistemliliyindən, bu baxımdan məntiqi uyğunluqlardan və dəqiqliklərdən meydana gəlir və sistemli

baxışların, biliklərin formalaşmasını təmin edir. İnkarlar mövcud faktların qeyri-müəyyənliyə çevrilməsi ilə xassələnir. Bununla yanaşı, inkarlar şaxələnməni, çoxlu faktların meydana gəlməsini təmin edir. Deməli, inkar yenilənmə proseslərinin əsasında dayanır və zərurəti əks etdirir. İnkaretmə sistemlərdə analogiyanın yaranmasına xidmət edir. Buna görə də yeni sistemlərin meydana gəlməsinin bazasında dayanır. İnkarlar müəyyənetmə proseslərinin zəncirliliyinə xidmət edir.

Təfəkkürdə məntiqi düşüncə ardıcıllığı müxtəlif sahələr və trayektoriyalar üzrə həm təsdiqdə, həm də inkarda öz əksini tapır. İnkarlar daha çox subyektiv olur. Lakin həqiqi olduqda obyektiv mahiyyəti özündə əks etdirir. Bu baxımdan da inkarlar elə obyektivliyə söykənir. Nəticə etibarilə inkarlar törəmə, artma, çoxalma funksiyalarını özündə əks etdirir. İnkarların (meydana gəlmiş yeni vasitələrin) özləri də inkar olunur. İnkarların inkar olunması daha çox baza əsaslı obyektivlikdən kənara çıxma hallarında baş verir. Belə hesab etmək olar ki, inkarların inkar olunması (*faktların yeniləri ilə artırılması və faktların inkar olunaraq yeni faktların ortaya çıxması*) iki mühüm istiqamətdə həyata keçirilir: **birincisi,** faktlar ardıcıllığının meydana gətirilməsi istiqaməti-bu, daha çox mövcud faktlara yeni faktların əlavə edilməsi ilə (şaxələndirilmə prosesləri) nəticələnir; **ikincisi,** mövcud faktların inkar edilməsi (rədd edilməsi), onun qəbul edilməməsi və əvəzində yeni faktların ortaya çıxması -bu isə daha çox müəyyənliyin (qeyri-obyektv müəyyənliyin) qeyri-müəyyənliyə çevrilməsi ilə nəticələnir. İkinci halda mövcud olan faktlar artıq qeyri-real və qeyri-məntiqi subyektiv olur. Bunu məntiqi-subyektivliyə çevirmək zərurəti ortaya çıxır. İkinci halda daha çox dəqiq və riyazi təfəkkür iştirak edir. Eyni zamanda təkmil məntiq qeyri-təkmil məntiqi üstələyir. Deməli, ikinci istiqamət sistemləşdirici model rolunda çıxış edir. Buna görə də belə qəbul etmək olar ki, sistemləşdirmə və təkmilləşdirmə (təkmilləşdirmə elə sistemləşdirmə deməkdir) əsasən inkişafın

şərti yuxarı mərhələsinə aparır. İnkarlar sayəsində məntiq güclənir və əvvəlki məntiq bir çox zəif olan ünsürlərdən təmizlənir. Sistem və struktur daxilində dəqiqlik, məntiqi ardıcıllıq ortaya çıxır. Sistem daha çox riyaziləşmiş və dəqiqləşmiş olur. İnkarlar faktların ortaya çıxarılmasını təmin edən dialoqlar, mübahisələr, müzakirələr zamanı daha mühüm rol oynayır.

Hər bir sistem müəyyən andan sonra inkar olunmağa möhtacdır. Çünki sistemlər fəaliyyət göstərdikcə köhnəlir və zəruri olaraq genişlənən proseslərin qarşısını alan ünsürlər meydana gəlir. Həmin ünsürlər də sistemdaxili məntiqsizliyi ortaya çıxarır. Hər bir strukturun məntiqi onda cəmləşmiş elementlərin xassələrindən və ardıcıllığından, bağlayıcılığından meydana gəlir. Sistemlərdə olan bağlayıcılıq və bundan irəli gələn məntiqi prinsiplər mühakimələrin real və inandırıcı, ziddiyyət təşkil etməyən mahiyyətindən meydana gəlir. Ümumiyyətlə, bir çox strukturlarda bəzən daxili məntiqsizlik olur. Bu məntiqsizlik həm sistemin daxilində meydana gəlir, həm də sistemə daxil olan elementlərin baza prinsipindən ortaya çıxır. Məsələn, hüquq normalarla ifadə olunan anlayışdır. Çünki insan özü elə nizama tabedir, nizamlı quruluşdur. Normadan (*nizamlamadan*) kənar hüquq yoxdur. Hüququn nizamlama mahiyyəti qanunvericilikdə öz əksini tapır. Bu baxımdan da qanunvericiliyin istənilən norması bir hüquqdur. Qanunvericilik vasitələrində qeyri-normativliyi qəbul etmək düzgün deyil. **(Qeyd**. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununda qanunvericiliyin tərkibini təşkil edən **hüquqi aktlar** *normativ, normativ xarakterli və qeyri-normativ* tərkiblərə ayrılır. **Normativ hüquqi aktlar** hamı üçün davranış qaydalarını əks etdirən, qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulan müəyyən formalı rəsmi sənəd kimi xarakterizə olunur. **Normativ xarakterli aktlar** məhdud subyektlər dairəsi üçün məcburi

davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənədlər kimi xassələnir, təsnif olunur. **Qeyri-normativ hüquqi aktlar** isə konkret (birdəfəlik) təşkilati, nəzarət və ya sərəncamverici tədbirlərin həyata keçirilməsi məqsədi ilə qəbul edilən və ya birdəfəlik tətbiq halları üçü nəzərdə tutulan hüquqi aktlara deyilir.[1]

Məlumdur ki, hər bir sistem və struktur təsnif olunmalıdır, elementlər, tərəflər tərkib və xassə baxımından bütöv tərkibində hissələrə ayrılmalıdır. Bu, sistemin rəngarənglik tələblərindən irəli gəlir. Təsnifatın özü elə eynilikləri, oxşarlıqları, uyğunluqları, paralellikləri, kəsişmələri və rəngarəngliklər müəyyən etməkdən və tərkibləri ayırmaqdan ibarətdir. Hər hansı bir hüquq sənədi də elə sistem (burada daha çox strukturlardan ibarət olan sistem) mahiyyətinə malikdir və tənzimetmə obyekti və subyekti baxımından ümumi və vahid bir strukturu özündə əks etdirir. Sənədlərdə təsnifat apararkən hər bir ifadəyə fikir verilməli (xüsusilə, konkret sənədlərdə, faktlarda) və ümumi standartlardan (qəbul edilmiş ümumi təfəkkür qaydalarından, düşüncə modelindən) kənara çıxılmamalıdır. Bu baxımdan mövcud sənəddə əksini tapan **"normativ xarakterli"** və **"qeyri-normativ"** təsnifedici və ayırıcı kriteriyalar inkar edilməlidir; çünki həmin ifadələr baza standart kriteriyasına ziddir. Yəni hüquqda, qanunvericilik sistemində normalar (qaydalar) və normativlik var, qeyri-normativlik isə yoxdur. Hüquq ümumilikdə insanların yaşayışına və fəaliyyətinə müvafiq olaraq universal və onun içərisində məxsusi (konkret) istiqamətlərdən ibarətdir. Məxsusi istiqamətlər də elə universallığa xidmət edir. Hüquq normadır, normalar sənədlərdə əksini tapır. Sənədlər (dövlət

[1] **Normativ-hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu. 21 dekabr 2010. "Azərbaycan" qəzetində dərc edilmişdir (17 fevral 2011-ci il; №37).**

qurumlarının və yerli özünüidarəetmə qurumlarının sənədləri) də qanunvericilik vasitələridir. Normadan kənarda hüquq olmadığından, qanunvericilik sənədi də ola bilməz. Azərbaycan dilinin izahlı lüğətində **"normativ" sözü [lat.normatio-qaydaya salma]- 1. Hər hansı bir işin görülməsi, icrası üçün əsas göstəricilər, normalar göstəricisi. 2. Hər hansı bir şey üçün norma müəyyənləşdirən, norma qoyan kimi başa düşülür**. Hüququn subyektlərə və obyektlərə münasibətdə obyektiv əksi elə normalarda ifadə olunur. Bu normalar da ayrı-ayrı sahələrin tənzimlənməsini həyata keçirir. Qanunvericilik sənədləri əsasən ayrı-ayrı sahələr üzrə ictimai münasibətləri tənzim edir. Belə bir prinsip formalaşır ki, tənzimetmə varsa, norma da var; çünki ölçüsüz tənzimetmə yoxdur. **Norma da kəmiyyətə, miqdara, saya, həddə əsaslanır.** Bu baxımdan da istənilən qanunvericilik sənədi normativdir; çünki norma və qaydalardan ibarətdir. Hüquqda, onun pozitiv mahiyyətində ümumən qeyri-normativlik, yəni normadan kənarda olma, normaya zidd olma ola bilməz. Hər hansı bir normaya ziddin özü elə başqa bir normadır. Qeyri-normativlik **(mövcud faktlara münasibətdə. Əslində isə qeyri-normativlik deyilən şey yoxdur; mövcud faktlara münasibətdə əks normativlik, paralel normativlik və s. var)** isə qeyri-qanunilikdir. Qeyri-qanunilik isə ya mövcud qanunlara olan ziddiyyətdir, ya da qanunlardakı (ümumilikdə qanunvericilikdə) boşluqlardır, yəni lazımi müəyyən sahələr və hallar üçün münasibətləri tənzim edən qanunvericilik sənədlərinin olmamasıdır. Burada əslində **"qeyri"** (*başqa, ayrı*) sözü tam inkar olunur. **"Qeyri"** sözü aşkarlama prosesində öz mahiyyətini itirir və konkret hallarda istinad və tətbiq üçün qalır. Deməli, "qeyri" sözü elə nisbi anlayışa çevrilir.

Müvafiq konstitusiya qanununa əsasən Azərbaycan Respublikası Prezidentinin sərəncamları (Nazirlər Kabinetinin sərəncamları, Milli Məclisin qərarları, vətəndaş vəziyyəti aktlarının dövlət qeydiyyatını həyata keçirən orqanların aktları

və s.) birdəfəlik akt olduğuna görə qeyri-normativ sənədlər siyahısına aid edilir.[1] Bu, düzgün təsnifat deyil. Məlumdur ki, hər bir sənədin mahiyyəti, onun təsnifatı və məzmun kriteriyası və bunlardan irəli gələrək ümumi adlanması həmin sənədin tənzimləmə normaları ilə müəyyən olunur. Yəni daxili məzmun (mətnin özü) bütöv sistemin (strukturun) adlanmasına səbəb olur. Məsələn, AR Əmək Məcəlləsi obyektə münasibətdə (burada subyektlər qanun üçün obyektə çevrilir) dəfələrlə təkrar olunan bir universal normativ –hüquqi aktdır. Bu sənədə əsasən işləyən şəxslərə iş yerlərindən norma şəkilində müəyyən günləri əhatə edən ödənişli məzuniyyətlər verilir. Burada bir norma var; çünki ölçü var. Bu sənəd mətnə görə normativ hüquqi akt adlanır. “Dədə Qorqud” dastanları əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2013-cü il tarixli Sərəncamında isə yazılır ki, “Dədə Qorqud” dastanları əsasında çoxseriyalı bədii televiziya filminin çəkilişi ilə bağlı ədəbi ssenarinin hazırlanması və təşkilati məsələlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ilkin olaraq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə 1,0 (bir) milyon manat ayrılsın. Burada da konkret norma (tənimləmə vahidi) var, normativlik mövcuddur. Belə halda bu sənədi qeyri-normativ adlandırmaq düzgün deyil. Həmin sənəd birdəfəlik tətbiq üçün qəbul edilən qərardır, normativ-hüquqi sənəddir**)**.

Hər bir prosesdə (hadisələrin ardıcıl zəncirliliyində-hadisə anlarının bir-birini əvəzləməsi trayektoriyasında) hərəkət olduğundan bir hadisə digərini həm təsdiq, həm də inkar edir. Təsdiq mövcudluğun qəbul edilməsidir, inkar isə mövcudluğun

---

**[1] Normativ-hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu. 21 dekabr 2010. “Azərbaycan” qəzetində dərc edilmişdir (17 fevral 2011-ci il; №37. Maddə-3.**

qəbul edilməməsidir və imtina hallarıdır. İnkar o halda yaranır ki, yeni faktlar -konkret (gözlə görünən və digər duyulan elementlər) və mücərrəd (məsələn, fikirlər) faktlar, başqa faktları zəruri edir (başqa faktlara ehtiyac duyulur), həm də mövcud faktlar üniversal obyektivliyə və qanunauyğunluğa, standartlara cavab vermir.

İnkarlar sistemdaxili və sistemlərarası ola bilir. Sistemdaxili inkarlar sistemlərdə həm də yeni istiqamətlərin meydana gəlməsinin əsasında dayanır və yeni istiqamələri ortaya çıxarır. Yeni istiqamətlər mövcud istiqamətləri qəbul etmir, ya onu yüksək səviyyədə rədd edir, ya da həmin istiqamətlərə qarışır və cərəyanın davamı olur. Deməli, inkar inkişafa xidmət edir. Məsələn, dövlətin qəbul etdiyi ardıcıl proqramlar və konsepsiyalar məhz bu kimi prosesləri özündə əks etdirir. Dövlət siyasətində olan inkarlar qanunvericiliyin təkmilləşməsində və proqramların ardıcıl qəbulunda və icrasında öz əksini tapır.

Sistemlərarası inkar prosesləri də sistemlər arasında olan yeni əlaqə formalarının meydana gəlməsinə söykənir. Bu əlaqələr həm də sistemlərin daxilində yeni inkişaf istiqamətlərinin yaranmasının əsasında dayanır. Sistemlərin daxili inkişaf zərurətləri sistemlər arasında olan əlaqələrin artan proseslər üzrə yaranmasına səbəb olur. Bu əlaqələrin güclənməsi sistemlər daxilində resursların artmasına yönəlir.

## İnkişaf –qeyri-müəyyənlikdən müəyyənliyə keçən proses kimi

Qeyri-müəyyənlik var, məlumdur ki, bu, müəyyənliyin **əksidir, şərti trayektoriyada, məkan və müstəvidə olan xəyali mənfidir. Yaxud da görünməyən "aşağı" hissədir. Qeyri-müəyyənliyin aşkarlanması üçün "müsbət" əlavə olunmalıdır. Deməli, enerji əslində zamanı qeyri-**

**müəyyənliyi müəyyənliyə keçirmə prosesidir. Düşüncə qeyri-müəyyənliyi aşkarlayıcı amildirsə, deməli, düşüncə pozitivdir. Qeyri-müəyyənlik trayektoriyasının şərti sıfır başlanğıcına, koordinatına yaxınlaşması onun aşkarlanmasının əsaslarını təşkil edir. Qeyri-müəyyənlik beyinin axtarış obyektidir və mücərrədliyin konkretliyə keçməsi üçün başlanğıcdır. Qeyri-müəyyənlik sonu olmayan mücərrəd bir müstəvidir. Axtarış isə inkişafın, yəni çoxlu sayda şeylərin (vasitələrin) meydana gəlməsinin əsaslarını təşkil edir.** Qeyri-müəyyənlik tam yox olmayan varlıqdır, yəni aşkar olunmayan mütləqdir. Bu baxımdan da həm də nisbidir. **Deməli, yoxluq əslində yoxdur. Hər şey var.** Nisbinin mütləq olması (fakta çevrilməsi) mümkündür. Onda mənfi üzərinə müsbəti əlavə etmək, qaranlıq üzərinə işıq salmaq lazımdır. Bu anda qeyri-müəyyənliklər müəyyənliklərə çevrilə bilir. Burada artıq müəyyənliyin şaxələndirilməsi zərurəti mühüm rol oynayır. Aşkarda olan fakt faktları meydana gətirir. Faktlar faktları şərtləndirir, təsir edir, bu baxımdan da fakt (sübut) digər faktın "işıqlanması"na təsir edir. (Məsələn, kainatın axtarılmasında tərkib əlamətlər olaraq Günəş sisteminin və ulduzların bir fakt kimi mövcudluğu xüsusi əhəmiyyət kəsb etməkdədir). Buradan da sübutların aşkarlanması meydana gəlir.

Sübutlar qeyri-müəyyən mütləq və müəyyən mütləq olmaqla, iki mhüm baza istiqamətə ayrılır. **(Qeyd: hər bir qeyri-müəyyən mütləq sübutun tərkibində mütləq müəyyən olanın izi vardır. Yəni əslində insanların aşkar elədikləri şeylərin (obyektlərin) hələ aşkara çıxara bilmədikləri şeylər içərisində izləri mövcuddur. Deməli, aşkarlıqlar və qeyri-aşkarlıqlar vəhdətdədir. Buna görə də hesab etmək olar ki, insanlar üçün qaranlıqda olan çox şeylərin bir işıq ucu mövcuddur və bu işıq ucu mütləqdir).** Kompleks sübutlar ortaya çıxır. Sübutların çoxluğu elə müəyyən trayektoriyalar üzrə şaxələnmənin əsaslarını formalaşdırır. Sübutların

axtarılması və müəyyən edilməsi müəyyən olan sübutların aşkarlanmasında şərtləndirici faktların sayını çoxaldır.

Bir çox hallarda sübutlar (mütləq aşkar sübutlar) qeyri-müəyyən sübutlara çevrilir. Bu, əsasən inkar olunma zamanı meydana gəlir. Faktlar üzərində düşüncələrin artması elə faktların törənməsi üçün təcrübənin reallaşmasının əsaslarını təşkil edir. İnkişaf düşüncə və əməlin (nəzəriyyə və təcrübənin) vəhdətindən yaranan bir prosesə çevrilir. Düşüncələrin faktlar üzərində artması, çoxlu sayda faktların yeni düşüncələri əmələ gətirməsi elementlərin yeni xassələrinin kəşf olunması zərurətini meydana gətirir. Kəşf prosesləri elə qeyri-müəyyən olunan şeylərin müəyyənliklə əvəz olunmasından ibarətdir. İxtira isə aşkarlananlardan yeni forma və məzmunun üzərə çıxarılmasıdır. Yeni faktlar kimyəvi çevrilmələrin əsasını formalaşdırır. Yeni faktlar sayəsində forma və məzmun dəyişmələri meydana gəlmiş olur. Bundan da inkişaf elementlərinin artması prosesləri yaşanır, yeni elementlər yeni forma və məzmunları yaradır. Deməli, inkişaf məkan, forma və məzmun çoxalması ilə xassələnən bir prosesdir. Məzmun dəyişmələrinin artması əslində formaların çoxalmasıdır. Deməli, inkişaf daha çox məzmun dəyişməsi ilə xarakterizə olunan prosesdir. İnkişaf anında eyniliklər (nisbi eyniliklər), yəni oxşarlıqlar, paralelliklər və kəsişmələr çoxalır.

Qeyri-müəyyənliyin müəyyənliyə çevrilməsi prosesləri inkişaf dalğalarının meydana gəlməsinin əsaslarını yaratmış olur. Baza müəyyən elementlər –inkişafın fundamental prinsipləri qeyri-müəyyənliyin müəyyənliyə çevrilməsi zamanı daha da inkişaf edir və elementlərin sayı çoxaldılır. Elementlərin sayının çoxalması da öz növbəsində təsdiq və inkar xüsusiyyətlərini meydana gətirir. İnkarın mərhələli forması inkişafın elə mərhələli formasını meydana gətirmiş olur. İnkişaf daima yeniləşən bir prosesə çevrilir. Yeni dalğalar inkişafın fundamental prinsiplərinin təzələnməsinin əsaslarını formalaşdırmış olur. Əgər baza elementlər mütləqdirsə, onda,

inkişafın baza trayektoriyası da mütləq olmalıdır. Bu mütləqlik sübutların və faktların sayını çoxaltmaqda böyük rol oynayır. Çoxlu sayda müəyyən mütləqliyin aşkar olunması elə inkişafın əsaslarını meydana gətirmiş olur. İnkişafın baza trayektoriyasını üst element axını yeniləşdirə bilir. Bu zaman bazanın mütləq elementlərinin bir qismi qeyri-müəyyənliyə çevrilə bilir. Buradan da belə nəticələrə gəlmək olur ki, baza elementlərin təzələnməsi inkişafın yeni-yeni dalğalarının əmələ gəlməsini şərtləndirir.

Müəyyənlik mütləqdirsə, onda, qeyri-müəyyənlik qeyri-müəyyən olunan varlıqdır, qeyri-müəyyən olunan mütləqdir. **Deməli, qeyri-müəyyənlik də aşkar olunmayan mütləqdir.** Qeyri-müəyyənlik var, lakin aşkar olunmayan mütləqdir. Mütləqlik də **müsbət** və **mənfidir. (Yəni enerjinin çox hissəsinin arxasınca az hissəsi meydana gələ bilir).** Pozitivlik və qeyri-pozitivlikdir və bunlar arasında olan sahədir. Deməli, müəyyən müstəvi müəyyən tam varlıqdır. **(Abstraksiyanın dərk olunması üçün-bax, qrafik-2).** Onun aşkar olunmayan və aşkar olunan tərəfləri var və onlar arasında nisbi sərhədlər (“sıfır başlanğıclar”) mövcuddur. Qeyri-müəyyənlik qeyri-müəyyən təsdiqdir. **Həm də inkar olunan neqativdir.** Çünki hələ müəyyən deyil, aşkar olunmayıb. Aşkar olunduqdan sonra da inkar və təsdiqin obyekti kimi xüsusi önəm kəsb edir. Aşkarlıq burada subyektiv və obyektiv yanaşılan obyekt rolunu oynayır. Buradan da belə nəticə hasil olur ki, bütün subyektivliklər zaman-zaman obyektivliyə çevrilə bilir. Obyektivlik həm çoxlarının qəbul etdiyi elementdir, həm də subyektivliyin say çoxluğudur. Hər bir subyektivlik obyektivliyə o halda çevrilə bilir ki, subyektivliyin predmeti baza etibarilə bir çox hallarda obyektivliyə söykənir. Obyektivliyin, xüsusilə, qeyri-müəyyən obyektivliyin subyektlər tərəfindən nisbi tam və ya da şərti mütləq formada müəyyən olunması elə həmin obyektin obyektivliyinin aşkar olunması mənasını verir. Bu, o deməkdir ki, ümumi analitik

təfəkkürə malik olan şəxslərin elmi izahları (faktlara və hipotezlərə söykənən izahları) zaman-zaman obyektiv gerçəkliyin əsasına çevrilir. **(Qeyd: sübutların və ya da hipotezaların hansının mütləq ilk əsas olması haqqında qəti fikir bildirmək olmaz. Bunlar əslində qeyri-müəyyənlik və müəyyənlik olmaqla bir-birinin içərisindədirlər. Sistemliliyə, vahidliyə tabedirlər).** Məsələn, bir çox dini təlimlərin, dini kitabların, dini kəlamların obyektivliyə çevrilməsi də bu kimi prosesləri özündə əks etdirmişdir. Dinlərin qəbulu uzun zamanın prosesi olmuşdur və bu gün də bu proses davam etməkdədir. Bununla yanaşı, belə qəbul etmək olar ki, bir şəxsin kəşfi bir müddət başqaları tərəfindən qəbul olunmayır. Lakin zaman keçdikə bu kəşf özünə ovbyektivlik (tərəfdaşlıq, inandırıcılıq) əld edir. Bununla da subyektivlik obyektivliyə çevrilə bilir.

İnkişaf üçün nəzəri ideyalar və yaxud da praktiki məsələlər də bir müddət subyektivliyini saxlaya bilir. Sonradan bu, obyektivliyə çevrilmək imkanları əldə edir. **İnkişafın qeyri-müəyyən mütləq subyektivliyi sonradan müəyyən mütləq obyektivliyə çevrilə bilir. Bu baxımdan inkişaf sayəsində nəzəri və praktiki biliklərin əldə edilməsi daima zəruri amil kəsb edir. Biliklərin qazanılması trayektoriyası, ardıcıl və sistemli biliklər və bu biliklərin tətbiqi, əməldə həyata keçirilməsi inkişafın mərhələləşməsinin əsaslarını təşkil edir.**

Hər bir proses öz ümumiləşdirici kateqoriyasına (tərkib kateqoriyalarından ibarət) məxsusdur. Bu baxımdan da inkişaf bir kateqoriyadır. Özündə qeyri-müəyyənliyi və müəyyənliyi cəmləşdirir. Aşkar olunan şeylər, proseslər müəyyənliyin artmasına xidmət edir. Deməli, qeyri-müəyyənlik əslində müəyyənliyin bir tərəfidir. Onun üzərə çıxarılması müəyyənliyin zənginləşməsinə səbəb olur. Deməli, inkişaf çox zəngin olan və ucsuz -bucaqsız daxilə doğru hərəkət edən (sistemin və məkanın horizontal və şaquli əsasları üzərində

formalaşan) bir prosesdir. İnkişaf daxilən zənginləşən bir prosesdir.

İnkişaf prosesləri təmin edən əsasdır və ümumiləşdirici təzahürdür. Bu baxımdan həm də mütləq bir müəyyənedici kateqoriyadır. İnkişaf sürətli materiyalarda və şüurda yerdəyişmələrin təzahürüdür. Yerdəyişmələr hərəkətdir, elementlərin məkan dəyişmələridir, müstəvidə hərəkətləridir, bu baxımdan da enerjidir, enerji yaradandır. **Deməli, inkişaf əslində enerjidir, potensialdır, eyni zamanda enerji yaranmasına səbəb verəndir.** Burada enerji maddi aləmin potensialından meydana gəlir. İnkişaf müstəvisi isə bütövdur, eyni zamanda tərkib hissələrdən və tərkib hissələrin fərdi xassəsindən ibarətdir.

İnkişaf artan bir prosesdir. Bu proses zamanı qeyri-müəyyən mütləq olanlar müəyyən mütləq olanlar kimi aşkar olunur. Qeyri-müəyyənliyin müəyyənliyə çevrilməsi isə ardıcıl və məntiqi hərəkətlər sayəsində əldə olunur. Qeyri-müəyyənlik əslində müəyyənliyin həm də inkar ehtiyatıdır. Belə ki, qeyri-müəyyənliklər aşkar olunduqca, prosesin özü qeyri-müəyyənlikləri inkar edə bilir, yəni qeyri-müəyyənlikləri müəyyən edir. İnkar da inkişafın şərtləndirici əsasına çevrilir. İnkar prosesləri həm də müəyyənlikdən qeyri-müəyyənliyə doğru aşkar olunan bir prosesdir. Qeyri-müəyyənliyin axtarılması, qeyri-müəyyən mütləqliyin üzərə çıxarılması əsasən müəyyənlik üzərində olan ziddiyyətlərdən (obyektivlik və subyektiv olanlarla razılaşmamalardan) meydana gəlir. Ziddiyyətlər baza etibarilə əksliklərin vəhdətini yaradır. Müəyyən mütləq üzərində rasional, normativ və imperativ təsir qeyri-müəyyən mütləqliyin aşkar olunmasını üzərə çıxarır. Üzərə çıxarma da mövcud olan mütləqliyin qeyri-müəyyən olunmasına səbəb olur, nisbi vəziyyətlərə keçmənin əsaslarını meydana gətirmiş olur. Deməli, qeyri-müəyyənlikdən mütləq müəyyənliyə keçid müəyyənliyin nisbiləşməsini meydana gətirir. **Lakin tam yox olmaq prosesi (hadisələri) baş**

**vermir, sadəcə olaraq yeni törəmələr ortaya çıxır.** Baza olduğu şəkildə qalır. Buradan da belə bir məntiqi nəticəyə gəlmək olur ki, inkişafın sürətli prosesi rasional, normativ və liberal-imperativ əsaslarla ortaya çıxır. **(Qeyd: düşüncə, təfəkkür təkrarlanmağa qadirdir. Bu baxımdan da tarixləşən proseslər bəzən təkrar olaraq yenidən üzə çıxır).** İnkişaf bir nəticə prosesi kimi baza üzərinə yeni dalğaların gəlməsi ilə baş verir. (Bu fikir əvvəlcə də bildirilib). Dalğalar çoxluğu inkişafın təbəqələnməsində mühüm rol oynayır. Üst dalğalar (gələn dalğalar) alt dalğaların bazaya çevrilməsini şərtləndirir. Baza dalğalardan da üst dalğalara keçidlər olur. Deməli, inkişaf əslində dalğalı vəziyyətlərdən meydana gələn əsasdır. İnkişaf sayəsində meydana gələn elementlərə olan yeni təsirlər yeni dalğaların əmələ gəlməsində böyük rol oynayır.

Yoxluğun şərti trayektoriya üzrə mənfi sonu yoxdur (“0”-dan sola doğru). “O”-dan sağa isə aşkarlıqdır. Burada şərti mənfilikdən başlayan (aşkar olunan) (şərti mənfilik isə ya reallıq üzərində olub, təcrübədən meydana gəlir, ya da düşüncələrdə ideallıq olaraq formalaşır, düşüncə mənbəyinə bağlı olur) inkişaf elementi “0”-dan sağa doğru inkişafın tərkibinə çevrilir. Onun sonu isə çevrilmə olur və digər elementin başlanğıcı hesab olunur. Onda, belə nəticələrə gəlmək olur ki, inkişafın müsbət trayektoriyası qolu da şərtidir və burada hər zaman yeni sıfır ola bilir. **(Mücərrədliyin real təsviri üçün-bax, qrafik-2).** Yəni hər şeyi təzədən (mütləq və nisbi təzələrdən) başlamaq olur. Buna inkar demək olur. İnkar başlanğıcı da şərtidir və zəruri olan məkanlarda inkar sıfırı (mövcud olan vəziyyətin şərti olaraq sona yetməsi) meydana gəlir. İnkişafda olan elementlərin əlamətlərinin özü, yəni müəyyən olunan əlamətlər qeyri-müəyyənlikdə olan inkişaf elementlərini üzərə çıxarır. Deməli, inkişaf müəyyənlik və qeyri-müəyyənlikdən ibarət olan vahid bir “ucsuz-bucaqsız”, sonu olmayan bütövdur, çünki insan maraqlarının da son həddi

yoxdur. Son hədd elə hədsizlikdir ki, bu da sistemlərdən çox kənara çıxmadır.

Şüur-materiya vəhdəti elə inkişaf nəticəsində şüurun mücərrədliyini materiyanın reallığı üzərində təsvir edir. Fikir materiya üzərində reallığa çevrilir.

## İnkişafın vertikal (şaquli, dik) və horizontal (üfqi) modeli: məkan, resurs və əhali nisbətində

Hər bir cəmiyyətdə əhali və məkan amili, eləcə də material resurslar amili və bu amillərin qarşılıqlı vəhdəti həmin cəmiyyətin və dövlətin inkişaf əsaslarını müəyyən edir. İnkişaf elə bir prinsipdir ki, burada **kifayət etmək məsələsi** xüsusi önəm kəsb edir. Bu vəhdətin hərəkətlə ifadəsi təbii ki, inkişafın və yuxarıya doğru hərəkətlərin əsasını aşkarlayır. Əhalinin və resursların (material resursların, həmçinin maddi resursların-burada istehsal və istehlakda iştirak edən insanlar, məhsuldar qüvvələr və tələbləri (ehtiyacları) olanlar, təklifləri müəyyən edənlər və hazırlayanlar nəzərdə tutulur) məkana olan qeyri-mütləq və mütləq, eləcə də şərti və təqribi nisbəti (burada təqribi mütənasiblik, uyğunluq, bərabərlik nəzərdə tutulur) inkişafı şərtləndirən vəziyyətiləri müəyyən edir.

Dünyanın inkişafı, xüsusilə tarazlı inkişafı bir məsuliyyət olaraq, həm fərdi qaydada hər bir dövləti düşündürür, həm də kollektiv olaraq bütün dünya ictimaiyyətinin diqqətini cəlb edir. Bütün sivil dövlətlər hal-hazırda inkişaf proseslərinə cəlb olunubdur. Başlıca məqsəd dünya iqtisadi böhranının acı nəticələrini aradan qaldırmaqdır. **(2008-ci ilin dünya iqtisadi böhranından bu yana dünya iqtisadiyyatı sistemində müəyyən geriləmələr yaşanmaqdadır. Hələ 2012-ci ilin məlumatına əsasən, İtaliya iqtisadiyyatı son on ildə 20 faiz geriləyib. İtaliya Milli İqtisadiyyat və Əmək Şurasının statistikasına görə bu geriləmə digər Avropa ölkələrindən**

**daha da sürətli olub. Sənayedə məhsuldarlıq və istehsalat həcmi avrozonanın aparıcı ölkələri ilə müqayisədə çox aşağı olubdur. İtaliya bəzi göstəricilərinə görə hətta İspaniyadan da geri qalıb).**[1]

**2012-ci ilin ikinci rübünün statistikasına əsasən, İsveç iqtisadiyyatında geriləmələr mövcud olub. Məsələn, adi bir faktı qeyd etmək olar ki, 2012-ci ilin ikinci rübündə birinci rübünə nisbətən ixracatda azalma 3,2 faiz olmuşdu.**[2]

**Bununla yanaşı, Beynəlxalq Valyuta Fondunun direktoru Kristin Laqard 2013-cü ilin yanvar ayının başlanğıcında Malavidə çıxışı zamanı bildirirdi ki, Avropa İqtisadi zonası və ABŞ iqtisadiyyatında qeyri-sağlamlıq yaşanmaqdadır və geriləmələri bütün dünyaya təsir edəcəkdir.**[3] Avropada son dövrlərdə, yəni 2013-cü ildə də iqtisadi artım səviyyəsinin aşağı olduğu qeyd olunmaqdadır. Bu baxımdan 2013-cü ilin noyabr ayının məlumatına əsasən, beynəlxalq kredit dərəcələndirmə agentliyi olan "Standart and Poors" (S&P) Fransanın kredit dərəcəsini "AA+" dan "AA"-ya endirib. Buna səbəb Fransa hökumətinin vergi islahatlarının, məhsul, xidmət və məşğulluq bazarları ilə yanaşı, ölkənin orta inkişaf hədəflərini də əhəmiyyətli dərəcədə yüksəltməyəcəyi qeyd olunub.[4] Bu, həm ümumdünya üzrə makroiqtisadiyyatdan, yəni böyük potensialın yaratdığı enerjidən, makrososial strukturdan, eləcə də makrovahidin tərkibi olan mikrovahidlərdən, mikropotensialdan meydana gəlir. **Buradan da belə nəticələrə gəlmək olur ki, ayrı-ayrı dövlətlərin inkişafı üçün mütləq şəkildə makrovahid birliyin tərkibi olmaq zəruridir.** Makrovahid struktur böyük enerji

---

[1] **Nərmin Nəsirli. http://sia/az/ru/news/economy/314108/ 28.09.2012.**

[2] **İsveç iqtisadiyyatında geriləmələr qeydə alınıb. http://www.aztv/az/readnews.php?lang=az&id=10833**

[3] **Laqard: ABŞ iqtisadiyyatında qeyri-sabit vəziyyət davam edir. 06.01.2013. http://anspress/com/index.php?a=2&Ing=az&nid=182739**

[4] **S&P Fransanın kredit dərəcəsini endirdi. 09.11.2013. www.hafta-ichi.az/news.php?id=104993.**

mənbəyidir ki, bu enerji mənbəyindən mikrovahidlər yararlana bilirlər. Məsələn, dövlətlər xarici siyasətə ona görə qoşulurlar ki, öz daxili tələbatlarını ödəmək üçün lazımi resursları kənardan əldə etsinlər. **(Qeyd: resurslar mübadiləsi zəruridir və bu münasibətlərin və əlaqələrin sistemləşməsi üçün vasitə kimi əhəmiyyət kəsb edir).** Təbii ki, makrovahid də mikrovahidlərin birləşməsidir. Bu gün birləşmiş Avropa İttifaqının iqtisadiyyatı bu iqtisadi region üzrə vahid valyuta məkanının yaranmasını şərtləndiribdir. Bu baxımdan da mikrovahidlərin inkişafı elə makrovahidin özünü inkişaf etdirir. Mikrovahidin tələbatı, eləcə də mikrovahidin əldə etdiyi resurslar makrovahidin tərkib hissəsinə çevrilir. Bu amillər sistemdaxili (ümumi sistem, bütöv sistem nəzərdə tutulur) şərtləndiriciliyi meydana gətirir. Zərurət və tələbat ***(tələbatdan zaman-zaman, yəni zaman ardıcıllığı ilə doğan tələbat. Tələbat elə zərurətdir. Zərurət tələbatın ödənilməsini şərtləndirən amildir)*** mikrovahidləri və makrovahidi daima qarşılıqlı sürətli hərəkət vəziyyətində saxlayır. Buradan da belə bir nəticə hasil olur ki, sürətin nəticəsi və məzmunu olan inkişafın mütləq son həddi yoxdur. Onun mütləq son həddi, - belə hesab etmək olar ki,-dünyanın çox geniş həcmdə elementlərlə dolması ilə əlaqəlidir. Buradan da belə nəticə hasil olur ki, son həddə çatan (bizim təsəvvür etdiyimiz hədd) inkişafın nəticəsi daxili partlayışdır, struktutru dağıtmadır. Çox hərəkət elementlərin məkanını radikal (maksimal) ölçüdə dəyişdirə bilər. Burada normaların da sərhədlənməsi, hüdudlanması məsələləri meydana gəlir. Bu baxımdan da bir çox hallarda inkişafı ləngitmək olar. Bu da bir qədər ağlabatn deyil, çünki maraqların böyüməsi, böyük maraq nümayiş etdirən dövlətlərin mövcudluğu bu sürəti daha da artıra bilər. Yəni maraqların meydana gətirmiş olduğu rəqabət istənilən halda sürətin ümumi halda artmasına səbəb olacaqdır. Bəzi konkret məsələlərdə isə sürət zəifləyə bilər. Çünki sürət zamanı bütün elementlər şərti və xəyali bir axın üzrə mövcud olan

elementlərin hamısını eyni sürətdə apara bilmir. Bu baxımdan da inkişafı təmin edən qüvvə ümumqüvvə və ümumpotensial içərisində təsnifat oluna bilir. Yəni dərəcəsi yaranır ki, bu dərəcə də sürətdən və sürət vəziyyətində olan elementlərin çəkisindən asılı olur. Sürət vəziyyətində olan elementlər o halda sürəti artırırlar ki, hərəkətdə olan resursların sayı çox olsun. **(Qeyd: bu, bütün elementlərə şamil oluna bilmir. Enerji fərqi fərqli hərəkətdə olan elementləri meydana gətirir. Bu da özlüyündə sürət fərqini yaradır. Tərkibi müxtəlif elementlərdən ibarət olmayan sistem ola bilməz).** Bu halda böyük enerji yaranır. İnkişaf sürətinin yuxarı həddi nəticədə böyük enerjini yarada biləcək ki, bu da daxildən partlayışa gətirib çıxara biləcəkdir.

İnkişafın vertikal və horizontal əsası və məkan amili dedikdə, burada əsasən resursların əhaliyə və məkana olan nisbəti, uyğunluğu, bərabərliyi (tələbatı ödəmək baxımından bərabərlik), çatışması və ya əksinə olan vəziyyəti başa düşülməlidir. Çoxluq özü elə hərəkətlərin sürətlənməsini meydana gətirə bilir. Məsələn, kiçik əraziyə malik olan dövlətlər **(qeyd: hər bir element bir məkandır. Bu baxımdan da boşluq deyilən şey yoxdur. Tam boşluq (vakkum) nəzərdə tutulan elementin (obyektin) digər elementlər müstəvisində yoxluğu deməkdir. Deməli, kosmik fəza müstəvisi boş deyil. Müqayisədə fərqlidir, paylanma məkanında müəyyən boşluqlar ola bilir ki, bu da kainatın hərəkət vəziyyətini yaradır)** əhali çoxluğu ilə rastlaşdıqda inkişafın daha çox vertikal forması yaranır. Bu, inkişafın horizontal formasından daha sürətlisidir. Lakin bir qədər qeyri-nizamlı ola bilər. Horizontal inkişafda isə elementlər ətraflara doğru yayılır. Əhali material resursları əldə etmək üçün ətraflara doğru yayılır, səpələnir. Bu, daha çox tarazlı və yaylı inkişafdır. Vertikal inkişaf sərt inkişafdır, radikaldır. Burada sabitlik müşahidə olunmaya bilər. Rəqabət mübarizəsi isə sürətlə həyata keçirilə bilir.

İnkişafın artan cədvəllər üzrə trayektoriyası onu deməyə əsas verir ki, gələcək zamanlarda horizontallıqdan vertikallığa sərt formalı keçidlər daima müşahidə ediləcəkdir. Belə ki, əhali artımı hər zaman olacaqdır. Bu da gələcəkdə vertikal inkişafı şərtləndirəcəkdir. Texnikanın inkişafı daha çox vertikal formalı inkişaf yolunu tutmuş dövlətlərdə ola biləcəkdir. Məsələn, belə qəbul etmək olar ki, ABŞ texnologiyasi və Yapon texnologiyası ilə Çin texnologiyası müəyyən müddətdən sonra təqribən bərabərləşə biləcəkdir.

O da məlumdur ki, hal-hazırda Çin dünyanın iqtisadi lokomotivlərindən biri rolunu oynamaqdadır. Çin valyutası da iqtisadi artıma müvafiq olaraq dünyada öz mövqeyini gücləndirməkdədir. Belə ki, "SWIFT" bank xidmətləri agentliyinin məlumatına görə dünya bazarında Çin valyutası olan yuanın payı 1,89 faiz artaraq 8,66 faizə çatıb. ABŞ dollarının payı isə 81 faiz olubdur. Statistikaya görə ticarət dövriyyəsinin 80 faizi Çin və Honq-Konq şirkətlərinin payına düşür, qalan 20 faiz hissə isə Almaniya, Avstraliya və digər ölkələrlə mübadilədə istifadə olunub.[1]

Eləcə də Çinin "Sinxua" agentliyinin 2013-cü ilin noyabr ayında verdiyi məlumata görə kredit reytinqi agentliyi olan "Standart and Poors" Çinin uzunmüddətli kredit reytinqini stabil hesab edərək, göstəricini "AA-" səviyyəsində saxladı. Qısa müddətli kreditlər üçün isə bu göstərici "A-1+" oldu. Agentliyin məlumatına əsasən, reytinqlər Çinin iqtisadi potensialının güclü artımını, xarici aktivlər üzrə güclü mövqeyini və kifayət qədər maliyyə vəziyyətinin sağlamlığını təcəssüm etdirir. Agentliyin proqnozlarına əsasən, 2013-2016-cı illərdə Çin iqtisadiyyatının artımı orta hesabla 6,7 faiz, gələn beş ildə isə ən azı 8,6 faiz təşkil edəcəkdir.[2]

---

[1] **"SWIFT": "Dünya bazarında yuanın payı artıb". http://www.aztv.az/readnews.php?lang=az&id=12347.**

[2] **«Стандард энд пурс» сохранил кредитный рейтинг Китая на уровне AA-. 01.12.2013. http://russian.people.com.cn/31518/8471263.html.**

Çin iqtisadiyyatının artması və Çinin Asiya nəhəngi olması onun kosmik nailiyyətlərinə də böyük şərait yaratmaqdadır. Belə ki, Çin 2013-cü ilin dekabr ayında Ay peykinin səthinə aparat (lunaxod) göndərdi. Lunaxod "Nefrit dovşanı" (China's Jade Rabbit) adlanır və 37 ildən sonra ilk dəfə olaraq Yerin təbii peykinin üst səthinə çatan aparatdır. Artıq bu lunaxod Ay səthindən ilk fotoları göndərməyə başlayıb.[1]

Bu, Çinin dünyada ABŞ və Rusiyadan sonra üçüncü kosmik dövlət olmasına səbəb oldu. Çin iqtisadiyyatı inkişaf etdikcə iddialar da artmaqdadır. Çin miqrasiyası da dünyada böyük vüsət alır.

## İnkişaf və sülhün vəhdəti-sinergizm

**Sinergizm** (yunancadan-synergia-əməkdaşlıq, birgə fəaliyyət)-1) orqan (məsələn, əzələlər) və sistemlərin birgə və eyni növlü fəaliyyəti kimi başa düşülür.[2] **Sinergiya-**amillərin qarşılıqlı kombinə edilmiş (fəaliyyətidir) təsirləridir, hansı ki, **birləşmiş fəaliyyət** reallıqda ayrı-ayrılıqda götürülmüş hər bir komponentdən və onun sadə məbləğindən daha yüksək səmərəyə malikdir. "2+2=5" deməkdir. Burada ayrı-ayrı komponentlərin sadə arifmetik toplusu 4-ü keçən "5"-dir. Bu da sistemlilikdən meydana gəlir.[3]

Əslinə baxdıqda dünyanın bütün strukturlarında müxtəlif sahələr üzrə əməkdaşlıq, birgə şərtləndirici fəaliyyət mövcuddur ki, bu da özlüyündə ümumdünya strukturunun, bütövün yaranması zərurətini meydana gətirir. Birgə fəaliyyət müxtəlif tərkibli sistemlərin yaranmasının əsaslarını təşkil edir,

---

[1] **Çin lunaxodu Yerə ilk fotoları göndərdi. 16.12.2013. www.xezerxeber.com/XeberOxu.aspx?id=79890**

[2] **Большая советская энциклопедия. 23. третье издание. Москва. Издательство. «Советская энциклопедия». 1976. səh. 418.**

[3] **Синергизм в управлении проектами. www.hr-portal.ru/blog/sinergizm-v-upravlenii-proektami**

eləcə də iyerarxik əməkdaşlıq prinsipinin formalaşmasının əsaslarında dayanır. Buradan da belə nəticələrə gəlmək olur ki, dünya həm mütləqlik, həm də nisbilik prinsipləri ilə inkişafa məruz qalır. Bu kimi proseslərin nəticəsi olaraq sinergizm yaranır. Birgə fəaliyyət sayəsində bir şərti və mütləq subyektin, elementin özündə olan imkanlar birləşərəkən sinergetik əsaslarla daha çox imkanlar əldə olunur. Bu zaman fərdi potensial ünsürünün şərti olaraq əldə edəcəyi (hesab edək ki, sistemsiz, yəni sistemə qoşulmadan olan imkanları) imkanlar birləşmə anında daha çox ola bilir. Məsələn, iqtisadiyyat sistemində inkişaf məhz sinergetik əsaslarla həyata keçirilir. İlk addımda sərmayə qoyuluşları həyata keçirilir, ilk kapitalın hərəkətə gətirilməsi sayəsində yeni resurslar əldə olunur, sonra isə yeni resurslar təkrar sərmayə vasitəsinə (kapitalına) çevrilir. Burada artıq qarşılıqlı sistemli təsirlər meydana gəlir. Bir və ya da bir neçə element öz fərdi potensialından daha çox imkanlar əldə etmiş olur. Burada fərdi element sistemin ümumi potensialından yararlanır və eləcə də ümumi sistemə faydalar gətirir.

Birgə fəaliyyətin özü sistemləri daxilən böyüdür, yeni sistemlərin formalaşmasının əsaslarını meydana gətirir. Sinergizmin özü belə sistemlərin fəaliyyət təsnifatının əsaslarını formalaşdırmış olur. Sinergizm kollektivçiliyə əsaslanır və bununla da birgə fəaliyyət sayəsində potensial böyüyür. Sinergizm sayəsində paralellik və kəsişmələrin meydana gəlməsi elə sistemin şaxələnməsinin və böyüməsinin əsaslarını ortaya çıxarmış olur. Sinergizm forma və məzmun dəyişmələrinin kəmiyyət və keyfiyyət tərkiblərinin yaranmasının əsaslarını təşkil edir. Sinergizm sayəsində çoxistiqamətli və çoxkompleksli fəaliyyət meydana gəlir. Sinergizm (məlumdur ki, bir tələb və cərəyan olaraq) səbəb və nəticə, başlanğıc və son, qeyri-müəyyənlik və müəyyənlik arasında körpülərin, vəhdəti təmin edən tellərin yaranmasını təmin edir və bunun da sayəsində fəaliyyətin bütöv “paneli”

yaranmış olur. Bu bütöv panel həm düşüncələrdə, həm də maddi-material aləmdə özünü təsdiq etdirmiş olur. Sinergizmdə birgə fəaliyyət sayəsində enerji bütövləşməsi prosesləri yaranır. Bununla yanaşı, enerji mübadilələri prosesləri də meydana gəlir. Deməli, sinergizm enerji mərkəzlərinin yaranması, böyüməsi və inkişafı ilə əlaqədar olan bir vəhdət prosesidir. Sinergizmdə vəhdət kateqoriyası yaxından iştirak edir və bu kateqoriya bir birləşdirici prinsip rolunu oynayır. Eləcə də vəhdət kateqoriyası ilə bütövlük kateqoriyası ortaya çıxır. Vəhdətləşmə prosesləri böyümə proseslərinə xidmət edir. Böyümə də horizontal və şaquli xətlərdə meydana gəlir. Hər iki istiqamət bir-birini şərtləndirir və qarşılıqlı böyümə sayəsində ümumsistem də böyüyür. Deməli, sinergizmin tətbiqi prinsipləri və meydana gəlməsi əsasları sistemlərin yaranması və böyüməsi prinsiplərinin əsaslarını təşkil edir.

Sinergizm həm də çoxalma funksiyasını yerinə yetirir. Çoxalma isə tərkiblərin parçalanması və yenidən bütövləşməsi proseslərini özündə əks etdirir. Parçalanma və bütövləşmə öz-özlüyündə qeyri-müəyyənliyin müəyyənliyə, müəyyənliyin isə qeyri-müəyyənliyə çevrilməsi proseslərinin yaranmasını üzərə çıxarır. Deməli, sinergizm inkar prinsiplərinin tətbiqi sayəsində meydana gəlir və yeniliklərin üzərə çıxmasının əsasında dayanan prinsipə çevrilir. Sinergizm həm eyni istiqamətli, həm də müxtəlif istiqamətli sistemli-rasional inkişafın bazasında dayanır. Buradan da sistemlərin oxşar istiqamətlər üzrə, eləcə də fərqli istiqamətlər üzrə şaxələnməsinin əsaslarını meydana gətirmiş olur.

**İnkişaf və sülh arasında şərtləndirici bir sinergizm (“əməkdaşlıq”) var.** Belə ki, inkişaf səbəbdirsə, şəraiti yaradandırsa, sülh bir nəticədir. Yaxud da sülh və sabitlik səbəbdirsə, inkişaf bir nəticədir. Hər iki kateqoriyanın vəhdəti elə sistemin vəhdəti prinsiplərini zəruri edir. Sistemi təşkil edən ünsürlərin şərtləndirici fəaliyyətində həm eynilik və

əməkdaşlıq mövcuddur, həm də müxtəlif koordinatlarda fərqlər vardır. Burada əməkdaşlığın forma və məzmunu müşahidə olunmaqdadır. İnkişafın şərti başlanğıcı (burada müharibədən sonrakı mərhələdə olan inkişaf nəzərdə tutulur) sülhdən sonra meydana gəlir. Sülh inkişaf üçün enerji mənbələrini yaradan elementləri bir araya cəmləyir. Burada sinergizm var və başlanğıc və son arasında bir şərti keçicilik və mütləqlik mövcuddur. Sülhün və inkişafın ilk başlanğıc və səbəb kateqoriyaları rolunda olması da şəraitə bağlıdır. Ola bilər ki, inkişaf sayəsində (münasibətlər və əlaqələrin inkişafı, yaxud da münaqişədə və müharibədə olan iki tərəfdən birinin iqtisadi inkişafı) tərəflər arasında sülhə nail olmaq mümkün olsun. Cəmiyyətin və dövlətin bütövlüyü sinergizmin, yəni komponentlərin birgə fəaliyyətinin, artan "əməkdaşlığının" tələbləri ilə meydana gəlir. Cəmiyyət və dövlət vahid istiqamətdə fəaliyyət göstərir və bu vahidlik də əslində insanlara xidmətə yönəldilir. İnsanlar arasında olan toplumun, kollektivçiliyin yaranması zəruri vəhdətin və bütövlüyün meydana gəlməsini ortaya çıxarır. Cəmiyyətin inkişafı dövlətin inkişafına şərait yaradır və yaxud da əksinə proseslər baş verir. Dövlət daxilən və xarici fəalyyətləri üzrə inkişaf etdikcə, möhkəmləndikcə cəmiyyətlərini də inkişaf etdirir. Deməli, sinergizm əslində insanlara xidmət etmək üçündür. Cəmiyyətin və dövlətin sosial vəhdət prinsiplərinin əsaslarını meydana gətirir. Cəmiyyətin və dövlətin birləşməsində sinergizmin iştirakı əsasən maraqların birləşməsindən və üst-üstə düşməsindən meydana gəlir. İnsanlar sosial varlıqlardır və eləcə də siyasi ünsürlərdir (komponentlərdir). Bu iki komponent arasında olan sinergizm sosial-siyasi qurumların vəhdətini meydana gətirir. Vəhdət sayəsində potensialın artımı (fərdi miqyasdan daha böyük) meydana gəlir. Elə də olur ki, vəhdət fərdi imkanları məhdudlaşdırır. Bu anda sinergizmin səmərəsi mütləqlikdən qeyri-mütləqliyə keçir.

Sinergizm sabit inkişaf və davamlı sülhün vəhdətinin, bütövlüyün əsaslarını təşkil edir. Sinergizm zamanı sülh elementləri ilə inkişaf elementləri əsasən, vahid prinsiplər, müvafiq istiqamətlər üzrə vəhdətdə fəaliyyət göstərirlər. İnkişaf və sülh elementlərinin vəhdəti və qarşılıqlı şərtləndirici vəziyyəti hər ikisinin bir-birilərini şərtləndirmə əsasları ilə meydana gəlməsini yaradır.

## Münaqişələrin həlli variantları (üsulları) və sülhə nail olmaq modelləri

Münaqişə əslində mövcud sistemli vəziyyətlər daxilində sabit hərəkətlərin dəyişərək qeyri-sabit hərəkətlər vəziyyətinə keçməsidir. Etnik münaqişə (etniklərin sosial-siyasi maraqlarının təmini uğrunda həyata keçirdikləri mübarizə) və milli (burada etniklərin siyasi əhəmiyyət kəsb edən, muxtariyyətlik və müstəqil dövlət tələbləri uğrunda qurulan mübarizələri) münaqişə müəyyən ictimai-siyasi sistem daxilində xaotik hərəkət vəziyyətidir. Beynəlxalq münasibətlərdə münaqişələr (bunlar münaqişələrin coğrafi-siyasi formalarıdır) əsasən regional olur və iki dövlət arasında mübahisələrə, silahlı qarşıdurmalara gətirib çıxarır. Bu anda etnik məzmunlu münaqişələr dövlətlərarası milli münaqişələrə səbəb olur. Münaqişə coğrafi-siyasi sistem daxilində xaotik hərəkət və bundan irəli gələrək qeyri-sabit hərəkət vəziyyətidir.

Münaqişələr ərazi uğrunda olan mübahisələrdən meydana gəlir. Ərazi uğrunda olan mübarizələr hətta böyüyərək qlobal əhəmiyyət kəsb edən böhranlara da çevrilir. Bu halda münaqişə məkan baxımından yerli olsa da, əhəmiyyəti nöqteyi-nəzərdən qlobal məna kəsb edir. Münaqişənin qloballığı burada böyük dövlətlərin iştirakı ilə və təsirlər dairəsinin böyüklüyü ilə əsaslana bilir.

**Sülh** isə sabit və tarazlı əsaslara söykənən ədalətli sistemdə yaranandır və sistemdən meydana gələn vəziyyətdir. Sülh və

sabitlik zamanı sistemlərin daxili ünsürləri nisbi bərabər və mülayim tərzdə hərəkət vəziyyətində olur. Sülh həm müxtəlif səviyyəli tarazlıq, yəni şəbəkəli tarazlıq, həm də daxilən yeniləşən bərabərliklər sisteminin yaranmasında mühüm rol oynayır. Sabit inkişaf dövründə hər bir əlaqə və münasibət sistemi müəyyən olunan sabit və dinamik tarazlı vəziyyətləri özündə əks etdirir. Sabit və dinamik vəziyyətlərdə hərəkətlər zamanı elementlər müəyyən mərkəzlərə həm müəyyən bərabərlik prinsipləri ilə toplaşırlar, həm də sistemli mexanizmlər yolu ilə mərkəzlər arasında dəyişmələr edirlər. Bu, piramidal və şaxəli siyasi sistemlərdə mərkəzlər arasında tarazlı əlaqələrin qurulması ilə xassələnir və hər bir mərkəz öz səlahiyyətləri daxilində özünün resurslarından istifadə etməklə əlaqələrin qurulmasını təmin edir. Bununla yanaşı, subyektlər resurslardan istifadə etməklə yeni mərkəzlər yaradırlar. Yeni mərkəzlərin yaradılması hərəkətlərə təkan verən güc mənbələrinin formalaşmasıdır; çünki inkişaf enerjiyə bağlı olan bir məsələdir. Enerji də sabit inkişaf proseslərində ünsürlərin vasitələri istifadə etmələri sayəsində meydana gəlir. Buradan da belə bir nəticə ortaya çıxır ki, sabit və dinamik inkişaf prosesləri əslində çoxlu sayda mərkəzlərin yaradılması proseslərinin sistemliliyi ilə xarakterizə olunan vəziyyətlərdən ibarətdir. İnkişaf prosesləri mərkəzlər arasında trayektorik bağlılığı şərtləndirir. Mərkəzlərin yaradılması zərurəti isə elementlərin çoxaldılması zərurətini meydana gətirir. Elementlərin çoxaldılması isə inkişafın əsaslarını formalaşdırır. Bu zaman trayektorik hərəkətlərdə dəyişən, yəni şərti yeni müstəvilərə (pilləli müstəvilərə) keçən sabitlik müşahidə edilir. Sabitliyin mücərrəd paneli meydana gəlir. Bu mücərrəd panelin kənarları da keçici olur (sərhədləri dəyişkən olur) və yeni sabitliklər hesabına panel böyüyür. Yaxud da mövcud panel öz daxili qeyri-bərabər ölçülü hərəkətləri hesabına çatlar verir və sabitlik paneli miqyasını kiçildir. Deməli, münaqişələrdə, münaqişə proseslərində, gedişatda sülh vəziyyətləri yalnız

müvəqqəti xarakter kəsb edə bilir, müəyyən zamanları əhatə edir. Münaqişələrin həlli yolunda tam razılığın əldə edilməsi və müharibə və münaqişə vəziyyətlərinin dayandırılması isə maraqlı tərəflərin hərəkətlərinə bağlı olur. Hər bir tərəfin sabit əsaslarla maraqlarının təmin edilməsi və buna istiqamətlənən hərəkət sülhün yaradılması və eləcə də qorunması üçün mühüm şərtlərin meydana gəlməsinin əsaslarını ortaya çıxarır.

Sabitlik artan sistemli hərəkətlərdə də mövcud olur. Artma sistemlər daxilində həm paralel, həm də kəsişmələr (üst-üstə düşmələr) ilə həyata keçirilir. Bu zaman panellərin pilləli (təbəqəli) əsasları meydana gəlmiş olur. Pilləli təbəqəli əsaslar da öz növbəsində inkişaf mərhələlərinin yaranmasının əsaslarını təşkil edir. İnkişaf mərhələləri bir-birindən tam ayrı olmur və biri digərinin daxilindən formalaşır. Buradan da şaxəli inkişaf xüsusiyyətləri ortaya çıxır.

Sabitliyin əsası məhz tarazlı (ədalətli, nisbi bərabər paylara bölünmüş) sistemdədir. İnkişafın radikal formada qeyri-sabitliyə keçməsi və qarışıq forması isə hər an sistemli əlaqələr vəziyyətini dəyişə bilir. Bu anda sülh və sabitlik panelinin təbəqələri azalır və yeni kiçik hissələr meydana gəlir.

İnkişafın ifrat son həddi rəqabət aparan tərəflər arasında qeyri-tarazlığın yaranmasına səbəb olur. Bu da nəticə etibarilə münaqişələrin meydana gəlməsinin əsaslarını ortaya çıxarır. Böyük dövlətlər arasında münaqişələr (böhranlar) adətən böyük dövlətlərin maraq göstərdikləri və öz ölkələrindən kənarda olan ölkələr üzrə də yaranır. Hətta bitərəf olan məkanlarda da böhranların yaranması halları mövcud olur.

**Münaqişələr münasibətlər gərginliyinin özüdür**. Münasibətlər gərginliyi də müəyyən sistemlər daxilində və sistemlər arasında hərəkətlərin gərilməsinə rəvac verir. Bu da özlüyündə tərəflər arasında əlaqəsizliyə, yaxud da məhdud həcmli əlaqələrə gətirib çıxarır. Hərəkətlərin ifrata çatması, maraqların böyüməsi, gərginliklərin artması mövcud sabit cərəyan vəziyyətində olan trayektoriyaların gərilməsinə səbəb

olur ki, bu da nəticədə trayektoriyalarda **anti-sabit sistemlərin (sistemsizliklərin)** üzərə çıxmasına şərait yaradır.

Münaqişələr həm regionda kiçik dövlətlər və orta gücə malik olan dövlətlər arasında baş verir, həm də böyük güclər arasında yaşanır. Böyük güclər arasında yaşanan münaqişələr daha çox regiondakı aşağı gücə malik olan dövlətlər arasında yaşanan münaqişələrdə özünü göstərir. Buradan da münaqişələrin böyüməsi və qlobal siyasətə təsir göstərməsi halları meydana çıxır. Münaqişələr dövlətlərarası problemlərin siyasi baxımdan böyüməsində bir vasitə, həm də təzyiq vasitəsinə çevrilir. Münaqişələrin böyüməsi və silsilə xarakter alması problemlər düyünlərinin zəncirlənməsinə də gətirib çıxarır. Regional münaqişələr böyük dövlətlərin coğrafi-siyasi təsirlərinin artmasında əsas təsiredici vasitələr kimi çıxış edir.

Böyük gücə malik olan dövlətlər öz aralarında olan rəqabət məsələlərini digər üsullarla yanaşı, həm də özlərinin təsir dairələrində yerləşən dövlətlərdə həll etməyə çalışırlar. Bununla da böyük dövlətlərin dünya üzrə təsir mexanizmləri meydana gəlir. Münaqişələr baş verdikdə böyük dövlətlər dünyanın ayrı-ayrı məkanlarını sistemli və mərhələli əsaslarla yenidən bölməyə can atırlar. Deməli, münaqişələrin bir-birini əvəzləməsi sistemli əhəmiyyət kəsb edir və bir-birini əvəz edən münaqişələr dünyanın təkrar bölünməsinin əsaslarını yaradır. Təkrarlanan xassələrə malik olan bölünmə prosesləri də maraqların sistemli şəkildə təmin edilməsi proseslərini özündə ehtiva edir. Xüsusilə, hər bir böyük münaqişə yeni bölgünün əsaslarını ortaya çıxarır. Dünyanın bölünməsi proseslərində olan pilləli əsaslar şaxəli maraqların formalaşmasını meydana gətirir. Hər bir münaqişə bölünmə proseslərini daimi olaraq müəyyənlikdən qeyri-müəyyənliyə keçirir. Bundan da yeni müəyyənliklər meydana gəlir. Yeni müəyyənliklər də yeni faktların aşkarlanmasında xüsusi rolu oynayır. Bu, o deməkdir ki, dünyanın kiçik dövlətləri böyük dövlətlərin güclərinə və maraq sferalarının dəyişməsinə müvafiq olaraq bir müəyyən

təsir sferalarından digər müəyyən təsir sferasına keçir. Bu halda müəyyənlik qeyri-müəyyənliyə, qeyri-müəyyənlik isə müəyyənliyə çevrilir. Münaqişə hərəkətləri sürətləndirən proseslər olduğundan burada qeyri-müəyyənliyin müəyyənliyə çevrilməsi prosesləri də sürətlə həyata keçirilir. Bu, hər zaman dəyişən mənzərələr fonunda baş verir. Məsələn, etnik qrupların istəklərinin üzərə çıxması həmin qrupların maraqlarında olan qeyri-müəyyənlikləri müəyyənliyə çevirir. Müəyyənliklərin şaxələnməsi sayəsində sinergetik inkişaf meydana gəlir. Bu, həm eynilikdə, həm paralellikdə, həm də qeyri-paralellikdə (yəni bir koordinata nəzərən olan paralellikdə), özünü təsdiq etmiş olur.

**Münaqişə** özü bir proses və hal kimi müəyyən qrupların qarşıdurmasıdır, maraq obyektlərinin qeyri-razılaşdırılmış formada bölünməzliyidir və buna istiqamətlənmiş gərilmiş hərəkətlərdir. **Münaqişə** qeyri-kompromis hallarının nəticəsi olan bir vəziyyətdir. Münaqişə müəyyən sistemli münasibətlər və əlaqələr nizamının, bu baxımdan mövcud nisbi ədalətli nizamın qeyri-sistemliliyə, qeyri-ədalətli vəziyyətlərə, xaos vəziyyətlərə, disharmonik və qeyri-tarazlı əlaqələr vəziyyətinə çevrilməsi halıdır və vəziyyətdir. Əgər ədalət sabitliyin, sakitliyin özündədirsə, onda, sabitliyin pozulması elə ədalətin pozulmasına səbəb olur. Ədalətin pozulması isə münaqişənin baş verməsidir. Münaqişə oyadıcı faktordur və bu, baş verərkən hər bir tərəf özünün haqlı olması iddiası ilə çıxış edir. Münaqişə zamanı ideal və subyektiv fikirlər öz yerini **real və obyektiv fikirlərlə** əvəz edir. Buradan da belə bir nəticə ortaya çıxır ki, ideal sülh əslində subyektiv idealizmdir. Münaqişə isə obyektiv realizmdir və bu zaman ideal maraqların gerçəkləşməsi uğrunda mübarizələr həyata keçirilir. Münaqişə elə bir oyadıcı vasitədir ki, burada şüurda oyanma prosesləri qeyri-müəyyən müddətə qədər davam edə bilər.

Münaqişələrin qarşısının alınması münaqişədə olan tərəflərin razılığa gəlməsidir, razılığa gəlmənin və hərəkətlərin

dəyişməsidir və ya da üçüncü və dördüncü tərəflərin təzyiqi və təsiri ilə razılığa gətirilməsidir. Münaqişənin həlli variantları tərəflərin istəklərinin təmin olunması və müəyyən ortaq məxrəclərin əldə edilməsidir. Münaqişədə olan tərəflərə güc tətbiqi və münaqişədə məcburi razılaşmanın əldə olunması təbii ki, dünyanın güc mərkəzləri tərəfindən idarə olunması prinsipini ortaya çıxarır. Münaqişələrin sülh yolu ilə həll edilməsi və tərəflər arasında sabit üsullarla razılıqların əldə olunması idellıqdır. Yəni bu üsul beynəlxalq nəzəri prinsiplərə (beynəlxalq hüquq normalarına) söykənərsə, ideallıqdır. Reallıq isə beynəlxalq güclərin tərəflərə etdikləri təzyiq vasitəsidir. Bu halda isə güc tərəflərinin maraqları da münaqişə məkanlarında formalaşır. Münaqişə obyektləri və tərəfləri bu zaman güc tərəflərinin əsas maraq obyektlərinə çevrilir. Yəni hər bir münaqişə özünün arxasınca böyük dövlətlərin maraqlarını cəlb edir. Münaqişələr o halda həllini tapır ki, bu məkanlarda **böyük dövlətlərin maraqları** birtərəfli qaydada təmin edilmiş olur. Yəni münaqişələrin həllinin ən yaxşı variantlarından biri münaqişədə olan dövlətlərin sərhədlərində böyük dövlətlərin olması amilidir. Bu isə geosiyasi, geoiqtisadi və geostrateji amillərə söykənir. Bu zaman beynəlxalq hüquq beynəlxalq səviyyədə real maraqların zəif elementinə çevrilir. Dövlətlərin özlərinin qəbul etdikləri nəzəri normalar onların hərəkətləri ilə pozulur. Deməli, dünyanın imperializm siyasəti əslində gücə söykənən real siyasətin əsaslarını təşkil edir.

Hər bir münaqişə **(burada xüsusilə dövlətlər daxilində olan münaqişələr və dövlətlər arasında yaşanan etnik münaqişələr)** insanların, insanların müəyyən qrupunun, bu baxımdan icmanın, birliyin maraqlarının yerdəyişməsindən, kəmiyyət dəyişməsindən, keyfiyyət dəyişməsindən baş verir. Münaqişələr əsasən nisbi sabit kəmiyyətli maraqların böyüməsindən və təmin edilmək üçün lazımi resursların çatışmazlığından meydana gəlir. Dövlətlər arasında baş verən

münaqişələr əsasən dövlətlərin maraqlarının böyüməsindən və bu maraqların öz sərhədlərini keçməsindən ortaya çıxır. Münaqişələr sərbəst fəaliyyət göstərən sistemlərin fəaliyyətinin qeyri-sərbəstliyə keçməsindən də ortaya çıxır. Böyük dövlətlərin rəqabət mübarizələri müəyyən məkanlarda rəqabət obyektlərini və vasitələrini meydana gətirir. Bu baxımdan da belə qəbul etmək olar ki, digər dövlət ərazisində yaşayan etnik qrupların siyasi mübarizəyə qalxmaq üçün şüurlarında oyanışlar edilməsi prosesləri baş verir.

***Münaqişələrin (etnik və milli münaqişələrin) baş verməsi səbəblərini aşağıdakı şəkildə ümumiləşdirmək olar.***

**Bu istiqamətlər özündə sosial, mədəni, iqtisadi və siyasi parametrləri əks etdirir. Bu parametrlər sistemdaxili uyğunsuzluqların yaranması ilə səbəbə çevrilir. Yəni dövlətdaxili sistemdə sosial, mədəni, iqtisadi və siyasi parametrlər uyğunsuzluqların və qeyri-tarzalıqların əsasına çevrilir:**

**Daxili amillər:**

-ölkə daxilində mərkəzi hakimiyyətin **qeyri-tarazlı siyasəti** və etniklərin yaşadıqları ərazilərin (yaşayış məskənlərinin) dövlət qayğısından kənarda qalması, işsizlik və və digər mühüm sosial problemlərin ümumi normaları (hədləri) həddən artıq aşması, yəni pozitivliyin cədvəl üzrə azalması və neqativliyin çoxalması-buna tarazlı enerjisizlik, yaxud da qeyri-tarazlı enerji halı da demək olar;

-ölkənin mərkəzi resurslarının (mərkəzi fondlarının, mərkəzi isehsalat sahələrinin) ölkə ərazisi üzrə qeyri-bərabər paylanması, **pay bölgüsündə ədalətsizliyin** mövcudluğu;

-qeyri-tarazlı iqtisadiyyat sisteminin mövcudluğu-burada əsasən etniklərin yaşadıqları ərazilərdəki iqtisadiyyatın mərkəzi iqtisadiyyat sistemləri ilə uyğunsuzluğu nəzərdə tutulur;

-etniklərin özünüdərk proseslərinin qarşısının alınması və onların **coğrafi-genetik statuslarını** (burada tarixi-etnocoğrafi mənşələrini)  müəyyən edən kriteriyaların təbliğinə mərkəzi hakimiyyət tərəfindən təzyiqlər göstərilməsi;

-etniklərin milli-mədəni elementlərinin inkişafına maneçilik törədən ünsürlərin artması;

-etniklər arasında mədəniyyət uyğunluğunu və adət-ənənə oxşarlıqlarını təmin edən proseslərin zəifliyi, mərkəzi hakimiyyətin etniklərin mədəniyyətini mərkəzi səviyyələrə qaldırmaması;

-mərkəz -əyalət vəhdətinin və sosial-siyasi və iqtisadi assambleyasının pozulması və bütöv sistemin zəifləməsi

**Xarici amillər:**

-dövlətdaxili etinasızlığın, soyumuş münasibətlərin yaranmasından istifadə edən kənar qüvvələrin sistemi dağıtmaq istəkləri və bu ərazilərdə özlərinin maraq məkanı obyektlərini yaratmaq fəaliyyətləri;

-regionda bir dövlətin digərlərinə qarşı ərazi iddialarının artması və iddiasında olduğu dövlətlərin etnik əyalətlərindən istifadə etməsi;

-xarici qüvvələrin (həmsərhəd olan dövlətlər) etnik əyalətlərə maddi yardımalarının göstərilməsi və həmin əyalətlərdə mərkəzi hakimiyyətə qarşı təhrikedici siyasətin həyata keçirilməsi;

-böyük dövlətlərin dünya məkanı uğrunda həyata keçirdikləri imperialist müharibələri və mübarizələri sayəsində etniklərdən istifadə etmələri;

-böyük dövlətlərin nüfuz ərazilərinin bölüşdürülməsi uğrunda həyata keçirdikləri rəqabət mübarizələri və etniklərin yaşadıqları əyalətlərin münaqişə və təzyiq ünsürlərinə, vasitələrinə, istifadə obyektlərinə çevrilməsi və s.

*Sülhə nail olmaq yolları:*

-hərbi qarşıdurmaların, silahlı toqquşmaların qarşısının alınması məqsədilə üçüncü, dördüncü və s. tərəflərin iştirakı ilə atəşkəsin əldə edilməsi üçün ilkin kompromislərin müəyyən olunması;

-beynəlxalq təzyiqlər yolu ilə hərbi vəziyyətlərin qarşısının məcburən alınması;

-ölkələrdə mərkəzi resursların münaqişə tərəflərinə səfərbər olunması və resurslardan səmərəli istifadə edilməsi;

-münaqişəli tərəflərdə siyasi sabitliyin və ictimai- asayişin qorunub saxlanılması məqsədilə siyasi sistemin möhkəmliyinə nəzarətin gücləndirilməsi;

-hərbi münaqişələrə, qarşıdurmalara beynəlxalq qurumların nəzarətinin gücləndirilməsi;

-qarşıdurma məkanlarının beynəlxalq mülki zonalara çevrilməsi;

-razılıq predmetlərinin və obyektlərinin müəyyən olunması və qarşılıqlı olaraq şərtləndirilməsi;

-tərəflər arasında müəyyən güzəştlərə getmək-iqtisadi-maliyyə yardımlarının olunması;

-status-kvonun bərpa olunması üçün güzəştlərin (burada iqtisadi və maliyyə yardımlarının edilməsi);

-müəyyən ərazi güzəştlərinin edilməsi;

-ərazidə müəyyən siyasi, iqtisadi və mədəni hüquqların verilməsi;

-tərəflərə beynəlxalq təzyiqlərin göstərilməsi və günahkarın cəzalandırılması (xüsusilə, dövlətlər arasında olan münaqişələrdə);

-münaqişədə olan regionların beynəlxalq sülh mərkəzlərinə çevrilməsi və s.

**Səkkiz günlük iş həftəsinə keçmək və onun əhəmiyyəti. "7+1" prinsipinin tətbiqi. "Ümumdünya hərəkətsizlik günü"nün təsis olunması**

**"Ümumdünya hərəkətsizlik günü"** fikrindəki hərəkətsizlik sözünə nisbi yanaşmaq lazımdır. Məlumdur ki, ümumiyyətlə, təbiətdə, həyatda tam hərəkətsizlik vəziyyətləri yoxdur. Hər şey təbiətin ümumdinamika (ümumhərəkət) qanununa tabedir. Ümumhərəkət qanunu elə onun ünsürlərini də hərəkət vəziyyətində saxlayır. O da məlumdur ki, tam hərəkətsizlik olarsa, bu hal heçliyə və elementsizliyə aparıb çıxara bilər ki, bu da ümumiyyətlə, mütləq və obyektiv düşüncələrdə absurddur. Təbiətin daimi hərəkəti onun ünsürlərinin daima hərəkətini təmin edir. Yəni həyatın hərəkəti təbiətin hərəkətinə, nizamlı quruluşuna tabedir. İnsan maraqları elə hərəkətlərdir və ehtiyacların ödənilməsi hərəkətlərə bağlıdır. Hərəkətlər bu gün nisbi sürətlə və mütləq sürətlə mövcud olmaqdadır. İnsanlar hərəkətlərin qabağını tam ala bilməzlər, lakin bir qədər məhdudlaşdıra bilərlər.

Hərəkətsizlik dedikdə, burada insanlar tərəfindən idarə olunan mexaniki vasitələrin, texnoloji vasitələrin, bu baxımdan maşın və mexanizmlərin həftədə bir gün ərzində hərəkətlərinin maksimal səviyyədə məhdudlaşdırılması nəzərdə tutulur. Bu fikir həm də rasional əsaslara söykənir və mövcud inkişafın tələblərindən, xüsusilə qloballaşmadan ortaya çıxır. Rasionallıq normativliyə söykənir. Burada həftənin günləri sadəcə bölünmüş qaydaları, həm də zəruri qaydaları özündə əks etdirir. Həftənin yeddi günü ərzində bir çox istehsalat və qeyri-istehsalat sahələri stimullaşdırılıbdır. Lakin qloballaşma prosesləri bu stimullaşmanın yeni əsaslarının meydana gəlməsini tələb etməkdədir. Bu baxımdan da yeni iş rejiminin və yeni həftənin tətbiq olunmasının əsaslarının formalaşmasına zərurət mövcuddur. Həftənin uzadılmasını həyata keçirməklə istirahət vaxtının uzadılmasını təmin etmək olar. Həftənin

uzadılmasında və yeni istirahət və hərəkətsizlik gününün tətbiq edilməsində əsas zərurət insanların təbii xassələrini daha çox özlərinə qaytarmaqdan da ibarət ola bilər. Bu sistemi tətbiq etməklə çox sürətli inkişafın, həmçinin xaotik inkişafın (burada nəzarətdən, idarə etmə obyektindən kənar qalan inkişafın) qarşısını almaq olar.

Bu, elə gün ola bilər ki, həmin gün ümumiyyətlə, göydə (təyyarələrin və digər uçuş aparatlarının hərəkəti) və yerdə, quruda və su üzərində, su daxilində (qatarların, gəmi və qayıqların, avtomobillərin və s.) mexaniki vasitələrin hərəkəti tam və ya da maksimum həddə az saya qədər dayana bilər. Hətta zəruri müəssisələrin də fəaliyyətində də həmin gün maksimum məhdudluq əmələ gətirmək olar. Ümumdünya hərəkətsizlik gününə **“mexanikanın hərəkətsizlik günü”** və yaxud da **“mexanikasızlıq günü”** kimi də ad vermək olar. Bu günü **dünya ekologiya günü** və ya da **dünya sağlamlıq günü, dünya səssizlik günü, dünya sakitlik günü, ümumdünya piyadalar günü** kimi də adlandırmaq olar. “Mexanikasızlıq günü”nü **səkkiz günlük iş həftəsinə** keçməklə, **həftənin səkkizinci günü** üçün təmin etmək olar. Bu gün istehsalat sahələri məhdud səviyyədə işləyə bilər. Məsələn, həmin gün yalnız evləri işıqlandıran, qazla təmin edən və evlərə suyun verilməsini təmin edən müəssisələr işləyə bilər. Xəstəxanalar, növbəli apteklər, təcili yardım müəssisələri, yanğınsöndürənlər və s. kimi kollektivlər üçün iş günü hesab oluna bilər. Lakin ticarət yerləri, ictimai-iaşə yerləri və digər istirahət yerləri isə ümumiyyətlə işləməyə bilər.

Səkkiz günlük iş həftəsinə keçmənin zərurəti nədən ibarətdir: Postmodernizm dövründə və qloballaşma mərhələsində inkişaf prosesləri daima dəyişir, yəni sürətlənir, yeni-yeni tendensiyalar meydana gəlir. Bu da ondan irəli gəlir ki, maraqlar böyüyür, inkişaf edir və maraqlar uğrunda hərəkətlər də böyüyür. Maraq nümayiş etdirən subyektlərin sayı da artır. Bununla bərabər, elmi-texniki sahələrdə yeni-yeni

təkmilləşmə prosesləri meydana gəlir. Bu gün bütün dünya üzrə ümumi olan inkişaf müstəvisində çoxlu sayda hərəkətdə olan elementlər vardır ki, onlar da hərəkətə gətirənlərə və hərəkətə gələnlərə bölünürlər. Bu iki baza strukturun qarşılıqlı vəhdəti mövcud vahid və universal (tərkibi isə ayrı-ayrı inkişaf səviyyələrindən ibarət olan) inkişaf proseslərinin yüksələn əsaslarını yaradır. Hal-hazırda inkişaf zamanları da ardıcıl olaraq bir-birini əvəzləyir. Ardıcıl olaraq inkişaf eraları, mərhələləri və dövrləri meydana gəlir. Bu dövrlər də inkişaf dalğalarının əsaslarını yaradır. **Aqrar** dövr **sənaye dövrünü**, sənaye dövrü isə **postsənaye** dövrünü meydana gətirir. Bütün dövrlərdə nəticələr kimi əldə olunan elementlər inkişaf proseslərinin sürətlənməsində mühüm rol oynayır. Elementlərin qarşılıqlı əlaqəsi məhz onlar arasında müəyyən nəticələrin meydana gəlməsinin əsaslarını yaradır.

İnkişaf proseslərinin sürətlənməsi (şaquli və üfiqi müstəvi üzrə-burada bütün dünya məkanı üzrə və daxilə doğru) insanların bütün həyatlarında yeni dəyişikliklərin baş verməsinin əsaslarını şərtləndirir, zəruri edir. Dəyişikliklər həm də yeni rejimlərdə (əmək və istirahət rejimləri) özünü büruzə verdirmiş olur. Yəni bu kimi məsələlərdə də yeni zərurətin əsasları meydana gəlmiş olur.

Bu gün sivil cəmiyyətlərdə Qriqori təqvimi tətbiq edilməklə, yeddi günlük iş həftəsi müəyyən olunub. **(Qriqori təqvimi (yeni üslub) tarixin yeni hesablanma sistemidir. 1582-ci ildə Roma papası XIII Qriqorinin islahatı ilə həyata keçirilmişdir. Elm yazır ki, Təqvim-Böyük vaxt intervallarının hesablanması sistemi kimi xarakterizə olunur. Əsasını göy cisimlərinin hərəkəti ilə əlaqədar olan dövri təbiət hadisələri təşkil edir. Eradan 3000 il əvvəl Şumerlər bir gecə gündüzü 24 saata, bir ili on iki aya bölürdülər. Ən qədim təqvim ay təqvimidir. Ay təqvimi – ayın Yer kürəsi ətrafındakı hərəkət dövriliyinə əsaslanan təqvim növüdür. İlk Ay təqvimi İkiçayarasında eradan**

**əvvəl III minillikdə tərtib edilmişdir. Hazırda 20-dən çox Şərq ölkəsində təqvim kimi rəsmən Ay təqvimindən-Hicri-qəməri təqvimindən istifadə olunur. Hicri-qəməri təqvimi 12 aydan ibarətdir və bu təqvimdə ilin uzunluğu 354 gecə-gündüzə bərabərdir. Bu təqvim Günəş təqvimindən 11 gecə-gündüz qısadır. Günəş təqvimi müasir dövrdə ən geniş yayılmış təqvim növüdür. İlk Günəş təqvimini eradan 2780 il əvvəl qədim misirlilər yaratmışlar. Yuli təqvimi Roma imperatoru Yuli Sezarın göstərişi əsasında astronom tərəfindən tərtib olunmuşdur və e.ə. 45-ci ildən Roma imperiyasının əsas təqvimi olmuşdur. İlin orta uzunluğu 365,25 gün olmuşdur. Bu təqvim 1582-ci ildə Qriqorian təqvimi ilə əvəz olunmuşdur. Azərbaycanda da 1918-ci ildən Qriqori təqvimi tərtib olunur. Bundan başqa Astek təqvimi, Maya təqvimi, Çin təqvimi, Türk-Monqol təqvimi kimi təqvimlər də mövcuddur).**[1]

Bu həftə ərzində insanlar öz iş rejimlərini və istirahət rejimlərini təmin edirlər. **(Hələ qədim Misirdə on günlük həftədən (dekada) istifadə edirdilər. Ümumiyyətlə, belə qeyd olunur ki, həftənin heç bir astronomik əsası yoxdur).** Lakin həyatın sürətlə dəyişməsi və yeni xidmətlərin keyfiyyət zərurətləri bu yeddi günlük iş həftəsində müəyyən dəyişikliklərin edilməsini zəruri edə bilər. Belə ki, insanlar öz iş rejimləri, müəyyən dövlət qurumları tərəfindən onlara göstərilən xidmətlərin yüksək keyfiyyətlərini təmin etmək üçün yeni iş həftəsi şəraitində yaşamağa üstünlük verə bilərlər. Həmin həftənin sonuncu-səkkizincü günü isə hərəkətsizlik günü kimi qəbul edilə bilər.

Səkkiz günlük iş rejimində insanlar yenə də həftədə 5 (beş) tam gün (orta hesabla qırx saat) işləməklə və ya da təhsil almaqla, öz həyatlarını mövcud qaydada davam etdirə bilərlərlər. Həftənin altıncı günü isə yarım günlük və yaxud da

---

[1] **Məlumatlar az.wikipedia.org saytından götürülmüşdür.**

3 saatlıq  iş rejimi tətbiq oluna bilər və həmin günün digər yarısında  isə xidmət göstərən (dövlət xidmətləri) dövlət idarələrinə müraciət etmək olar. Həftənin yeddinci günü qismən, səkkizinci günü isə tam istirahət günləri kimi müəyyən oluna bilər. Bu günlərdə, məsələn, yeddinci gündə (yarımgün) özəl sektorun bir çox sahələri, məsələn, ərzaq və nəqliyyat sektoru fəaliyyət göstərə bilər. Yeddinci günü müəyyən şadlıq tədbirlərini, ziyafət tədbirlərini, məsələn, toy və nişanların təşkili kimi tədbirləri təşkil etmək olar. Səkkizincü gün isə ümumiyyətlə, bəzi sahələr (vacib sahələr) istisna olmaqla, bütün sahələr öz fəaliyyətini dayandırar və küçədə hətta avtomobillərin hərəkəti maksimum səviyyədə qadağan edilə bilər. Yalnız xüsusi icazəli avtomobillərə əsas küçələrdə, prospektlərdə hərəkət üçün icazə verilə bilər. Bu gün hətta dəfn günləri də təxirə salına vilər.

Səkkizincü gündən sonra başlayan həftənin birinci günündə bir qrup insanlar yarımgün, digər qrup insanlar isə digər yarımgündə öz fəaliyyətlərini davam etdirə bilərlər. Bu yarımgünlər həftənin altıncı günü yarım iş günü işləyən şəxslərə aid edilə bilər.  Ümumiyyətlə, hər bir dövlət səkkizinci günlə bağlı tənzimləmə siyasəti həyata keçirə bilər.

**Səkkiz günlük iş rejiminə keçmənin əhəmiyyəti:**

-istirahət vaxtının uzanması və iş günləri arasında fasilənin artması;

-dövlət müəssisələrinə (ərizə və şikayətlərlə bağlı) ünvanlanan müraciətlərin artması;

-mexanikasızlıq günləri hesabına ekoloji tarazlığın bərpa olunması;

-Yer üzərində material aləmin istismar zamanının uzanması (hərəkətin bir gün dayanması ilə resursların istismarında da müddət uzana bilər);

-sağlamlığın və istirahətin artması, sosial-rifahın güclənməsi;

-resursların tükənməsinin qarşısının alınması;

-tıxacların azalması (bəzi dövlət və özəl müəssisələrdə iş gününü dəyişmək hesabına);

-müəssisələrdə gündəlik iş rejimləri ilə bağlı yeni növbəliliyin (həftənin müəyyən günlərində dövlət xidməti müəssisələrinin əvəzetmə ilə fəaliyyət göstərməsi və s.) təmin olunması;

-istirahət vərdişlərinin çoxalması;

-küçələrdə piyadaların artması və s.

## Qafqazın Avro-Asiya (Şərq-Qərb, Şimal və Cənub, Xəzər regionu aralığında) sülh məkanına çevrilməsi və xalqlararası mehribançılığın və dostluğun təmin edilməsi-Yeni humanitar məzmunlu və kompozisiyalı Qafqazın formalaşması

Məlumdur ki, coğrafi və siyasi regionların, iqtisadi inteqrasiya stukturları sisteminin (geosiyasi bütövlərin, inteqrasiya məkanlarının) əmələ gəlməsində coğrafi-tarixi-siyasi-mədəni amillər, eləcə də əhalinin sayı amili (burada istehsal və istehlak resursları, yəni məhsuldar qüvvələr) önəm kəsb edir. **(Qeyd:** istehsalın istehlaka bağlılığı nöqteyi-nəzərdən məhsuldar qüvvələr kimi tək istehsalat qüvvələrini hesab etmək olmaz. Burada həmçinin istehlak qüvvələrini də istehsalata uyğunlaşdırmaq lazımdır. Yəni əhalinin tələbatının yüksək səviyyədə ödənilməsi ilə tələbatı olan tərəfi məhsuldarlığa yüksək səviyyədə xidmət göstərən tərəfə çevirmək lazımdır). Bununla bərabər, resursların istifadəsi də xüsusi aspektlərlə əsaslandırılır. Bütün dünya insanları vahid birliyin altında birləşdiyindən bir region **cəmiyyət və dövlət quruluşları və inteqrasiya formaları** baxımından digər

regiondan heç də kəskin dərəcədə fərqlənmir. Ümumiyyətlə, dünyada vahidlik və birlik prinsipləri siyasi, iqtisadi sistemlərdə və onların təbiət uyğunluqlarında özünü göstərir.

Regionları fərqləndirən amillər baza etibarilə daha çox mədəni müxtəliflik və iqtisadi inkişaf fərqləridir. Məsələn, Avropanın özündə belə şərqlə qərb hissələri arasında kəskin fərqlər vardır və uyğunlaşma (burada bütün sistemlərin uzlaşması, ayaqlaşması, bir-birinə cavab verməsi nəzərdə tutulur) proseslərində çoxlu sayda çətinliklər meydana gəlməkdədir. Əsas iqtisadi güclərin ümumregion üzrə şaxələnməsi, yəni genişlənməsi regionlarda (məsələn, Rumıniyada, Bolqarıstanda və s.) bir çox problemləri üzərə çıxarmaqdadır. İstehsalatın və sənayenin modernləşməsində və yüksək səviyyəyə qalxmasında bir neçə prosesli mərhələnin həyata keçməsini zəruri amil kimi hesab etsək, onda belə qərara gələ bilərik ki, Avropanın qərb hissəsində proseslərin təkmilləşməsində xeyli sayda addımı atmış dövlətlər belə xarakterli proseslərin sadəcə olaraq bir neçəsini həyata keçirmiş olan dövlətlərdən (məsələn, Şərqi Avropa dövlətlərindən) öndə dayanırlar. Bununla yanaşı, digər fərqləndirici komponentlər də vardır. Hər bir region digər regiondan coğrafi yerləşməsi ilə yanaşı, milli mühiti ilə də fərqlənir. Regionların tərkib komponentləri həmin regionların ümumi "havasını", "atmosferini" yaradır və burada **hissi (duyğu) məxsusluğu** ortaya çıxarır. Hiss olunan amillər əsasən üst amillərdir. Regionlardan-regionlara keçidlər zamanı fərqlər duyulur. Regionlar arasında fərqləri yaradan əsas birinici amil coğrafidir, təbii landşaftdır, ərazi quruluşudur. Məsələn, coğrafi keçilməzlik region xalqları arasında qonşuluğu məhdudlaşdırır, həm də ünsürlərin çətin transferini meydana gətirir. Digər amillər isə milli, dini, etnik və s. –dir. Tarixi transfer formaları isə adət-ənənələrin regionlardan-regionlara daşınmasında böyük rol oynayır. İqtisadi amillər, bu baxımdan ticarət yolları və istehsal məhsulları regionlararası mədəni transferin

formalaşmasında böyük əhəmiyyət kəsb edir. Bu daha çox oxşar mətbəx adətlərini, alış-veriş adətlərini və vərdişlərini, oxşar geyim formalarını, eləcə də məişət əşyalarının istifadəsində olan oxşarlıqları meydana gətirir. Regionlararası fərqlər makro universallıq, makro eynilik içərisində olan fərqlərdir. Burada universallıq eynilik prinsiplərini özündə cəmləşdirən rəngarənglikdən meydana gəlir.

O region zəngin mənaya malik olur ki, özündə müxtəlif çalarları, komponentləri (burada tərkib baxımından müxtəlif dildə danışan xalqlar, müxtəlif mədəniyyət ünsürləri, müxtəlif dini ünsürlər və s. nəzərdə tutulur) birləşdirir. Bu birləşmədə isə hardasa oxşarlıqlar duyulur ki, bu oxşarlıqları da təbii-mədəni amillər meydana gətirir. Digər tərəfdən, regionun zəngin çaları (burada ziddiyyətləri) və zəngin tərkib komponentləri regionun siyasi baxımdan bütövləşməsinə mane olur. Məsələn, kiçik xalqlar da çalışırlar müstəqil dövlətlər əldə etsinlər, milli-siyasi aspektlərdə, yəni yuxarı mərhələdə təşkilatlansınlar. Böyük gücə malik olan dövlətlər də bu amillərdən öz regional maraqlarının təmin olunmasında istifadə edirlər. Bu kimi problemin qarşısının alınmasında mədəni və dini birliklər amili vahid birləşdirici rolu oynayır. Bunun tərkibi olaraq həm də iqtisadi bütövlüyün yaradılması da böyük əhəmiyyət kəsb edir. Kiçik xalqları vahid coğrafi regionda sülh və sabitlik şəraitində əməkdaşlığa cəlb etmək, onları bir araya toplamaq üçün liberal və təsiredici dərin məzmunlardan istifadə etmək lazım gəlir. Regional sistemlərin liberal əsaslarla qurulması region ünsürlərinin toplanmasına yardımçı olur və onların mərkəzləşməsinə kömək edir**. Burada ilk növbədə region iqtisadiyyatının region xalqlarının sosial-rifahının zənginləşməsinə doğru istiqamətləndirilməsi mühüm təsiredici əhəmiyyət kəsb edir.**

Region amili həm də xalqlarda oxşar mədəniyyəti meydana gətirir. Bu mədəniyyət həmin xalqların dini inanclarından tutmuş, adət-ənənələrinə, bu baxımdan həyat tərzinə, milli

xarakterinə və s. təsir göstərir. Vahid regionda yaşamaq amili həmin regionda yaşayan xalqların oxşar milli xüsusiyyətlərinin uyğunlaşması proseslərini formalaşdırır. Qonşuluq amili milli xarakteri formalaşdıran ünsürlərin uyğunlaşmasına və bənzəməsinə və bu baxımdan oxşar trayektoriya almasına şərait yaradır. Region burada uyğunluq və sintez, eləcə də harmonik əlaqələr məsələsində vahid ideoloji xətləri müəyyən edir. Yəni hər şey **vahid region**, **eyni region**, ümumilikdə isə **liberal məzmunlu regionçuluq** ideyası amilindən başlayır. Mədəniyyətin genetikası (mənşəyi) onu daşıyan ünsürlərin yaşayış məskənlərinin coğrafi xüsusiyyətlərinə də bağlı olur. **(Qeyd:** bir regionda yaşıyan xalqlar çox zaman eyni morfoloji quruluşa malik olurlar. Məsələn, yerli Qafqaz xalqlarının əksəriyyəti böyük ağ irqin cənub qoluna aid olunurlar. Burada yaşayan noqayların morfoloji quruluşunda isə monqoloid (sarı) irqin əlamətləri hiss olunur. Azərbaycanlılar isə ağ irqin cənub qolunun Kaspi qrupuna aid edilirlər). Yəni təbiətdən kənar mədəniyyətin genetikasını axtarmaq düzgün deyil. Mədəniyyət insanları təbiətə bağlayan, onların həyat tərzini şərtləndirən normalar və qaydalar sistemidir. Vərdişlər isə adət-ənənələri üzərə çıxarır.

Region komponentlərinin zənginliyi oxşarlıq və uyğunluq xətti çərçivəsində regionun güclü bir potensial mənbəyinə çevrilməsinə şərait yaradır. Hər bir xalq ümumregion sisteminə (mədəni və siyasi) öz töhfəsini verməyə çalışır. Ümumregion sistemində sayca çox olan xalqlar və mədəniyyəti zəngin olan xalqlar daha çox təsiredici olurlar.

Dünyanın ən zəngin regionlarından biri də Qafqazdır. Bu regionda xristianlıq, islam və buddizm kimi dinlər mövcuddur. Qafqazda Abxaz-adıq xalqları, Nax-dağıstan xalqları, Avar-Ando xalqları, Ləzgi xalqları, Vaynaxlar, Türkdilli xalqlar, Hind-avropalılar, Slavyan xalqları, İrandilli xalqlar, Semitlər (dağ yahudiləri və gürcü yahudilər), yunanlar və s. yaşayırlar.

Qafqazın zənginliyi həm onun daxili sistemində mövcuddur, həm də xarici sistemlərlə geniş əlaqəsində özünü göstərir. Qafqaz regionu şimal-cənub, qərb-şərq dəhlizi hesab olunur.

**Qafqaz regionun daxili və xarici əlaqələr sistemində zənginliyini aşağıdakı əsaslarla ümumiləşdirmək olar:**

-Avrasiyada mədəni və siyasi əsaslarla yüklənmiş coğrafi mövqeyi: Avropa ilə Asiyanın qovşağında yerləşməsi- region Avropa və Asiyanı ayırmır və əksinə, hər ikisinə məxsus olan çaları özündə cəmləşdirir və bununla da körpü rolunu oynayır və həm də mədəniyyətlərin **“suqovuşan”** hissəsini təşkil edir. Qafqazda Şərq mühafizəkarlığı ilə Qərb islahatçılığı arasında bir mədəni-mənəvi kompozisiya yaranır. Bununla yanaşı, bölgə “soyuq şimal” ilə “isti cənub” arasında mülayim bir mühitin formalaşmasında əvəzsiz rol oynayır;

-beynəlxalq dinlərin qovuşmasında və tolerantlığın meydana gəlməsində mühüm rola malikdir;

-Qafqazın iqlim şəraiti regionun kənd təsərrüfatının inkişafında əvəzsiz rola malikdir. Belə heab etmək olar ki, region dünyanın ən əlverişli kənd təsərrüfatı məkanlarından biridir;

-Qafqazın təbii ehtiyatları mövcuddur, eləcə də təbii relyefi və resursları burada regional və beynəlxalq turizmin yaranmasına xidmət edir;

-Avrasiyada əlverişli mövqeyi ilə regional və regiondan kənarda olan böyük dövlətlərin regional maraqlarının formalaşmasındakı proseslərdə mülayim mövqeyi. Şərqin, məsələn, Mərkəzi Asiyanın və Çinin Qərbə iqtisadi, siyasi və mədəni çulğaşmasında təkanverici əhəmiyyəti mövcuddur;

-Qafqaz xalqlarının özündə islahatçılığa (məsələn, liberal həyat tərzinə meyil etmək) meyilin olması və böyüklük

əlamətinin dinlərarası dialoqun formalaşmasında rol oynaması amilləri mövcuddur və s.

Qafqaz xalqlarının oxşar mədəniyyəti, bu baxımdan uyğun adət-ənənələri, musiqiləri (rəqsləri və çalğı alətləri), geyim formaları (milli geyim formaları) mövcuddur. Qafqaz çoxlu sayda xalqların yaşadıqları zəngin bir regiondur. Qafqazın təbiəti də çox zəngindir. Qafqazda xristian və islam dininin çox münasib bir vəhdəti vardır. Burada həmçinin yahudilər də yaşayırlar. Buna görə də dinlərarası (müsəlman, xristian və yahudi dinləri) dialoqun (məsələn, Azərbaycanda) nümunəvi forması meydana gəlmişdir. Region Qara dəniz və Xəzər dənizi arasında və şimal ilə cənubu birləşdirən əlverişli bir məkanda yer almışdır. Həmçinin dünyanın **“siyasi bel qürşağı”** məkanına aiddir. Xəzər regionunun da Avropaya iqtisadi inteqrasiyasında Qafqazın rolu əvəzedilməzdir.

Qafqaz regionu da tarixi mürəkkəblikləri yaşamışdır. Qafqaz xalqları arasında tarixən müharibələr baş vermişdir və bu region Rusiya, Türkiyə və İranın, həmçinin Avropanın maraq dairəsində olmuşdur. Hal-hazırda qlobal güclərin regional maraqları ucbatından Qafqaz həllini tapmayan münaqişələr mənbəyinə çevrilmişdir. Münaqişələrin aradan qaldırılmasında, xalqlararası mehribançılığın təmin olunmasında Qafqazın **daxili münasibətlər və əlaqələr sisteminin möhkəmləndirilməsi** vacib əhəmiyyət kəsb etməkdədir. Bunun üçün bir çox regional inteqrasiya məqsədilə zəruri addımların atılması zəruridir. Qafqazın daxili sisteminin sağlamlaşması mühüm əhəmiyyətə malikdir.

Harmonik münasibətlər regionun formalaşması üçün görüləcək tədbirlər içərisində aşağıdakıları qeyd etmək olar:

**-Qafqaz mədəni, siyasi və iqtisadi ittifaqının yaradılması.** (Belə ideyalar 1990-cı illərdə irəli sürülmüşdür). Burada Azərbaycanın iqtisadi potensialı, coğrafi mövqeyi və

resursları böyük rol oynaya bilər. İqtisadi güc mərkəzləşdirici amil kimi əhəmiyyət kəsb edə bilər. İttifaqda mərkəzi qüvvəni Azərbaycan təşkil edə bilər ;

-**Qafqazın beynəlxalq silahsızlaşdırılma zonasına çevrilməsi**-regionun ayrı-ayrı zonalarının tam silahsızlaşdırılmış, hərbisizləşdirilmiş elan edilməsi, Qafqazda **"sülh qoruqları"** məskənlərinin və ərazilərinin yaradılması;

-**Cənubi Qafqaz ölkələrinin beynəlxalq bitərəf statuslu ölkələr kimi elan olunması, hərbi ittifaqlardan, birliklərdən kənarda saxlanılması;**

-**Cənubi Qafqazın "hərbi texnikanın hərəkətsizliyi" zonası kimi beynəlxalq aləmdə elan olunması;**

-Mədəniyyət istiqamətində: vahid Qafqaz musiqisinin bəsətələnməsi və geniş ifası; birgə incənət əsərlərinin yaradılması; birgə teatr tamaşalarının oynanılması; vahid Qafqaz ədəbiyyatının meydana gəlməsi (Sovet dövründə belə xarakterli siyasət həyata keçirilibdir), ümumilikdə isə yeni "Qafqaz xalqı" anlayışının möhkəmləndirilməsi;

-**Qafqaz ölkələrində beynəlxalq sülh və humanitar forumlarının növbə ilə keçirilməsi** (Azərbaycanda beynəlxalq humanitar forumlar keçirilir və bu, ənənə halını almaqdadır);

-**Qafqazın beynəlxalq sülh tədbirləri mərkəzinə çevrilməsi**-dünyanın ayrı-ayrı regionları üzrə sülh danışıqlarının Qafqazda da təşkil edilməsinin həyata keçirilməsi. Qafqazın **"sülh diplomatiyası mərkəzi"** kimi tanınması;;

-**"Müasir Qafqaz gəncliyi"** ideyasının silsilə şəkilində təbliğ edilməsi və Qafqaz gəncləri təşkilatlarının yaradılması;

-**Qafqaz xalqları arasında tele- körpülərin, internet ünsiyyətin gücləndirilməsi**;

-**Qafqaz məktəbliləri düşərgələrinin yaradılması və Qafqaz bilik olimpiadalarının keçirilməsi**;

-Qafqaz gəncləri və yeniyetmələri arasında birliyi və əbədi barışı yaratmaq üçün **kütləvi formalı idman yarışlarının,**

**məsələn, Qafqaz futbol, voleybol çempionatlarının keçirilməsi, təşkilati məqsədlər üçün idman federasiyalarının təşkil edilməsi;**

**-Bütün regionda yayımlana biləcək və Qafqaz dillərində verilişlərin efirə yayılmasını təmin edən "Qafqaz" televiziyasının və radiosunun yaradılması;**

**-cəmiyyətlərin ayrı-ayrı birlikləri arasında şuraların, ittifaqların təsis edilməsi;**

**-"Qafqaz bayramı" gününün təsis olunması;**

**-"Qafqaz gözəllik müsabiqələri"nin keçirilməsi;**

**-"Qafqz evləri" mədəniyyət mərkəzlərinin yaradılması;**

**-Ümumqafqaz mədəni və iqtisadi rəmzlərinin təsis olunması;**

**-"Avropa İttifaqı"nın Rusiya, Cənubi Qafqaz respublikaları, İran və Türkiyə, eləcə də Xəzər və Qara dəniz regionları üçün iqtisadi, mədəni və siyasi münasibətlərdə bir model kimi tətbiq edilməsi;**

**-Qafqaz istirahət düşərgələrinin (Qafqaz turizminin) yaradılması;**

**-Qafqaz beynəlxalq konqreslərinin, konfranslarının keçirilməsi və s.**

**Əhəmiyyəti:**

-regionun daxili sisteminin güclənməsi və regionun mühafizəkarlığının (burda liberal əsaslarla genişlənmə, birləşmə formasında) artması;

-region ölkələri arasında birliyin yaradılması;

-regionda liberallığın və açıq cəmiyyətlərin inkişafı;

-münaqişələrin həllinə kömək;

-dinlərarası dialoqun daha da möhkəmləndirilməsi;

-"Qafqaz monokulturalizmi"nın möhkəmləndirilməsi;

-dünyada silahsız və hərbisiz zonaların yaradılması təcrübəsinin meydana gəlməsi;

-sərhədsiz regionlar təcrübəsinin genişləndirilməsi;

-Qafqazın beynəlxalq mülki mərkəzlər kimi elan olunması;

-regiona böyük dövlətlərin təzyiqinin azalması və onlar arasında barışdırıcı, neytrallaşdırıcı məkanın yaradılması və s.

## Azərbaycan elminin problemləri, gələcək inkişaf istiqamətləri və əsasları-Azərbaycan Milli Elmlər Akademiyasında islahatların zəruriliyi

Hər birimizə məlumdur ki, dövlətlərin və cəmiyyətlərin tərəqqisi, eləcə də bəşəriyyətin qorunub saxlanılması və ümumilikdə bəşəri xidmətlərin yüksək səviyyəsinin təmin edilməsi elmin nailiyyətlərindən, nəticələrdən (rasional təfəkkür məhsulundan) çox asılıdır. Burada həm texniki elmlər və onların nəticələri olan texnoloji vasitələr, həm də müvafiq texnoloji vasitələri həyatın istifadəsinə yönəldən ictimai-humanitar elmlərin xidməti amili diqqəti cəlb etməkdədir. Elm-cəmiyyət, elm-dövlət vəhdətinin əlverişli sintezi və ortaya qoyulan səmərəli nəticələr (nalizlər) ümumilikdə insan həyatının avanqard komponentini və kompleksini təşkil etməkdədir. Elmin inkişaf problemi və insanlıq üçün xidmət səviyyəsinin daima yüksək olması hər zaman cəmiyyəti, elm elitasını düşündürən başlıca problem olaraq qalmaqdadır. Tarix boyu elmin əldə etdiyi nəticələr və onların həyata tətbiqi məhz zamanın inkişafı kateqoriyasını üzərə çıxarmışdır. İnkişaf zamanla öz mütənasibliyini elmin nəticələri ilə əldə edə bilmişdir.

Bütün dünya üzrə vahid, həm də universal əsaslı inkişaf prinsiplərinin təmin olunması üçün **“vahid dünya elmi”** *(dünyanın bütün elm potensialının ayrı-ayrı tərkib hissələrdən ibarət olan vəhdət şəklində elə dünyanın özünə xidmətə yönləndirilməsi əsasları ilə)* ideyası daima bütün bəşəriyyəti düşündürən başlıca prioritet istiqamətlərə çevrilmişdir. Bütün qlobal disskussiyaların mahiyyətini elmin texniki vasitələri və

onlardan istifadənin əsasları təşkil etmişdir. Elmi-texniki vasitələrin müvafiq zaman tezliyi ilə əldə olunması və bu vasitələrdən istifadənin əsas prinsiplərinin, o cümlədən təyinatı istiqamətlərinin müəyyən edilməsi hər an elm və ictimai-siyasi birlikləri düşündürən amilə çevrilmişdir. Elm və onun xeyirxahlığı, bütün insanlara layiqli xidmətlər göstərməsi, insan hüquqlarının inkişafına və qorunmasına yönləndirilməsinin nəzəri və təcrübi əsasları ümumdünya fəlsəfəsinin başlıca mahiyyətini təşkil etmişdir.

Azərbaycan elmi də XX əsrdə vahid dünya elminin tərkibində özünəxas yerləri tutmuş və dünyaya layiqli alimlər, dərin düşünən "beyinlər" bəxş etmiş və bir çox sahələrdə elmi nailiyyətlərin nəticələrini hədiyyə etmişdir. XX əsr boyu və xüsusilə, **Milli Liderimiz Heydər Əliyevin** ölkəmizə rəhbərliyi dövründə Azərbaycan elmi və onun yetişdirdiyi mütəxəssislər Sovet elmşünaslığının və dünya elminin aparıcı üzvlərinə çevrilmişlər.

Qloballaşma mərhələsi ilə və bundan irəli gələrək elmin cəmiyyətlər üçün daha da açıq xidmətə yönləndirilməsi ilə xarakterizə olunan XXI əsr ölkəmiz və elmimiz qarşısında tamamilə yeni postulatları müəyyən etmişdir. Bu tələblər başlıca olaraq sürətlə dəyişən cəmiyyətlərdə Azərbaycan cəmiyyətinin statusunu, eləcə də xalqımızın elmi potensialını yüksək səviyyədə saxlamaqdan ibarətdir. İnkişafın yeni-yeni dalğalarını qəbul edən ölkəmizdə Azərbaycan elminin bu inkişaf dalğalarına yeni impulslar verməsi zamanın reallıqları ilə ayaqlaşmaq tələblərini ortaya qoymaqdadır. Son dövrlərdə sürətlə inkişaf edən ölkədə Azərbaycan elminin inkişafı və bu inkişafın cəmiyyətin və dövlətin mövcud və gələcək inkişafını şərtləndirməsi prioritet məqsədə çevrilmişdir. İnsan kapitalını gələcək inkişaf üçün əsas götürən ölkə rəhbəri cənab **İlham Əliyev** innovativ və texnoəsaslı iqtisadiyyatın təşkili (texniki vasitələrdən maksimum yararlanma və texnika ilə təsir obyektinin və subyektinin əlverişli vəhdəti) siyasətini həyata

keçirməkdədir ki, bu amil də məhz rasional və pozitiv məzmunlu sistemli cəmiyyətin və dövlətin qurulmasına söykənməkdədir.

Həmin məqsədlərdən irəli gələrək ölkəmizin kifayət qədər elmi potensialı olan elm müəssisələrinin qarşısında bu gün bir çox suallar qoyulmaqdadır. Həmin suallardan ən çoxu elm müəssisələrinin və bu müəssisələrdə toplaşan alimlərin ölkəyə nə dərəcədə xidmət etmələrinin əsaslarını aşkarlamaqdan ibarətdir. Alim və onun fəaliyyətinin səmərəli nəticələri, elm müəssisələrinin gəlirliliyi prinsipləri bu gün dövlətimizi və ümumilikdə xalqımızı düşündürən ən başlıca prinsiplər sırasında yer almaqdadır.

Belə qərara gələ bilərik ki, milli elmimiz xalqımıza layiqli xidmət etmək məqsədilə öz qarşısında öhdəlik və məsuliyyət olaraq bu kimi baza istiqamətləri  müəyyən etməlidir:

-dünya elminin nailiyyətlərini mənimsəmək, ölkədə qarşılamaq və bu elmi nəticələrə öz təkmilləşdirici və səmərələşdirici töhfəsini bəxş etmək və təkrarən dünyaya yaymaq. Elmdə bir-birini əvəz edən cərəyanların formalaşmasında iştirak etmək. Bununla da elmi nailiyyətlərin dövriyyəsində iştirak etmək, **təkmilləşdirici mərkəz** rolunu oynamaq;

-öz nailiyyətləri ilə digər ölkələrin nəticələrini qabaqlamaq və bu nəticələri ölkədə və dünyanın digər məkanlarında yüksək səviyyədə təqdim etmək. Dünyada birincilərdən olaraq **təqdimedici mərkəzə** çevrilmək.

Bununla bərabər, dövlətimizin və elmimizin qarşısında duran əsas **həlledici məsələ** məhz mövcud inkişaf tempi ilə gələcək inkişaf tendensiyaları və gözlənilə bilən sürətli inkişaf vəziyyətləri və prosesləri arasında vahid və qırılmaz əlaqələrin yaradılmasını və bu baxımdan da dinamizmin qorunub saxlanılmasını, həmçinin yeni dinamik elementlərin əlavə edilməsini təmin etməkdən ibarət olmalıdır. Bu məqsədlə, ölkə elminin əsas aparıcı subyekti və mərkəzi olan **Azərbaycan**

**Milli Elmlər Akademiyasının** və onun elmi-tədqiqat mərkəzlərinin, institutlarının üzərinə gələcək fəaliyyət yolunda böyük bir məsuliyyət düşür. Bu məsuliyyət AMEA-nın strukturlarının üzərinə düşən məqsəd və vəzifələri əhatə etməkdədir. Həmin **məqsəd** və **vəzifələrin** universal və xüsusi olmaqla, nəzəri və təcrübi əsaslara söykənərək aşağıdakılar olması qənaətinə gəlmək olar:

***Məqsədlər olaraq-ümumi müddəalar,***

-Azərbaycan elminin inkişaf dinamikasını ölkənin iqtisadi və sosial inkişaf dinamikası ilə **vəhdətdə** birləşdirmək, bu baxımdan elm və inkişafın kompleks mahiyyətini yaratmaq. Azərbaycan iqtisadiyyatı, təsərrüfatı ilə elmin səmərəliliyə söykənən üzvi və maddi sintezini təmin etmək. Həmin məqsədlərə çatmaq üçün vəzifələrin istiqamətlərini müəyyənləşdirmək. Silsilə xarakteri kəsb edən yeni elmi ideyalar və təkliflər irəli sürmək;

-Azərbaycan elmini ölkənin gələcək inkişaf vəziyyətini təmin etməyə yönəltmək, bu məqsədlə bütün elmi layihələri və planları gələcək inkişaf tendensiyalarının ***nəzəri əsaslarına*** istiqamətləndirmək. ***Təcrübi əsasları*** isə mövcud inkişafla gələcək inkişaf arasındakı real bağlılığı təmin etməyə yönləndirmək. Bu baxımdan ölkənin zaman ardıcıllığı əsasları ilə qırılmaz inkişafını təmin etmək məqsədilə icrası mümkün olan gələcək **yeni layihələrin nəzəri əsaslarını** işləyib hazırlamaq. Bu yöndə mövcud və gələcək tərəqqi arasında daxilən genişlənən **mücərrəd bütöv paneli** yaratmaq;

-cəmiyyətin və dövlətin elmə köməyini və dəstəyini artırmaq;

-elmi araşdırmaların real həqiqi əsaslarını və sistemli qaydalarını yaratmaq;

**-elmi qeyri-elmi şəxslərdən, həqiqi elmə mane olan yalançı alimlərdən, süni yaradıcılardan, "elmi şikəstlərdən"**

**təmizləmək. (həmin şəxslər elmdə sterotiplərin formalaşmasında baza ünsürlər rolunda çıxış edirlər və elmin inkişaf trayektoriyasında tormozlayıcı rolu oynayırlar);**

-elmdə piratçılığın, mülkiyyət oğurluğunun, saxta həmmüəllifliyin (başqasının intellektual mülkiyyətinə heç bir haqq olmadan şərik olma hallarının) qarşısını almaq;

-elmi saxtakarlıqlara rəvac verən **"məmur –alim", "deputat-alim"** adlarını yığışdırmaq;

-cəmiyyətdə dəbə minmiş "nazir-alim", "deputat-alim" adlarının hörmətzis olmasını bəyan etmək;

-saxta yollarla elmi dərəcələrin və elmi adların verilməsinin qarşısını almaq (bunlar elmin yolundakı maneələrdir, şablonlardır);

-həqiqi elmə yol açmaq və elmdəki manipulyasiyaların qarşısını almaq;

-sərbəst yaradıcılığı gücləndirmək, bu baxımdan fəlsəfə, məntiq və elmin vəhdətini yaratmaq;

-həqiqi elmdə alimlər üçün **"açıq qapı"** siyasətini tətbiq etmək;

-dünya elminin səviyyəsinə çatmaq və bu məqsədlə dünya elminə sürətli və ardıcıl inteqrasiyanı təmin etmək;

-qloballaşma şəraitində dünya inkişafı ilə ayaqlaşmaq və bu yöndə Azərbaycan elminin xidmət istiqamətlərini müəyyən etmək;

-ölkəyə və ümumilikdə bəşəriyyətə xidmət etməyi başlıca amala çevirmək;

-Azərbaycan elminin cəmiyyətdə statusunu və mövqeyini möhkəmləndirmək;

-Azərbaycan elminin dövlət quruculuğu siyasətində iştirakını yaxından təmin etmək, bu baxımdan **dövlət-elm vəhdətini** və elmin dövlətə, dövlətin elmə xidmət etməsi ideologiyasının yeni əsaslarını müəyyən etmək;

**-elmi elmlə məşğul olan şəxslər üçün faydalı bir peşə sahəsinə çevirmək;**

**-elm sahələrinin birbaşa və dolayı gəlir yollarını müəyyən etmək;**

**-gənclərin elmə həvəsini artırmaq və elmlə məşğul olmağa təşviq etmək, alimlərin yetişdirilməsi ardıcıllığını təmin etmək;**

-yaşlı alimlərin təcrübəsindən faydalanmaq və yaşlı alimlərin sosial qayğısını gücləndirmək;

-elm adamlarının cəmiyyətdə və dövlətdə nüfuzunu gücləndirmək;

-Azərbaycan alimlərini, bilik və bacarıqlarına, elmi nailiyyətlərinə görə dünya alimləri səviyyəsinə qaldırmaq və bunun üçün müvafiq resursların kompleks təminatını həyata keçirmək və s.

***Vəzifələr olaraq-ümumi müddəalar (məqsədlərə çatmaq üçün):***

-Yuxarıda sadalanan məqsədlərə çatmaq naminə, eləcə də gələcək elmi tərəqqi yolunda **"Azərbaycan elmi 2020-gələcək üçün tərəqqi"; "Azərbaycan elmi: 2030-gələcək inkişaf naminə"** və s. adlana biləcək Azərbaycan elminin ardıcıl əsaslı **gələcək inkişaf konsepsiyalarını** hazırlamaq və bu konsepsiyalarla elmi mərkəzlər (institutlar, tədqiqat birlikləri) üzərində normalar şəklində konkret tapşırıqlar müəyyən etmək. Yaxın 20-30 ili **"Azərbaycan elmində köklü islahatlar və tərəqqi dövrü"** kimi xarakterizə etmək və AMEA-nın siyasətində bu ideyanı baza prinsip kimi müəyyən etmək;

-ölkədə "elm ili"ni, "elm aylıqlarını" bəyan etmək və elmin hesabatını cəmiyyətə açıqlamaq;

-dünya elm müəssisələri ilə ikitərəfli əməkdaşlığı gücləndirmək və həmin müəssisələrə dəyərli elmi əsərləri və ixtiraları təqdim etmək;

-qloballaşma şəraitində dünyanın təsərrüfat və elm subyektləri ilə əlaqələri gücləndirmək, dünya iqtisadiyyatında aparıcı mövqeyə malik olan **transmilli korporasiyalarla** (böyük kapital dövriyyəsinə malik olan elm, innovasiya və digər fəaliyyət xarakterli şirkətlərlə) əlaqələri təmin etmək. Yeni ixtiralar və kəşflər hesabına dünyanın elmi və texnoloji aləmi ilə ayaqlaşmaq. Yeni elmi məhsulların istehsalını təmin etmək və dünya bazarında bu məhsullara realizə məkanları əldə etmək;

-Azərbaycan Milli Elmlər Akademiyasına, ümumilikdə isə elmə maddi-material köməyi nəzərdə tutan kənar **ictimai yardım fondlarının (ayrı-ayrı imkanlı şəxslərdən-fiziki və hüquqi şəxslərdən)** təşkilini həyata keçirmək;

-elmin bəşəriyyətə və ölkəmizə xidmət etməsi üçün elmi fəaliyyətin nəticələrini təkliflər əsasında müəyyən etmək və bu baxımdan da zəruri olanı və tələb olunanı aşkarlamaq və yeni tələblərə çevik reaksiyaları bildirmək;

-Azərbaycan elminin cəmiyyətdə mövqeyini möhkəmlətmək üçün alim qarşısında **dəyərli əsərləri üzərə çıxarmaq tələbini** qoymaq və bunun müqabilində alimləri yüksək səviyyədə mükafatlandırmaq;

-dövlətin inkişafı məqsədilə yeni siyasət istiqamətlərinin müəyyən olunması üçün dövlət qarşısında **yeni-yeni təkliflərlə** (humanitar və texniki sahələrdə yeni-yeni layihələrin hazırlanması təklifi ilə) çıxış etmək. Dövlət siyasətinin istiqamətlərinin nəzəri əsaslarının müəyyən olunmasında Azərbaycan alimini **mərkəzi subyektlərdən biri** (alim fikirlərinin və tövsiyəsinin nəzərə alınması) kimi müəyyən etmək və bu yolla da dövlətdə elmin nüfuzunu gücləndirmək;

-alimin ölkə iqtisadiyyatında və ümumilikdə ölkə həyatında özünün yerinin fərdi olaraq müəyyən olunmasını təmin etmək. Cəmiyyətdə **böyük məktəbləri olan alimlər nəslinin** yetişməsini təmin etmək. Alim üçün **“mən cəmiyyətdə və dövlətdə kiməm”** özünüdərk fəlsəfəsinin

formalaşmasının əsaslarını meydana gətirmək və bunun üçün **qabaqcıl alimləri fərqləndirmək (onları həvəsləndirmək, onları təltif etmək)** siyasətini həyata keçirmək;

-elmi maddi-material reurslar əldə etməyə istiqamətləndirmək və s.

**XÜSUSİ HİSSƏ:**

**Azərbaycan elminin inkişafı üçün müəyyən olunan məqsədlərdən və vəzifələrdən irəli gələn yeni ideyalar və təkliflər (Təkliflər əsasən, təşkilati əhəmiyyət kəsb edir)**

Azərbaycan elmində islahatlar əsasən kompleks əhəmiyyət kəsb etməklə, həmçinin ümumi (universal prinsiplər üzrə tələblər) və xüsusi (konkret və tələb olunan xüsusi amillər) tələblərə cavab verməklə **iki baza məzmunu** özündə əks etdirməlidir: **birincisi,** Azərbaycan Milli Elmlər Akademiyasının mövcud fəaliyyətinin **ölkədaxili və ölkəxarici iqtisadiyyat sahələri** ilə birləşdirilməsi yolu ilə genişlənməsi; **ikincisi,** bu genişləndirmə fəaliyyəti ilə yanaşı, AMEA-nın fəaliyyətində, eləcə də daxili strukturunda müəyyən islahatlar yolu ilə stereotiplərin (şablonların) təmizlənməsi. Bu prosesdə Azərbaycan alimində **"özünüdərk"** fəlsəfəsinin (şərəfli bir alim adı ilə xidmət göstərmək) əsaslarını müəyyən etmək vacibdir.

Onu da nəzərə almaq lazımdır ki, ideya və təkliflərin konkret əsasları Azərbaycan elmində islahatlar adı ilə iki paralel əsaslı baza mərhələyə bölünə bilər. Bu mərhələdən birincisi, **makroislahatlar qolu (bu qol həm də AMEA-nın yerli və xarici subyektlərlə əlaqələri fonunda formalaşmalı),** ikincisi isə makroislahatlara xidmət edən və onunla ümumi əsası təşkil edən və tərkib əhəmiyyəti kəsb edən **mikroislahatlar (daxili islahatlar) qolu**.

Azərbaycan elminin inkişafı üçün qarşıya qoyulan məqsədlər və vəzifələrdən irəli gələrək, həmçinin bu məqsəd və

vəzifələri normalar şəklində özündə əks etdirən müddəaların, bu baxımdan ideya və təkliflərin aşağıdakılardan ibarət olması qənaətinə gəlmək olar:

## I BÖLMƏ

### Elmin inkişafına dair müzakirə olunan məsələlərlə bağlı mövzular

**"Azərbaycan elminin mövcud problemləri və gələcək perspektivləri", "Azərbaycan elmi: mövcud problemlər və gələcəyə çağırışlar", "Azərbaycan elminin mövcud problemləri və çıxış yolları", "Dövlət, cəmiyyət və elm", "Elm və gələcək inkişaf", "İnsan hüquqları və elmin xidmətləri", "Humanitar problemlər və elmi düşüncələr", "Elmin inkişaf problemləri və həlli yolları", "Azərbaycanda texnocəmiyyətin qurulması və elmin rolu", "Dünya azərbaycanlı alimləri və əlaqələr yolları"**

## II BÖLMƏ

### Makroislahatlar istiqaməti

***Struktur baxımından yenilikər və dəyişikliklər, elm-iqtisadiyyat vəhdəti***

1. Ümumdövlət büdcəsi nəzdində xüsusi olaraq **"Elm büdcəsi"**nin yaradılması təklifi ilə hökumət və dövlət qarşısında çıxış etmək. **(Qeyd:** 2014-cü ilin proqnozlarına əsasən dövlət büdcəsi xərcləri içərisində elm xərcləri təqribən 147 milyon manat (dövlət büdcəsi xərclərində 0,7 faiz payla) proqnozlaşdırılır ki, bu da 2013-cü ilə nisbətən 12,5 faiz

çoxdur.[1] Dövlət ayırdığı pulu (birbaşa və dolayı yolla, yəni ayrı-ayrı sahələrə elmin tətbiqi üsulu ilə həmin sahələrin təkmilləşdirilməsi) daha çox qazanmalıdır. Çünki elm daima gəlirlərə (digər sahələrə tətbiqdə-ixtiraçılıqda, innovasiyalıqda, kəşflərdə və s.) xidmət etməldir. Elm problemi həll edirsə, deməli, nəticəsi də faydalı olmalıdır. Elmin nəticəsi çoxistiqamətli və sistem xarakterli olmalı və ümumi halda iqtisadiyyatın şəbəkələnməsinə, təkmilləşməsinə xidmət göstərməlidir. Bu baxımdan da "Elm büdcəsi" dövlət büdcəsi içərisində ayrıca yer tutmalıdır.

*Təklifin əhəmiyyəti*-elmin dövlət qarşısında məsuliyyətini və öhdəliyini artırmaq, elmin vəzifəsini genişləndirmək bu baxımdan elmin **xərcləri** və **gəlirləri** məsələsini xüsusi olaraq önə çəkmək. Gəlir və xərc hesabatlarını səmərəli etmək. "Elm büdcəsi" nin yaradılması ilə dövlətdə "**xüsusi gəlirli elmi fəaliyyəti"**ni müəyyən etmək.

2. AMEA-ya öz fəaliyyətini genişləndirmək və çoxlu sayda gəlirlər əldə etmək məqsədilə, "**geniş təsərrüfat hesablı subyekt fəaliyyəti statusu"**nun verilməsi.

3. Makroislahatların tərkibi olaraq, AMEA ilə iqtisadiyyat sistemi arasında üzvi sintezin və vəhdətin yaradılması üçün AMEA-nın fəaliyyətinin genişlənməsi (mövcud struktur fəaliyyətindən kənara çıxması) əsaslarından irəli gələrək, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitlərdən əlavə özünün bir subyekt kimi gəlirlərini artırmaq məqsədilə, AMEA-nın iqisadiyyatla məşğul olan şirkətlərinin təsis edilməsi. ***Əhəmiyyəti***-AMEA-nın iqtisadiyyatla (istehsalat, ticarət, sərmayə qoyuluşu, ictimai-iaşə və xidmət, turizm və s. sahələrlə) məşğul olması ölkədə elmin iqtisadiyyat sistemində yerini və rolunu artıra bilər. Bununla yanaşı, gəlirlər hesabına AMEA öz daxili büdcəsini genişləndirər və elmtutumlu

---

[1] **Azərbaycan Respublikası Maliyyə Nazirliyi. Azərbaycan Respublikasının 2014-cü ilin dövlət və icmal büdcələrinin layihələrinin təqdimatı. www.maliyye.gov.az/sites/default/files/2014-1.pdf.**

layihələrin icrası təmin olunar. AMEA-nın gəlirlərinin artması alimlərin maddi-sosial vəziyyətlərinin yaxşılaşdırılmasına səbəb olan amillərdən birinə çevrilər. AMEA-nın iqtisadiyyata açıq şəkildə cəlb olunması üçün AMEA-nın təsisçiliyi ilə böyük iqtisadi fəaliyyəti olan firma, şirkət və holdinqlərin (şirkətlər qrupunun) təsis olunması prosesləri həyata keçirilə bilər. Məsələn, **"Azelm" ("Azscience") holdinq, "ANAS (*Azerbaijan National Academy of Sciencies*) Holdinq" adlana biləcək** şirkətlər yaradıla bilər və onlara təsərrüfatla məşğul olmaq üçün böyük imkanlar, şəraitlər formalaşdırıla bilər. Bu şirkətlərin özlərinin müəyyən maliyyə fəaliyyətləri, o cümlədən bankaları təşkil oluna bilər. AMEA-ya məxsus olan şirkətlər qrupunun dövlətin xüsusi layihələrində payları ola bilər. Həmçinin xarici ölkələrin müvafiq şirkətləri ilə əlaqələri təmin etmək siyasəti də həyata keçirilə bilər. Ümumiyyətlə, bu şirkətlərin gələcəkdə **transmilli korporasiyalara** çevrilməsi də reallaşa bilər. Şirkətlər AMEA-nın elmi texniki nailiyyətlərinin innovasiyası ilə də məşğul ola bilərlər. Şirkətlərin gəlirləri hesabına AMEA-nın həm gəlirləri, həm də nüfuzu artar. Bu addım bazar üçün hesablanan yeni elmi-texniki nailiyyətlərin meydana gəlməsinə təkan verər. AMEA həmçinin öz məhsullarının ticarətini də həyata keçirə bilər. AMEA-nın ixtira etdiyi məhsullara asan yollarla innovasiya tətbiq olunar.

4. AMEA-nın SOCAR (*Azərbaycan Dövlət Neft Şirkəti*) ilə əlaqələrinin genişləndirilməsi və AMEA-nın yaradıla biləcək iqtisadiyyat şirkətinə enerji sektorunda müəyyən işləri həyata keçirmək üçün layihələrdə iştirak imkanlarının verilməsi. Bu yol da AMEA şirkətini iqtisadiyyatın əsas subyektlərindən birinə çevirər.

5. AMEA-nın şirkətlər qrupuna Azərbaycan hökumətinin layihələrində iştirak imkanlarının verilməsi və müəyyən güzəştlərin tətbiq olunması.

6.AMEA-nın dünya səviyyəsində əlaqələrini genişləndirmək üçün **Dünya Azərbaycanlı Alimlərinin**

**Konqresinin** təsis edilməsi. ***Əhəmiyyəti-*** xarici ölkələrədə yaşayan və xarici ölkə elm mərkəzlərində işləyən azərbaycanlı alimlərlə ikitərəfli (elmi institutlar arasında və AMEA ilə xarici ölkələrin elmi mərkəzləri arasında) əlaqələrin yaradılması və əməkdaşlığın gücləndirilməsi.

7. AMEA-nın əməkdaşları ilə dünya azərbaycanlılarının diasporalarının birgə fəaliyyətinin təsis edilməsi və genişləndirilməsi.

8. AMEA-nın beynəlxalq elm sərgilərinin və məhsul yarmarkalarının təşkil edilməsi və beynəlxalq elm sərgilərində geniş şəkildə iştirak etmək.

9. AMEA rəhbərliyinin qeyd etdiyi kimi, **texnoparkların** təşkil olunması. Gündəlik tələbat mallarının texniki təminatının və makrotexniki vasitələrin təşkil edilməsi.

## III BÖLMƏ

### Mikroislahatlar istiqaməti

Mikro islahatlar baza etibarilə daxilə (AMEA-nın daxili strukturuna) xidmət etmək və eləcə də makroislahatların tərkibinə çevrilmək və makro islahatları tamamlamaq üçün həyata keçirilməlidir. Mikro islahatlar tərkib olaraq, cəm halda makroislahatlara xidmət etməli və nəticə etibarilə AMEA-nın inkişafını şərtləndirməlidir. Mikro islahatlar ümumiyyətlə, bütün sahələri əhatə etməlidir. **Mikro islahatlar istiqamətində təkliflərin** aşağıdakılardan ibarət olması qənaətinə gəlmək olar:

1. Mikro islahatların birinci istiqaməti olaraq, AMEA-nın daxili strukturunda köklü islahatların həyata keçirilməsi və bu istiqamətdə humanitar sahələr üzrə fəaliyyət göstərən institutların fəaliyyətini işçilərin ştat vahidi üzrə iki mühüm bazaya ayırmaq məqsədəuyğun olar: bunlardan birincisi, **elmi tədqiqatçılar**, ikincisi isə elmi tədqiqatçıların fəaliyyətini

təşkil edən, onları iş şəraiti ilə təmin edən, şəraitlərini yaxşılaşdıran və digər mühüm təşkilati işləri həyata keçirən təşkilatçılar-**inzibati –texniki işçilər.** Elmi tədqiqatçılarla (elmi işçilərlə) əmək müqaviləsini **vaxtamuzd** yox, görülən işlərin, əldə olunan nəticələrin müqabilində **işəmuzd** əsasları ilə bağlamaq. ***Əhəmiyyəti***-tədqiqatçılarla səmərəli və faydalı nəticələri olan əmək müqaviləsinin imzalanması yolu ilə tədqiqatçıların sərbəst fəaliyyətinin təmin edilməsi və müəyyən zaman üçün onların üzərinə görəcəkləri işlərin tamamlamaq öhdəliyini qoymaq, keyfiyyət, sərbəstlilik, səmərəlilik, qənaətçilik prinsiplərinin vəhdətini yaratmaq.

2. Elmi tədqiqatçılarla institut (elmi mərkəz) rəhbərliyi arasında, eləcə də elmi tədqiqatçılarla Akademiyanın rəhbərliyi arasında **"səmimi və açıq"** ünsiyyət və səmimi əsaslı əmək münasibətlərinin formalaşdırılması. Bu baxımdan Akademiyanın Rəyasət Heyəti nəzdində **"açıq qapı"** prinsip ilə fəaliyyət göstərə biləcək **"Elm problemi Şurası"**nın təsis olunması.

3. Elmi tədqiqatçıların sosial problemləri ilə yaxından maraqlanmaq üçün Akademiya rəhbərliyi yanında **"Sosial Şura"**nın yaradılması.

4. İnstitutlarda və Akademiyada elmi tədqiqatçılarla açıq şərtlərə cavab verən **"Elmi disskusiya Şurası"**nın təsis olunması. Bu Şura həm də oxşar profilli institutların elmi tədqiqatçıları arasında birgə diskussiyaların həyata keçirilməsini təmin edə bilər. Bununla yanaşı, elmin istiqamətlərinin əsaslarını və gələcək araşdırmanın yönlərini də formalaşdıra bilər.

5. AMEA-nın nəzdində İnstitutların elmi əməkdaşlarının xaricdə yaşayan azərbaycanlı alimlərlə və onların işlədikləri müəssisələrlə əlaqələrini təşkil etmək və xarici əlaqələri istiqamətləndirmək məqsədilə **"Beynəlxalq Əlaqələr Şurası"**nın təsis olunması.

*Həvəsləndirmə və elmə cəlb etmə*

1. Elmi tədqiqatçıların həvəsləndirilməsi üçün hər il bir neçə nəfərə (dəyərli elmi əsərləri olan şəxslərə) tədqim oluna biləcək AMEA-nın **"Elm"** mükafatının **("Elm mükafatı-2014", "Elm mükafatı-2015" və s.)** təsis olunması. ***Əhəmiyyəti***-mükafatın təsis olunması dəyərli əsərlərin üzərə çıxarılmasına kömək edər, nəticə etibarilə dəyərli tədqiqatçıların maddi-sosial vəziyyətləri yaxşılaşar.

2. Humanitar elm sahələri ilə məşğul olan institutların (məsələn, İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu) elmi-tədqiqat fəaliyyətini iki mühüm baza istiqaməti üzrə formalaşdırmaq: **birincisi, nəzəri əsasların öyrənilməsi,** ümumfəlsəfi tezislərin sintez və analiz olunması; ikincisi, ümumtezislərdən və prinsiplərdən çıxış edərək, gündəlik baş verən (*Azərbaycanda və dünyanın digər ölkələrində, beynəlxalq münasibətlər müstəvisində*) hadisələrin diqqətdə saxlanılaraq təhlil olunması-insan hüquqları sahəsində həyata keçirilən **real (praktiki) siyasətin analizi.**

3. Təhlilçilərin (nəzəri və praktiki- gündəlik, aylıq, rüblük, illik və s.) əldə etdikləri elmi nəticələrin, gəldiklərin qənaətlərin bülletenlər (aylıq, rüblük, yarımillik, illik) şəklində çap olunmasını və dəyərli fikirlərin mükafatlandırılmasını təmin etmək.

4. AMEA-nın nəzdində müxtəlif dillər üzrə böyük bir **"Elmi-tərcümə məkəzi"**ni təsis etmək. ***Əhəmiyyəti***-elmi tədqiqatçıların dəyərli əsərlərinin tərcümə olunaraq çap olunması və dünyada yayımlanması.

5. Əsərlərin sərgisini həyata keçirən, kitabların satışını təşkil edən sərgi **salonlarının** və **yarmarkaların** təşkil olunması.

6. Xüsusi tədqiqatı olan alimlərin ictimai-elmi münasibətlərini tənzim edən **birliyin ("Elm məclisi"**nin**)** yaradılması.

*Fəaliyyətin təkmilləşdirilməsinin əsasları*

1. Əməkdə və tədqiqatda fərqlənən işçilərin **sosial qayğısını artırmaq** və onları Akademiya rəhbərliyinin diqqətinə daxil etmək.

2. Disskusiyada fəal iştirak edən, dəyərli elmi əsərlər qoyan işçilərə əlavə mükafatların verilməsini təmin etmək.

3. Dünya azərbaycanlı alimlərinə Akademiyanın **“fəxri akademikləri”** adının verilməsini təmin etmək.

4. Dünyanın məşhur alimlərinə Akademiyanın **“Fəxri akademiki”** adını vermək və onların Azərbaycan alimləri ilə mütəmadi görüşlərini təşkil etmək.

5. AMEA-nın elm adamlarını (ailələri ilə birlikdə) qısa müddətə xarici ölkələrə ezam etmək.

7. AMEA-nın kommersiya fəaliyyətini genişləndirmək. Elmi gəlirlərin nəticələri olaraq AMEA işçilərinə **yemək və müalicə kartlarını (sosial kartları)** təşkil etmək.

8. Azərbaycanda və xarici ölkələrdə **“Akademturizmi”** təşkil etmək və alimləri o məkanlara göndərmək. Qazanclar əldə etmək üçün Akademturizmin xidmət təkliflərini digər ölkələrə də göndərmək. Azərbaycanda xarici ölkə alimləri üçün **Akademturizm mərkəzlərini** yaratmaq.

9. Xarici ökələrdən və təşkilatlardan (beynəlxalq təşkilatlar) dünyanın ayrı-ayrı məskənlərində baş verən problemləri (humanitar fəlakətləri və risqləri) araşdırmaq və elmi qənaətləri üzərə çıxarmaq üçün **sifarişləri qəbul etmək.**

10. AMEA-nın xarici ölkələrdən müxtəlif istiqamətlər üzrə sifariş qəbul etməsini gücləndirmək.

11. Azərbaycanda fəaliyyət göstərən xarici ölkə şirkətlərindən layihələr şəklində sifarişlərin qəbuluna çalışmaq.

12. Beynəlxalq elm qrantlarını udmağa çalışmaq.

13. AMEA-nın ixtira etdiyi məhsulları beynəlxalq sərgilərdə sərgiləmək.

14.Dünyada və beynəlxalq aləmdə **“Azərbaycan alimi”** statusunu möhkəmləndirmək.

## Azərbaycanda təhsil və elmin vəhdəti. Yeni təhsil islahatları

Hər birimizə məlumdur ki, cəmiyyətin və dövlətin, ümumilikdə bəşəriyyətin texnoinkişafı və humanitar düşüncələr əsasən elm və təhsildən sıx asılıdır. Elm və təhsildən əldə olunan düşüncələrin (*fikirlərin, gəlinmiş qənaətlərin, bilik toplusunun və sistemləşdirici bilik faktlarının*) maddi-material aləmə tətbiqi, həmçinin humanitar elm sahələrində biliklərin qazanılması cəmiyyətin inkişafının dalğalanmasının əsaslarını meydana gətirmişdir. Bəşəriyyət ümumilikdə elm-təhsil vəhdətində daxili mahiyyətini zaman-zaman dəyişmək imkanlarına malik olur. Təhsil sisteminin mövcudluğu və təkmilləşməsi, elmi araşdırmaların nəticələri və onların öyrənilməsi, mənimsənilməsi də məhz cəmiyyətin ardıcıl şəkildə nəsillər üzrə maariflənməsində xüsusi vacib kriteriya rolunu oynayır. Elm və təhsilin vəhdəti daima cəmiyyətlərin və ümumilikdə xalqların **texnoşüurunun** inkişafına və xalqların rasionallaşmasına, fərdlərin və şəxslərin yetişməsinə yardımçı olur. XXI əsrin texnoəsr olmasını nəzərə alsaq, onda, belə müşahidələr aparmaq olar ki, elm və təhsil insan həyatında və insanın gələcək inkişaf tempi ilə ayaqlaşmasında çox böyük önəm kəsb etməkdədir. Kütləvi-informasiya vasitələri, xüsusilə, internet resursları (elektron vasitələr) dünyada baş verən bütün prosesləri tez bir zamanda bütün dünya üzrə yaymaq funksiyasını yerinə yetirir. Dünya bu gün **“vahid informasiya müstəvisi”**nə çevrilmişdir. Bu mücərrəd xarakterli bütöv müstəvi daxilində baza proseslərdən kənarda qalmaq elə dövlətin və xalqın özünün dünyanın inkişaf tempindən kənarda qalması anlamına gəlmək deməkdir. Sivilləşmənin əsas prinsiplərindən biri məhz “vahid informasiya müstəvisi”ndə hər bir cəmiyyətin və xalqın özünəxas yer tutmasından ibarət olmasıdır. Bu müstəvidə mövqenin müccərrəd məzmunlu kütləsinin çoxluğu həmin

xalqın və xalqın qurduğu cəmiyyətin fəaliyyətinin genişliliyindən meydana gəlir. Nə qədər dərin məzmunlu (burada faydaverici) və geniş əhatəli fəaliyyət mövcud olarsa, **“vahid informasiya müstəvisi”**ndə bir o qədər geniş yer tutmaq olar. Burada da elm və təhsilin rolu birinci dərəcəlidir. Elm və təhsildən əldə olunanlar “vahid informasiya müstəvisi”nə bol-bol dəyərli elementləri verməkdədir. Bu informasiya müstəvisinin tərkibindən faydalanmaq yeni elmi tədqiqatlar üçün müəyyən şərtləndirici əsasları verməkdədir. Elmi nailiyyətlərin təhsildə-ali və orta təhsildə- tətbiqi təhsil biliklərinin səmərəli olmasının əsaslarını meydana gətirməkdədir.

Təhsil Azərbaycan dövlətinin prioritet maraq sahəsinə çevrilmişdir. Azərbaycan təhsil sistemində üsulların tətbiqində hal-hazırda müqayisələrdən geniş istifadə olunur. Bu baxımdan ABŞ və Avropa təhsili, eləcə də klassik keçmiş təhsil forması müqayisə əsasında, analogiya tətbiq olunmaqla həyata keçirilir. Bunun nəticəsində isə yeni mahiyyəti özündə əks etdirən sintez meydana gəlir. Bu müqayisənin yeni nəticələrindən irəli gələrək, eləcə də qloballaşan XXI əsrdə yeni texnoloji postulatlar, humanitar çağırışlar, sosial-siyasi və elmi-fəlsəfi tələblərdən irəli gələn və 2009-cu ildə qəbul edilən “Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu” təhsil sahəsində çox geniş istiqamətləri özündə əks etdirməkdədir. Bu qanunun qəbulu və tətbiqi təbii ki, yeni təhsil (təhsilalma və təhsilvermə formalarını) qaydalarını meydana gətirmişdir. Bu qanunda dövlətin təhsil sahəsində hüquqi təminatı geniş aspektləri ilə əhatə olunmaqdadır. Dövlətin təhsil prosesini yüksək səviyyədə təşkil etməsi məqsədilə çoxistiqamətli vəzifə və öhdəlikləri müəyyən olunmuşdur. Həmin qanunla təhsil alan şəxslərin elm və təhsil hüquqları ümumiləşdirilmiş əsaslarla geniş şəkildə normalarla ifadə olunmuşdur.

Çoxlarımıza məlumdur ki, təhsil biliklərin ayrı-ayrı sahələr üzrə sistemli qaydada mənimsənilməsindən ibarət olan bir

prosesdir. Təhsilin təkmilləşməsi və sistemləşməsi (struktur baxımından), strukturların təkmilləşməsi təbii ki, təhsil sahəsində islahatların əsasını təşkil etməkdədir. Təhsil islahatlarında elm və onun nəticələrinin mənimsənilməsi zərurətləri xüsusi yer tutmaqdadır. Nailiyyətli, faydalar gətirici təhsil islahatlarında elm özünəməxsus yerə malikdir. Elmin əldə etdikləri nəticələr təhsil üçün bilik mənbəyi rolunu oynayır. Elm təhsildə faydaverici əhəmiyyət daşıyır. Təhsil də öz növbəsində elmin sahələri üçün kadrların (alimlərin, elmi işçilərin, digər tədqiqatçıların) yetişməsində böyük rol oynayır. Bu baxımdan da elm və təhsil vəhdətdə bir-birini şərtləndirir.

Elmi tədqiqatın nəticələrinin sistemli şəkildə orta, orta ixtisas və ali məktəblərdə tədrisi (öyrədilməsi) prosesi elə təhsil sisteminin əsas prosesini təşkil etməkdədir. **Bu gün sürətlə inkişaf edən bir zamanda elmi-tədqiqat bir mənbə və baza olaraq təhsil yolunda öz xidmətlərini verməlidir.** Elmi-tədqiqat təhsil tələbatlarını ödəməli və bu tələbatdan irəli gələn sifarişləri yerinə yetirməlidir. Təhsil tələbatları isə zamanın inkişaf tempinə uyğun olaraq meydana gələn zərurətdir. Təhsil və elmin vəhdəti və bu vəhdətin bir-birini zamanla tamamlaması –səbəb, nəticə, ehiyac, tələbat, zərurət (məsələn, inkişaf zərurətləri və tələbatları) təbii ki, inkişafın əsas sürətini yarada bilər.

**Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu** elmin (humanitar elmlərin) bir qolunu (bir sahəsini) mərkəzləşdirən elmi-tədqiqat mərkəzi olaraq, öz fəaliyyətini səmərələşdiricilik prinsipləri üzrə qurmaq strategiyasını müəyyən etmişdir. Bu elm müəssisəsi, qanunvericiliklə nəzərdə tutulmuş qaydada üzərinə düşən vəzifə və öhdəliklərdən irəli gələrək, zamanın inkişafa, eyni zamanda inkişafın zamana olan tələblərini ödəməyi qarşısına məqsəd qoyubdur. İnsan Hüquqları İnstitutu öz elmi nailiyyətlərini tədrislə, o cümlədən ali və orta təhsillə vəhdətini yaratmağa çalışmaqdadır və bu vəzifəni yerinə yetirməni özünə

borc bilir. Bu məqsədlə, təhsil sahəsində aşağadakı islahatların həyata keçirilməsini münasib hesab etməklə və gəldiyi elmi qənaətlərə müvafiq olaraq, eləcə də **“İnsan Hüquqları sahəsində Milli Fəaliyyət Proqramı”**na uyğun olaraq üzərinə düşən öhdəliklərdən irəli gələrək, İnstitut **Azərbaycan Respublikasının Təhsil Nazirliyi** qarşısında aşağıdakı təkliflərlə çıxış edə bilər:

***“İnsan hüquqları” anlayışının öyrənilməsinin əsas istiqamətləri və prinsipləri (ali məktəblər və orta ixtisas məktəbləri üzrə)***

***İstiqamətlər:***

-**insan hüquqları anlayışının** (məfhumunun) ali və orta ixtisas məktəblərində dünya təcrübəsi əsasında öyrənilməsi, bu baxımdan,

-anlayışın (həm də predmetin) dünya təcrübəsinin tərkibi olaraq, **xarici ölkələrin təcrübələrinin** mənimsənilməsi qaydası ilə öyrənilməsi;

-anlayışın, dövlətlərarası (həm də hökumətlərarası) və beynəlxalq təşkilatlarası münasibətlərdən irəli gələrək, **beynəlxalq təcrübə** əsasında öyrənilməsi;

-anlayışın, xarici ölkə təcrübəsi və beynəlxalq təcrübə ilə birləşməsindən meydana gələn **yerli (milli) təcrübə** əsasında öyrənilməsi;

-anlayışın müvafiq istiqamətlər üzrə **nəzəri aspektlərlə** öyrənilməsi-burada insan hüquqları üzrə ümumdünya nəzəriyyəsinin mənimsənilməsinin əsasları nəzərdə tutulur;

-anlayışın müvafiq istiqamətlər üzrə **real-praktiki prinsiplər** üzrə öyrənilməsi-burada dünyanın ayrı-ayrı ölkələrində, dövlətlər arasında və Azərbaycanda hüquqların təmin olunması səviyyəsinin zaman prinsipləri üzrə

öyrənilməsi və onun nəzəri baxışlarla uyğunlaşdırılmasının əsasları nəzərdə tutulur

-humanitar elm sahəsinin çoxtərəfli inkişafında iştirak etmək, inkişafın müəyyən tələblərini şərtləndirmək məqsədilə, həmçinin hüquq elminin çoxaspektli inkişafını təmin etmək, hüquq elminin əxlaq fəlsəfəsi ilə vəhdətdə mənimsənilməsini arzu edərək və bu elmi-təhsil istiqamətinin ali məktəblər üçün faydalı olmasını hesab edərək, "bioetika" fənninin hüquqşünaslıq və fəlsəfə kafedraları vasitəsilə tədrisini təmin etmək;

-"İnsan Hüquqları sahəsində Milli Fəaliyyət Proqramı"nın icrasına müvafiq olaraq insan hüquqları **dərsliyinin** yazılması, insan hüquqlarının fəlsəfi və elmi məzmununun dərslikdə öz əksini tapması, həmçinin ayrı-ayrı sahələr üzrə elmi-fəlsəfi təhlilin həyata keçirilməsi və insan hüquqlarının çoxməzmunlu istiqamətlərinin müəyyən olunması, insan hüquqları anlayışının fəlsəfi-məntiqi üsullarla tədris olunması, öyrənilməsi, bu dərslikdə **"bioetika"**nın bir bölüm kimi salınması

***Prinsiplər:***

-"insan hüquqları" məfhumunun daha çox fəlsəfi məzmun kəsb etməsini və bu baxımdan həm tərkib etibarilə, həm də bölgü ünsürü olması baxımından ümumiləşdirici bir məfhum olmasını nəzərə alaraq, bu elm fənninin tədrisində **fəlsəfi aspektləri** önə çəkmək. "İnsan hüquqları" məfhumunun və anlayışının məhz **"əxlaq" (həm də estetika)** məfhumu və anlayışı ilə vəhdət şəkilində elmi əsaslarını ali məktəblərdə tədris etmək;

-"insan hüquqları" anlayışının **normativ və imperativ** prinsiplərlə öyrənilməsi və bu sahədə dövlətin və cəmiyyətin əsas funksiyasının elmi-nəzəri əsaslarının mənimsənilməsini həyata keçirmək. Dövlətin qanunvericilik fəaliyyətinin (norma və qaydaların qəbulu, icrası və qorunmasında insan

hüquqlarının başlıca ideoloji prinsipləri təşkil etməsi ilə nəticələnən fəaliyyət) əsas istiqamətlərinin, eləcə də insan hüquqlarının təmin olunmasının vacibliyinin öyrənilməsi

***Tam orta məktəblər üzrə (istiqamətlər və prinsiplər)***

-“insan hüquqları” anlayışının sadə məzmunu haqqında biliklərin orta məktəblərin yuxarı siniflərinin **dərsliklərinə** salınması. Bu mövzunun “dövlət və cəmiyyət” bilikləri sisteminə aid edilməsi-insanların, xalqların və dövlətlərin hüquqları haqqında ilkin biliklərin dərsliklərdə əksini tapması;

-insan hüquqları ilə bağlı məktəblərin yuxarı siniflərində **sərbəst mövzuların** (inşaların) yazılmasının təmin olunması;

-orta məktəblərdə insan hüquqları ilə bağlı **“açıq dərslərin”** keçirilməsi və tələbələrə “açıq mövzuların” verilməsi;

-insan hüquqları üzrə mütəxəssislərlə məktəblərin yuxarı sinif şagirdlərinin görüşlərinin təşkil olunması-açıq söhbətlərin keçirilməsi;

-Azərbaycan qanunvericiliyində məktəblilərin **təhsil hüquqlarının** geniş şəkildə əks olunması haqqında onlara bəzi sadə biliklərin verilməsi;

-dövlətimiz tərəfindən onların **məktəbli hüquqlarının təmin olunması və qorunması** üçün müvafiq işlərin görülməsi barədə bəzi məlumatlar verilməsi;

-məktəblilər üçün yaradılmış təhsil şəraitindən və onlara verilən imkanlardan nəticələr çıxarılaraq, həmçinin məktəblilərin təhsil hüquqlarından irəli gələn vəzifə və öhdəliklərinin onlara başa salınması və bu haqda bəzi normativ biliklərinn verilməsi;

-Azərbaycan məktəblisinin **yaxşı təhsil almaq, biliklərə yiyələnmək vəzifələri** ilə ölkənin gələcək taleyi arasında müəyyən ardıcıl əlaqənin əsaslarını şərh edən biliklərin verilməsi;

-Azərbaycan məktəblisinin dövlətin gələcək həyatında iştirak etmək vəzifələri və öhdəliklərinin, **orta ixtisas, peşə təhsili və ali təhsil almaq borclarının** onların hüquqları ilə vəhdət təşkil etməsinin əsaslarına dair sadə biliklərin verilməsi

## Azərbaycanda dövlət uşaq bağçalarının maksimal həddə ləğv edilməsi (özəlləşdirilməsi) və dövlət büdcəsinin sosial yükünün azaldılaraq vacib istiqamətlərə yönəldilməsi

Belə bir fikir bildirmək olar ki, makro iqtisadiyyat sisteminin möhkəmlənməsi, böyüməsi (ətraflara doğru, məsələn, beynəlxalq iqtisadi əlaqələrin böyüməsi), daxilən genişlənməsi (dövlətin iqtisadi sisteminin ölkə ərazisi üzrə böyüməsi) bir proses olaraq müqayisə üçün makroiqtisadiyyat daxilində gəlir gətirən mikrosubyektlərin çoxalmasından və bu subyektlərin həm də təmərküzləşməsindən, yəni bir böyük subyekt daxilində struktur kimi cəmləşməsindən asılıdır. İqtisadiyyatın makro mühiti o halda yüksək olur ki, onun tərkibində təqribən eyni fəaliyyətlə məşğul olan subyektlərin sayı çox olur və eynilikdən də müxtəliflik, yəni müxtəlif subyektlərlə əlaqəlilik meydana gəlir. Deməli, inkişaf sistemdaxili iyerarxik və horizontal paralelliklərin, harmonik vəhdətlərin, müxtəlif koordinatlar üzrə disharmonik mövqelərin, simmetrik münasibətlərin (əlaqələrin), kəsişmələrin və ötürücülərin  və bundan irəli gələrək mürəkkəbliklərin təzahürüdür. Dövlət öz iqtisadiyyatını inkişaf etdirmək üçün tənzimləmə və dəstəkləmə (yardım etmək və müdafiə etmək) siyasətini həyata keçirməlidir. Dövlət daha çox müşahidə və standartlara nəzarət və standartların yerinə yetirilməsi funksiyasını icra etməlidir.

Onu nəzərə alaq ki, insan həm də maddi ünsürdür və bu baxımdan da maraqlarının təmin edilməsində məhz maddi

amillər üstünlük təşkil edir. İnsanın maddi maraqlarının lazımi səviyyədə təmin olunması onun mənəvi aləminin saflaşmasına və yaxşılaşmasına xidmət edir. Maddi resursların mənimsənilməsində rasional əsaslarla və tarazlı qaydada tənzimləmə prosesləri məhz ədalətin meydana gəlməsinin zəruri əsaslarını yaradır. İnsanların maddi maraqları onların əmək münasibətləri ilə təmin olunur. Əmək münasibətləri insanların fəaliyyət sahələrinin (ixtisas və peşə sahələrinin) formalaşmasında stimulverici rolu oynayır. Əmək münasibətləri və əmək (peşə) vərdişləri, əmək peşələri sahələri və məşğuliyyət istiqamətləri insanların sosial statuslarını müəyyən edən vasitələr kimi də böyük rol oynayır. İnsanların əmək fəaliyyəti və qazancları həm fərdi əhəmiyyət kəsb edir, həm də universal mənaya malik olur. Universal məna insanların sosiallaşmasına və özləri arasında əlaqələr və münasibətlər sferalarının yaranmasına xidmət edir. İnsanların həyatı şaxələnir və bu baxımdan da əmək fəaliyyəti şaxələnmiş strukturların saxlanılmasına da xidmət edir.

İnsanlar dövlət içərisində yaşadıqlarından dövlətlərin saxlanılması üçün lazımi resursların əldə edilməsində də yaxından iştirak edirlər. Dövlət öz hakimiyyətini, eləcə də idarəetmə funksiyasını (fəaliyyətini) qorumaq üçün, həmçinin hüququndan irəli gələrək, öz səlahiyyətlərini təmin etmək məqsədilə lazımi resurs mənbəyinə çevrilir. Resurslar idarəetmədə əsas saxlanc (mənbə, bank) rolunu oynayır və idarəetmə obyektlərinə və sahələrinə təsir imkanlarını əldə edir. Dövlət qazanclar əldə etmək üçün resursların saxlanması naminə özünün iqtisadiyyat sistemini qurur və makroiqtisadiyyatın əsas ünsürünə çevrilir. Dövlətin yuxarı mərhələdə siyasəti makroiqtisadiyyat siyasət ilə vəhdət təşkil edir. Makroiqtisadiyyat dövlətin ali siyasətinin forma baxımından tərkibidir. Dövlət iqtisadiyyat sistemi ilə sosial-siyasi sistemi arasında təbii bağlılığın meydana gəlməsində böyük rol oynayır. Bu strukturlar arasında olan harmonik

əlaqələr dövlət strukturunun vahidləşməsinə və bütövləşməsinə xidmət edir. Dövlət iqtisadiyyat sistemi ilə özünün siyasət sistemi arasında şərtləndirici və keçici-bağlayıcı məzmunu yaradır. Əslində iqtisadiyyatın tənzimlənməsi elə siyasi faəliyyətin tərkibi kimi böyük məna kəsb edir. Yəni dövlət siyasəti nüxtəlif tərkiblərdən ibarətdir və iqtisadiyyat sahələrinin tənzimlənməsi də onun siyasətinin komponentlərindən birinə çevrilir.

Dövlətin bütövlüyünün qorunub saxlanılması, idarəçiliyin yerinə yetirilməsi və cəmiyyətə, istehsala lazım olan resursların əld edilməsi üçün kifayət qədər resurs tələb olunur. Dövlətin tənizmləmə siyasəti elə resursların idarəedilməsinə söykənir. Dövlətin resursları onun ayrı-ayrı fondlarında, ümumi halda isə vahid büdcələrdə cəmləşir. Büdcənin mədaxili və məxarici elə fondların vəsaitlərinin toplanması və xərclənməsi istiqamətlərinin əsaslarını təşkil edir. Dövlətin vahidliyinin qorunub saxlanılması və strukturların mexanizmlərinin işə düşməsi üçün resursların toplanması və xərclənməsi böyük resurslar tələb edir. Bu baxımdan da büdcələrin (resurs mənbələrinin) formalaşması (stukturlar üzrə) zəruri amilə çevrilir. Büdcə gəlirlərinin və xərclərinin subyektləri, obyektləri, eləcə də obyektlərinin və subyektlərinin təsnifatı (vergi ödəmə məbləğinə və vəsaitlərin ayrılması istiqamətlərinə və məbləğinə görə) meydana gəlmiş olur. Dövlət büdcəsi dövlətin təsərrüfatının işləməsini təmin etmək və bu təsərrüfatın insanlara nisbi tarazlıq əsasında xidmət etməsini həyata keçirməkdən ibarətdir.

Onu da nəzərə almaq lazımdır ki, dövlətin daxilində bütün insanlar tam əmək qabiliyyətli olmurlar və əmək qabiliyyətli olanların hər biri də istehsalla (sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı ilə) məşğul olmur. İqtisadiyyat sisteminin əsası istehsal və qeyri-istehsal sahələrindən ibarət olur. Qeyri-istehsal sahələri isə istehsala xidmət edən və insanlara digər aspektlərdə xidmət göstərən sahələrdən

(məsələn, mədəniyyət, təhsil, elm, səhiyyə və s.) təşkil olunur. Bütün bunlar arasında, yəni istehsal və xidmət sahələri arasında, eləcə də təsərrüfatın digər sahələri, məsələn, ticarət sahələri (istehlak mərkəzləri –məsələn, bazarlar, dükanlar və s.) arasında ümumi tarazlı nisbəti təmin etmək məqsədilə və dövlətin təsərrüfat sahələrindən tam asılılığını reallaşdırmaq naminə **dövlət büdcəsi** təşkil olunur. Dövlət büdcəsi dövlətin idarəedilməsi xərclərini də təmin etmək məqsədilə təşkil olunur. Dövlətin icra, məhkəmə və qanunverici hakimiyyətlərinin, o cümlədən dövlət rəhbəri aparatının saxlanılmasında resursların əldə olunması məqsədilə də dövlət büdcəsi təşkil edilir. Dövlət büdcənin təşkilində başlıca məqsəd əsas sahələrlə yan sahələr arasında bir qədər harmonik əlaqələrin və bağlılığın əsaslarını təşkil etməkdən ibarətdir. Sosial sahələrin, o cümlədən təhsil və elmin inkişafı da dövlət büdcəsindən asılı olur. Dövlətin makrosiyasətinin icarsı, o cümlədən xarici siyasətinin həyata keçirilməsi də resurslardan asılı olur. Bununla bərabar, dövlətin müdafiə siyasətinin, fövqəladə halların qarşısının alınması siyasətinin, dövlətin təhlükəsizliyi təmin etmək siyasətinin, ictimai-asayişin qorunması və digər daxili siyasətinin təmin olunması məqsədilə də resursların əldə edilməsi və resurslar bazasının yaradılması üçün də dövlət büdcəsi formalaşdırılır. Dövlət büdcəsi bütün sahələr üzrə (burada istehsalat və qeyri-istehsalat sahələri) gəlirlərdən formalaşdırılır. İstehsaldan qeyri-istehal gəlirlər əldə edir və bu gəlirlərdən də dövlət büdcəsinə daxil olmalar həyata keçirilir.

Dövlət büdcəsinin formalaşdırılması siyasəti dövlətin idarəetmə sisteminin təkmilləşdirilməsi və bu baxımdan da bütövləşdirilməsi məqsədilə həyata keçirilir. Dövlət büdcəsi dövlətin ümumi təsərrüfat sisteminin ayrı-ayrı strukturları arasında qarşılıqlı hərəkət fəaliyyətinin təmin edilməsi məqsədilə təşkil edilir. Strukturlar arasında tarazlı sistemin və tarazlı əlaqələr sisteminin formalaşdırılması məqsədilə də

dövlət büdcəsi təşkil olunur. Dövlət büdcəsi resursların strukturlar arasında tarazlı qaydada (burada hər bir strukturun potensial imkanlarına müvafiq olaraq) hərəkəti üçün təşkil edilir. Dövlət büdcəsinin mədaxili və məxarici proseslərinin təşkil edilməsi ümumilikdə büdcədən birbaşa asılı olan və büdcə ilə əlaqəli şəkildə fəaliyyət göstərən strukturların tarazlı dövriyyə əsasında fəaliyyətini təmin edir. Tarazlı dövriyyə (burada resurs axınlarının nisbi tarazlı qaydada fonunun meydana gəlməsi halları nəzərdə tutulur) resursların şəbəkəli və pilləli qaydada axınını təmin edir. Bunun da sayəsində dövlət büdcəsinin resursları ilbəil (rüblük və yarımillik üzrə) artır. Dövlət büdcəsinin artması ümumilikdə dövlətin gəlirlərinə təsir edir. Dövlətin ümumi gəlirlərindən asılı olan bütün sahələr (bu sahələr həm də ümumi gəlirlərin meydana gəlməsində iştirak edirlər) isə özlərinin inkişaf mərhələlərinə qədəm qoyurlar.

Dövlət büdcəsinin ilbəil artımı dövlətin iqtisadiyyat və gəlirlər sisteminin çoxalmasına xidmət edir. Dövlət büdcəsinin göstəricilərinin yüksək olması dövlət gücünün yüksək olmasına istiqamətlənir. Dövlətin gücünün artması da öz növbəsində dövlətin daxili və xarici təsirlərini gücləndirir, onun iqtisadi resurslarını xaricə də transfer edir və bundan da dövlət gəlirlər əldə edə bilir. Buradan da belə nəticələrə gəlinir ki, dövlətin əsas gücü onun ilk güclənmə məkanından, yəni daxilindən meydana gəlir.

Bir daha qeyd etmək olar ki, dövlət büdcəsinin artımı istehsalın dövriyyəsinin ilbəil artmasına xidmət edir; çünki vəsaitlərin təkrar dövriyyəsi prosesləri meydana gəlir və resurslar bu təkrar dövriyyədə yaxından şərtləndirici vasitələr kimi iştirak edirlər.

Dövlət büdcəsinin gəlirləri bütün fəaliyyət sahələrində çalışan subyektlərdən əldə edilir. Bəzi hallarda isə müəyyən güzəştlər də tətbiq olunur. Ümumiyyətlə, dövlət büdcəsi dövlətin ümumi əsaslarının qorunub saxlanılması, xalq

tələbatının təmin olunması və dövlətin müdafiəsi üçün təşkil olunur. Dövlət iqtisadiyyatının yenidən inkişafı, təkrar sərmayə qoyuluşu, valyutanın dövriyyə həcminin artması, istehsal həcminin çoxalması və s. kimi proseslərin təmini üçün dövlət büdcəsinin mədaxili və məxarici müəyyən olunur. Mədaxil-məxaric proseslərinin təmin olunması və əlaqəli fəaliyyətin təşkil edilməsi sayəsində dövlət büdcəsinin gəlirləri təkrarən iqtisadiyyata qayıdır və ümumilikdə cəmiyyətin və dövlətin inkişafına zəmin yaradır. Dövlət büdcəsi kapital qoyuluşlarının sistemli və ardıcıl axın formasını meydana gətirir. Kapital axınının yüksək miqdarı da büdcə artımının meydana gəlməsinə şərait yaradır. Dövlətin iqtisadiyyatı qəbul edən və özündən buraxan ardıcıl hərəkət səhnəsinə malik olan bir "konveyerə" bənzəyir və bu da öz-özlüyündə yeni elementlərin meydana gəlməsinin və yeni axınların formalaşmasının əsaslarını yaradır. Dövlət büdcəsinin artımı yeni layihələrin icrasına səbəb olur və bu da öz növbəsində iqtisadiyyat strukturunun əlavə komponentlərinin meydana gəlməsinin əsaslarını yaradır. Ümumiyyətlə, dövlət büdcəsi dövlətin bütövlüyünün əsaslarını möhkəmlətmiş olur və dövləti bütöv halda və güclü formada cəmiyyətə və xalqa təqdim edir. Dövlətin güclü imici isə müəyyən təsirlərin meydana gəlməsinin əsaslarını yaratmış olur.

Məlumdur ki, hər bir dövlətin büdcəsi gəlirlərdən tutulan vergilər hesabına formalaşır. Təsərrüfat subyektləri (hüquqi və fiziki şəxslər) öz gəlirlərindən dövlətə vergilər ödəyirlər. Dövlət büdcəsinin əsas mahiyyəti onun sosial yönümlülüyündədir. Dövlət siyasətinin və dövlətin özünün humanitar məzmunu da məhz onun sosial istiqamətli gücündədir. Dövlət büdcəsinin əsas fəlsəfi məzmunu da məhz istehsalla qeyri-istehsal sahələri arasında uzlaşmanı təmin etmək və harmoniyanın yaratmaqdan ibarətdir.

Dövlət büdcəsinin sosial mahiyyəti və sosial vəzifəsi məhz sosial qayğıya ehtiyacı olan şəxslərin müəyyən maddi

resurslarla təmin edilməsini (aşağı həddi minimum istehlak səbəti miqdarında olmaqla) həyata keçirməkdən ibarətdir. Dövlət büdcəsinin yükündə strateji əhəmiyyət kəsb edən isitiqamətlərə xidmət amili dayanmalıdır. O istiqamətlər ki, bu istiqamətlərin təmin edilməsində özəl bölmə yaxından iştirak edə bilmir. Məsələn, dövlətin prioritet siyasəti hesab edilən ibtidai və orta təhsilin, eləcə də ali təhsilin tələb olunan hissəsinin təşklil edilməsində özəl bölmə yaxından iştirak edə bilməz. Yəni pulsuz təhsil verə bilməz. Hansı ki, bu istiqamətlər birbaşa prioritet (birinci dərəcəli sahələr olaraq) əhəmiyyət kəsb edir. Eləcə də insanların pulsuz müalicəsini təmin edə bilməz və pensiya təminatını, əlillərlə bağlı sosial ödəmələri həyata keçirə bilməz. Lakin elə sahələr vardır ki, onların təşkil edilməsini özəl bölmə tam şəkildə əlinə ala bilər. Məsələn, uşaq bağçalarının prioritet təşkil etməsinə baxmayaraq, bu sahənin təşkilində özəl bölmə tam səlahiyyəti əlində saxlaya bilər.

Dövlət uşaq bağçalarının ləğv edilməsi ideyası öz-özlüyündə tam yeni bir ideya deyil. Hələ Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli, 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı”na uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin 23 avqust 2006-cı il tarixli, “Səhiyyə, təhsil, idman və mədəniyyət sahələrində bir sıra müəssisə və obyektlərin özəlləşdirilməsi haqqında” sərəncamı ilə səhiyyə, təhsil, gənclər və idman, mədəniyyət və turizm nazirlikləri üzrə bir sıra obyektlər özəlləşdirilməyə açıq elan edilmişdir.[1] Bu sərəncamdan irəli gələrək ölkə ərazisində xeyli sayda uşaq bağçaları və körpələr evləri- uşaq bağçaları öz profillərini

[1] **“Səhiyyə, təhsil, idman və mədəniyyət sahələrində bir sıra müəssisə və obyektlərin özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 23 avqust 2006. http://e-qanun/az/files/framework/data/12/c f 12370.htm**

saxlamaq məqsədilə özəlləşdirilməyə açıq elan edilmişdir. Təhsil Nazirliyinin məlumatına əsasən, özəlləşdirilməyə açıq elan edilən məktəbəqər təhsil müəssisələrinin sayı 240 ədəd olmuşdur.[1]

Azərbaycan Respublikası Təhsil Nazirliyinin məlumatına əsasən, ölkədə təqribən 108 minə nəfərə qədər uşağı əhatə edən 1635 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələrdən 1571-i Təhsil Nazirliyinin tabeçiliyində olmuşdur. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün isə 4 məktəbəqədər təhsil müəssisəsi və ümumi təyinatlı 16 xüsusi təhsil müəssisəsi vardır. (Qeyd: bu rəqəmlər hər zaman dəyişə bilər). Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinə uşaqların cəlbi 15,9 faiz təşkil edir: şəhər yerlərində -23,4 faiz, kənd yerlərində 8,4 faiz. Təhsil haqqında qanunundan və Nazirlər Kabinetinin sərəncamından irəli gələrək, Təhsil Nazirliyi tərəfindən "Məktəbə hazırlığın təşkili qaydaları" harılanıb və 2010-cu ildə Nazirlər Kabineti tərəfindən təsdiq olunub.[2]

Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə (Azərbaycan Respublikasında körpələr evlərinin, körpələr evi-uşaq baxçalarının, uşaq bağçalarının, xüsusi uşaq bağçalarının və uşaq evlərinin inkişafı ilə bağlı tədbirlər barədə) uşaq bağçaları və körpələr evləri yerli icra hakimiyyətlərinin tabeliyinə verilmişdir.[3]

Dövlət büdcəsi bir çox yüklərdən azad olunmalıdır. O sahələr ki, var, -hansıları ki, cəmiyyət yaratmaq və fəaliyyətini təşkil etmək iqtidarındadır,- həmin sahələri dövlət büdcəsinin yükündən kənarda saxlamaq vacibdir. Həmin sahələri

---

[1] **Uşaq bağçaları. Azərbaycanda məktəbəqədər təhsil. http://azerbaijans.com/content 875 az.html.**

[2] **Yenə orada**

[3] **"Azərbaycan Respublikasında körpələr evlərinin, körpələr evi-uşaq bağçalarının, uşaq bağçalarının, xüsusi uşaq bağçalarının və uşaq evlərinin inkişafı ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı. http://www.edu.gov.az/view.php?lang=az&menu=73&id=4909.**

cəmiyyətin ixtiyarına verməklə gəlir gətirən subyektlərin sayını çoxaltmaq olar. Dövlət büdcəsinin yüklənməsi əvəzinə, onun gəlirlərini artırmaq lazmdır. Ümumiyyətlə, dövlət büdcəsinin gəlirləri və xərcləri ölkənin ümumi daxili məhsulunun müəyyən hissəsini təşkil edir. Məsələn, proqnozlara əsasən Azərbaycanda 2014-cü il üçün dövlət büdcəsinin gəlirləri ümumi daxili məhsulun 31,4 faizini, xərcləri isə ümumi daxili məhsulun 34,3 faizini təşkil edəcəkdir.[1]

Uşaq bağçalarının hər bir məkanda yaradılması, müasir tələblərə cavab verməsi, imkanlarının genişləndirilməsi üçün dövlət büdcəsindən xeyli miqdarda vəsait tələb olunur.

Məlumdur ki, Azərbaycanın makroiqtisadiyyatında neft və qaz mühüm rol oynayır. Bu, ölkədəki məhsulların ümumi ixrac balansında da qeyd olunur. Məsələn, Maliyyə Nazirliyinin məlumatına əsasən, tədiyyə balansı metodologiyasına uyğun olaraq 2014-cü ildə 30,7 mlrd. ABŞ dolları həcmində mal ixracı proqnozlaşdırılır ki, bunun da 90,9 faizi neft və qaz sektorunun payına düşəcəkdir.[2] 2014-cü ildə 11,5 mlrd.ABŞ dolları və ya 85,4 faizi qeyri-neft sektorunun payına düşəcəkdir.[3]

Ölkədə başlıca makroiqtisadi strategiya qeyri-neft sektorunun inkişaf etdirilməsindən ibarətdir. Məsələn, belə bir məlumat var ki, cəlb edilən investisiyaların 68,5 faizinin qeyri-neft sektoruna yönləndirilməsi proqnozlaşdırılır.[4]

Hal-hazırda dövlət büdcəsinin gəlirləri neft və qazdan əldə edilir. 2014-cü ilin proqnoz məlumatına əsasən Azərbaycanda dövlət büdcəsi gəlirinin 50,8 faizini Dövlət Neft Fondundan

---

[1] **Azərbaycan Respublikası Maliyyə Nazirliyi. Azərbaycan Respublikasının 2014-cü ilin dövlət və icmal büdcələrinin layihələrinin təqdimatı. www.maliyye.gov.az/sites/default/files/2014-1.pdf**

[2] **Yenə orada**

[3] **Yenə orada**

[4] **Yenə orada**

transfertlər təşkil edəcəkdir. Vergilər Nazirliyinin payı 38,6 faiz olacaqdır. Qalanları isə digər qurumların payına düşür.[1]

Belə bir rəqəm də var ki, 2014-cü ilin ümumi daxili məhsulunun sahə strukturunda neft-qaz sənayesinin payı ümumi daxili məhsulun 36,4 faizini təşkil edir.[2]

Gələcəkdə dövlət büdcəsinin gəlirlərinin artmasında Vergilər Nazirliyinin payını artırmaq lazımdır. Bu baxımdan da fiziki və hüquqi şəxslərin gəlir (mənfəət), torpaq, əmlak vergilərini çoxaltmaq tələb olunur. Bu istiqamətdə faizləri çoxaltmaq üçün isə əlavə iş yerlərinin və obyektlərin açılması tələb olunur. Dövlət büdcəsindən yükü azaltmaq lazımdır və büdcə ilə maliyyələşən təşkilatların sayını azaldaraq, gəlir gətirən və cəmiyyətə yüksək səviyyədə xidmət edən subyektlərin (obyektlərin) sayını çoxaltmaq zəruridir. Məsələn, 2014-cü ilin dövlət büdcəsindən məktəbəqədər təhsilin maliyyələşdirilməsi üçün 6,7 milyon manat vəsaitin ayrılması proqnozlaşdırılır.[3]

Təbii ki, bu, dövlətin sosial müdafiə siyasətinin tərkibi olaraq, öz-özlüyündə böyük bir rəqəm deyil. Lakin bu sahəni özəlləşdirməklə və xüsusi ixtisaslaşdırılmış özəl şirkətlər yaratmaq yolu ilə həmin müəssisələrin profilini saxlamaqla, həm gəlir vergisini artırmaq olar, həm yebi iş yerləri açılar, həm də hüquqi şəxslərdən tutulan vergiləri artırmaq olar. Sosial Müdafiə Fonduna ödəmələrin də sayını çoxaltmaq mümkün hala çevrilər. İslahatlar yolu ilə büdcənin vəsaitləri artar.

Uşaq bağçalarının təşkilinin isə hər bir məkanda dövlət tərəfindən həyata keçirilməsi, vəsaitlərin kifayət etməməsindən və qeyri-şəffaflıqdan qeyri-mümkün bir hala çevrilir. Dövlət uşaq bağçalarında xidmətlərin aşağı səviyyəsi, yeni tələblərə

---

[1] **Azərbaycan Respublikası Maliyyə Nazirliyi. Azərbaycan Respublikasının 2014-cü ilin dövlət və icmal büdcələrinin layihələrinin təqdimatı. www.maliyye.gov.az/sites/default/files/2014-1.pdf**

[2] **Yenə orada**

[3] **Yenə orada**

cavab verən mərkəzlərin olmaması və burada çalışan tərbiyəçilərin və digər işçilərin əmək haqlarının az olması bu sahənin inkişafının qarşısını alır və müasir tələblərə cavab vermir. Dövlət büdcəsindən (dövlət qurumlarından) asılılıq həmin sahələrdə yenidənqurmanın qabağını kəsir. Azərbaycanda bir çox yerlərdə dövlətdən lisenziya almış özəl uşaq bağçaları vardır. Bununla yanaşı, ayrı-ayrı dövlət şirkətlərinin də öz işçilərinin uşaqları üçün uşaq bağçaları fəaliyyət göstərir.

Dövlət uşaq bağçalarının (xüsusi qayğıya ehtiyacı olan körpələr evi-uşaq bağçalarından başqa) maksimal həddə özəlləşdirilməsi və bu istiqamətdə xüsusi özəl şirkətlərin yaradılması zamanın tələbinə çevrilməkdədir. Bu sahəni, yəni məktəbəqədər uşaq tərbiyəsi sahəsini dövlət prioritet sosial sahə kimi nəzərə alaraq, həmin sahədə böyük irəliləyişlərin əldə edilməsi üçün və səmərəliliyin təmin edilməsi məqsədilə uşaq bağçalarının təşkili ilə məşğul olan özəl şirkətin yaradılmasını təşkil edə bilər. Hətta ayrı-ayrı şəhərlərdə uşaq mərkəzlərini (içərisində atraksionları, intellektual inkişaf və sağlamlıq inkişaf mərkəzləri olan), uşaq yaradıcılıq və tərbiyə komplekslərini təşkil etmək olar. Dövlət hakimiyyəti qurumlarının tabeçiliyində yalnız xüsusi qayğıya ehtiyacı olan uşaq bağçaları, körpələr evi-uşaq bağçaları qala bilər.

**Maksimum özəlləşdirmənin əhəmiyyəti:**

-dövlət büdcəsinin yükünün azalması;

-dövlət büdcəsindən dövlət uşaq bağçaları üçün (məsələn, icra hakimiyyətləri nəzdində olan uşaq bağçaları) ayrılan vəsaitlərin başqa prioritet sahələrə yönləndirilməsi və əksinə olaraq büdcə gəlirlərinin artması;

-uşaq bağçalarının (körpələr evi-uşaq bağçalarının) özəlləşməsindən əldə edilən gəlirlərin dövlət büdcəsinə daxil edilməsi;

-vergi subyektlərinin sayının artması;

-uşaq bağçaları sahələrindən vergi daxilolmalarının artması;

-uşaq bağçalarında yeniliklərin meydana gəlməsi;

-uşaq bağçalarında şəffaflığın təmin olunması, yeyintilərin qabağının alınması;

-özəl sektor tərəfindən uşaq bağçaları üçün yeni vəsaitlərin və resursların əldə edilməsi;

-müasir tələblərin və standartların uşaq bağçalarında ardıcıl şəkildə bir-birini əvəzləməsi;

-bu sahələr marağın artması və işçilərin əmək haqlarının yüksəldilməsi;

-sosial sahələrdə liberal iqtisadiyyatın stimullaşdırılması və s.

## Dövlət rəhbəri və hakimiyyət rəhbəri anlayışlarının oxşar və fərqli məzmunu

Dövlət rəhbəri və hakimiyyət rəhbəri -əslində, hər ikisinin mahiyyətində, fəaliyyət məzmununda bir eynilik (məsələn, hökm etmək, idarəçiliyi yerinə yetirmək, tənzim etmək, nizamlama obyektini müəyyən etmək, birbaşa və dolayı, yəni, mərhələli, şaxəli, piramidal idarəetməni həyata keçirmək və s.) mövcuddur. Bütün hakimiyyətlər öz fəaliyyətlərini dövlət adından təşkil edirlər. Məsələn, məhkəmə qərarları (hökmlər, qərardadlar, qətnamələr) dövlət adından çıxarılır.[1] Məhkəmələr və hakimlər haqqında qanuna əsasən Məhkəmələrin qərarları,

---

[1]**Azərbaycan Konstitusiyasının 129-cu maddəsinə əsasən, məhkəmənin qəbul etdiyi qərarlar dövlət adından çıxarılır *(məsələn, Azərbaycan Respublikası adından Səbail Rayon Məhkəməsinin Qətnaməsi)* və onların icrası məcburidir. Azərbaycan Respublikasının Konstitusiyası və konstitusiya aktları. Azərb. dilində, Bakı-Qanun-2003. 128 səh., səh.39.**

həmçinin qətnamələri, hökmləri, qərardadları (ümumilikdə qərarları) Azərbaycan Respublikası adından çıxarılır və qanuni qüvvəyə minmiş qərarları ölkə ərazisində bütün fiziki və hüquqi şəxslər tərəfindən mütləq, vaxtında və dəqiq icra edilməlidir.[1] Nazirliklərin, dövlət şirkətlərinin və komitələrinin, səhmdar cəmiyyətlərinin və digər qurumların qərarlarında dövlətin adı və qurumun adı göstərilir. Qərarların qəbulunda (məsələn, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, ABŞ Müdafiə Nazirliyinin qərarı, ABŞ Dövlət Departamentinin bəyanatı; ABŞ Konqresinin qərarı, Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi ilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi arasında aparılan müxtəlif xarakterli yazışmaların əks olunduğu sənədlər və s.) qurumun adından çıxış edilir. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununda da normativ-hüquqi aktların məcburi rekvizitlərinin əks olunması qeyd edilir. Diplomatik nümayəndəliklərin rəhbərləri öz qərarlarını dövlət adından (dövləti təmsil edən qurum adından) qəbul edirlər. Məsələn, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 408 nömrəli Fərmanı ilə təsdiq olunmuş Azərbaycan Respublikasının Səfirliyi haqqında Əsasnamənin 16.4 bəndinə əsasən səfir öz səlahiyyətləri daxilində Səfirliyin fəaliyyətinə dair icrası məcbur olan əmrlər, sərəncamlar, göstərişlər verir.[2] Ümumiyyətlə, birinci şəxsin (subyekti təmsil edən birinci səalhiyyətli rəhbər şəxs) imzası önündə dövləti təmsil edən qurumun adı göstərilir. (Məsələn, sənədin mətninin başlığında Azərbaycan Respublikasının Nazirlər Kabineti, sonda isə Azərbaycan Respublikasının Baş naziri və onun imzası əks olunur). Bu da hər bir dövlət

[1] **Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının Qanunu. 10 iyun 1997-ci il, № 310-İQ;www.e-qanun.az/files/framework/data/3/c_f_3933.htm**
[2] **Azərbaycan Respublikasının Səfirliyi haqqında Əsasnamə. www.mfa.gov.az/files/file13_13pdf**

qurumunun dövlətə məxsusluğunu və hansı dövlət hakimiyyətinə mənsubiyyətliliyini göstərir.

Bu gün dünyanın yaşayış məskənləri dövlətlər tərəfindən əhatə olunubdur və cəmiyyətlər, sosial birliklər dövlətlərin əhatəsinə aid edilibdir. Hal-hazırda dünya insanları **dünya dövlətləri və onların sakinləri prinsipləri** ilə formalaşıbdır. Dövlətdən kənarda insan yaşamır. Dünya siyasi bütövü sosial-siyasi strukturlara tabedir və bu strukturlardan təşkil olunub. Buna görə də hər bir şəxs dövlətin ünsürüdür, üzvüdür. Sivil cəmiyyətlərdə dövlətdən kənarda yaşayış qeyri-mümkündür; çünki hər bir sivil cəmiyyət öz dövlətinə malikdir. Dövlət quruluşları insanların xüsusiyyətlərinin təbii xarakterindən doğaraq, zəruri halda meydana gəlibdir. Yəni insanlar bir nizamlı quruluş kimi idarə olunmağa və idarəetməyə cəhd edirlər, can atırlar. İnsanlar nizamlı quruluşa malik olan varlıqlar olduğundan elə özlərinin nizam obyektinə çevrilirlər. İnsanlar həm daxilən, həm də kənardan nizama tabe olmağa məcbur olan məxluqlardır. Çünki nizamlı sistemin əsası və bütün tarazlı nailiyyətlərin, bərabər əsaslı və ədalətə söykənən inkişafın bünövrəsi rasional məzmunlu sistemlərdən asılıdır. İnkişaf dalğaları və onların rasional təsirləri də məhz bu kimi prinsiplərdən meydana gəlir. Ümumiyyətlə, maraqların birləşməsi, güclərin, imkan və potensialın birləşməsi mexanizmləri, ümumi maraq və hərəkət qayadaları, eləcə də fərdi maraq və hərəkət qaydaları sistemlərə xas olan xüsusiyyətlərdir. Sistemlərsiz və mexanizmlərsiz həyat yoxdur. Bu gün insanlar istəsələr və istəməsələr belə nizam altındadırlar. Dövlətlərin sistemli quruluşları və idarəetmə zərurəti məhz bu nizamlamanın əsasını təşkil edir. Nizamlama prosesləri elementlərin rasional əsaslarla tərkib hissələrə bölünməsi və tərkiblərdən bütövün əldə edilməsinə tabe olur. Buradan da elementlərin çoxalması prosesləri meydana gəlir. Elementlər məhz qaydalar üzrə çoxaldıqda yeni forma və məzmun aldıqda, yeni məzmunları üzərə çıxardıqda cəmiyyətin

və dövlətin inkişafı təmin olunur. Hər bir cəmiyyət öz dövlətinə və xalqının milli dəyərlərinə atributiv olur. Burada **subyektin obyektə** məxsusluğu prinsipləri meydana gəlir. Bütün hallarda subyektlərin obyektlərə tabe olması mümkün olmur və subyektivlik universal obyektivliyi üstələyir. Yəni hər bir xalq özünəxas dövlət quruluşunun mahiyyətini formalaşdırır. Universal prinsiplər, yəni obyektivlik burada subyektivlik önündə zəif olur. Subyektivliyin özünəxas obyektivliyi meydana gəlir ki, burada da universal şərti dünya prinsipləri pozulur. Dövlət quruluşları ilə bağlı olan qaydalar sistemi də məhz xalqların mental dəyərlərinə (məsələn, Şərq xalqları və Qərb xalqları öz mental dəyərlərinə xas olan quruluş formalaşdırırlar) bağlı olur. Məsələn, Şərq cəmiyyətlərində mühafizəkarlıq, Qərbdə isə universallıq və liberallıq hökm kəsir. Liberallıq elə əslində mühafizəkarlığa da söykənir. Lakin burada, yəni Avropada mühafizəkarlığın universal yumşaq forması öz əksini tapır. Bu prinsip də Avropa xalqlarını öz dövlətlərinə sıx bağlayır. Bu xalqlar öz dövlətlərini özlərinin sosial-rifah hallarını zənginləşdirməyə xidmət edən əsas kimi qəbul edirlər. Şərq cəmiyyətlərində isə şəxsi prinsiplər universal prinsipləri (universal xidmətləri) üstələyir.

**Dövlət quruluşu** nəzəriyyəsinin bazasında həm də sosial bir təsisat olaraq ailə quruluşu fikirləri dayansa da, bu gün dövlətin öz quruluş məzmununa görə ailədən böyük bir fərqi vardır. Bu da ondan irəli gəlir ki, dövlət daha geniş və dərin məzmunludur, burada xalqın maraqları cəmləşir, eyni ilə daha çox sosialdır, geniş məzmunludur və çox tərkib elementləri olduğundan geniş mənaya və çalara malikdir. Böyük cəmiyyətlərdə (məsələn, şəhərlərdə və böyük qəsəbələrdə) olan münasibətlər daha çox seyrək və soyuq, elcə də fərdi əsaslara söykənir. Yəni böyük cəmiyyətlərdə olan münasibətlər ailədə olduğu kimi bağlılıq kriteriyalrına tam da xas ola bilməz. Cəmiyyətdə olan münasibətlər bir qədər uzaqdır və bu

baxımdan da daha da səmimidir, bir-birini gözləməklə qurulandır. Deməli, istənilən münasibət strukturu genişlənir, bu halda öz xarakterini və məzmununu dəyişir.

Hər bir sistem böyüdükcə öz məzmununu daha da sadələşdirir, yəni aliləşdirir, ucaldır. Elə sadə məzmun da mürəkkəbliyin müəyyən mərhələdə və sonda bütövləşmiş formasıdır. Bu gün ailə münasibətlərində əmlaka olan münasibətlərdə şəxsilik varsa, dövlətdə isə bu prinsip genişlənmə və daxilən liberallaşma hesabına hamının maraqlarından meydana gəlir. Yəni bu gün dövlətdə **universal-şəxsilik** prinsipləri (dövlət və hökumət rəhbərləri vəzifələrinə, dövlət qulluqçuları vəzifələrinə münasibətdə) daha da məqbul hesab edilir. Universal-şəxsilik dedikdə, burada xidmət amilinə universal maraqlar içərisində **şəxsi xidmətlər** prizmasından yanaşılmalıdır.

Dövlət universal və məxsusi konkret bir qurum olduğundan dərin fəlsəfi məzmunu özündə əks etdirir. Dövlət həm də ona görə fəlsəfidir ki, tərkib baxımından qarşılıqlı əlaqədə və münasibətlərdə olan müxtəlif dərin mənalı komponentlərdən ibarətdir. Dövlət quruluşunun fəlsəfəsi insan (toplum halda xalq) maraqlarına söykənir. Dövlət anlayışı xalq bütövlüyünün dərk olunmasının deduktiv və induktiv əsasıdır. Bu baxımdan da dövlət sintez məzmunludur, simbioz əhəmiyyətlidir. Dövlət ümumiləşmiş və universal əhəmiyyətli bir məzmundur. Onun tərkibi **dövlət rəmzlərindən, atributlarından** və **hakimiyyət qollarının strukturlarından (ümumilikdə isə siyasi sistemlərdən)** ibarətdir. Deməli, dövlət piramidal formalı xüsusiləşmiş və şaxələnmiş bir əlaqəli strukturdur, ayrı-ayrı strukturların birləşmiş formasıdır. Dövlət məzmununun aliliyi, yəni piramidanın yuxarı mərhələsi və piki dövlət rəhbərində təcəssüm olunur. Deməli, dövlət rəhbəri özündə xalqın, millətin, daha geniş siyasi mənada (burada hüquqlara məxsusluq baxımından geniş məna nəzərdə tutulur) vətəndaşların maraqlarının müəyyən universallaşmış əsaslarını

cəmləşdirir. **Dövlət rəhbəri anlayışı fəlsəfi mənada deduksiyanın şərti başlanğıcı, induksiyanın isə mütləq sonudur.** Bu baxımdan da dövlət rəhbəri xalqın maraqlarıninn bütövləşdiricisi və eyni zamanda tərkiblərə bölücüsü olan rəmzi məna, həmçinin siyasi ali məna kəsb edir.

Dövlət və insan fəlsəfəsi vəhdətdə mövcud olur. Dövlət fəlsəfəsi öz üzərinə insan fəlsəfəsini qaldırmaqla daha da dərin məna kəsb edir. Dövlətin fəlsəfi mahiyyəti elə onun sərhədləri daxilində yaşayan şəxslərin hüquqlarını tanımaqdan və onları normalara salaraq, icrasını təmin etməkdən ibarətdir. Dövlətin fəlsəfi məna kəsb edən mahiyyəti onun üzvləri olan insanların fəlsəfi- mənəvi mahiyyətindədir. Dövlət insanların mənəviyyatını qorumaqla, onların maddi varlıq kimi mövcudluqlarını təmin edən resursların əldə olunmasına çalışmaqla və bu resursların əldə edilməsini təmin etməklə, özünün maddi-sosial və mənəvi borcunu yerinə yetirmiş olur.

Hər bir dövlətin məqsədi insanlara, vətəndaşlarına xidmət etməkdən ibarətdir. Bu xidmət prinsipi elə məhz dövlət prinsiplərinin əsasını (dövlətin yaranmasının əsas mahiyyətini, məğzini) təşkil edir. Hər bir **dövlət anlayışı** öz daxilində dövlət və hökumət anlayışlarından ibarətdir. Dövlət tərkib mənalardan, formalardan ibarət olan bütöv bir məzmundur və xalqın bütövlüyünün əsas təcəssümüdür. Dövlət rəhbərləri bu bütövlüyün əsas rəmzləridir. Dövlət rəhbərləri xalqın bütövlüyünün zaminidir və beynəlxalq əlaqələrdə və ölkə daxilində xalqın vahidliyinin əsas təcəssümləridir.

Dövlət rəhbəri anlayışı ilə hakimiyyət rəhbərləri anlayışları arasında həm oxşar, həm də fərqli məzmunlar mövcuddur. **Dövlət rəhbəri ümumi fəlsəfi məzmunludur, hakimiyyət rəhbəri vəzifəsi isə struktur və tərkib məzmunludur.** Dövlət rəhbəri daha çox dövlətin bütövlüyünün qorunmasının rəmzidir və beynəlxalq əlaqələrdə və ölkə daxilində dövləti təmsil edən əsas şəxsdir. İcra hakimiyyətinin rəhbəri isə hökuməti təmsil edir. Burada hökumət dedikdə, dövlətin icra siyasətini həyata

keçirən mərkəzi qurum başa düşülməldir. Bir çox hallarda isə dövləti və hökuməti təmsil etmək məsələsi birləşir. Məsələn, ABŞ-da dövlət rəhbəri həm dövlətini, həm də hökumətini təmsil edən birinci şəxs olur. Rusiyada, Azərbaycanda və digər ölkələrdə isə dövlət rəhbəri birinci növbədə dövlətlərini, sonra isə hökumətlərini təmsil edirlər. Məsələn, Azərbaycanda ölkə rəhbəri hökumət iclaslarının rəhbəridir və hökumət əsas qərarlarının müəyyənedicisidir. Eyni zamanda Konstitusiyaya əsasən (Maddə-99-İcra hakimiyyətinin mənsubiyyətini ifadə edən maddə), Azərbaycan Respublikasında icra hakimiyyəti Azərbaycan Respublikasının prezidentinə mənsubdur. Dövlət rəhbərinin səlahiyyətlərinə həm də icra hakimiyyətinin səlahiyyətləri və icra hakimiyyətini təşkil etmək səlahiyyətləri aid edilir. Məsələn, Azərbaycan Konstitusiyasının 109-cu maddəsinə (Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri adlanan maddə) əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlərini vəzifəyə təyin edir və vəzifədən azad edir; zəruri hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclaslarına sədrlik edir. Eyni zamanda Azərbaycan Respublikasının dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanlarını yaradır. Həmçinin Azərbaycanda və Rusiyada hökumət rəhbəri də mövcuddur. Məsələn, Azərbaycan Konstitusiyasının "Azərbaycan Respublikası Nazirlər Kabinetinin statusu" adlanan 114-cü Maddəsində yazılır ki, Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır. Azərbaycan Respublikasının Nazirlər kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanıdır. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidentinə tabedir və onun qarşısında cavabdehdir.

Konstitusiyalı monarxiyalarda (məsələn, parlamentli monarxiyalarda) və parlamentli respublikalarda isə dövlətlərini dövlət başçıları, hökumətlərini isə hökumət başçıları təmsil edirlər. Bu baxımdan parlamentli monarxiya quruluşuna malik olan İspaniya Konstitusiyasının (*Konstitusiya 1978-ci ilin 27 dekabrında qəbul edilib. Birinci maddənin ikinci bəndinə əsasən İspan dövlətinin siyasi forması parlamentli monarxiyadır*) 56-cı maddəsinin birinci bəndinə əsasən **kral** – dövlət başçısı, onun birliyinin və varisliyinin simvolu, dövlət orqanlarının daimi fəaliyyətində barışıdırıcısı və arbitrı, - İspaniya dövlətini beynəlxalq əlaqələrdə, xüsusilə, onunla ümumi tarixi bağlılığı olan xalqlarla əlaqələrdə, yüksək səviyyədə təmsil edir, həmçinin Konstitusiya və qanunlarla ona verilmiş funksiyanı yerinə yetirir.[1]

Konstitusiyanın 62-ci maddəsi Kralın səlahiyyətlərini əks etdirir. a) qanunları imzalayır və təsdiqləyir, b) Baş Kortesi çağırır və buraxır, Konstitusiya ilə nəzərdə tutulmuş qaydada seçkiləri təyin edir *(Baş Kortes ispan xalqını təmsil edir və Konqres deputatlarından və Senatdan ibarətdir),* v) Konstitusiyada nəzərdə tutulmuş hallarda referendum təyin edir, q) Hökumət sədrinin namizədliyini təklif edir və zəruri hallarda və Konstitusiyada nəzərdə tutulmuş şərtlərdə onu vəzifəyə təyin və azad edir, d) Hökumət sədrinin təqdimatı əsasında Hökumət üzvlərini vəzifəyə təyin və azad edir, e) Nazirlər Şurasında razılaşdırılmış dekretləri imzalayır, mülki və hərbi vəzifəliləri mükafatlandırır, ordenlərlə təltif edir, qanuna müvafiq olaraq fəxri adlar verir. Bundan əlavə Silahlı Qüvvələrin Baş Komandanıdır, ümumi olaraq müəyyən olunan amnistiyada nəzərdə tutulmayan qaydada, qanunla nəzərdə tutulmuş formada bağışlama (əfv etmə) hüququnu həyata keçirir, diplomatik nümayəndələri təyin edir, xarici ölkələrin

---

[1] **Испанская Конституция. Перевод Пере Романа. Посольство Королевства Испании в Российской Федерации, 1995. http://vivovoco.rsl.ru/VV/LAW/SPAIN.HTM**

diplomatik nümayəndələrini akkreditə edir, Konstituisya və qanunlara müvafiq olaraq dövlət adından beynəlxalq müqavilələr imzalayır, Baş Kortesin əvvəlcədən verilmiş razılığı əsasında müharibə elan edir və sülh imzalayır və s. Kral həmçinin öz Sarayının və ailəsinin saxlanması üçün dövlət büdcəsindən malliyə vəsaiti alır və onu sərbəst şəkildə xərcləyir.[1]

Konstitusiyaya əsasən (Maddə 97) İspaniyada **Hökumət** daxili və xarici siyasətə rəhbərlik edir, həmçinin ölkənin müdafiəsində mülki və hərbi işlərlə əlaqədar idarəetməni yerinə yetirir. Konstitusiya və qanunlara müvafiq olaraq Hökumət icraedici və tənzimləyici funksiyanı yerinə yetirir. Hökumət sədrdən, onun müavinlərindən nazirlərdən və qanunla nəzərdə tutulmuş qaydada Hökumətin digər üzvlərindən ibarətdir. Sədr hökumətin fəaliyyətinə rəhbərlik edir, onlardan hər birinin birbaşa məsuliyyət doğurduğu fəaliyyətindən və səlahiyyətindən asılı olmayaraq, hökumətin digər üzvlərinin fəaliyyətini koordinasiya edir. Hökumət üzvləri **parlamentin verdiyi mandat** əsasında fəaliyyət göstərirlər. (Maddə 98). Buradan görünür ki, İspaniyada hökumət daxili və xarici siyasətin icrası ilə məşğul olur. Dövlətin təsərrüfatının idarə olunması hökumətə həvalə edilir. İspaniya Konstitusiyasında bu bölmə "Hökumət və dövlətin idarəolunması haqqında" adlanır. Dövlət rəhbəri isə baza etibarilə dövlət əhəmiyyətli, yəni **ali məzmunlu** fəaliyyəti həyata keçirir.

Dövlət rəhbərinin hakimiyyət rəhbərindən ayrılması (burada ayrılma sözünə mütləq mənada baxmaq olmaz, tam müstəqillik yoxdur, hər bir idarə prosesi dövlətin daxilindədir) məsələsi ilə dövlət öz müqəddəsliyini, əbədilik mənasını daha da geniş şəkildə qəbul etdirmiş olur. Dövlət rəhbəri hakimiyyət rəhbərlərindən yuxarıda dayanır və hakimiyyət rəhbərləri

---

[1] **Испанская Конституция. Перевод Пере Романа. Посольство Королевства Испании в Российской Федерации, 1995. http://vivovoco.rsl.ru/VV/LAW/SPAIN.HTM**

arasında koordinasiya funksiyasını (hər üçünə nəzarət etməklə) yerinə yetirir. Hakimiyyətlərin bölgüsü prinsipi dövlət rəhbərini məhz hakimiyyət rəhbərləri üzərinə qaldırır və dövlət rəhbəri postunu universallaşdıraraq, həm də bütövləşdirərək, daha da mənalı edir, bütövləşdirir. Bütövləşmədən də alilik meydana gəlir.

Əvvəlcə qeyd olunduğu kimi, müasir dövrdə dövlət rəhbəri anlayışı ilə hakimiyyət rəhbərləri (burada əsasən icra hakimiyyəti-hökumət nəzərdə tutulur) anlayışları arasında oxşar xüsusiyyətlərlə yanaşı, **fərqli xüsusiyyətlər** də mövcuddur. **Oxşar xüsusiyyətlər:** hər ikisinin dövləti və xalqı təmsil etmək hüquqları vardır; hər ikisi ümumi dövlət qanunlarının icrası ilə məşğul olur; hər ikisində hakimiyyət məsələsi vardır. **Fərqlər** isə ondan iabrətdir ki, dövlət rəhbəri dövlətin və xalqın əsas təmsilçisidir; dövlət rəhbəri bütün hakimiyyət qolları üzərində nəzarətedici səlahiyyətə malikdir (ali icra hakimiyyətini dövlət rəhbəri təsdiq edir; məhkəmələri təyin edir; qanunverici quruma seçkiləri təyin edir, qanunları imzalayır, qanunverici qurumu buraxır); dövlətlərin rəhbərləri beynəlxalq əlaqələrdə dövlətlərini təmsil edən əsas şəxslərdir; xarici ölkələrin səfirlərinin və elçilərinin təsdiq olunması (akkreditasiya məsələləri) məhz dövlət rəhbərləri yanında həyata keçirilir.

Dövlət tarixən, yəni tarixin əvvəlki dövrlərində baza olaraq birinci şəxs tərəfindən idarə olunub. Bu idarəçilik dövlət rəhbərinin mütləqləşməsinə (tək hakimiyyətinə, çox zamanlarda da məhdudsuz hakimiyyətinə, birtərəfli qaydada əlahiddələşməsinə) kömək edib. Dövlət rəhbərləri çox hallarda öz dövlət əmlaklarına şəxsi mülkləri kimi baxıblar və onlardan istifadə zamanı şəxsi maraqlarını daha da qabardıblar. Dövlət rəhbərləri ilə xalqı arasında olan münasibətlərdə daha çox ailə münasibətlərinə bənzər formalar yer alıbdır.

Orta əsrlərdə isə hakimiyyətin bölgüsü nəzəriyyələri meydana gəlib və inkişaf edib. Hakimiyyətin bölgüsü və liberal

siyasət konsepsiyalarına müvafiq olaraq hakimiyyətlərin qolları formalaşıbdır. Bu tarazlı forma əsasən dövlət siyasətinin də şəbəkəli və qismən də olsa ədalətli formasının əsaslarını təşkil etməkdədir. Tarazlaşmış və bölünmüş hakimiyyət prinsiplərinə müvafiq olaraq hakimiyyətin üç qolu dövlət siyasətinin icra və müəyyən olunmasında böyük rol oynayır.

Dövlət rəhbəri ümumi nəzarəti həyata keçirməlidir və hakimiyyət rəhbərləri üzərində tarazlı nəzarətin həyata keçirilməsi funksiyasını yerinə yetirməlidir.

**Dövlət rəhbəri vəzifəsi ilə hakimiyyət rəhbəri vəzifələri arasında oxşarlıqları bu şəkildə qeyd etmək olar:**

-hər iki vəzifə dövlətə və xalqa xidmət üçündür;
-hər iki vəzifədə icra funksiyası vardır;
-hər iki vəzifədə nəzarət funksiyası vardır;
-hər iki vəzifədə hüquq normasını qəbul etmək funksiyası vardır;
-hər iki vəzifə beynəlxalq əlaqələrdə xalqı və dövləti təmsil edə bilər və s.

**Fərqlər isə bunlardan ibarətdir:**

-dövlət rəhbəri qanunları imzalayır, təsdiqləyir;
-qanunvericiliyin tərkibində dəyişikliklər edir;
-dövlət rəhbəri beynəlxalq əlaqələrdə dövləti təmsil edən birinci şəxsdir;
-silahlı qüvvələrin ali baş komandanıdır;
-ölkə diplomatiyasının rəhbəridir;
-beynəlxalq əlaqələrin əsas öhdəlik tərəfdarıdır;
-dövlət rəhbəri icra hakimiyyəti və digər hakimiyyətlər üzərində səlahiyyətə malikdir;
-dövlət rəhbəri hökuməti əlində saxlayır və hökumətin tərkibini təsdiqləyir və hökuməti buraxır;

-dövlət rəhbəri məhkəmə və qanunverici qurum üzərində səlahiyyətlərə malikdir;

-dövlət təltiflərini verən əsas şəxsdir;

Dövlət rəhbəri həm də icra hakimiyyətinin rəhbəri olduqda hakimiyyətin bölgüsü prinsipində tarazlıq pozulur və icra tərəfinin səlahiyyətləri daha da böyüyür. İcra hakimiyyəti digər hakimiyyətləri çox dərəcədə üstələyir ki, bu da nəticədə ədalət prinsipinin pozulmasına səbəb olur və digər iki hakimiyyətləri özündən asılı edir.

**Ən yaxşı variant olaraq belə qəbul edilə bilər:**

-dövlət rəhbəri xalqın və dövlətin bütövlüyünün rəmzidir;

-dövlət rəhbəri dedikdə, xalqın birliyi nəzərdə tutulur;

-dövlət rəhbəri cəmiyyətin bütövlüyünün rəmzidir (cəmiyyətin bütün təbəqələrinin vahidliyi elə xalqın və dövlətin vahidliyini əks etdirir), milli-sosial bütövlüyün zəmanətçisidir;

-dövlət rəhbəri dövlət atributlarının və dövlət rəmzlərinin əsas təminatçısıdır, zəmanətçisidir, qoruyucusudur (onların mühafizısinin təmin edəndir. Buradan da ümumi halda dövlətin özünün müdafiəsi və dəyərlərinin qorunması məsələsi ortaya çıxır. Ümumiyyətlə, dövlət rəhbəri dövlətin və xalqın dəyərlərinə münasibətdə mühafizəkar xətti əsas tutmalıdır. Bu baxımdan da dövlət rəhbəri postu hakimiyyət üçün bir etalon və kriteriya olmalıdır);

-dövlət rəhbəri ümumxalq məclislərinin ümumi rəhbəridir (burada xalqın nümayəndələrinin rəyi və təklifi əsasında dövlət əhəmiyyətli (bütövlükdə xalqa aid olan və vəhdət şəkilində dövlətin əsaslarını əks etdirən) qərarların qəbul edilməsində və icrasının təmin olunmasında dövlət rəhbəri böyük rol oynayır və dövlət rəhbərinin özünün də səlahiyyətləri və vəzifələri, öhdəlikləri və məsuliyyətləri ilə bağlı qərarların qəbulu da məhz ümumxalq məclislərində keçirilir;

-dövlət rəhbəri hakimiyyətin (qollarının) ümumi rəhbəridir. Hakimiyyət qolları dövlətin bütövlüyünün rəmzi olan dövlət rəhbəri qarşısında məsuliyyət daşıyırlar;

-dövlət rəhbəri birbaşa idarəçilikdə iştirak etmir, icraya ümumi nəzarət edir və icra edənləri (burada hökumətin tərkibinə aid olan yuxarı vəzifəli şəxsləri) təsdiqləyir;

-daxili siyasi işlərə çox müdaxilə etmir, yalnız konstitusiyaya qarşı təhlükələr ortaya çıxdıqda öz səlahiyyətindən istifadə edir, həmçinin hakimiyyət böhranlarının, daxili çəkişmələrin qarşısını alır;

-dövlət rəhbəri yalnız böhranlı siyasi vəziyyətlərin birbaşa idarəçisinə çevrilir-belə hallarda icra hakimiyyətinin rəhbəri kimi də birbaşa səlahiyyətə malik olur;

-dövlət rəhbəri qanunvericilik sisteminin əsas təmnatçısıdır;

-dövlət rəhbəri konstitusiyanın və siyasi idarəetmə formasının əsas təminatçısıdır;

-dövlət rəhbərinin siyasətində vətəndaş birliyinin təmin edilməsi əsas rol oynayır;

-dövlət rəhbəri xalqın mədəni, elmi və tarixi irsinin qorunub saxlanılmasına və inkişaf etməsinə çalışır;

-dövlət rəhbəri daha çox ümumiləşdirici və statistik əsaslı siyasəti həyata keçirir;

-xarici və daxili siyasətə ümumi rəhbərliyi həyata keçirir, dövlətlərarası müqavilələr imzalayır, xarici ölkələrdə diplomatik nümayəndəliklərin təsis olunması məsələsinə baxır, xarici ölkələrdə diplomatik nümayəndəlik başçılarını vəzifəyə təyin edir və vəzifədən azad edir (geri çağırır); xarici ölkələrin diplomatik nümayəndəliklərinin akkreditasiya məsələsini həyata keçirir;

-dövlətin və xalqın beynəlxalq əlaqələrdə şərəf və ləyaqətini qoruyur;

-lazımi anlarda fövqəladə və hərbi vəziyyətlər tətbiq edir, müharibə və sülhü elan edir, dövlət adından sülh bağlayır (ümumxalq məclisinin razılığı ilə);

-ölkənin konstitusiya quruluşuna zamin durur və quruluşun mövcudluğunu təmin edir (burada ölkənin idarəçilik rejimi və quruluşu mühüm rol oynayır);

-ümumxalq seçkiləri haqqında (qanunverci qurumla birlikdə) qərarlar qəbul edir;

-referendum təyin edir;

-vətəndaşlıq məsələlərinə baxır;

-siyasi sığınacaq verilməsi məsələsinə baxır;

-əfv edir;

-dövlət təltifləri ilə təltif edir;

-ali hərbi və ali xüsusi rütbələr verir;

-müddətli həqiqi hərbi xidmətə çağırışları və hərbi qulluqçuların ehtiyata buraxılması barədə qərarlar qəbul edir;

-ölkənin Təhlükəsizlik Şurasını yaradır;

-qanunverici orqanla birlikdə məhkəmə hakimlərini vəzifəyə təyin edir;

-dövlətin insan hüquqları üzrə müvəkkilini qanunverici qurumla birlikdə müəyyən edir, təsdiq edir;

-müharibə anlarında ölkənin müdafiəsi üçün səfərbərliyi elan edir və müdafiə siyasətinə müharibə və dinclik dövründə (Ali Baş Komandan kimi) birbaşa rəhbərlik edir;

**(Qeyd. dövlət rəhbərinin səlahiyyətləri Azərbaycan Konstitusiyasında geniş şəkildə əks olunub).**

-dövlət rəhbəri hakimiyyət qolları üzərində müşahidə funksiyasını yerinə yetirir, ədalətin pozulmasının qarşısını alır;

-dövlət rəhbəri dövlətin doktrina və konsepsiyalarını qanunverci qurumla (Ümumxalq Məclisi ilə) birlikdə təsdiq edir;

-dövlət rəhbəri dövlət büdcəsini (qanunverici, ictimai-hüquqi qurumla-Ümumxalq Məclisi və Qanunverici orqanla birlikdə) təsdiq edir;

-silahlı qüvvələrin ali komanda heyətinin vəzifə təyinatın və vəzifədən azad olunması məsələsini həll edir;

-dövlət rəhbəri dövlətin və xalqın ümumi mənafeyi naminə hakimiyyətlər üzərində hesabat tələb etmək xarakterli siyasəti reallaşdırır;

-dövlət rəhbəri hakimiyyət qolları arasında tarazlığın pozulmaması üçün bu qollara ümumi nəzarəti həyata keçirir (Ümumxalq Məclisinin də bu işdə cəmiyyəti təmsil edən əsas qurum olaraq səlahiyyətləri mövcud olur).

Dövlət rəhbərinin səlahiyyətləri daha çox ölkənin bütövlüyü üzərində qurulur və dövlətin siyasətinin, - dövlət sərhədləri mərkəz olmaqla –daxildə və xaricdə, həyata keçirilməsini təmin edir. Bu baxımdan da dövlət rəhbəri vəzifəsi hakimiyyət rəhbərləri vəzifələrinə nisbətən daha ali məsuliyyətli və məzmunlu olur. **(Bir qədər ətraflı dərk etmək üçün 4 saylı qrafikə baxmaq olar)**

## Azərbaycanda Ümumxalq Məclisinin təşkili

Sovet dövründə Azərbaycanda Azərbaycan Respublikası xalq deputatları və Azərbaycan Ali Soveti mövcud olub. Sonradan, yəni ilk konstitusiyanın qəbuluna qədər olan dövrə qədər isə bu qurumların yaratdığı Milli Məclis fəaliyyət göstərib. 1995-ci ilin noyabrında müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunduqdan sonra isə Milli Məclisin səlahiyyətləri yeni seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclas günü başa çatıb. **(Azərbaycan Konstitusiyası. Keçid müddəaları. Maddə 4).** Eyni zamanda Konstitusiya qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası yerli xalq deputatları sovetlərinin səlahiyyətlərinə xitam verilib.

Çoxlarımıza məlumdur ki, demokratiyanın əsası elə xalqın hakimiyyətdə, öz idarəçiliyində, dövlətinin fəaliyyətində iştirak

etməkdən ibarətdir. Xalqın hakimiyyəti dedikdə, hakimiyyətin və dövlətin ümumilikdə elə xalqın nümayəndələrindən, xalqın özündən təşkil olunması nəzərdə tutulur. Xalq öz hakimiyyətində həm birbaşa iştirak edir, yəni onun nümayəndələri hakimiyyət strukturlarında təmsil olunur, nümayəndələri (ayrı-ayrı şəxslər) vəzifə (*dövlət vəzifələri)* tuturlar, həm də nümayəndələri tərəf etməklə *(seçkili qurumlarda-dövlət rəhbərinin, qanunverici qurumun və yerli özünüidarəetmə (bələdiyyə) və qanunverici qurumların (yerli və regional məclislərin) iştirak etmək yolu ilə*) iştirak edir. Xalq həm universal qaydada (məsələn, hər kəsin dövlət vəzifəsini tutmaq hüququ qaydası ilə), həm də xüsusi olaraq (burada isə müəyyən şəxslərin hakimiyyətdə vəzifə tutmaq imkanlarının olması qaydası ilə) öz dövlətində, onun siyasi sistemində, idarəçiliyində təmsil olunur. Xalq öz dövlətində həm fərdi nümayəndələri ilə, həm də kollektiv əsaslarla iştirak edir. O da məlumdur ki, hər kəsin siyasi və hüquqi biliyi ola bilməz və dövlətçiliyin fəlsəfi məzmununu dərk edə bilməz. Bu istiqamətdə nəzəri və təcrübi biliyi ola bilməz. Bu baxımdan da dövlət idarəçiliyində yalnız müəyyən istedadı, bilik və bacarığı olan (fərqlənən), xüsusi qabiliyyətlərə malik olan şəxslər iştirak edə bilər. Bu da özlüyündə çoxluğun iradəsinin azlıq tərəfindən təmin olunmasının zərurəti məsələsini ehtiva edir. Digər tərəfdən də idarəetmə obyekti böyük olmalıdır və daha geniş sahələri, çərçivələri əhatə etməlidir. Bu kimi prinsiplər xalqın iki istiqamətdə: universal və məxsusi qaydada öz dövlətinin idarəçiliyində və öz-özünü tənzimləməsində iştirakının əsaslarını formalaşdırır. Hər iki vəziyyətlərdə idarəetmədə struktur və sistemlər iştirak edir. Yəni sistem və struktur elə idarəetməni təşkil etmək üçün formalaşdırılır.

Xalq ona görə dövlətini yaradır ki, öz xoşbəxtliyini təmin etsin. Bu, hələ antik dövlətçilik nəzəriyyəsinin əsas prinsiplərindən biridir, həm də baza prinsipidir.

Dövlət struktur, sistem və mexanizm baxımından, ümumi məzmun etibarilə mücərrəd anlayışdan daha çox konkret və universal, bütöv və mütləq anlayışdır; çünki dövlət konkret sərhədlərdə, atributlarda, dövlət rəmzlərində; dövlət rəhbəri postunda və hakimiyyət strukturlarında, həmçinin ümumi olaraq vətəndaşlarının müəyyən sərhədlərdə məskunlaşmasında və vətəndaşların əlaqələr vəhdətində, eləcə də müəyyən güc qüvvələrində  özünü təsdiq etmiş olur. Dövlət tərkib hissələri olan vahid bir güc komponentidir. Dövlət məkan elementindən və onun üzərində olan canlı və cansız, istifadə edən və istifadə olunan komponentlərdən təşkil olunur. Dövlət təsdiqinin digər bir sübutu isə dövlətin (hakimiyyətin və vətəndaşların) məxsus olduğu əmlaklarda öz əksini tapır. Dövlət sərhədləri daxilində bütün əmlaklar ümumi halda dövlətə və xalqa mənsub olur. Əmlakın xalq və dövlətə mənsubluğu elə əmlakın şəxsə olan məxsusluğundan irəli gəlir. Yəni nəticə etibarilə hər şey fərdə məxsusdur. Fərdə məxsusluq isə şəxsi və ümumi əsaslarla yerinə yetirilir. Fərd öz marağını dövlət daxilində kollektiv maraqdan və onun formalaşdırdığı kollektiv mənbədən götürür. Dövlətin mövcudluğunun əsası həm də onun siyasətinin icra istiqamətlərində, siyasətin icra mexanizmlərində özünü göstərir. Dövlət müəyyən siyasət istiqamətləri olan mexanizmlərdən təşkil olunan vahid bir sistemdir.

Dövlət öz mənbəyini xalqdan götürür. Xalq isə fərdlərdən, sosial mənada isə şəxslərdən ibarətdir. Dövlət fərdlərə **vətəndaş statusunu** verməklə (onların ictimai-siyasi vəziyyətini müəyyən etməklə, normalarla hüquqlarını təmin etməklə) öz hakimiyyəti altına, idarəçilik obyektinə salır. Dövlətin idarəçilik subyektləri qismində isə tərəflər olaraq şəxslər (vəzifəli şəxslər) və şəxslərin toplaşdıqları qurumlar iştirak edir.  Vəzifəli şəxslər qurumlar daxilində olurlar və qurumlarını təmsil edirlər. Qurumdan kənar vəzifə ola bilməz. Deməli, dövlət siyasi və inzibati əhəmiyyətli ali və yerli

aparatlardan təşkil olunur və aparatlar arasında iyerarxik əlaqələr meydana gəlir.

Dövlət elə bir qurumdur ki, insanlar bu quruma öz maraqlarını təmin edən əsas mənbə, böyük bütöv güc vasitəsi kimi baxırlar. İnsanlar öz maraqlarının universal əsaslarını məhz dövlətlərində axtarırlar və dövlətlərinə (hakimiyyət tərəflərinə) onları idarə etmək üçün hüquqlar və səlahiyyətlər vermiş olurlar. Dövlət sanki, arxayın olmaq üçün böyük bir qüvvə-mərkəz rolunda çıxış edir. Bu baxımdan da insanlar məhz öz fəaliyyətlərini dövlətlərinin fəaliyyət məzmunları ilə bağlamaqda maraq nümayiş etdirirlər. Dövlət öz vətəndaşlarının hüququ üzərində tərəf kimi hüquq əldə etmiş olur və dövlətin vətəndaşlara xidmət etmək borcu, vəzifəsi və bundan irəli gələrək hüquqları formalaşmış olur. Dövlət hüququ vətəndaş hüququnun zənginləşməsinə xidmət edir.

Əvvəlcə qeyd olunduğu kimi, insanlar öz xoşbəxtliklərini məhz öz dövlətlərində axtarırlar. İnsanlar (geniş mənada xalq) dövlətlərinə həm də öz xüsusi (məxsusi) əmlakları kimi baxırlar və hər zaman çalışırlar ki, özlərinin hesab etdikləri dövlətin daxilində (içərisində) və işlərində (dövlətin fəaliyyətində) yaxından iştirak etsinlər. **(Qeyd: iştirakın başlıca məqsədi elə fəaliyyətin icrasında iştirak etməkdən və həmçinin proseslərə şahidlikdən ibarətdir).** Dövlətin fəaliyyətini təşkil etsinlər və onun istiqamətlərini müəyyən etsinlər. İnsanlar dövlətin bütün məzmununu məhz özlərinə xidmətdə axtarırlar. Dövlətin fəaliyyətini özlərinin maraqları ilə uzlaşdırırlar. Dövlətin fəaliyyəti məhz insanların maraqlarının mahiyyəti ilə harmonik məzmun təşkil edir. Dövlət həm də bu maraqlardan bir qədər kənara çıxır. Reallıq nöqteyi-nəzərdən belə hesab etmək olar ki, dövlətin maraqları bəzi hallarda hakimiyyətdə oturanların maraqlarını təmin etmiş olur və ümumi maraqlar kölgədə qalır. Ümumi maraqların müdafiəsi dövlətin ideal siyasətinin məzmununda yer alır və bu da daha çox nəzəri-elmi və humanitar prinsiplərə söykənir.

Lakin bütün hallarda dövlət öz siyasətini reallıqda özünümüdafiəyə yönəldir və dövlət hakimiyyətinin müəyyən qrupları da bu çərçivədə öz maraqlarını təmin etməyə çalışırlar. Bir çox hallarda dövlət hüququ (dövlət hakimiyyətinin hüququ) ümumxalq və ümumvətəndaş hüququndan ayrılmağa can atır və dövlət hüquq baxımından özünü yuxarıda görür. Vətəndaşlar üzərində hakim kəsilməyə başlayır. Bu anda avtoritarizm, mütləq və təkbaşına idarəçilik və totalitarlıq meydana gəlir və bir şəxsin və ya da bir qrupun dikətsi üzərində qurulan hakimiyyət formalaşır. Bütün bunlara yol verməmək üçün dövlətin daxilində tarazlı və bütöv qaydada fəaliyyət göstərən hakimiyyət bölgüləri (hakimiyyət mərkəzləri) formalaşır. Bu mərkəzlər elə güclərin paylanmasının əsaslarını yaradır. Gücləri paylamaq üçün isə xalqın dövlət idarəçiliyində geniş iştirak etməsinin əsasları zərurətə çevrilir. Bu anda qarşılqlı nəzarət, müşahidə və çəkişmə prinsipləri formalaşır. Dövlət daxildən güclənir və bütövlüyü daha da möhkəmlənir. Daxili boşluqların yaranmasının qarşısı alınır, enerji bütövlüyü meydana gəlir.

Demokratiyanın (xalq hakimiyyətinin) bir anlayış kimi nəzəri və real mahiyyəti dövlətdə vətəndaşların hansı səviyyədə: hansa sayda və keyfiyyətdə (burada bacarıqları və istedadları olan, ideya vermək və təşəbbüslər irəli sürmək qabiliyyətinə malik olan şəxslər nəzərdə tutulur) təmsil olunmalarından asılı olur. Təbii ki, hər bir şəxs dövlət hakimiyyətinin subyekti ola bilmir və burada az bir tərəf təmsil olunur. Demokratiya yalnız nümayəndələr vasitəsilə formalaşır. Bu nümayəndələr də klassik idarəetmə mexanizmlərinin əsaslarını yaratmış olurlar və vətəndaşları bir obyekt kimi götürürlər. Vətəndaşların maraqları dövlət siyasətinin əsas obyekti rolunda çıxış edir. Dövlət öz maraq istiqamətlərini vətəndaşlarına yönəldir və vətəndaşlşardan da istifadə edərək özünün güc resurslarının həcmini artırır. Burada

vətəndaş-dövlət birliyinin və əlaqəsinin vahid siyasi assambleyası meydana gəlmiş olur.

Dövlət real bir qurum və maddi canlı struktur olduğundan, yəni insanların birliyini əks etdirdiyindən onun təmsil edilməsi zərurəti meydana gəlmiş olur. Dövlətin vahidliyi onun rəmzlərində, atributlarında, qanunvericiliyində, iqtisadiyyat və siyasət sisteminin əlaqəli bütövlüyündə öz əksini tapmaqla yanaşı, həm də dövlət rəhbərində və onun cəmiyyətlə əlaqəsinin vahid əsaslarında özünü göstərmiş olur. Dövlət rəhbəri dövlətini və xalqını beynəlxalq əlaqələrdə və münasibətlərdə təmsil edir və bu baxımdan da müəyyən hüquqları olan tərəfə çevrilir.

Dövlət həm də haklimiyyətdən ibarətdir. Hakimiyyətin fəaliyyəti vətəndaşların maraqlarının əsaslarını təşkil edir. Dövlət hakimiyyətinin əsasını elə xalqın nümayəndələrinin cəmləşdiyi qurumlar təşkil edir. Bütün qurumlarda şəxslər təmsil olunurlar. Onlar ya seçki yolu ilə seçilirlər, ya da təyinatla vəzifələrə təyin olunurlar. Hər iki halda demokratiya mövcuddur və hakimiyyət və onun idarəçilik sistemi meydana gəlir. Dövlət öz idarəçiliyini vətəndaşların iradələrində axtarır və vətəndaşların sifarişləri ilə öz siyasətini təşkil edir.

Təcrübə onu göstərir ki, hər bir şəxs qərarların qəbul edilməsində və müzakirələrdə lap yaxından iştirak edə bimir. Ona görə də nümayəndəlik prinsipi bir qayda olaraq tətbiq olunur. Təmsil edənlərin ümumi potensialı təmsil olunanlardan aşağı ola bilməz. Bu halda təmsilçilik də öz gücünü və əhəmiyyətini itirə bilər. Dövlət hakimiyyəti ilə vətəndaşlar arasında geniş harmonik məzmun o halda daha da səmərəli olur ki, vətəndaşlar (cəmiyyət tərəfi) hakimiyyətdə daha da yaxından iştirak edir. İştirakçılığın da iki mühüm istiqamətini qeyd etmək olar: **birincisi, iştirak və müzakirələrdə aktivlik, ikincisi, isə məclislərdə sadəcə iştirak.** Hər iki hal vətəndaşların şahidliyini artırır və onları dövlətlərinə daha da sıx bağlayır. Məclislərdə geniş iştirak dövlətin mənəvi-maddi

və siyasi ruhunu zənginləşdirir. Bu baxımdan da qərarların qəbulunda iştirakın özünü belə genişləndirmək lazımdır ki, hakimiyyətin işinə real şahidlik daha çox artsın.

**Azərbaycanda gələcəkdə Ümumxalq Məclisinin yaradılması ideyası da öz mənbəyini məhz buradan, yəni iştirakçılıqdan götürür.** Ümumxalq Məclisinə nümayəndələrin göndərilməsi məsələsini Azərbaycanın bütün yaşayış məskənləri üzrə ardıcıl qaydada nümayəndə seçib göndərməklə təmin etmək olar. Yerlərdə bələdiyyə məclislərini təşkil edib, onlardan da nümayəndələr göndərmək olar.

Ümumxalq Məclisi baza etibarilə və fəlsəfi baxımından qanunverici hakimiyyətin tərkibi olsa da, daha geniuş məzmun etibarilə cəmiyyətlə dövlət arasında kollektiv üçün körpü rolunu oynayan, xalqın sözünü dövlətə çatdıran əsas qurum kimi rol oynaya bilər.

Azərbaycanda qanunverici hakimiyyəti Milli Məclis həyata keçirir. **(Azərbaycan Konstitusiyası. Maddə -81.)** Milli Məclisdə deputatlar xalqın təmsil etdikləri nümayəndələr hesab olunur. Milli Məclis bu baxımdan həm də ictimai bir qurumdur və burada sosial-siyasi kompozisiya vardır. Dövlət rəhbəri də xalq tərəfindən birbaşa seçildiyindən, bu vəzifənin də mahiyyətində ictimai-siyasi kompozisiya dayanır. Azərbaycan parlamentində hər bir çağırış üzrə (beş ilik müddət üçün) 125 deputat fəaliyyət göstərir. Konstitusiyanın 83-cü maddəsinə əsasən, depuatatlar majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. Azərbaycan parlamenti demokratiyanın formasını özündə əks etdirir. Burada həm dövlət əhəmiyyətli məsələlər müzakirə olunur, qanun layihələri qəbul edilir, icra hakimiyyətinin hesabatları dinlənilir, həm də cəmiyyətdə baş verən proseslərə qiymətlər verilir. Məzmun baxımından düzgün bir struktura malikdir.

Lakin onu qeyd etmək olar ki, siyasi proseslərdə və ictimai müzakirələrdə hər bir şəxs birbaşa və geniş kollektivçilik

əsasında təmsilçiliklə iştirak edə bilmir. Bu da insanların ictimai-siyasi proseslərdə fəallığını aşağı endirir və vətəndaşları öz dövlətlərinin ictimai məsuliyyətinə laqeyd münasibətlərini yaradır. Kütləvi halda siyasətdə iştirak etməmək, siyasətdə iştirak etməkdən imtina halları (apolitisizm, absentizm) meydana gəlir. Məlumdur ki, hər bir şəxs (əqli qabiliyyəti olanlar) öz baxışları ilə siyasətdə iştirak etmək və müəyyən fikirləri bildirmək hüququna malikdir. Bu həmin şəxsin həm ictimai, həm də siyasi hüquqlarını formalaşdırmış olur. İctimai-siyasi hüquqlar daha çox ictimai-siyasi fəaliyyətlə büruzə verir, təsdiqini tapır. Nəzəri aspektlər, nəzəri fəlsəfə fəaliyyətlə təcrübədə çulğaşmış və yeni məna qazanmış olur. Buradan da yeni nəzəri fəlsəfi baxışlar meydana gəlir. Təcrübədən yeni ideyalar formalaşır. İctimai-siyasi fəaliyyətin genişliyi vətəndaşların ictimai-siyasi fəallığını artırır. Bu da özlüyündə dövlət hakimiyyətinin məsuliyyətini artırmış olur. Vətəndaşlar öz dövlətlərinə daha çox təsir imkanları əldə edirlər. Bu təsir imklanlarının əldə edilməsi üçün müəyyən sahələr üzrə kütləvi informasiya vasitələri, ictimai-siyasi birliklər, o cümlədən partiyalar fəaliyyət göstərir. Lakin bununla yanaşı, belə hesab etmək olar ki, iştirakı genişləndirmək və dövlət-vətəndaş vəhdətini yaratmaq üçün, məzmunu böyütmək məqsədilə geniş iştirakı və təsir imkanlarını, plüralizmi və çəkişmə prinsiplərini təmin edən Xalq Məclisinin təşkilinə ehtiyac vardır.

**Təşkili istiqamətləri**

Ümumxalq Məclisinin illik yığıncağını (məsələn, ildə, hər dəfə bir həftə və ya da on gün davam etməklə, üç, ya da dörd dəfə keçirməklə) növbə ilə Azərbaycanın müxtəlif şəhərlərində təşkil etmək olar. Bu qurum Azərbaycanda demokratiya mərkəzi rolunu da oynaya bilər. Ümumxalq Məclisinin sədr və

idarə heyətini təşkil etmək olar. Bununla bərabər, daxili strukturunda sahələr üzrə bölmələr də yaratmaq olar. Ümumxalq Məclisinə bütün yaşayış məskənlərindən təmsil etmək üçün  nümayəndələr seçilə bilər. Xalq Məclisinin işində iştirak edən şəxslərin yığıncaq müddətində əmək haqları iş yerləri üzrə saxlanıla bilər. Bununla bərabər, Məclisə ezamiyyət xərclərini də müvafiq iş yerləri ödəyə bilərlər. Ümumxalq Məclisində Sədr vəsifəsini növbə ilə dövlət rəhbəri və cəmiyyət tərəfinin nümayəndəsi tuta bilər. İdarə Heyətinin üzvlərinə isə cəmiyyət və dövlət hakimiyyətinin strukturlarından nümayəndələr daxil ola bilər. Burada müzakirə edilən məsələlər (layihələr) qanunverici qurumda bir daha baxıla bilər (hüquqi qiymət verilmək üçün, hüquqi tələblərə cavab verməsini əsaslandırmaq üçün), Konstitusiya Məhkəməsində konstitusiyaya uyğunluğu yoxlanıldıqdan sonra dövlət rəhbərinin təsdiqinə göndərilə bilər. Burada dövlət əhəmiyyətli məsələlərə (məsələn, referendum, müdafiə məsələləri, fövqəladə məsələlər, dövlət rəhbərinə və hakimiyyət rəhbərlərinə etimad məsələsi, dövlətin proqram, doktrina və konsepsiya məsələləri və s.) baxıla bilər və müzakirəsi təşkil oluna bilər. Məsələn, dövlət rəhbərinə etimad göstərilməsi məqsədilə ümumxalq referendumunun keçirilməsi üçün dövlət rəhbəri konstitusiyanı kobu şəkildə pozduqda, dövlətə (dövlətçiliyə) qarşı cinayət əməlləri törətdikdə, Konstitusiya Məhkəməsi Sədrinin və Baş Prokurorun birgə təklifi əsasında (bunlar həm də Ümumxalq Məclsinin İdarə Heyətinin üzvləri ola bilərlər) Ümumxalq Məclisi işə baxa bilər. Bu anda Məclisin sədr postu dərhal cəmiyyət tərəfinə keçə bilər. Hakimiyyət rəhbərlərinə etimad məsələsini isə (cinayət törətdikdə, dövlətə qarşı fəaliyyət göstərdikdə və dövlətə qarşı cinayətə cəhd göstərdikdə, vətəndaş qarşıdurması yaratdıqda və bu kimi digər ciddi pozuntu hallarında) dövlət rəhbərinin, cəmiyyət tərəfinin, Baş Prokurorun və Konstitusiya Məhkəməsi Sədrinin təklifləri əsasında Ümumxalq Məclisi

müzakirəyə çıxara bilər. Bu anda təklif dövlət rəhbəri tərəfindən daxil olduqda Məclisin Sədri vəzifəsini cəmiyyət tərəfinin nümayəndəsi, əks hallarda isə dövlət rəhbəri yerinə yetirə bilər. Ümumiyyətlə, imzalar əsasında (imzalar müəyyən təşkilatların və ya da fərdi şəxslərin təşəbbüsü ilə toplandıqda) müəyyən edilən müraciətlərə baxmaq üçün isə sədr vəzifəsini dövlət rəhbəri həyata keçirə bilər. Ümumi qayda üzrə isə sədr vəzifəsini növbə ilə (məsələn, hər iki ildən bir əvəz etmə ilə) dövlət rəhbəri və cəmiyyət nümayəndəsi tuta bilər.

Dövlət rəhbərinin dəyişməsindən asılı olmayaraq Ümumxalq Məclisinin fəaliyyəti daimi olar və sadəcə olaraq, öz tərkibini müəyyən müddətlərlə yeni nümayəndələrlə əvəzləyə bilər.

Ümumxalq Məclsində qəbul edilən qərarlar daha çox ilk instansiya qərar kimi qəbul edilə bilər, qərar layihəsində düzəlişləri və hüquqi statusu isə qanunverici qurum tənzim edə bilər. Bundan sonra dövlət rəhbərinin imzası ilə qüvvəyə minə bilər. Qanunverici qurum ciddi əsaslar gətirməklə Ümumxalq Məclisinin qərarlarını qəbul etməyə bilər.

Lakin bu kimi qərarların qəbulunda qanunverici qurum Ümumxalq Məclisinin sənədlərinə baxmaq səlahiyyətinə malik olmaya bilər:

-qanunverici quruma etimad göstərilməsi məsələsi - bu qərar imzalanmaq üçün birbaşa dövlət rəhbərinə göndərilə bilər;

-hakimiyyətin digər qollarına etimad məsələsi, onların rəhbərlərinin vəzifədən azad edilməsi məsələsi, o cümlədən hökumətə etimad məsələsi-bu kimi qərarlar da imzalanmaq üçün birbaşa dövlət rəhbərinə təqdim oluna bilər (qanunverici qurum isə layihəyə hüquqi rəy bildirə bilər. Bu qurum hüquqi rəydən imtina etdikdə, Ümumxalq Məclisinin xahişi ilə Konstitusiya Məhkəməsi hüquqi rəy bildirə bilər);

-dövlət rəhbərinin vəzifəyə təsdiq olunması;

-ümumxalq referendumunun nəticələri.

**Müzakirəyə çıxarılan və qəbul edilən qərarlar**

-ümumxalq referendumu;
-ərazi dəyişiklikləri məsələsi;
-dövlət rəhbərinin təsdiqi və istefası məsələsi;
-hakimiyyətə etimad məsələsi;
-dövlət rəmzləri və dövlət atributları;
-vətəndaşlıq məsələləri;
-milli birliyə nail olmaq məsələləri;
-dövlətin ərazi bütövlüyünün qorunması və strateji planlar məsələsi;
-humanitar və təbii fəlakətlər məsələsi;
-mühüm dövlət proqramları və konsepsiyaları; doktrinaları;
-müharibə və sülh məsələləri;
-xarici siyasətin strateji hədəfləri və istiqamətləri və s.

**Əhəmiyyəti:**

-dövlət-cəmiyyət, dövlət-vətəndaş birliyinin səmərəliliyinin artması;
-dövlət idarəçiliyində vətəndaşların geniş iştirakının təmin olunması;
-dövlət idarəçiliyində iştirakçılıq və fəallıq prinsiplərinin genişləndirilməsi və demokratiyanın zənginləşdirilməsi;
-dövlət rəhbərinin, hakimiyyət rəhbərlərinin cəmiyyətdən, vətəndaşlardan və ümumən xalqdan məsuliyyət asılılığının artması;
-nümayəndəlik sisteminin gücləndirilməsi;
-dövlət idarəetməsinin vətəndaşlara yaxınlaşması;
-ölkə ərazisində vətəndaş birliyinin güclənməsi;
-hakimiyyətlər arasında tarazlı münasibətlərin gücləndirilməsi və avtoritarizmin, totalitarizmin qarşısının

alınması, birtərəfli və yaxud da məhd sayda şəxslərin iştirak etdiyi idarəetmənin formalaşmasına yol verilməməsi;

-ölkənin bütün məskənlərinin idarəçilikdə geniş iştirakının (mandatlı nümayəndələri ilə) təmin olunması;

-vətəndaşlarda dövlətə və hakimiyyətə inam və etiqadın gücləndirilməsi və s.

Azərbaycanda 2020-2030-cu illərdən sonra **(bu dövr Azərbaycanda yumşaq demokratiya dövrü kimi xarakterizə olunmalıdır)** yaradılması mümkün ola bilən Ümumxalq Məclisinin strukturu və fəaliyyəti, eləcə də məzmunu haqqında Qrafiklər bölməsindəki 5,6, 7 saylı qrafiklərdən də tanış olmaq olar. Ümumxalq Məclisinin geniş vəzifə və səlahiyyətləri ilə bağlı Konstitusiya qanunu da qəbul oluna bilər.

# *Qrafiklər bölməsi*

**Qrafik-1** | **İnkişaf şüurun və materiyanın vəhdəti kimi**



**Qrafik-2**

**İnkişaf trayektoriyasını əks etdirən sxem: qeyri-müəyyənlikdən müəyyənliyə keçid-mənfi ilə müsbətin vəhdəti**




Burada olan xəyali sxem onu deməyə əsas verir ki, inkişaf trayektoriyalarının aşkarlanması başlanğıcları hər iki müstəvidə mümkündür. Bu, yanıb-sönən şarlar kimi effektə malikdir. Buna inkişafın **“ulduz müstəvisi”** kimi də ad qoymaq olar.

Qırıq-qırıq xətlərlə əks olunan ümumi inkişaf xəttinin qalınlaşması (qalın qırıq xəttə çevrilməsi) və sıfırı keçəndən sonra bütövləşməsi enerjinin artması sayəsində olur ki, bu da hərəkəti fəallaşdırır.

Sırada qeyri-müəyyənlik arxada olsa da, əslində müəyyənliyin qabağındadır. Bu, **gələcək inkişafın** əsasıdır.


Qrafik-3
İnkişaf proseslərinin artmasında şüur-materiya vəhdətinin təsirlər dərəcəsini əks etdirən sxem
obyekt
obyekt
Şüur
Materiya
İnkişafın dərəcələnmələri-nəticələr
Yeddinci inkişaf nəticəsi
Altıncı inkişaf nəticəsi
Beşinci inkişaf nəticəsi
Dördüncü inkişaf nəticəsi
Üçüncü inkişaf nəticəsi
Ikinci inkişaf nəticəsi
Ilk inkişaf nəticəsi

**Qrafik-4** | **Dövlət rəhbəri vəzifəsi ilə hakimiyyət rəhbərləri vəzifələrinin məzmununu əks etdirən sxem**

Dövlət rəhbərinin səlahiyyətlərinin əks olunduğu sahələr. Xəyali olaraq belə hesab etmək olar ki, dövlət rəhbəri dövlətin daxildən və xaricdən bütövlüyünün əsas təminatçısıdır. Dövlətin daxildən və xaricdən dağılmasının qarşısını almaq öhdəliyinə malikdir. Bu baxımdan da dövlətin ümumi və mərkəzi potensial siyasətinin əsas istiqamətvericisidir, gücü öz əlində cəmləşdirəndir. Hakimiyyət rəhbərləri isə bu istiqamətli siyasətin həyata keçirilməsində dövlət rəhbərinə tabe olmalıdırlar. Yəni hakimiyyətin əsas fəaliyyəti dövlət rəhbərinin fəaliyyəti ilə əhaət olunmalıdır. Hakimiyyət dövlətə tabe olaraq, onun rəhbərinin səlahiyyətlərinin icrasında yardımçı olmalıdır.

Dövlət rəhbərinin dövlət bütövlüyünün –bütöv strukturunun daxili və xarici sərhədləri üzrə əhatə olunmuş səlahiyyətlərinin xəyali xətti. Bütöv strukturun xətləri dövlətin bütövlüyün qorumaq üçündür.

Dövlət idarəçiliyinin əsasları-piramidal struktur




Hakimiyyət rəhbərləri

Bu işarələr hakimiyət qolları və dövlət rəhbəri vəzifəsi arasında olan funksiya bağlılığını göstərir

Hakimiyyətin üç qolunun səlahiyyətləri isə yuxarıda, aşağıda və ətraflarda (sağda və solda) dövlət rəhbərinin səlahiyyətləri ilə birləşir və ona yardımçı olur. Dövlət rəhbərinin səlahiyyətlərinin icrasının davamı olaraq şaxələnir. Hakimiyyət də öz xarici və daxili fəaliyyətini dövlət rəhbərinin fəaliyyəti içərisindən həyata keçirir. Bu, o deməkdir ki, hakimiyyət qollarının səlahiyyətləri dövlət rəhbərinin səlahiyyətlərini aşa bilməz; çünki dövlət rəhbəri vəzifəsi elə dövlət bütövlüyünün əsasıdır. Hakimiyyət bu baxımdan dövlətin və onun məxsus olduğu xalqın səlahiyyətlərindən (həm də beynəlxalq əlaqələrdə) xaricə çıxa bilməz. Dövlət rəhbərinin səlahiyyəti hakimiyyətin bölgüsü zamanı öz böyüklüyünü göstərir. Dövlət idarəçilik sistemi məhz hakimiyyət bölgüsü zamanı zənginləşir; çünki ayrı-ayrı istiqamətlərdə komponentlər zənginləşir, çoxalır. Hakimiyyət qollarının cəmləşmiş vahdət siyasəti məhz dövlət rəhbərinin vahid siyasətində büruzə verir.

**Qrafik-5**

**Azərbaycanda Ümumxalq Məclisinin təşkili məzmununu əks etdirən sxem**




Ümumxalq Məclisi cəmiyyət və dövlət arasında bir bağlayıcı funksiyanı yerinə yetirən universal əhəmiyyətli qurumdur. Burada xalqın çox sayda nümayəndələri iştirak edir. Əsasən ayrı-ayrı təşkilatlardan nümayəndələr göndərilir. İş yerləri saxlanılmaqla nümayəndələr burada iştirak edirlər. Məclis ictimai- siyasi və inzibati idarəçilik arasında bağlayıcılığı təmin edən bir qurumdur. Ümumxalq Məclisində fərdi şəkildə şəxslər, dövlət rəhbəri, dövlət hakimiyyəti qurumları və ictimai qurumlar, iqtisadiyyat sahələrini təmsil edənlər iştirak edirlər.

**Qrafik-6**

**Ümumxalq Məclisinin əsas strukturunu və fəaliyyət istiqamətlərini əks etdirən sxem**



**Qrafik-7**

**Ümumxalq Məclisinin səlahiyyətinə aid olan məsələləri əks etdirən sxem**



# NƏTİCƏ:

Dövlətlərin, cəmiyyətlərin, xalqların və beynəlxalq münasibətlərin, ümumilikdə isə dünyanın inkişafı vəhdətdədir. Bu vəhdət məhz sistemlərdaxili və sistemlərarası sinergizmdə, yəni əməkdaşlıqda, uyğun fəaliyyətdə  meydana gəlir. Dünya elə bir vahid sistemdir ki, bu sistem daxilində tənzimləmə xassələnir, təsnif olunur və müxtəlif səviyyəli tənzimetmə istiqamətləri meydana gəlir. Ümumi tənzimləmə əsasən böyük bir enerjini potensialı meydana gətirir və vahid enerji mənbəyi sistem daxilində yaranan qeyri-tarazlıqların tarazlıqlara çevrilməsini təmin edir. Sistem bütövləşir və nisbi bərabərlik əsasında inkişafa nail olunur.

İnkişaf sülhlə əlaqəlidir. Ümumdünya sülhü ümumdünya inkişafına söykənir. Ümumdünya sülhünün təmin olunmasında böyük qüvvələr (böyük dövlətlər) mərkəzi rolu oynayırlar. Böyük dövlətlərin kiçik dövlətlər üzərlərində təsirləri meydana gəlir ki, bu təsirlər də onların idarə olunmalarına səbəb olur. Bu baxımdan da dünya daxilən tənzimlənən bir sistemə çevrilir. Sistemin məqsədləri müxtəlif tərkibdən ibarət olur. Lakin bu tərkiblər içərisində ümumi amllar daha böyük önəm kəsb edir. Yəni bəşəri amallara xidmət etmək və ümumdünyanın dəyərlərindən (mədəni və təbii irsindən) yararlanmaq əsas prinsipləri özündə ehtiva edir.

Sülhün təmin edilməsi və qorunmasında qeyri-liberal üsullar olan təzyiq metodları da istifadə olunmalıdır. Bu metodlar xüsusilə beynəlxalq ədalət qaydalarını pozanlara şamil edilməlidir.

Sülhün qorunmasında və təmin edilməsində çoxmərkəzli dünya nizamının olması da labüddür. Bu, mərkəzlər arasında risqləri artırır və çəkindirmə prinsipindən irəli gələrək sülhün ardıcıl təmin edilməsi məsələləri aktuallaşır.

# II FƏSİL:

# DÜŞÜNCƏLƏRİM

***Kainat və təbiət haqqında fəlsəfi hipotezalar***

**Ən zövqlü görünüş həqiqətdir ki, o da reallıqda olandır. Qeyri-reallıq isə istənilən, arzu olunan, qeyri-müəyyən reallıqdır, bu baxımdan ideallıq və qeyri-ideallıqdır. Qeyri-ideallıq da gələcək reallığın zövqüdür. Deməli, gələcək həqiqətin görünüşü də estetikdir. Bütün hallarda real görünüş həqiqətdir**

## ÜMUMİ HİSSƏ:

**Göründüyü kimi, kitab iki ümumi hissədən (struktur tərkibdən) ibarətdir. Ümumi hissələri ümumi oxşar və fərqli məzmunlar təşkil edir. Oxşar məzmunlar da oxşar əlamətlərlə qruplaşdırılır. Oxşarlıqların müxtəlif koordinatlarla-kəsişən koordinatlarla- vəhdəti, yəni paralelliklərin kəsişən vəhdəti sistemi meydana gətirir. Oşxar əlamətlərin müxtəlif istiqamətlərdə qruplaşması da sistemlərin (ayrı-ayrı mərkəzlər üzrə) meydana gəlməsinin əsaslarını yaradır. Ümumi məzmunları isə tərkibində oşxarlqıların çox olduqları hallar, əlamətlər yaradır. Oxşarlqların çox olduqları hallara (birləşmiş formalara) isə sistemlər demək olur. "Sistemsizlik" isə tərkibində çoxlu sayda ən kiçik sistemlərin, yəni qarışıq sistemlərin, qarışıq vəziyyətlərin, yəni nizamsızlığın olmasıdır. Deməli, nizam əslində hər bir əlaqədə olsa da hiss olunan və görünən formada yalnız sadə quruluşlarda, dərk olunan formalarda daha da aydın olur. (**Qeyd: ümumiyyətlə, sistemsizlik yoxdur. Çünki hər şey makronizama tabedir. Sistemlər daxilində müəyyən sistemsizliklər var. Sistemin nisbi qarışıq tərkibləri elə bizim qəbul etdiyimiz sistemsizlikdir)**. Məsələn, dolanbaclıq (labirint) özü sistemlər çoxluğundan ibarətdir.**

**Ən kiçik hissəciklər cəmi, ən kiçik sistemlər cəmi ümumi görünüş baxımından xaosa bənzəyir. Deməli, sistem daha çox böyüklükdən, eyniliyin çox olmasından və mövcudluğun uzun müddət davam etməsindən formalaşır. Lakin bu, o demək deyil ki, qısa zamanların sistemlilik xassəsi yoxdur. Burada, yəni qısa zamanda sistem tez dəyişir, yeni sistem yaranır.**

**Kitabda iki müxtəlif məzmunlu sistem (tezislər, sintez və analizlərdən ibarət olan fərqli fəsillər) vardır. Bu iki sistem isə vahid sistemi-strukturu- meydana gətirib. Ümumi xətt qırılanda yeni xətt meydana glir. Fərqli istiqamətli xətlərin birləşməsi isə sistemlərin əsasını yaradır. Tərkibində çoxlu sayda sistemlərin olduğu vahidin özü də sistemdir, həm də çoxsistemlidir.**

**Kainat yaddaşa malikdir. Bütün informasiyaları özündə saxlayır. Çünki hər şey hərəkətdədir. Hərəkət siqnalları yaradır. Bu siqnallar səslər və görünüşlərdən ibarətdir. Hərəkətlərin əksi var, lakin onlar olduğu şəkildə ola bilməz. Çünki kainatın hərəkəti əks olunmuşun əlamətini dəyişir, formasını itirir. Ona görə ki, ən kiçik elementlər, zərrəciklər elə hərəkətdə olur.**

**Bizim yaşadığımız təbiət (bizim iradəmizdən kənar qüvvənin məhsulu olan varlıq, mövcudluq, kənar qüvvənin özü, yəni elementlərdən təşkil olunan aləm) kainatın tərkibidir. Kainat nəhəng və ölçüsüz olduğuna görə də fikirlər, düşüncələr makro və mikro əsaslarla müəyyən edilib. Kainatın ölçüsünün olmaması əslində düşüncələrin hədsiz olmasına işarədir. Hədsiz düşüncələr çərçivəsində hər bir şəxs makro və mikro dərəcədə düşünə bilər. Bu anda düşüncənin obyektini böyütmək və kiçiltəmək zərurəti meydana gəlir. (Qeyd: bir sahə üzrə çox düşünmək həmin sahənin aşkarlanmasına xidmət edir. Deməli, düşüncə aşkarlığın şərtidir, təkanvericisidir). Bu da istəklərə, maraqlara və niyyətlərə bağlıdır. Düşüncələrin**

**dəyişməsi, yəni eyni istiqamətlər üzrə artıb-azalması, həmçinin obyektini dəyişməsi onun nisbətini yaradır. Deməli, düşüncələr də mütləq və nisbidir. Düşüncələrin mütləq və nisbiliyi həm də məlumat qəbulediciliyinin axarı sürətində özünü göstərir. Bu da təsdiqləri və inkarları böyüdür. Deməli, düşüncələr də hərəkətdir ki, bu da ardıcıl olduqda, özünün inkişafıdır. Beyinə informasiya axınının güclənməsi beyində emal proseslərini gücləndirir. Sintez və analiz qabiliyyətini artırır ki, bu da özlüyündə qeyri-müəyyənliyi daha aydın formada müəyyənliyə çevirir.**

**Hər kəs və hər bir hərəkət kainatın vahid qüvvəsinə tabedir; çünki kainat nizamdır, böyük nizam da kiçik nizamları öz tabeçiliyinə alır. Bu baxımdan da vahid böyük yaradanı inkar etmək insan qabiliyyətindən, potensialından kənardadır. İnsan makro qabiliyyətləri çərçivəsində yalnız böyük qüvvəni təsdiq edə bilər. Fikirlər isə müxtəlif olsa da vahid qanunlara tabedir. Buna görə də insan elə vahid qüvvənin nəticə varlığıdır. İnsan heç zaman vahid qüvvəyə (Ulu-Ali yaradana, tənzim edənə, idarə edənə) qarşı çıxa bilməz; çünki bu, mümkün deyil. İnsanlar sadəcə olaraq bir-birilərinin fikirlərini və əməllərini inkar edə bilərlər. Lakin bütün fikirlər vahid qanunlara tabedir. İnkar da bu vahid qanunları tapmaqdan ibarətdir. Bu baxımdan da düşüncələr də yalnız kainatın içərisini, ümumiyyətlə, bütün var olanların əsasını özünə obyekt seçə bilər.**

Əgər biz makrosistemdə başlanğıc axtarırıqsa, onda belə bir hipotezadan (güman, təxmin, fərziyyə) çıxış etmək olar ki, **kainatın başlanğıcı (əsas mənbəyi) kainat**[1] müstəvisi üzrə, riyazi dillə ifadə etsək, bizim şərti koordinat nöqtəsi hesab

---

[1] **Elm yazır ki, Yer, Ay, başqa böyük planetlər, onların peykləri, kometlər, kiçik planetlər, meteorlar və meteoritlər, planetlərarası kosmik fəza, Günəş, ulduzlar və onların sistemləri, qalaktikalar, ulduzlararası və qalaktikalararası mühit, müxtəlif relyativist obyektlər kainat obyektləridir. Bu obyektlərin bütöv çoxluğu isə kainatdır. R. Ə. Hüseynov. H95. Astronomiya. Ali məktəblər üçün dərslik. Bakı: "Maarif" nəşriyyatı, 1997, 468 səh.; səh.5**

etdiyimiz **“0”-dan “sola”** fəzadakı **nisbətən soyuq olan və bu baxımdan da zəif hərəkət edən elementdədir**. Yəni kainatın çoxluğu, böyük hissəsi hardadırsa, balanğıc da oradadır. Çox olan hissə də kosmik fəzadır, deməli, şərti mənbə də elə oradadır. Başlanğıca daha çox yaxın olan hissəni  böyük olanı, yəni həcmi çox olanı götürmək lazımdır. Bu baxımdan da başlanğıcı Günəşdə və digər ulduzlarda axtarmaq düzgün olmaz. Çünki Günəş və ulduzlar kosmik fəzadan kiçikdirlər. Bu, kosmoqonik bir fikirdir. *(Elmi və fəlsəfi ədəbiyyatlar yazır ki, Kosmoqoniya –Günəşin, ulduzların mənşəyini və təkamül problemlərini öyrənir).* Bu element kainatın bazasını, əsas müstəvisini və müstəvidəki cisimlərini təşkil edir. *(Burada isə kosmolji fikir ortaya çıxır. Fəlsəfi və elmi ədəbiyyatlar yazır ki, Kosmologiya kainatın quruluşunu, onun bütöv bir obyekt kimi fizikasını, mənşəyini öyrənir. Elm yazır ki, R>100 mln.işıq ili (bu məsafəyə aiddir) şərtini ödəyən cisimlər aləmi meqatoniya, kosmologiya adlanır. Maksimum məsafə təqribən 10 milyard işıq ili müəyyən edilə bilib).*[1]

Buradan belə bir nəticə hasil olur ki, kainat öz müstəvisindən, müstəvini təşkil edən ən kiçik elementar zərrəciklərdən ***(elementar, yəni ən kiçik zərrəciklərin-maddə quruluşunun ilkin hissəciklərinin- başlanğıcı ən böyük element də ola bilər. Burada kosmosda “Böyük partlayış” ideyasına yaxınlaşmaq və bu faktı qəbul etmək mümkündür)*** yaranıb. Elm yazır ki, 1897-ci ilə qədər, yəni elektronun kəşfinə qədər atom alimlər üçün öz bütövlüyünü, bölünməzliyini saxlamaqda və materiya quruluşunun ilkin zərrəciyi qalmaqda davam edirdi. 1932-ci ildə məlum oldu ki, atom nüvədən və elektronlardan təşkil olunub. Nüvə isə proton və neytronlardan təşkil olunub. Elementar zərrəciklər məhz atomu təşkil edən proton, neytron və elektronlardan ibarətdir. Zərrəciklər bir-birilərinə çevrilirlər. Elm həmçinin yazır ki,

[1] **İ.H.Cəfərov. Elementar zərrəciklər fizikasının əsasları. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2009, 287 səh.**

hazırda məlum olan zərrəciklər əsasən üç sinfə bölünür: laptonlar, hadronlar və kalibronlar. Atom-müsbət elektrik yüklü ağır nüvədən və onun sahəsində hərəkət edən mənfi yüngül elektronlardan ibarətdir. Hazırda yüzlərlə elementar zərrəcik məlumdur. Bu zərrəciklər hədsiz sayda proseslərdə (elestik və qeyri-elastik səpilmə, parçalanma, yaranma, məhv olma və s.) iştirak edirlər. [1] Elementləri bir-birindən fərqləndirən xüsusiyyət onların tərkibində olan **atomlardakı protonların** sayıdır. Deməli, bu proton zərrəciklərini kainatın hərəkətinin əsas elementləri, elementarları kimi qəbul etmək olar.

Elmdə minimal məsafə, maksimal məsafə, minimal ölçü, maksimal ölçü imkanlar daxilinə müəyyən edilibdir. Onu nəzərə almaq lazımdır ki, kainatda heçlik olmadığından ən son minimal ölçü elə müəyyən sonluqlarda (müəyyən məkanlarda) böyüyən ölçülərlə əvəz olunmağa başlayır. Belə qəbul etmək olar ki, minimal ölçülər qurtararsa kainat da ola bilməz. Minimal ölçü ilə maksimal ölçü arasında müstəvi vardır və elementar zərrəciyin ən son ölçüsü sonradan böyümə ilə əvəz olunur. Bu, o deməkdir ki, tərkib böyüyür və minimal ölçü toplanaraq maksimal ölçünün tərkibini təşkil edir. Buna görə də zərrəciyin ən son minimal həddi yoxdur, bu olarsa, deməli, həmin zərrəcik də yoxdur. Varlıq əlamətlərdə, məkanda müəyyən olunur. Məkanı tutanın özü elə varlıqdır.

**(Qeyd: hipotezaya əsaslanan biliklər kainatın və idealizmin əsasını təşkil edir. Materializm də bu kimi təxminlərə söykənə bilir. Elə təbiət fəlsəfəsinin, xüsusilə, kosmos fəlsəfəsinin özü də daha çox gümanlardan, təxminlərdən ibarətdir, çünki gözdən çox uzaqdadır. Ümumiyyətlə, elmin qeyd etdiyinə görə maksimal məsafə hələlik təqribən 10 milyard işıq ili uzunluğunda müəyyən**

---

[1] **İ.H.Cəfərov. Elementar zərrəciklər fizikasının əsasları. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2009, 287 səh.**

**edilə bilib. Gümanların aşkar olunmasında, həqiqi biliklərin üzə çıxmasında isə elm iştirak edir. Əvvəlcə fəlsəfə (hipotetik düşüncələr) çıxış edir, sonra isə elm (sübutların aşkarlanması, hipotezaların aşkarlanması) onun ardınca gedir. Elmin yolunda da fəlsəfəyə rast gəlinir. Elə elm fəlsəfə ilə vəhdətdə iştirak edir).** Lakin kainat tam soyuq elementdən yox **(tam soyuq element elementsizlikdir ki, bu da mütləq ola bilməz. Soyuğun başlanğıcı kainat müstəvisində elə istilikdir. Deməli, kainat tam şəkildə hədləri olan normalara tabedir ki, bu da elə qüvvənin özüdür)** , **nisbətən soyuq elementdən (zəif hərəkət edən elementdən)** öz başlanğıcını qoyub. Bu da çox böyük ehtimal ki, kosmik fəzadır, qalaktikaların fəzasıdır (kosmik fəzanı təşkil edən hissəciklərdir, elementlərin başlanğıcıdır). Bir daha qeyd etmək yerinə düşər ki, Kainatda (qalaktikalarda) tam soyuqluq (mənfilik) yoxdur. Belə olan halda tam heçlik olar ki, bu da inanılmazdır. Belə nəticələrə gəlmək olur ki, başlanğıc və son həm mütləq, həm də nisbidir. Bir-birindən meydana gələndir, bir-birilərinin daxilindədir. Yalnız koordinatların, müstəvidəki müxtəlif məsafələrdə dayanan nöqtələrin aralarında olan məsafələrlə ayırıla bilən başlanğıclar və sonluqlar mövcuddur. Minimal məsafədə (bu, elmdə on üstü mənfi on səkkiz metr tərtibindədir) başlanğıc və son eynidir. Soyuq elementlərin isinməsinin, hərəkətinin sürətlənməsinin başlanğıcı, -belə güman etmək olar ki, **Günəşdir (ulduzlardır).** Günəşdən də hərəkət fəzaya yayıldığına görə **(Günəş-ulduzlar- buraxdıqları sürətli elementlərlə fəzanın Günəşə qədərki elementlərini hərəkət vəziyyətində saxlayır, yəni nisbətən yavaş elementləri hərəkətə gətirir. Deməli, fəzanın hərəkətini təmin edən elə ulduzlardır)**, demək olar ki, kosmik fəzada tam hərəkətsizlik yoxdur, çünki elementlərsiz hissə yoxdur. **(Hələlik belə deyək). Tam mənfilik elementsizlikdir ki, bu da heçlikdir. (Qeyd:** dairə üzrə hərəkət prinsipindən çıxış edərək, belə qənatə gəlmək olar

ki, Günəşin yaranma səbəbi elə **dairə burulğanıdır** ki, bu burulğan da fəza elementlərini sürətlə hərəkət gətirərək onun tərkibini çevirir. Dairə burulğanında bir element məzmunca yeni elementi meydana gətirir. Günəş burada yaranır. Günəşdə-dairə burulğanı məkanında olan elementlərin tərkibi çox sıxlaşır, buradan da qığılcımlar meydana gəlir. Məsələn, elm yazır ki, helium atomunun hidrogen atomundan dörd dəfə ağır olmasında belə nəticəyə gəlinirdi ki, helium atomu elə dörd hidrogen atomundan təşkil olunubdur.[1] Elm həmçinin yazır ki, Günəş fotosferasının tərkibi bu kimi elementlərdən ibarətdir: hidrogen- 73,46 faiz, helium-24,85 faiz, oksigen-0,77 faiz, karbon-0,29 faiz. Bundan başqa dəmir, kükürd, neon, azot, kremnium, maqnium da vardır.[2] Günəşdə hidrogenin heliuma çevrilməsi prosesləri gedir. Elm qeyd edir ki, kainatda ən çox yayılmış element Hidrogendir (su yaradan atomdur). Hidrogen D.İ. Mendeleyevin dövri cədvəl sistemində 1-ci elementdir. İşarəsi və nömrəsi H,1-dir. Rəngsiz qazdır. Ulduzların və ulduzlararası məsafənin əsas elementini təşkil edir. Onun payına bütün atomların 88,6 faizi düşür. Qalanları isə - təxminən 11,3 faizi heliumdan və digərlərindən ibarətdir.[3] Burada belə bir sula ortaya çıxır ki, Günəşdə (ulduzlarda) hidrogen öz mənşəyini (mənbəyini) haradan götürür. Bu suala cavab olaraq, belə təxmin etmək olar ki, bu mənbə kosmik fəzanın hidrogendən ağır olan elementidir. Bu ağır element Günəş deyilən məkanda boşluğa düşür, tərkibini parşalayır və ondan da Günəşin tərkib elementləri meydana gəlir. **Çox böyük ehtimalla bu element oksigendir, hansı ki, kainatın əsasını, böyük hissəsini məhz hidrogen yox, bu element təşkil edir. Kosmik fəzada ona görə çox görünür ki, Günəşə daxil olanda sürətlənir, parçalanır, tərkibini çoxlu sayda**

---

[1] **İ.H.Cəfərov. Elementar zərrəciklər fizikasının əsasları. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2009, 287 səh.**

[2] **Mənbə: az.wikipedia.org/wiki/Günəş.**

[3] **Mənbə: ru.wikipedia.org/wiki/Водород.**

**hidrogenə və heliuma çevirir. Günəşdən uzaqlşadıqca məhz oksigen daha da çoxalır. Hərəkətin qarşısı alınaraq zəiflədilir. Belə güman etmək olar ki, <u>kainat daha çox oksigendən ibarətdir, nəinki hidrogen və heliumdan</u>. Alimlər ona görə hidrogen və heliumu çox görə bilirlər ki, Günəş və ulduzlar kosmik fəzanın bərk elementi olan oksigeni hidrogenə çevririb səpələyirlər. Yəni işıq çox olan yerdə hidrogen və helium da üzdə çox ola bilər. Bu baxımdan da hidrogen və helium kosmik müstəvidə çox görünür. Oksigenin çoxluğu bərk materiyanın vaxtilə daha çox üstünlük təşkil etməsi ehtimalını üzərə çıxarır. Yəni belə demək olar ki, vaxtilə ucsuz-bucaqsız elə bərk materiya olub, kainatda bərk materiyada çox olub, partlayış sayəsində bərk materiya elə indiki kainat formasını alıb. Bu baxımdan da hidrogen və heliumun mənbəyi də çox ehtimal ki, elə bu oksigendir. Kosmik fəza da Günəş ətrafında, planetlər ətrafında yüngül plazmadan ibarətdir. Günəşdən uzaqlaşdıqca plazma da qalınlaşır, çünki oksigen çoxalır.** Oksigen D.İ. Mendeleyevin elementlərin dövri sistemində atom nömrəsi üzrə 8-ci elementdir, qaz halındadır, molekulu iki atomdan ibarətdir. Qeyd edildiyi kimi, bu atom Günəşdə parçalanır və hidrogenə və heliuma çevrilir**)**.

Kosmik fəza tam eyni səthli müstəvidən ibarət ola bilməz. Bu halda fəzanın özündə rəngarənglik yarana bilməz. Hansı ki, bu rəngarənglik elə element əlaqələrindən və birləşmələrindən meydana gəlir. Element birləşmələri də ümumi halda kosmik məkan müstəvisini və onun bərk cisimlərini (planetlər də daxil olmaqla, qaz və maye cisimlərini təşkil edir. Kosmik məkanda ulduzlar ən çox kəmiyyətli element birləşmələri kimi tarazlığın əsasını təşkil edirlər. Ulduzlarda kosmik fəza müstəvisi öz hamarlığını qarşılaşma hesabına itirir. Bu qeyri-bərabərlikdən də tarazlıq yaranır. Kosmik fəza tarazlığı əsasən, bərk, maye və qaz halda olan müstəvi üzərindəki vəziyyətdən meydana gəlir.

Kosmik fəzanın ulduzları bu fəzanı hərəkət vəziyyətində saxlayan elementlər, əsas mərkəzlər kimi çıxış edirlər. <u>Deməli, kosmik enerji, əsasən, kosmik müstəvinin hamarlıqdan nahamarlığa keçməsi ilə meydana gəlir.</u>

Kosmik fəzada sadəcə olaraq **sahələr üzrə enerji nisbətləri** (elementlərin hərəkət sürətləri nisbətləri və bundan irəli gələn tərkib dəyişmələri və fərqləri) mövcuddur. Hərəkət nisbətləri də **fəza enerjisi fərqini** yaradır. Yəni materiyalar, məsələn, planetlər ətrafında enerji çox olur, aralandıqca enerji də azalır. Deməli, Günəş və planetlər arasında güclü və zəif hərəkət məkanları mövcuddur. **Bundan belə nəticə ortaya çıxır ki, Günəş şüası bütün məkanlarda eyni sürətlə ola bilməz.** Belə qəbul etmək olar ki, **enerji** Günəşin özündən buraxdığı elementlər sahəsində, yəni Günəşə yaxın sahədə və Günəş şüasının planetlərə yaxın sərhədlərində digər sahələrə nisbətən çoxdur. Çoxdursa, hərəkət də çoxdur. Bu varsa, fəzadakı ağır şərait yüngülə çevrilə bilir. Qeyd olunduğu kimi, fəzada enerji nisbətini yaradan enerji mənbələri olan **ulduzlardır**. Bu ulduzlar da müsbət və mənfinin şərti sahələrinin birləşmə koordinatıdır (maksimumluq və sıfırlılıqdır). Deməli, şərti başlanğıc elə **şərti mənfi** üzərindədir. **(Yəni sıfır koordinatı mütləq deyil. Bu, ən yüksək enerji müstəvisi nöqtəsində ola bilməz).** Bu mənfi də həmişə müsbətə qarışandır. Müsbətə çevrildiyinə görə tam mütləq enerji ardıcıllığı (burada bir trayektoriya üzrə axan eyni dərəcəli enerjinin-element hissəciklərinin- olub-olmamasından söhbət gedir) da yoxdur. **Buradan da belə bir nəticə hasil olunur ki, <u>Günəş şüası kosmik fəzada sabit sürətə malik deyil</u>.** Yəni hər nöqtədə eyni sürətli axın ola bilməz. Buna kütlə, yəni iki şərti koordinat arasında olan element (hissəcik) yığını, sürət və əks-sürət yaradan fəza elementlərinin toplusu təsir göstərir. Deməli, kosmik fəza sürətin qarşısı alınan digər elementlərdən təşkil olunur. Vakkum anlayışı da nisbidir. Ümumiyyətlə, tam boşluq deyilən anlayış, varlıq mövcud deyil.

Vakkum (elmə görə havasızlıq) şərti boşluqdur və nisbətən zəif element boşluğudur. Vakkum olan yerdə rəng varsa, deməli, tam, yəni, sərhədsiz boşluq ola bilməz. Günəş şüasının sürətini vakkumda yoxlamaqla yalnız **nisbi boş məkan üzrə sürətini** ölçmək olar və elmdə də bu ölçmələr həyata keçirilib. Ümumiyyətlə isə Günəş şüasının sürətini tam ilk mənbəyi ilə ölçmək mümkün deyil, belə olan halda heç Günəşin özü də ola bilməz. (Qeyd: hər hansı bir elementi tam təcrid vəziyyətində xassələndirməyin mütləq olması şübhə doğurur; çünki hər bir zərrəcik digəri ilə əlaqəlidir). Tam **vakkumun** yaradılması da qeyri-mümkündür. Bu halda ümumiyyətlə, keçicilik ola bilməz. Tam vakkum heçlikdir. Vakkumlarda sürətlər artır və ya da azalır. Şərti boşluqlarda, yəni vakkumlarda mane olan elementlərin sayı da az olur.

Günəş şüalarının qabağı **"mənfiliklərlə"-nisbətən soyuq elementlərlə,** alındığına görə, bu şüalar fəzaya yayıla bilir. **(Qeyd: Günəşdən uzaqda və planetlərdən uzaqda-qaranlıq hissələrdə sürət zəifdir. Çünki enerji azdır. Ehtimal ki, bu hissələrdə oksigen elementi kosmik fəzada daha çoxdur).** Kosmik fəzada materiyalar arasında mənfiliklər olmasa, müsbətliklər (enerji) də aidiyyatı obyektlərə (məsələn, planetlərə) gedib çıxa bilməz. **(Ya da belə təsəvvür edək ki, Günəş yanır, ondan çıxan enerjinin qabağını alan mənfi element (nisbətən hərəkətsizlik) yoxdur, onda belə alınar ki, Günəş şüası planetləri əridib məhv edər. Həqiqətdə isə Günəş şüasını fəzaya və planetlərə qabağını ala-ala aparan elə nisbətən soyuq olan, yəni hərəkəti zəif olan, fəza elementləridir. Fəza Günəş şüası üçün keçici rolu oynayır).** Günəşdən gələn güclü sürətin qabağını sürətsizlik (yəni zəif hərəkətsizlik) aldığına görə, **sürət mənbədə olduğu kimi qala bilmir**. **(Qeyd: Günəşdən planetlərə daxil olan və planetlərdən əks olunan enerji axınları hesabına Günəş və kosmik fəza haqqında məlumatları nəzəri olaraq əldə etmək olar. Belə təsəvvür edək ki, nəzəri olaraq Günəş**

**şüasını Yer kürəsində bir məkanda (həmin məkana düşən ərazidə) cəzb etmək, xəyali olaraq mərkəzləşdirmək, bir paneldə cəmləşdirmək olar və əks olunma ilə müəyyən bir obrazı tutmaq, ayrıd etmək olar. Bəlkə də bu, daha çox xəyali bir ideyadır. Lakin optika (işıq yolu ilə) və linzalar yolu ilə bir qədər reallaşdırmaq olar. Elmdə də planetlərin kəşfi elə şüalar və əks olunmalarla mümkün olub).** Bu da hər nöqtədə (yəni planetlərdə) yandırmanın, tərkib çevirməsinin qarşısını alır. Günəş şüasının qabağını kəsən – nisbətən ağır element-onun sürətinin qarşısını alır. Bundan da trayektoriya üzrə nisbi və mütləq **tarazlıq nöqtələri** yaranır. Nisbi tarazlıq o demək olur ki, burada mütləq tarazlıqların hərəkəti meydana gəlir. Ümumiyyətlə, hər bir nöqtədə mənfi və müsbətin vəhdəti mövcuddur ki, bu da hərəkətin əsasını təşkil edir. Sürəti yaradır, çox sürətin qarşısını alır. Çox güclü axın olanda enerji seli onun qabağını alan elementlərə "güc gəlir", həmin elementləri itələməklə, ona qarışmaqla aşıb-keçir. Burada kütlə və sürət mühüm rol oynayır. Planetlərə gələb çatana qədər fəza Günəş şüasını tarazlaşdıra bilir. Planetlərin özləri isə Günəş şüasını cəzb edirlər. Deməli, Günəş və Planetlər bir-birinə əks olan materiyalardır. Məsələn, Günəş hidrogendirsə, planetlər daha çox oksigendir, oksigen birləşmələridir. Başlanğıcları isə eynidir. Burada olan əksliklər də elə vahidlikdən meydana gəlib. Yəni Günəşin və planetlərin başlanğıcları elə eyni elementlərdədir.

Fəza və materiya (əslində kosmik fəza da ən kiçik materiyalardan ibarətdir) aləmi **mənfi (zəif hərəkət) və müsbətin (nisbətən güclü hərəkət)** vəhdətindədir. Əvvəlcə qeyd olunduğu kimi, **ən ilk başlanğıc isə şərti mənfidədir ki, bu da nisbətən zəif hərəkət edən elementdir, elementlər toplusudur.** Elementin zəif hərəkəti ilə çox sürətli hərəkəti arasında bir dəyişmə və çevrilmə trayektoriyası mövcud olur. Deməli, elementin tərkib hissəcikləri öz sayını **itirir və qazanır**. Bu, sürətli hərəkətdən və qarşılaşmadan baş verir.

Hərəkətin ilk səbəbi də kosmik fəza müstəvisində olan **qeyri-bərabərlik hissələridir**, yəni **“yanan məkanlardır”.** Bu hissədə sürətlə kosmik fəzanın “soyuq elementləri” axın edərək **istiləşir**. Tərkibini azaldan elementlər və çoxaldan elementlər xassələrini də dəyişir. Elementin əsas özəyi (hissəcikləri öz ətrafında birləşdirən **nüvə hissəsinin əsası**) qalır, çünki heç bir element tam itmir. Elm qeyd edir ki, elementlərin çevrilmələri zamanı atomların nüvəsindəki protonların sayı dəyişir. (Elementin nüvəsi tam itərsə bu halda kainat ola bilməz. Heç nə ola bilməz). Bu, nüvədə özünü göstərir. **Kainatın əsası, başlanğıcı da məhz həmin nüvədir, yəni elementin nüvəsidir.** Nüvənin tam tərkibi dəyişmir, elementin tərkib hissəcikləri **(nüvədəki-protonlar)** artıb-azalır. Bu, sürətdən baş verir. **Sürət və artıb-azalma, hərəkətin müəyyən istiqamətlər üzrə artıb-azalması elə qüvvəni yaradır.** Deməli, qüvvənin başlanğıcı elə nüvədir, elementin özəyidir. Qüvvənin artıb -azalması isə nüvənin hərəkəti, birləşməsi, tərkib hissələrinin sayının artıb- azalmasıdır. **<u>Qüvvənin mənbəyi tarazlıqdan qeyri-tarazlığa keçid mərkəzləridir</u>** ki, burada da ulduzlar (bizim Günəş də) meydana gəlir. Ulduzlar həm **şərti sıfırdırlar,** həm də **şərti pik müsbətliklərdir.** Bu müsbətliyin piki özünü yenə də soyuqluqda göstərir. Hər iki halda elementlərin çevrilmələri meydana gəlir, yeni xassələr ortaya çıxır. Kosmik müstəvinin özünün də tarazlığı əslində **ulduzlardan (elementlərin sürətli toqquşmasından yaranan işıqsaçma mərkəzlərindən)** fəzaya yayılan qüvvənin hesabına baş verir. Kosmik fəzanın tarazlaşmasında həm də planetlərin, bərk materiyanın hərəkəti mühüm rol oynayır. Bu bərk materiyalar kosmik fəzanı qarışdıran və hərəkətinə kömək edən elementlər böyük rola malik olurlar.

**MƏNİM DÜŞÜNCƏLƏRİM ÖZÜM ÜÇÜN DAHA ÇOX DÜŞÜNDÜYÜM ANLARDA MÜTLƏQDİR.** *(BU, BEYİNİN BAŞQA BİR PREDMETİ ÖZÜNƏ OBYEKT ETMƏSİ İLƏ ƏLAQƏDAR ÖZ MÜTLƏQLİYİNİ DƏYİŞKƏNLİKLƏ,*

*YƏNİ NİSBİLİKLƏ ƏVƏZ EDƏ BİLƏR. HAFİZƏ YENİ ELEMENTLƏRİ-İNFORMASİYA ŞƏKİLİNDƏ, OBRAZLI QAYDADA YADDA SAXLAYIR, OBRAZ BİR MÜDDƏT QALIR)* **HƏTTA, DƏYİŞƏN DƏ OLA BİLƏR, MÜTLƏQ DÜŞÜNCƏLƏRİMİ ARDICIL DÜŞÜNMƏYİM, DÜŞÜNCƏMİN ARTMASI NİSBİYƏ ÇEVİRƏ BİLƏR. DEMƏLİ, DÜŞÜNCƏLƏRİMİN ZAMANLA MÜTLƏQLİYİ VƏ ZAMAN ÖTDÜKDƏN SONRA NİSBİLİYİ YARANA BİLƏR. DÜŞÜNCƏLƏRİMİN MÜTLƏQ VƏ NİSBİ ƏSASLARI DA AXTARIŞLARDAN, YENİ DÜŞÜNCƏ PREDMETLƏRİNİ TAPMAQDAN FORMALAŞA BİLƏR. QEYRİ-MÜƏYYƏNLİYİN MÜƏYYƏNLİYƏ ÇEVRİLMƏSİ PROSESLƏRİ MÖVCUD DÜŞÜNCƏLƏRİ HƏM AKSİOMAYA ÇEVİRİR, YƏNİ SÜBUTLARI DAHA ÇOX MÜTLƏQ EDİR, UNİVERSAL QAYDALARI MÜTLƏQLƏŞDİRİR, BUNUNLA DA TƏSDİQLƏYİR, HƏM DƏ İNKAR EDİR VƏ NİSBİYƏ ÇEVİRİR, YENİ MÜTLƏQLƏRİ YARADIR. LAKİN BAZA PRİNSİPLƏR OLDUĞU KİMİ QALIR, BAZA ELEMENTLƏR** (DÜŞÜNCƏLƏRİN BAŞLANĞICINI TƏŞKİL EDƏN MATERİAL ELEMENTLƏR) **OLDUĞU KİMİ QALIR. BUNUNLA BƏRABƏR, QEYD ETMƏK LAZIMDIR Kİ, İNSANLAR VAHİD VƏ UNİVERSAL XASSƏLİ DÜŞÜNCƏ QABİLİYYƏTLƏRİNƏ MALİKDİRLƏR. BU QABİLİYYƏTLƏR TƏBİƏTDƏN** (FÖVQƏLTƏBİƏTDƏN - TƏBİƏT QÜVVƏLƏRİNİN DƏRƏCƏLƏNMƏSİNDƏN VƏ BÜTÖVLÜKDƏN İRƏLİ GƏLƏN VAHİD QÜVVƏDƏN) **İNSANLARA VERİLƏN ÜMUMİ STRUKTURLARDIR. BU DA ONLARIN VAHİD DÜŞÜNCƏ** (BURADA EYNİ VƏ OXŞAR ƏSASLAR) **PRİNSİPLƏRİNİN ƏSASLARINI TƏŞKİL EDİR.** (Qeyd: **prinsip**, əslində təkrar olunan zəruri qaydalardır, qanunauyğunluqlardır. Bu, təbii halda baş verir və insanlar

tərəfindən tətbiq olunur. Prinsip sistemin, strukturun işləməsi qaydasının zəruri obyektivliyidir, gerçəkliyidir, müəyyənliyidir. Prinsiplərin bir-birini əvəzləməsi də zəruri gerçəkliklərdən, şəraitin doğurduğu anlardan meydana gəlir. Kosmosun prinsipi dəyişilməzdir, bu, insanların iradəsindən kənardadır, çünki insanlar təbiətə, kainata, fövqəlqüvvəyə tabedirlər. Tam dəyişməz yox, nisbətən dəyişməyən prinsiplər var. Bu dəyişmələr elə təbiətin özündədir). **YƏNİ BÜTÜN İNSANLAR ÖZ DÜŞÜNCƏLƏRİNİ MƏHZ TƏRKİB HİSSƏLƏR VƏ BÜTÖV ARASINDA ƏLAQƏLƏRDƏ VƏ VƏHDƏTDƏ AXTARIR. TƏRKİB VƏ BÜTÖVÜN XASSƏLƏRİNİ MÜƏYYƏN ETMƏKDƏ GÖRÜR. DÜŞÜNCƏNİ DƏRİNLƏŞDİRƏN ŞƏXSLƏR HƏR BİR ELEMENT HİSSƏSİNİN XASSƏSİNİ ÖZÜNƏMƏXSUS QAYDADA** (LAKİN ÜMUMİ PRİNSİPLƏRDƏN KƏNARA ÇOX ÇIXMAMAQ ŞƏRTİLƏ) **MÜƏYYƏN EDİR. BURADAN DA MÜTLƏQLİK NİSBİLİYƏ ÇEVRİLİR. LAKİN NİSBİLİK ÜÇÜN, YƏNİ YENİ MÜTLƏQLİK ÜÇÜN BAZA ŞƏRTLƏNDİRİCİ ROLUNU OYNAYIR. DEMƏLİ, MÜTLƏQLİKLƏR TRAYEKTORİYASINDA DƏYİŞMƏLƏR OLUR, MÜTLƏQLİKLƏR BİR-BİRİNİ ƏVƏZLƏYİR, BU HƏRƏKƏTİN ADI İSƏ NİSBİ ADLANDIRILIR. DEMƏLİ, MÜTLƏQLİKLƏRİN HƏRƏKƏT ANI ELƏ NİSBİLİKLƏRDİR. MÜTLƏQLİKLƏRİN DƏYİŞƏN** (BİR MÜTLƏQLİKDƏN DİGƏRİNƏ KEÇƏN) **ANI ELƏ NİSBİLİKLƏRDİR. NİSBİLİKLƏR MÜTLƏQLİKLƏRİN ARDICIL OLARAQ TRAYEKTORİYA ÜZRƏ YERDƏYİŞMƏSİNİ TƏZAHÜR ETDİRİR, QEYRİ-MÜƏYYƏNLİYİ MÜƏYYƏNLİYƏ ÇEVİRİR.**

**BİZİM DÜNYA QƏDİM İNSANLARIN BİLİKLƏRİ, QURUB-YARATDIQLARI MATERİAL ALƏM ÜZƏRİNDƏ TƏSDİQ VƏ İNKAR OLUNA-OLUNA DƏYİŞİR, YAŞAYIR VƏ İNKİŞAF EDİR. MƏLUMDUR**

**Kİ, İNKİŞAFIN BAŞLANĞICI ELƏ İLK BİLİKLƏRDƏN (ANTİK BİLİKLƏRDƏN) QOYULUB. BU DA BAZA İSTİQAMƏTLƏRİ MEYDANA GƏTİRİB. BAZA İSTİQAMƏTLƏR DƏ ZƏRURİLİKDƏN BELƏ XASSƏLƏNİB. YƏNİ İLK İNSANLARIN** (BURADA HƏM DƏ İLK FİLOSOF- ALİMLƏRİN) **DÜŞÜNCƏLƏRİ ELƏ İNSANLARIN TƏBİƏTİN TƏBİİ QURULUŞULARI OLMALARI ZƏRURƏTİNDƏN MEYDANA GƏLİB. DAHA DƏQİQ DESƏK, İLK ALİMLƏR İNSANLIQDAN, İNSANLIQ QABİLİYYƏTİNDƏN KƏNAR HEÇ NƏ DÜŞÜNƏ BİLMƏZDİLƏR.** ONLARIN DÜŞÜNCƏLƏRİ TAM TƏBİƏT QANUNAUYĞUNLUĞUNA SÖYKƏNİB. HƏMİN DÖVRDƏN BU YANA ƏGƏR İNSAN TƏBİƏTƏN DƏYİŞİBSƏ, DEMƏLİ, DÜŞÜNCƏLƏRDƏ DƏ KÖKLÜ TƏBİİ DƏYİŞİKLİKLƏR BAŞ VERİB. BU, HƏLƏLİK GÖRÜNMÜR. **ƏN QƏDİM İNSANLAR NƏ DÜŞÜNÜB-LƏRSƏ, O DA TƏBİƏTİN ZƏRURƏTİDİR. İLK DÜŞÜNCƏ ADAMLARI ELƏ İNDİKİ ZAMANDA OLSALAR DA YENƏ MATERİAL VƏ MƏNƏVİ ALƏMİ** (MƏNƏVİ ALƏMİ MATERİAL-MADDİ ALƏMİN ƏN SON MƏZMUNU KİMİ QƏBUL ETMƏK OLAR) **TƏBİƏTİN QANUNLARINDAN KƏNARDA DÜŞÜNƏ BİLMƏZ-DİLƏR. DEMƏLİ, DÜŞÜNCƏ ELƏ BƏŞƏRİ OLARAQ İNSANLARIN UNİVERSAL QABİLİYYƏTLƏRİDİR. SADƏCƏ OLARAQ BƏŞƏR DÜŞÜNCƏSİNİN TARİXİ LAP QƏDİMDƏN OLSAYDI İNKİŞAF DAHA DA TƏKMİL OLARDI. BU DA BİR FƏRZİYƏDİR, ƏKS HALDA, DÜŞÜNCƏNİN İFRAT GÜCLÜLÜYÜ, YƏNİ ONUN ƏN QƏDİMLİLİYİ ELƏ BƏŞƏRİYYƏTİN ÖZÜNÜ İNDİYƏ MƏHV EDƏ BİLƏRDİ.**

**BELƏ TƏSƏVVÜR EDƏK Kİ, QƏDİM ALİMLƏR ÖZ DÖVRLƏRİNDƏ OLDUĞU DÜŞÜNCƏLƏRİ BAŞQA İSTİQAMƏTLƏRƏ YÖNƏLTSƏYDİLƏR, İNKİŞAF DA BU ŞƏKİLDƏ OLA BİLMƏZDİ. O HALDA, YƏNİ**

**BAŞQA DÜŞÜNCƏ HALINDA İSƏ BİZ İNSANLAR BAŞQA QABİLİYYƏTƏ SAHİB OLMALI İDİK. YENƏ DƏ BELƏ TƏSƏVVÜR EDƏK Kİ, BAŞQA PLANETLƏRDƏ** (BAŞQA ULDUZ SİSTEMİNİN PLANETİNDƏ) **HƏYAT VAR. ORADA ZAMAN VƏ MƏKAN FƏRQLİ OLDUĞUNA GÖRƏ BU MƏKANLARDA YAŞAYANLAR BİZİM KİMİ DÜŞÜNƏ BİLMƏZLƏR, ANCAQ OXŞARLIQLAR OLA BİLƏR. DEMƏLİ, DÜŞÜNCƏ HƏM DƏ TƏBİƏTİN NEMƏTİDİR, TƏBİƏTƏ İMMANENTDİR, ATRİBUTİVDİR. DÜŞÜNCƏLƏR İNSANLARIN ÖZ SİSTEMLƏRİNƏ, ÖZ MƏKANLARINA DAHA ÇOX ATRİBUTİVDİR. BU BAXIMDAN DA HƏR BİR TƏBİƏTİN** (EHTİMAL EDƏK Kİ, PLANETLƏRDƏ OLAN CANLI TƏBİƏT VARLIQLARI, YƏNİ CANLI DÜŞÜNƏNLƏR) **ÖZ DÜŞÜNCƏ SUBYEKTLƏRİ VARDIR. DİGƏR SİSTEMLƏRDƏ DƏ CANLI ALƏM OLARSA, ONLARI DA BİZ CANLILARLA BİRLƏŞDİRƏN BİR ÇOX ÜMUMİ ƏLAMƏTLƏR OLA BİLƏR. ÇÜNKİ ONLAR DA KAİNATIN TƏRKİB ÜNSÜRLƏRİDİR.**

**DÜŞÜNCƏLƏR İDEAL ALƏMİN, ELƏCƏ DƏ MATERİAL ALƏMİN İNİKASI, TƏZAHÜRÜ OLDUĞUNDAN ÇOX ZƏNGİNDİR. LAKİN BU ZƏNGİNLİKLƏR VAHİD PRİNSİPLƏRƏ** (BUNA GENETİK MƏNŞƏLİ PRİNSİPLƏR DEYƏK) **TABEDİR. HƏM DƏ İDEAL ALƏM ELƏ MATERİAL ALƏMİN TƏRKİBİ KİMİ ONUN DAVAMI OLDUĞUNDAN, DÜŞÜNCƏLƏR DƏ ZƏNGİNDİR. BU BAXIMDAN DA HƏM MATERİAL ALƏM, HƏM DƏ İDEAL ALƏM BİR TAMIN TƏRKİBİDİRLƏR. İDEAL ALƏM MATERİAL ALƏMİN ƏN KİÇİK VƏ ZƏNGİN, TƏKMİLLƏŞMİŞ, KÜTLƏ BAXIMINDAN YÜNGÜLLƏŞMİŞ VƏ MƏNA BAXIMINDAN UNİVERSALLAŞMIŞ VƏ DƏRİNLƏŞMİŞ HİSSƏCİYİDİR.** (Qeyd: buradan da belə nəticə ortaya çıxır

ki, **beyin** istənilən digər orqandan daha mürəkkəb struktura malikdir. Beyinin funksiyası daha genişdir, çünki burada canlının cisminin ən mürəkkəb universal xüsusiyyətləri cəmləşib). **DEMƏLİ, İDEAL ALƏM SİQNALLARDAN TƏŞKİL OLUNUB. BU SİQNALLAR DA TƏBİƏTDƏN VƏ FÖVQƏLTƏBİƏTDƏN GƏLƏNDİR. BURADAN BELƏ NƏTİCƏLƏR HASİL OLUR Kİ, İDEAL ALƏM, İDEAL DÜŞÜNCƏLƏR ƏSLİNDƏ MATERİAL DÜŞÜNCƏLƏRİN FÖVQÜDÜR, YUXARISIDIR. LAKİN ONDAN AYRILMAZDIR, ONUN TƏRKİBİDİR. İDEAL ALƏM HƏM DƏ DÜŞÜNCƏNİN LAP ÖZÜDÜR Kİ, BU DA SİQNALLARDAN TƏŞKİL OLUNUB.** Deməli, insanları onların ruhları (şüur, psixika, mental aparat və s. kimi adlanan aləm) idarə edir. Bu aləm öz təmasını həm də kənar aləmlə qurur. Deməli, bütün canlılar idarə olunurlar. Kainatın qanunları **obyektiv normalardan** və bunun da daxilində **ayrı-ayrı subyektiv normalardan** ibarətdir. Burada universallıq var və bu universallıq da ümumi qanunauyğunluğun əsasıdır. Ümumi qanunauyğunluq həm də fərdi qanunauyğunluqdan təşkil olunur. Deməli, insan həm subyekt olaraq öz aləminə, həm də ətraf aləmə, ümumilikdə isə kainata tabedir.

**DÜŞÜNCƏ İSTİQAMƏTLƏRİ DƏ BAZA FAKTLARDAN TƏŞKİL OLUNUR, FAKTLAR ÜZƏRİNDƏ FAKTLAR MÜƏYYƏN EDİLİR. HƏTTA İSTİQAMƏTLƏR DƏ BİR-BİRİNİ ƏVƏZLƏYƏ BİLƏR. BUNA İNKAR DEYİLİR Kİ, İNKAR DA ELMİN VƏ FƏLSƏFƏNİN İNKİŞAFININ ƏSASLARINI TƏŞKİL EDİR. İNKAR OLMASA, ŞAXƏLƏNMƏ DƏ OLA BİLMƏZ.**

**HƏR KƏS KİMİ, MƏNİM DƏ DÜŞÜNCƏLƏRİMİN BAŞLANĞICI VƏ SONU BİR-BİRİNİ ƏVƏZ EDƏN, TAMAMLAYAN DÜŞÜNCƏLƏRDƏN İBARƏTDİR. DÜŞÜNCƏLƏRİN MÜTLƏQ-NİSBİ VƏHDƏTİ ONUN ÇOX GENİŞ MƏKANI TUTMASIDIR, ƏHATƏ**

**ETMƏSİDİR. DEMƏLİ, HAMI KİMİ MƏNİM DƏ DÜŞÜNCƏLƏRİM SONSUZDUR. BELƏ HESAB EDİRƏM Kİ, DÜŞÜNCƏ SONSUZLUĞU QƏBUL EDİLƏN** (HİSS ORQANLARI-DUYĞU ORQANLARI VASİTƏSİLƏ QƏBUL OLUNAN) **VƏ DAXİLDƏN YARANAN ENERJİDƏN, POTENSİALDAN ASILIDIR. DÜŞÜNCƏLƏR BEYİNİN MƏHSULUDURSA, ONDA, BEYİNİN İMKANLARI SONSUZDUR. ÇÜNKİ BEYİN SİQNALLARA BAĞLIDIR. SİQNALLARIN BAZA MƏNBƏYİ TƏBİƏTDİR, KAİNATDIR. DÜŞÜNCƏ ONA GÖRƏ SONSUZDUR Kİ, KAİNAT (QALAKTİKALAR) DA SONSUZDUR. DEMƏLİ, İNSAN DÜŞÜNCƏSİ KAİNATI DAHA DƏRİNDƏN DƏRK EDƏ BİLMƏK İMKANINA MALİKDİR. BELƏ QƏBUL ETMƏK OLAR Kİ, İNSAN KAİNATIN SON ALİ VARLIĞIDIR** (BUNA ELMDƏ ANTROPOSENTRİZM DEYİLİR), **ONDA MİKROKAİNAT YER ALIBDIR. DÜŞÜNCƏLƏR DƏRİNLƏŞDİKCƏ KAİNAT QARANLIĞI İŞIQLANA BİLƏR. İNSANLAR ÜÇÜN KAİNATIN İŞIQLI HİSSƏSİ ELƏ KAİNATIN TƏRKİBİ OLAN GÜNƏŞ SİSTEMİNDƏKİ YER PLANETİDİR. GÜNƏŞ VƏ PLANET İŞIQLIDIRSA, DEMƏLİ, KAİNAT DA İNSANLARIN DÜŞÜNCƏSİNDƏ İMKANLAR DAXİLİNDƏ İŞIQLANA BİLƏR.** (QEYD: KOSMOQONİYA-GÖY CİSİMLƏRİ VƏ SİSTEMLƏRİNİN YARANMASI VƏ İNKİŞAFI HAQQINDA ELM SAHƏSİ VƏ KOSMOLOGİYA-BÜTÖV BİR TAM KİMİ KAİNAT HAQQINDA ELM SAHƏSİ-İNSANLAR ÜÇÜN KAİNATIN BİR ÇOX HİSSƏSİNİ “İŞIQLANDIRIB”-QEYRİ-MÜƏYYƏNLİYİN BƏZİ HİSSƏLƏRİNİ MÜƏYYƏN VƏ MÜTLƏQ EDİB). **DÜŞÜNCƏ MƏNBƏYİ KAİNAT MƏNBƏYİNƏ PARALEL MƏNBƏDİR. DEMƏLİ, KAİNAT HƏM DƏ DÜŞÜNƏN İNSANLARIN MƏKANIDIR, İNSANLAR ÜÇÜNDÜR. DÜŞÜNCƏLƏRİN SUBYEKTİVLİYİ**

**ONLARIN OBYEKTİVLİYİNİ** (UNİVERSAL ƏSASLARLA ÇOXLUQ TƏRƏFİNDƏN QƏBUL EDİLƏNLİYİNİ) **YARADA BİLİR.** (QEYD: OBYEKTİVLİK DƏ HƏM MÜTLƏQ, HƏM DƏ NİSBİDİR. BU BAXIMDAN DA OLANLAR DA SƏHV OLA BİLƏR. YƏNİ DÜZGÜN AŞKAR OLUNMAYA BİLƏR. DEMƏLİ, OBYEKTİVLİK VƏ SUBYEKTİVLİK ƏSLİNDƏ DƏYİŞƏNDİRLƏR). **BU, O HALDA BAŞ VERİR Kİ, DÜŞÜNCƏLƏR BAŞQASININ DA "QARANLIQ" DAXİLİNİ "İŞIQLANDIRA BİLİR". DÜŞÜNCƏLƏRİN VƏHDƏTİ İSƏ ƏN ÇOXLUQDUR. BU DAHA ÇOX İŞIQLANMADIR. DAHA ÇOX İŞIQLANMA İSƏ OBYEKTİVLİKDİR. OBYEKTİVLİK ÇOXLARI TƏRƏFİNDƏN QƏBUL OLUNMADIR, ÇOXLARINA MƏLUM OLAN DÜŞÜNCƏDİR, MÜTLƏQ VARLIQDIR.**

**Əsərin (düşüncə məhsulunun-tərkibin və nəticələrin) başlıca məqsədi bundan ibarətdir:**

- **mən sərbəst halda nəyi necə düşünürəm, yəni öz baxışlarımla obyektlərə nə dərəcədə obyektivəm (mütləqləri aşkar olunan xassələri ilə təsdiq edirəm) və subyektivəm (inkar edirəm, yeni xassələr, əlamətlər axtarıram, olanları tam qəbul etmirəm);**
- **mən bir insanam, ali şüurlu canlılardan biriyəm, kainatın(təbiətin) ünsürüyəm, öz içərimdə olanları aşkarlamaq istəyirəm;**
- **fövqəltəbii qüvvənin yaratdıqlarından biriyəm;**
- **üzərində olduğum kainat və təbiət nədir, kainat və təbiət necə yaranıbdır-burada uzun çəkən proses olubdur, yoxsa, hər şey föqəltəbii qüvvənin köməkliyi ilə birdən, bir anda, bir göz qırpımında yaranıb (burada "Böyük partlayış" ideyasına yaxın düşünmək olur. "Böyük partlayışı" da elə fövqəlqüvvə təşkil edib. Burada dini təlimlərlə elmi baxışların vəhdəti ortaya çıxır);**

**- mən kiməm, bir insan kimi hansı hissələrdənəm-daxilimin təbiətlə nə əlaqəsi var;**

**- daxilim və zahirim nədir-enerjim nədir, haradandır;**

**- nə üçün yaranmışam, missiyam, vəzifəm, məqsədim nədir; -məqsədim daxilimi və kainat və təbiətin tərkib hissəsi kimi mövcudluğumu açmaqdan ibarətdir. Yəni məqsədim bir insan kimi məqsədimi açmaqdır;**

**- bu baxımdan kainat (təbiət) haqqında bilikəri aşkar etmək vəzifəsini qarşıma qoyuram, hiss edirəm ki, bu biliklər elə hər kəs kimi mənim də daxilimdə var və onları düşüncələr yolu ilə müəyyən həcmdə aşkarlaya bilərəm və s.**

**İlk növbədə düşünməyə elə düşüncələrimlə başlayıram. Onu da hiss edirəm ki, düşüncə prinsipi, məntiqi təfəkkürün xassələri elə bütün insanlarda, universallıqdan irəli gələrək, təqribən eynidir. Fərqlilik də bu eyniliyin tərkibindədir. Düşüncələr dərəcələnə bilir, bu da obyektin makro və mikro xüsusiyyətindədir. Düşüncənin obyekti dərəcələnir, düşüncə prinsipləri isə ümumi olaraq qalır. Burda məntiqi əməliyyatların eyni xassəliliyi məsələsi üzərə çıxır. Düşüncənin sadədən mürəkkəbliyə, mürəkkəblikdən isə sadəliyə keçidləri vardır. Təbii ki, düşüncə obyektinin çoxluğu və zəncirliliyi elə sadəlikdən mürəkkəbliyə keçidin əsaslarını meydana gətirir. Geniş izahın tərkibi sadə izahlardan meydana gəlir. Geniş izahların nəticələri sonda sadəliyi və konkretliliyi üzərə çıxarır. Bu baxımdan da düşüncə müstəvisi sadə-mürəkkəb, məhdudluq və genişlik vəhdətindədir. Mürəkkəb düşüncələrin sonu elə sadəliyə, aşkar aydınlığa aparır. Mürəkkəb düşüncələrin sonu daha aydın sadəlikdir, adilikdir. Bu da dərketmənin aliliyidir. Deməli, alilik mürəkkəbdirsə, elə bu da özündə sadəlikdir. Mürəkkəb yolların nəticələri dolayı olsa da nəticə etibarilə birbaşa aydınlıqdır, yaxın yoldur. Birbaşa aydınlıq da məsafəni, məqsədəçatmanı yaxınlaşdırmaqdan ibarətdir.**

**Deməli, ən uzun yollar belə son olaraq qısa görünmək (çatmaq üçün qısa yollardan istifadə etmək) ehtimalına malikdir. Belə bir xəyali, mücərrəd və hələlik qeyri-real olan fikir bildirmək olar ki, kainatın ən ucqar yerlərinə qısa yollarla gedib çıxmaq olar. Təbii ki, bəşəriyyətin son elmi nailiyyətləri əvvəlcə çox uzun yollarla əldə edilən nəticələri reallıqda qısa yollarla əldə etmənin mümkünlüyünü meydana gətirib. Məsələn, xəyali olaraq belə hesab etmək olar ki, pentaqramların (beş ucu olan ulduz, yəni hər tərəfində beş bərabər üçbucağı olan birləşmə) ucları elə vahid mərkəzlərdə birləşir. Deməli, vahid mərkəzlər uclar üçün qısa yolları müəyyən edə bilər.** (Qeyd: belə qəbul etmək olar ki, mürəkkəb və tünd xasiyyətli insanların əksəriyyəti  son olaraq daha sadə insanlardır, çünki düşüncələri etibarilə alidirlər. Müdriklik, kamala yetişməlik də məhz mürəkkəbliyin nisbi və mütləq sonu olan sadəlilikdir. Onların daxili zəngin, son məqsədləri isə sadədir, adidir. Son məqsədləri yetişkənlikdir, universallıqdır, bundan meydana gələn konkretlilikdir. Dahi insanlar mürəkkəb daxilə malik olduqlarından çox zaman kiçik elementlərə, kiçik siqnallara reaksiya bildirmirlər. Çünki bu kiçik elementlər elə onların özlərinin daxillərində aydındır. Onlar makismalizmə, yəni ifratçılığa –zənginliyə can atırlar. Burada maksimalizm dedikdə, tam nənfiliklərlə müşahidə olunan vəziyyətlər nəzərdə tutlmamalıdır).

Belə qəbul etmək olar ki, **bədən quruluşu (xarici görünüş)** insan xassəsini göstərir. Bədənin strukturu nizamlı görünüşə malik olanda, yəni təbiətən daxili material aləmi şərti (təqribi) bərabər olanda, həmin şəxsin xassiyyəti də tarazlı olur. (Ümumiyyətlə, belə qəbul olunur ki, bədən təlimi xarakterin də tarazlı olmasının əsaslarını meydana gətirə bilir. Çünki burada mexanizm mövcuddur. Adətkarlıq və vərdişlər vardır). Onun daxilində aydınlıqların sayı digərlərinə nisbətən bir qədər çox olur. **(Qeyd:** qeyri-müəyyənliklər müəyyənliklərdən daha çox

olduğundan ümumi hesabla qaranlıqlar daha çox kəmiyyətlidir, həcmi çoxdur. Qaranlqlar isə tam şəkildə yoxdur. Bu olarsa, tarazlıq ola bilməz). Müəyyən anlarda qaranlıq sərhədləri işıqlı sərhədləri keçə bilir və yaxud da əksinə proses baş verir. Belə proseslərdə bəzi narahatlıqlar meydana gəlsə də, tarazlıq nisbəti qaranlığın aydınlaşdırılmasında öz yerinə qayıdır. Xasiyyətin tarazlığı bərpa olunur, həmin insan təkrar olaraq mülayimləşir. Xarakterin dəyişməsi daxili və xarici siqnalların nisbətindən asılı olur. Nisbət dəyişəndə xarakter də dəyişir. Müsbət və mənfi siqnalların (mənfi siqnallar əslində siqnalsızlığın olmamasıdır), yəni siqnal və siqnalsızlığın olmaması insanlar üçün dəyişən vəziyyəti yaradır. Əslində bir çox siqnalların qəbulu daxili müsbət enerjinin tükənməsinə, azalmasına xidmət edir. Bu halda **emosiyalar, qıcıqlanmalar** mənfi reaksiyalar üzərə çıxır. Mənfi reaksiyalar enerjinin azalmasının təzahürüdür. Qıcıqlanmalar (reaksiyalar) müsbət də olur. Bu halda enerjinin miqdarı artır. Lap artıq enerji də dəyişir və öz-özünü tənzim etmək üçün daxilə və xaricə ötürülür. Buna görə də çox siqnallar qəbul edib ifrat dərəcədə kədərlənmək, ifrat dərəcədə sevinmək olmaz. Siqnalları çox qəbul edən beyini siqnalların məhdud olduğu yerə, -digər xarakterli siqnalları olan məkanlara, - aparmaq lazım gəlir. Bu anda beyin siqnallardan nisbətən azad olur və sakitləşir. Tarazlıq bərpa olunur. Beyinə şərti normadan (bu, dəqiqəlik, saatlıq, günlük, sutkalıq və s. ilə müəyyən olunur) artıq siqnal qəbul etdirmək düzgün deyil. Orqanizmi müəyyən mərhələdə qaranlıq və işıqlıq tarazlığında saxlamaq fiziki-ruhi sağlamlığın əsasıdır.

**Hesab edirəm ki, nə qədər düşünə bilsəm bir o qədər aydınlığa çıxacağam. Çox mürəkkəblik elə aydınlıqdır, o da enerjidir, son olaraq sadəlikdir. Lap çox aydınlıq da düzgün deyil. Çünki hədləri keçmədir. Aydınlıq mütləq olmaqla yanaşı, nisbi olduğuna görə çox düşünmənin lap sonu qaranlığa aparıb çıxara bilər. Bu da annormallıqdır.**

**Tarazlığın pozulmasıdır, son olaraq xəstəlikdir. Onu da bilirəm ki, bütün insanlar kimi mən də sistemə və nizama tabeyəm, vahid qüvvənin ən kiçicik obyektlərindən biriyəm. Sərbəst düşünəcəm, ona görə ki, öz daxilimdən gələni ifadə etməyə çalışacağam. Lakin digərlərinin sərbəst düşüncələrində olanları da universal bir prinsip kimi qəbul edəcəyəm və aşkar olunmuş elmi faktlardan yararlanacağam. Onların sübutlarından da çıxış edəcəyəm. Bəzi aşkarlıqlara da imkanım (düşüncələrimin imkan verdikləri hədlər daxilində) daxilində əlavələr etməyə çalışacağam.**

# I HİSSƏ:

## Düşüncələr

Buna bir çox hallarda obyektlərə (mücərrəd və konkret aşkar olan, müəyyən olunan obyektlərə) söykənən subyektiv və obyektiv fikirlər də deyilir. Obyektlər bu baxımdan fərqlidir və öz üzərində düşüncələrin dərəcələnməsini meydana gətirir. Düşüncələr subyektlərdə daha çoxdur. Deməli, idealizm fikir zənginliyi olaraq materializmdən öndə dayanır. Materializm elmə, idealizm isə daha çox fikir fəlsəfəsinə və dini baxışlara (teologiyaya) söykənir. Düşüncələrin obyekti onu sistemləşdirir və böyükdən kiçiyə və yaxud da əksinə doğru müstəvi üzrə bütövləşdirir. Düşüncələrin ifadə olunması (dillə və ya da mimika ilə, işarələr ilə) fikirlərin bildirilməsidir, istək və məqsədlərin ifadə olunmasıdır. **Düşüncə və danışıq beyin siqnallarının mübadiləsidir. Danışıqsız əməl də (danışmadan hərəkət etmək, fəaliyyət göstərmək) mübadilədir. Çünki hərəkətlər zamanı da beyin siqnallar qəbul edir və hərəkətlə ötürür. Deməli, danışıq və hərəkət yüngülləşmədir, daxilin boşalmasıdır. Daxili tarazlığın yaranması üçündür. Buradan belə nəticələr meydana gəlir ki, hərəkətlər və danışıq əsasən insan beyinin fəaliyyətini təmin edəndir.** Beyinə ətraf siqnalları həm də digər duyğu orqanları ötürür. Məsələn, **eşitmək** (dinləmək) də siqnalların qəbulunda böyük rol oynayır. Dinləmək həm də siqnalları beyindən kənara ötürür. (Burada yenisi ilə əvəz edir). Bu baxımdan da informasiya qəbulu da rahatlıqdır. Tarazlığın bərpası üçün əsasdır. İnsan öz enerjisini hissiyyat orqanları ilə qəbul edir, həmin orqanlarla da mübadilə edir. Belə hesab etmək olar ki, insanın bütün daxili orqanları elə əslində hissiyyat orqanlarıdır. Sağlamlıq bu enerji mübadiləsində təmin olunur. Görmə də beyində əks olunmaların (ətraf aləmin əks olunması) sayını çoxaldır. Əks olunmalar da beyin enerjisinin

formalaşmasında böyük rol oynayır. Görmənin təzələnməsi də vacibdir. Lakin çox görmə də beyində formaları artırır. Bu da insan üçün zərəridir. Ümumilikdə isə beyinin tarazlığı onun siqnallarının normal (nisbi olaraq) qəbulu və ötürülməsində formalaşır. **(Qeyd:** “norma” da həm mütləq, həm də nisbi dəyişkəndir. Hərəkətin norması, hərəkətsizliyin norması mövcuddur. **Norma** dedikdə, ilk növbədə müəyyən məkan üzrə (məkan burada istinaddır) həcm, tutum, bunlardan meydana gələn, ölçü amili ortaya çıxır. **Müəyyən məkanda norma, müəyyən şəraitlərdə norma, müəyyən zamanda norma** məsələsi mövcud olur. Norma üçün müəyyən elementlərin müəyyən hədlər üzrə qarşılıqlı düzülüşü də nəzərdə tutula bilir. Normanı əslində elə elementin özündə axtarmaq lazımıdır. Bir məkanın digər məkan üzərində mövcudluğu, bir məkanın digər məkan daxilində mövcudluğunun mütləq və nisbi şərti həddi (kəmiyyəti) normadır. Deməli, norma məkandır, normanı müəyyən edən elə elementlərin məkan tutumudur. Normanın nisbiliyi həm də onun çoxlu sayda olan mütləqliyindədir. Məsələn, istənilən bir kriteriya (ölçü kriteriyası): həcm, tutum, sahə, ədəd və s. ümumiyyətlə, bir element və element birləşmələri norma kriteriyası ola bilir. Bu elementlərdən, kriteriyalardan norma kimi istifadə olunması isə məqsədlərə, imkanlara və şəraitlərə bağlıdır. Proseslərdə-başlanğıc, orta, son kimi hallar da normalar kimi qəbul olunur. Deməli, normanı müəyyən edən hallar və elementlər sonsuzdur. Hər şeyin tərkib norması, hər şeyin vahid halda digər bir şeyə olan nisbət norması var. Deməli, norma çoxdur, hallar dəyişəndir, mütləq və qeyri-mütləqdir. Norma hər şeydən əlavə, elə müəyyən hissəciyin-elementin özüdür, hissəciyin tutumudur və bu tutumdan yaranan əksolunmadır. Əksolunma (beyində) daha çox bərk cisimlərdə -hissəciklərin bərk sıxlaşmasında mövcuddur. Bərk cisimlər beyində tünd halda əks olunur. Norma daha çox məkan tutumudur, həddidir. Məkanın, məkan üzərində, elementin element üzərində tutum, yerləşmə

həddidir. Normaların ifadə olunması həm konkret ədədlərlə, ölçülərlə, həm də mənəvi-abstarkt amillərlə müəyyən olunur. Norma hərəkətin nisbi hərəkətsiz vəziyyətinə keçməsidir. Məsələn, bir su hovuzunda norma həmin hovuzun tutumudur, müəyyən ölçüsü olan məkanıdır. Bu məkana əlavə element, yəni su töküləndə su hərəkətdə olur. Həcm tutulduqdan sonra suyun nisbi hərəkətsizliyi meydana gəlir. Burada artıq bərk materiya ilə yumşaq (maye halda) materiyanın sərhədləri yaranır. Bu, bir normadır**)**. Deməli, insan ətraf aləmə vəhdətdədir və vəhdətin nisbi ölçüsü insanın mənəvi-maddi sağlamlığının əsasıdır.

Beyində olan fikirlərin ifadə olunması nitqdir, danışıqdır. Danışma və düşünmə beyin siqnallarını artırır. Çünki bu proseslər zamanı mübadilələr baş verir. Beyinin inkişafı danışarkən (dialoq qurarkən) meydana gəlir. Düşüncənin ifadə olunmasının aşkar forması nitqdir. Düşünmə daima daxilidir, digərinə məlum olan deyil, deməli, daha çox məxsusi və fərdidir. Onun dillə ifadəsi, dilə siqnal vasitəsilə ötürülməsi isə artıq aşkarlanmadır. Deməli, insanların danışması onların daxili aləmlərinin, düşüncələrinin aşkarlanmasıdır. **Deməli, nitq (danışıq) daxilin aynasıdır.** İnsanın daxili aləminin aşkar olunması zamanı danışmaq, danışdırmaq ən məqbul variant hesab olunmalıdır. Çox danışmaq isə düşüncələrin bəlkə də israfçılığıdır. Danışarkən (proses uzun davam edərkən) fikirlərin ifadəsi zamanı bəzən unutqanlıq yaranır. Çünki düşüncələr artıq azalır. Deməli, enerji azalır. Enerjinin bərpası üçün əlavə siqnallara ehtiyac duyulur. Belə qəbul etmək olar ki, bu siqnallar daxildən və xaricdən daxil olur.

İlk növbədə düşüncəyə tərif vermək olar: **düşüncə** beyinə gələn siqnalların (bu siqnallar yüngül element hissəciklərinin birləşmiş formada daxil olmasıdır və beyin mərkəzlərində beyinin özünün məkanı tərəfindən qəbul edilməsidir və beyində refleks yaratmasıdır. Refleks isə beyinin özünün mərkəzlərinin strukturlarına daxil olan siqnal axınlarının

təsiridir, qıcıqlarıdır. Qıcıqlar beyinə daxil olan siqnalların beyinin quruluşuna-siqnalı qəbul edən mərkəzlərin özünün quruluşuna daxil olan genişləndirici əlamətidir) beynində çevrilmələrə səbəb olmasıdır. Beyində əks olunan formalar (siqnalların daxil olduğu formalar) dərketmə zamanı aydınlaşır. **Aydınlaşma** isə elə dərketməni yaradır. Aydınlaşma daha çox hissəciklərin (gizlənmiş hissəciklərin) aşkar olunmasıdır. Siqnalların ardıcıl qəbulu (beyində cəzbetmə var və sanki fotofunksiyanı yerinə yetirir) beyində oyadır. **Buradan da belə bir məntiqi nəticə ortaya çıxır: bəlkə elə beyinin özündə hər şey gizlənib**. **Siqnallar sadəcə onu işıqlandırır, üzərə çıxarır. Siqnallar digər siqnalları oyadır.**

İnsanın təbiətlə əlaqəsi onun əlamətlərini dərk etməyə imkan yaradır. (Elə insan təbiəti dərk etmək üçün və bununla da təmaslarını qorumaqla yaşayan bir varlıqdır). Bu yaxınlıq çox olarsa düşüncə də artar. İnsan təbiəti düşünür, düşündükcə bir çox şeylər onun üçün aydınlaşır. Düşünmə insan daxilinin aynasıdır. Daxili üzərə çıxarmaq üçün çoxlu düşünməyə ehtiyac var. Düşüncə dərketməni dərinləşdirir, çünki aydınlaşdırır. Deməli, insan təbiətin bir hissəsidir. Onda cəmləşmə, yəni, kainat və təbiət əlamətlərinin cəmliyi var. İnsan varlığın təkmil formasıdır. İnsan kainatın hələlik son məhsuludur.

Hamımız etiraf etməliyik ki, həyatda nə varsa (insanlar öz əməkləri və fəaliyyətləri, məşğuliyyətləri ilə nəyə nail olublarsa) insanların düşüncələrinin və hərəkətlərinin məhsuludur. Məlumdur ki, insan yaradıcı məhsuldur. Düşüncələr biz insanların təbiətlə olan təmaslarımızın məqsədyönlü əsaslarını təşkil edir. Düşüncələr bizi dəqiqliyə, riyaziyyata, ölçüb-biçmələrə bağlayır. Burada obyekt həm materiya aləmi, həm də mənəvi aləmdir. **Onda, belə qənaətə gələ bilərik ki, düşüncə-ölçülüb-biçilmiş hərəkətlərə təkan verən əsas nemətdir. Yaxud hərəkətlərin məqsədyönlü şəkildə kəmiyyətlə yerinə yetirilməsidir.** Hərəkətlərin iradələrə tabe

etdirilməsi düşüncələrlə yerinə yetirilir və hərəkətləri ehtiyac və tələbatlara bağlayan elə düşüncələrdir. **(Qeyd: heyvanlar da düşünürlər. Çünki hərəkətlərində riyazi və həm də bir qədər məntiqi əlamətlər var. Ümumiyyətlə isə istənilən hərəkət müəyyən xəyali müstəvi üzrə riyazi ölçmələrə tabedir. Hər bir düşüncə prosesi sistemə tabedir. İnsan düşüncələri isə digər canlılara nisbətən daha çox sistemli, mükəmməl və rasional istiqamətlidir)**. Düşüncə dərketmədir. Dərketmənin də əsasında ölçüb-biçmələr dayanır. Deməli, ağıl elə mükəmməl riyaziyyatdır, yəni nəyisə hesablamaqdır, ölçüb-biçməkdir və riyazi qabiliyyətdir. Deməli, hesab, yəni tərkib hissələrdən ümuminin, ümumidən isə tərkiblərin əmələ gətirilməsi qabiliyyətidir, idrak qabiliyyətidir. Düşüncə -müqayisələr etmək, ayrımaq, tərkibi görmək, istifadə xassələrini müəyyən etmək, mühakimələr etmək qabiliyyətidir. Əsasən insanlara xasdır. Zəka və ağıl burada mühüm rol oynayır. Heyvanlarda da hərəkətlərində müəyyən qədər ölçmələr var. Azından tələbatlarını bu ölçmələrlə yerinə yetirirlər. Deməli, əqlin (şüurun) ən kiçik forması elə heyvanlarda da var. (Əsasən heyvanların hərəkətlərini instinktlərlə, yəni, qeyri-şüuri, qeyri-iradi olaraq hərəkət etmələrlə bağlayırlar). İnsanlarda isə bu mükəmməldir. Bu baxımdan da biz insanlar heyvanlardan dəqiqliyimizə (ümumi göstəricilər baxımından) görə çox fərqlənirik. Çox qurucuyuq, yaradıcıyıq. Buna görə də ali varlıqlar hesab olunuruq. Biz deyə bilmərik ki, heyvanlar ümumiyyətlə, qətiyyən düşünmürlər. Ən azından nisbi sakit vəziyyətində də dayanırlar. Deməli, az da olsa düşünə bilirlər. Düşüncələri yoxdursa, deməli, hərəkətləri də yoxdur. Heyvanların az düşünmələri elə instinktlərindən irəli gəlir.

Ümumiyyətlə, belə qəbul etmək olar ki, sakitlik düşüncənin ən əsas başlanğıcıdır. Sakit və mülayim təbiətli insanlar və çox şeylərə maraq göstərənlər bu baxımdan çox

düşünə bilirlər. Düşüncələr ola bilər ki, ifadə olunmasın. Təbii ki, bu, ifadə olunmayan "lal" düşüncədir, nisbi sükutdur.

Düşüncələr insanların məqsədyönlü fəaliyyətlərinin əsaslarını yaradan əsas mənəvi nemətdir. Düşüncə insanlara ehtiyac və tələbatlarını ödətdirən başlıca istiqamətverici dəyərdir. Düşüncə-fiziki hərəkət vəhdəti (məqsədyönlü) insanların həyat amalının əsaslarını təşkil edir.

Düçüncələr təbii ki, mübarizələr (hərəkətlər) üçündür. Mübarizələr düşüncələrin istiqamətlənməsi üçün əsasları vermiş olur. Mübarizəni yaradan ehtiyacdır. Ehtiyacdan da tələbatlar (maddi-mənəvi ehtiyacların cəmi) meydana gəlir.

Düşüncələr (xüsusilə, məntiqi, ardıcıl və sistemli, eləcə də mükəmməl düşüncələr) həyatın və onun davamlılığının, məntiqi inkişaf proseslərinin arxasında dayanır və onu özü ilə daşıyır. Düşüncələrin hərəkətlərə tətbiqi material (müəyyən forma və məzmunlu) aləmin zənginliyini meydana gətirir. Material aləmdən törəmələr də düşüncələrdən yaranır. Düşüncələr strukturu (məsələn, obyektlərə yanaşma strukturunu) yaradır, formanı dəyişir (obyektlərin formasını dəyişir), yeni məzmunları və gerçəklikləri meydana gətirir. Düşüncələr insanlarda çevrilmələr yaradan (məsələn, belə hesab etmək olar ki, insanlar çevrilmə qüvvələrinin tətbiqi sayəsində, yəni ilk olaraq nəyəsə (material aləmə) tətbiq olunan, - qüvvə sayəsində meydana gəlib. Yəni insan qüvvənin sayəsində çevrilmiş bir nəticədir. (Dini baxışlara görə ilahi qüvvə tərəfindən yaradılıb). İnsanın başlanğıcı və mənşəyi var. Ona görə ki, insan nəyisə çevirmə qabiliyyətinə (quruculuq, yaradıcılıq qabiliyyətinə) daha çox malikdir. **(Qeyd: belə hesab etmək olar ki, zəngin təbiətdə, minerallarla bol olan gözəl iqlim, yəni elementlərlə zəngin iqlim şəraitində yaşayan və daha çox element qəbul edən insanların daxilində enerji daha bol olur. Çünki bolluq elə enerjini yaradır. Bu da zəngin daxili çevrilmələri meydana gətirir.**

**Zəngin çevrilmələr isə insanların xarici aləmdə görünən qabiliyyət və bacarıqlarına təsir göstərir).**

Düşüncələr həm təsdiq olunur, digər tərəfdən qəbul olunur, həm də inkar olunur və mövcud düşüncə bazasında yeni düşüncə meydana gəlir. Deməli, düşüncələr törəmədir. Həm də inkişafın əsasıdır. Düşüncələr eləcə də inkişafın qarşısını alandır. Düşüncələrin subyektivliyi tədricən obyektivliyə çevrilir. Subyektiv düşüncənin obyektiv əsasa çevrilməsi də dərhal və ya da zaman-zaman ola bilir. Bu törəmə əsasən beyinə gələn siqnallardan (digərlərinin düşüncələrindən və obyektə yeni və ardıcıl yanaşmalardan) ortaya çıxır. Bu baxımdan da düşüncələr şaxələnir, törəyir, artım xassələrinə malik olur. Törəmə səbəblərini eyni, oxşar, ardıcıl (səbəb və nəticədə meydana gələn) düşüncə xassələri (düşüncə qaydaları) yaradır. Düşüncələr mütləq (obyektə münasibətdə subyektlərin vahid və qəbul edilən düşüncələri) və nisbi (dəyişən, mütləqliyin dəyişməsi və yeni mütləqliklərin əmələ gəlməsi ilə meydana gələn düşüncələr) əsaslarla mövcud olur. Düşüncə bazasının zənginliyi dərin düşüncələri, kompleks dərketməni meydana gətirir. Kompleks dərketmə isə universal qaydada müəyyən gedilən yolların qısalmasının əsaslarını yarada bilir. Deməli, ən uzaq və əlçatmayan obyektləri düşüncə yaxınlaşdıra bilər və həmin vasitələri dərketmənin, aydınlaşdırmanın obyekti edə bilər.

Düşüncə məxsusilik baxımından fərdidir, subyektivdir. Bununla yanaşı, əvvəlcə də qeyd olunduğu kimi, obyektivdir. Subyektivlik və obyektivlik qarşılıqlı şərtləndiricidirlər. Hər iki halda məkan və məkanda formalaşma böyük rol oynayır. Subyektlərin məkanlarda cəmləşməsi həmin məkanda **obyektiv düşüncə tərzini** yaradır. Burada bir yaşayış məskəninin adət-ənənələrini, yaşayış tərzini və insanlar arasında olan əlaqələri buna nümunə göstərmək olar. Məkan (düşüncə obyekti və subyektləri) böyüyüb xalqın düşüncəsini yaradır. Xalqın düşüncəsi isə onun mental dəyərlərinin əsasını təşkil edir.

Deməli, mental dəyərlər maddi-material aləm üzərində dayanan və yuxarı **“ucu”** təşkil edən mənəvi dəyərlərdir.

Yuxarıda qeyd olunduğu kimi, düşüncə məkanları vardır. Bu məkan məsələsinə də iki aspektdən yanaşmaq olar: **birincisi,** hər bir şəxsin düşüncə obyekti; **ikincisi,** şəxslərin obyektiv halda düşüncə xüsusiyyətləri. Bu iki xüsusiyyətdə də əsasən subyektlərin düşüncələrinin mərkəzləşməsi mühüm rol oynayır.

Düşüncələrin məkanlar üzrə məxsusiliyi də meydana gəlir. Hər bir məkanda düşüncə həm **universal,** həm də **məxsusi-**konkret olur. Burada bir məkanın düşüncəsinin (ümumi halda) digər məkanın düşüncəsinın uyğunluğu məsələsi ortaya çıxır. Düşüncələr bütün məkanlarda dərəcələnir. Bir məkan daxilində düşüncə dərəcəsi formalaşır, eyni zamanda məkanlar arasında da düşüncə fərqləri yaranır. Hər iki halda dərəcələnmələr, uyğunluq məsələləri şərti xarakterə malik olur. Lakin bununla yanaşı, universal nisbət və kriteriya üzrə nisbətən qabaqda olan düşüncə məkanları mövcud olur. Ən yüksək düşüncə məkanı başqasının düşüncələrini süni yollarla məhdudlaşdırmayan məkanlardır. Bununla yanaşı, yüksək düşüncələri müəyyən edən digər kriteriyalar da vardır. Məsələn, maddi-material aləmin zənginliyi, yəni resursların insan tələbatlarına təqribi olaraq cavab verməsinin nisbi yüksək səviyyəsi həmin məkan üzrə düşüncənin yüksək səviyyəsini formalaşdırır. Bu baxımdan da belə qəbul etmək olar ki, məkanlar üzrə dünyada bir-birindən fərqlənən düşüncə obyektləri vardır. Bununla yanaşı, düşüncə istiqamətlərinin **fərqləndiyi** və **dərəcələndiyi** məkanlar da mövcuddur. **(Qeyd: <u>fərq</u> anlayışı əslində obrazlarda, duyğu orqanlarında nisbətən fərqli siqnalların olması ilə müəyyən olunur. Bu siqnallar da fərqli əlamətlərdən ortaya çıxır. Fərq anlayışı mövcudluqdan, varlığın əlamətindən və siqnalları müqayisə etməkdən meydana gəlir. Fərq hərəkətlərin və kimyəvi çevrilmələrin, fiziki quruluş dəyişmələrinin əsasını təşkil edir. Fərq**

həmçinin zaman və məkanı, zaman və məkanda elementlərin qarşılıqlı əlaqələrini meydana gətirir. Elementlərin fərqli xüsusiyyətləri onlar arasında mübarizəni şərtləndirir. Fərqlər enerjidən yaranır, enerjidən uzaqlaşdıqca fərq də artır. Eyni zamanda enerjiyə yaxınlaşdıqca da fərqlər artır. Fərqləri sürət, qüvvə, enerji müəyyən edir. Fərqlər həm də universallıqlardan da meydana gəlir. Məsələn, universal siqnallar fərdlər tərəfindən fərqli şəkildə qəbul edilirlər.

İnsan mövcudluğu (mütləq və müəyyən olan mövcudluğu) görə bilmək, duymaq qabiliyyətinə malikdir. Fərq inikasın fərqli əsasıdır. Fərq həm də müxtəlif rənglilikdir ki, bu rənglilik də obyektin əlamətidir. Obyektin əlaməti, onun daxili və xarici xassəsi tərkib hissəciklərin quruluşundan asılıdır. Deməli, istənilən strukturda, məsələn, mürəkkəb strukturda çoxlu sayda rənglər ola bilər. Rənglərin çoxluğu elə fərq prinsipini ortaya qoyur. Dad və iyi də elə rəngləri müəyyən edir. Bu baxımdan da hər bir rəngin öz dadı, hər bir dadın öz rəngi, hər bir iyinin öz rəngi, hər bir rəngin öz iyisi var. İyi də əsasən əlamətin (materiyanın) ən kiçik və yüngül hissəciklər axınıdır. Buna görə də təbiətdə tam rəngsizlik, tam iyisizlik, tam görünməzlik ola bilməz. Burada iyidən, rəngdən, tamdan itmək həmin obyektdən və onun təsir dairəsindən uzaqlaşmaq deməkdir. Element varsa, onun rəngi də var, çünki əlaməti elə rəngindədir. Hidrogen və oksigenin rəngsiz qazlar adlandırılması nisbidir.

Ola bilər ki, bir şeyin iyisi hiss olunmasın. Bu, o demək deyil ki, onun ümumiyyətlə iyisi yoxdur. Onun iyisinin hiss olunmaması onun qarışıq iyilər məkanında "itib-batmasıdır". Bu baxımdan da iyilərin sintezi, yeni iyilərin əmələ gəlməsi mövcuddur. Həssas insanlar, iyi siqnalını (iyini yaradan axınları) yaxşı qəbul edə bilirlər. Siqnal da elə yüngül hissəcikli axınlardan ibarət olan vasitədir,

**əlamət müəyyənedicidir. Kainatda hər şey fərqlidir. Oxşarlıqlar da vardır ki, bu da əlamətlərlə bağlıdır. Fərqlilik də birləşmələri yaradır. Elementlərin tərkib fərqləri, məkan fərqləri, forma fərqləri, prosesdə iştirak xüsusiyyətləri fərqləri, düzülüş fərqləri, rəng, iyi və dad fərqləri və s. vardır. Bu fərqlər birləşərək həm eyniliyi, həm də oxşarlığı, eləcə də mürəkkəbliyi meydana gətirir. Deməli, çoxlu sayda element birləşmələri sistemin fərqini yarada bilir.**

**Dərəcələnmələr və fərqlənmələr həm də sürətlərin, enerjinin və bunlardan meydana gələn əlamətlərin kəmiyyət dəyişmələri və məkan dəyişmələri ilə ortaya çıxır).**

Məlumdur ki, düşüncəsiz insan ola bilməz. Düşüncə insan varlığının əsasıdır, əsas kriteriyasıdır, ölçüsüdür. Düşüncə insanın statusudur və onun mövqeyinin əsasıdır. Hər kəs **universal** qaydada və aşağı mərhələdə təxmini olaraq eyni şeylər haqqında, şeylərin təbiəti haqqında düşünür. Bir çox şəxslər isə universal həcmli (burada universal həcm də nisbidir) düşüncələrdən yuxarı qalxır, yəni digər obyektləri (digər mövcudluğu və eləcə də mövcud olanın dərin məzmununu) düşünür. Buradan da düşüncə obyektlərinin təsnifatı meydana gəlir və düşünən insanların da düşüncə təsnifatları (adi və dərin düşüncələr; sahələr üzrə düşüncələr) formalaşır. Düşüncələr dərəcələnir və ayrı-ayrı obyektləri əhatə edir. Düşüncələr və onların predmetləri həm ümumi, həm də xüsusi əhəmiyyət kəsb edir. Düşünənlər və məxsusi düşünənlər təbiətdə olan və imkanların icazə verdiyi hədlər daxilində həm universallığı, yəni hamının düşünə bildiyi çoxluğu (ümumi və çoxlu materialları, ümumi mənəvi aləmi), həm də hamının düşünə bilmədiyi (düşünə bilməmək ya istəkdən irəli gələ bilər, ya da qabiliyyətdən ortaya çıxa bilər. Lakin, düşüncəni ardıcıl olaraq tətbiq edən hər bir şəxs aşağı və ya da yuxarı səviyyədə məxsusi düşünə bilər. **Yəni hər kəs istəsə alim, tədqiqatçı,**

**filosof ola bilər. Bunun üçün sadəcə olaraq ardıcıl düşünmək lazımdır.** Düşünmənin özü elə sintezləri yarada bilir və nəticələrə gələ bilir. Düşüncə və əməl vəhdəti, yəni düşüncənin istiqamətləri və təkanlar müəyyən ixtiraları, kəşfləri əldə etmək imkanlarını yaradır) obyekti (vasitəni) düşünə bilir. Məlumdur ki, düşüncə sonsuzdur, çünki tərkib hissələr sonsuzdur, çoxdur, hüdudları yoxdur, varsa, onları insanlar tam dərk edə bilmirlər. Sistemlər və strukturlar da sonsuzdur. Sadəcə olaraq düşüncə artdıqca mövcud olan strukturların bir qismini dərk etmək olur. Düşüncə obyektlərin mahiyyətini insanlara yaxınlaşdırır. Düşüncələr sübutları aşkarlayır. Buradan belə bir nəticə əldə olunur ki, insanlar yalnız onlara verilən imkanlar daxilində düşünə, mənimsəyə bilərlər. İnsanlar sonlarını görə bilmədiklərini isə (burada başlanan proselərin sonu nəzərdə tutulur) tam dərk edə bilməzlər. Bu baxımdan da ən faydalı, ən yaxşı düşüncə sonunu görə bilən və dərk etdirə bilən düşüncədir.

Təbiəti, onun forma və mahiyyətini, təbiətin mövcudluğunu, yaranması zərurətlərini tarixən bir çoxlarını düşündürüb və düşündürməkdə davam edəcəkdir. Qədim (antik) Yunanıstanda təbiət (natur) filosofların düşüncə və polemika obyektləri (predmetləri) varlıq və mövcudluq, bu baxımdan təbiət və onun quruluşu, yaranışı haqqında olub. Qədim yunan filosoflarının, dərin düşüncə sahiblərinin düşünmə obyekti ona görə daha çox təbiət və onun təbii nizamlı quruluşu olub ki, indiki kimi təbiətdən əldə olunan vasitələr-düşüncə obyektlərini bölüşən vasitələr-çox olmayıb. Yəni insanların əldə etdikləri vasitələr az olduğundan düşüncələr daha çox təbiətə yönəlib. Başlanğıc elementlərin axtarılması və həmin elementlərin düşüncə obyektinə çevrilməsi fəlsəfi istiqamət kimi mühüm əhəmiyyət kəsb etməyə başlayıb. Təbiətdə elementlərin, tərkib hissələrin və onların qarşılıqlı olaraq əlaqələrinin əsasları düşüncə istiqamətlərinin (ardıcıl düşüncə sisteminin) əsas predmetləri

olmuşdur. Təbiətdə elementlər arasındakı əlaqələri yaradan səbəbləri, zəruriyyətləri, mövcudluqları, formanı, materiyanı (yəni tərkibi) geniş təfsilatları ilə böyük filosoflar şərh etməyə çalışmışlar. Düşüncələrdən həm də belə qənəatlərə də gəlinmişdir ki, əslində insanların dərketmələrindən (qabiliyyətlərindən) kənarda da mövcudluq (varlıq) vardır. Bir çoxları da belə qənaətə gəlmişlər ki, əslində təbiətdə nə varsa, insanın düşüncələrindən kənarda deyil. Elə təbiət insanlar və digər canlılar üçün yaradılmışdır.

Üç min, bəlkə də dörd min ildən çoxdur ki, təbiət düşünülür. Qədim Misirdə, Babilistanda, sonralar Yunanısatnda, Çin və Hindistanda və digər Şərq ölkələrində təbiət daima düşünülüb. Belə hesab olunur ki, sistemli-elmi əsaslarla düşüncələr əsasən Yunanıstanda başlayıb. Filosoflar od, torpaq, su, hava kimi ünsürləri düşünüblər. Ancaq bu, o demək deyil ki, Misirlilər və digər qədim şərqlilərdə düşüncə olmayıb. Elə tanrıçılığın özü də müəyyən qədər təbiətə bağlanan düşüncə olub. Kainat, Günəş, digər ulduzlar və Yer kürəsi haqqında müəyyən biliklər əldə olunub, sistemləşdirilib. Təbiətin düşüncələri insanları kainat haqqında, təbiət haqqında xeyli dərəcədə bilikli etmişdir. (Qeyd: ola bilər ki, düşüncələrin istiqamətləri də tarixən başqa cürə olsayda daha çox şeylər əldə olunardı).

Mən (əsərin müəllifi) astronomiya üzrə, riyaziyyat və fizika, eləcə də coğrafiya elmləri üzrə ali dərəcəli (ali təhsilli və geniş bilikli) mütəxəssis deyiləm. Bu elm sahələri üzrə adi biliklərim var. Orta məktəbdən bəzi bilikləri qazanmışam. Lakin bu elm sahələrini, xüsusilə, astronomiya və coğrafiyanı çox sevirəm. Ona görə də düşüncələrimi bu istiqamətlərə yönəldirəm. Onu da qəbul edirəm ki, ən yaxşı dərketmə obyekti gözlə görünən elementdir, hadisədir. Bundan sonra digər duyğu orqanlarının da fəaliyyəti güclüdür. Gözlə görərkən əlamətlər daha yaxşı dərk olunur. Onu də bilirəm ki, bütün elm sahələri məntiq və riyaziyyat əsasında öyrənilir. Ən

əsası düşüncə üçün obyektdən (ilkin başlanğıcdan) başlamaq və sistemli qaydada düşüncələri davam etdirmək lazımdır. Düşüncələr zəncirlilik əsasında formalaşdıqda, müvafiq istiqamətlər üzrə səbəb və nəticəni, başlanğıc və sonluğu (nisbi olaraq, həm də mütləq əsaslarla), forma və məzmunu, mövcudluğu və mahiyyəti, tək və vahidi, bunlar arasındakı əlaqələri, əlaqələrin yaranması zərurətlərini, əlaqələri təmin edən daxili və xarici qüvvəni; quruluş və sistemi, mexanizmi, prosesin baş verməsi qaydalarını və digər əsaslarını, prosesin başlanma səbəblərini və sonayetmə səbəblərini; sübutları, real və qeyri-real-ideal səbəbləri və s. kimi prinsipləri və məzmunu müəyyən etmək olur. Düşüncələrin zəncirliliyindən material obyektlər (predmetlər, vasitələr) üzrə təkmil bilikləri əldə etmək mümkün olur. Müvafiq istiqamətlər üzrə biliklər sistemləşdirilir. Eləcə də ideyaya, mənəvi aləmə olan biliklər meydana gəlir və biliklər sistemləşdirilir.

Məlumdur ki, **obyektiv material mövcudluq** gözlə görünən, qulaqla eşidilən, dadla bilinən, iyi ilə hiss edilən və toxunulan zaman olan material aləmdir. Bununla yanaşı, intuitivlik (intusiyalara əsasın hiss etmə) da mövcuddur. Mövcudluq aləmi həm **universal** olaraq, hamı tərəfindən hiss edilən universal aləmə, həm də müəyyən şəxslər tərəfindən araşıdırmalar, tədqiqtalar zamanı üzə çıxan və yalnız müəyyən adamlara bəlli olan **məxsusu** hissələrə bölünür. Təbiətdə (kainatda) gözlər görünməyən və başa düşülməyən (başa düşmək və dərk etmək üçün obyektin yaxınına getmək lazımdır, yəni obyekti yaxınlaşdırmaq, hiss orqanlarına yaxınlaşdırmaq lazımdır. Buradan da belə bir nəticə əldə etmək olur ki, hər bir hiss orqanının öz imkanları, arealı, siqnalları qəbul etmək potensialı mövcuddur. Məsələn, bunlardan eşitməni və görməni birinci dərəcəli (siqnalı güclü olaraq, həm də uzaqdan qəbul edən) orqanlar kimi qəbul etmək lazımdır. İyibilmə, dadbilmə, toxunaraq hiss etmə (lamisə) isə öz imkanlarına görə növbəti dərəcəli orqanlar hesab oluna bilərlər.

İntuisiya isə mövcud olan reallıqdan (görünən və hiss olunan) çıxış edərək, mövcud reallığın nəticələrindən irəli gələrək, həm hissiyyat orqanlarının siqnallarını qəbul edə bilmədiklərini, yəni birbaşa hiss olunmayan digər aləmi, digər material aləmi, həm də mənəvi-abstrakt aləmi hiss etmək və dərk etmək üçün lazım olan bir dəyərdir. Buradan da belə bir məntiqi nəticə hasil olur ki, intuisiya əslində bütün hissiyatın fövqündədir. Dərin düşüncələrin uzaq obyektləri dərk etmək imkanları vardır. Çünki həmin obyektlərin bir hissəsində məhz düşünən insanlar mövcuddur. Yəni insanlar kainatın bir hissəsində yaşadıqlarına və kainat qüvvəsinə tabe olduqlarına görə kainatı dərk etmək imkanlarına malikdirlər. İntuisiyanı təkmil düşüncələrin daha çox məhsulu hesab etmək olar. Daha çox düşünən insanlar daha çox hissiyatlı ola bilərlər. Deməli, intuisiya əslində yüksək düşüncənin mənəvi bir məhsuludur. Bu, hər kəsdə eyni (səviyyəni yaradan düşüncə tərkibinin çoxluğu baxımından) ola bilməz. İnsanlarda yüksək düşüncə onların intellektual səviyyələrinin yaranmasının əsaslarını təşkil edir.

İntuisiyalar daha çox təxminlərin, gümanların əsaslarını yaradır. Çünki obyekt hissiyyat orqanlarından uzaqda olur. İntuisiyaya həm də hissiyyat orqanlarına gəlib çatan uzaq elementlərin (materiyanın) bəzi tərkibini dərketməni aid etmək olar. İntuisiya hissiyyat üçün müəyyən hissəcikləri olan (hiss edənə gəlib çatan) materiyadan meydana gəlir. Bu baxımdan təxminlər, gümanlar, fərziyələr ortaya çıxır.

Məntiq və riyaziyyatda başlanğıc və son, səbəb və nəticə, təsir və əks təsir, eləcə də ilkin materiya (obyekt kimi fəlsəfəyə məxsus olaraq) elementlərinin (od, torpaq və suyun tərkibi) xassələri bütün elmlərin öyrənilməsinin əsasını təşkil edir. Ardıcıl olaraq düşünmə və məntiq və riyaziyyatdan (ədədi hesablamalardan, toplama, çıxma, vurma, bölmə kimi əməliyyatlardan) istifadə etmək elmdə nailiyyətlərin əsası hesab olunur. Qəbul edirəm ki, bölünə bilən bütün elementlər

tərkiblərdən, bu baxımdan da hissələrdən, hissələr arasındakı məsafələrdən və məkandan əsaslı sürətdə asılıdır. Düşünmə prosesində deduksiya və induksiya proseslərindənb istifadə etməklə müəyyən qənaətlərə, məntiqi nəticələrə gəlmək olar. Bu baxımdan da  öz fikirlərimi tərkib hissələr və bütövü dərk etməklə,  daha çox məntiq əsasında izah etməyə çalışıram. Hesab edirəm ki, məntiqi axtarış sayəsində bəzi bilikləri əldə edə bilərəm və uzaqda olan və gözlə görnən material aləm haqqında hipotezalar irəli sürə bilərəm.

Dəqiq riyazi hesablamaları hesablamaları aparmaq da mənim imkanlarımdan çox xaricdir. Bunun üçün konkret elm sahələri məşğul olur və riyaziyyat, fizika, həndəsə, kimya və biologiya kimi elm sahələri konkret nəticələr əldə edirlər və hesablama aparırlar. Hesablama maşınları müəyyən riyazi metodlarla nəticələr əldə edə bilirlər. Elm sahələrində müəyyən qədər nailiyyətlər vardır. Mən isə həmin elmin gəldiyi qənaətlərdən əldə etdiyim sadə biliklərdən məntiqlə axtarış edirəm. Elementlər arasındakı əlaqələrdə daha çox səbəb və nəticə, təsir və əks-təsir, eynilik və fərqlilik, proseslərdə harmoniya və disharmoniya, ziddiyyət və əks ziddiyyət axtarmağa çalışıram. Onu da dərk edirəm ki, elementlər arasında mənfiliklər və müsbətliklər vardır və bundan da irəli gələrək tətbiq edilən qüvvənin sayəsində cəzbetmə, itələmə, ayrılma kimi proseslər baş vberir. Enerji tətbiqi sayəsində elementlər arasında müəyyən kimyəvi tərkib dəyişiklikləri baş verir. Elementlərin birləşmələrindən xassələr və formalar da dəyişir. Eyni zamanda, qeyd olunduğui kimi, fiziki quruluş da dəyişir. Məsələn, çoxlarımıza məlumdur ki, suyun tərkibi enerji sayəsində dəyişir və suyun müəyyən aqreqat halları (buz və buxar formaları) müydana gəlir. Kondensasiya nəticəsində buxar suya çevrilir.

Materializm fəlsəfi baxışlarına görə hər şey əvvəlcədən həyatda var və bu vasitələr insan beynində əks olunur, qavranılır. Bu yanaşma da ondan iərli gəlir ki, əvvəlcə material

aləm mövcud olub, sonralar isə canlı aləm, o cümlədən insanlar meydana gəlib. İnsana verilənlər təbiətdəndir. Kainatın və Yer kürəsinin yaranma tarixi insanların yaranma tarixindən milyardlarla il qabağa gedib.

Hamımıza məlumdur ki, insanların yaşı artdıqca, insanlar böyüdükcə qavrayış (dərketmə) qabiliyyətləri də böyüyür. Baş beynin həcmi böyüyür, beyin hüceyrələrinin sayı artır və insan hərəkətləri də genişlənir. Baş beyin daha çox siqnallar qəbul etmək iqtidarında olur. Çox qəbul edilən siqnallar insanlarda beyin hüceyrələrinin fəaliyyətini də genişləndirir və beyin (sinir) oyanmaları baş verir. Çox düşünmə prosesində də beyin oyanır və beynin məntiqi axtarış sistemi də güclənir. Düşünmə prosesində beyin çoxlu informasiyalarla yüklənir. Beynin axtarış qabiliyyəti məntiqi düşüncələri də təkmilləşdirir.

Biz insanların qavradığı (digər duyğu orqanlarına nisbətən görmə nəticəsində daha çox belə siqnallar beyinə ötürülür, əlamətlər ayırd edilir, seçmə prosesləri baş verir) ətraf aləm tərkib hissələrdən və bu hissələrin birləşdiyi vahidliklərdən ibarətdir. Proseslər də sadə və sadələrin cəmi olan mürəkkəblərdən ibarətdir. Mürəkkəb proseslər həm şəffaf və aydı görünən, həm də qeyri-şəffaf və tünd görünənn olur. Biz insanlar bu tərkib hissələri universal və fərdi (ümumi və konkret) hissələrə ayrırırıq. Biz həm universal aləmdən, həm də fərdi və konkret aləmdən faydalar əldə edirik. İnsanlar ətrafdakı obyektlərə (materiyaya) təsirlər göstərirlər və resursları öz faydalarına uyğun şəkildə istifadə formalarına və məzmunlarına çevirirlər. Təbii ki, burada zaman, məkan, şərait, insan marağı, maddi və mənəvi aləm kimi kriteriyalar əsas götürülr.

Materiya aləminin tərkibinin zənginliyi, eləcə də zənginliyi meydana gətirən eyniliklər və fərqliliklər, hissəciklər və bütövlər insanların şüurlarında, təfəkkürlərində, qavrayışlarında və duyğu orqanlarında öz həkkini tapır. Reflektor qıcıqlar və təkrar-təkrar meydana gələn vərdişlər

duyğu orqanlarına bir çox şeylərin dadını əvvəlcədən bilmək və duymaq, eləcə də görmək imkanlarını verir. Biz insanlar hər şeyi ətraf aləmdə dərk edə bilirik (imkanlar çatan qədər, duyğu orqanlarının siqnallar qəbul etdiyi həcməd), müşahidələr apara bilirik, səbəb və nəticəni görə bilirik, şərtləndirici vasitələri hiss edə və görə bilirik, tədqiqatlar aparırıq və müşahidələrə gəlirik. Təbiət hadisələrini görürük, təkrarlanan nəticələri hiss edirik və vərdişlər kimi qəbul edirik. Hər bir təkrarlanan hadisəni zamanla müəyyən edirik, yəni riyazi ölçmələrə tabe etdiririk. Ən əsası ondan ibarətdir ki, məntiq əsasında çox şeyləri dərk edə bilirik və qavrayırıq. Ardıcıl düşünmə prosesində məntiq daha çox lazım olur. Təfəkkürün "toxunulması" prosesləri baş verir və hər bir "ilmə"dən "naxış"ların əmələ gəlməsini dərk edirik. Düzgün məntiqi nəticələrə gəlmək qabiliyyəti də uğurların əsasını təşkil edir. İnandırıcı məntiqi mühakimələr yürütmək elmi tədqiqatın və kəşflərin əsasıdır. Təbii ki, insanlar həm düşünmə, həm də praktiki əməl sayəsində öz məntiqi təfəkkürün əks etdirir. Sanki, şüur, əql düşüncələrə və bədən üzvlərinə müəyyən hərəkətverci siqnallar öztürür. İnsanlar öz istedad və qabiliyyətlərini həm siqnallarını qəbulunda istifadə edir, həm də siqnalların ötürülməsində. İnsanları reaksiyalar da idarə edir. Reaksiyalar oyadıcı təsir göstərir. Reaksiyalar iradə və əqildən asılı olur.

Astronomiya elmi sahəsində böyük nailiyyətlər qazanmaq üçün, geniş biliklərə yiyələnmək məqsədilə riyaziyyatın, həndəsənin, mexanikanın qanunlarını dərindən bilmək vacibdir. Fəza fizikası, fəza həndəsəsi də mühüm rol oynayır. Eyni zamanda müşahidə qabiliyyətini gücləndirmək və hadisələr arasında zəncirliyi kəşf etmək üçün ardıcıl və məntiqi düşüncəyə böyük ehtiyac vardır. Planetləri və kainatı öyrənərkən materiyanın, enerjinin xassələrini, bir-birini cəzb edən, yaxud da itələyən material vasitələrin xassələrini bilmək, araşdırmaq vacibdir. Məsələn, planetlərlə (onların nüvələri ilə)

Günəş arasında baş verən itələmə və cazibə qüvvəsindən meydana gələn dövretmə hərəkətlərini müəyyən etmək üçün Günəş enerjisinin, günəş şüalarının xassələrini müəyyən etmək lazımdır. Yerin nüvəsini tapmaq üçün (enerji tərkibini müəyyən etmək üçün) Günəş enerjisinin hansı maddəni cəzb edə bilməsi və ya da itələyə bilməsi araşdırıla bilər. Bu anda qarşılıqlı təsir vəziyyətlərini öyrənmək olar.

Elmdə hipoteza, fərziyyə, güman böyük bir başlanğıcdır. Bu başlanğıc öz ardınca məntiqi və riyaziyyatı dartır, eyni zamanda fizika və kimyanı cəzb edir.

**Hipoteza** bir güman və fərziyədir. Hipotezalar insanların daxillərindən gələn gümanlardır. Bu gümanların insanlar daxilində olması insanların kainatın mikrostrukturu olmasından xəbər verir. İnsanların gümanları daha çox ucları olan real faktlara söykənir. Məsələn, Yer kürəsi və Günəş kainatın tərkib ünsürləri olduğuna görə Yerdə mövcud olan insanlar elə kainatın digər tərkibləri haqqında müəyyən fikirləri bildirmək iqtidarında olurlar. Bu, onlara təbiətdən gələn siqnallarla ötürülür.

Hər bir elmin  başlanğıcında, xüsusilə, astronomiya elminin başlanğıcında, nəzəri fikirlər, hipotezalar, gümanlar, fərziyyələr mühüm rol oynayıb. Bir fikir yeni fikirlərin meydana gəlməsini şərtləndirib. Faktlar faktlardan yaranıb, sübutlar bir-birini əvəzləyib. Elm istiqamətləri fikirlərdən, həm güman və fərziyyələrədən, ehtimallardan, həm də ehtimalların dəqiqləşdirilməsindən, aşkar faktlara çevrilməsindən  başlayıb. Elmin inkişafında qeyri-müəyyənliyin aşkar olunması, yəni müəyyənliyə çevrilməsi mühüm rol oynayıb. Aşkar olunan biliklər toplanıb, baza rolunu oynayıb, inkar olunub və üzərində yeni bilikləri meydana gətirib.  Hipoteza (fərziyyə) sanki tərkiblərdən ibarətdir ki, bu tərkiblər də dəqiq elm sahələridir və dəqiq elmi hesablama aparmaqdır. Dəqiqlikləri aşkarlamaq üçün isə hipoteza (təxmini fikir obyektlərinə) **obyektlərinə yaxınlaşmaq zəruridir. (Qeyd: elm yazır ki,**

**astrofizikada kainat obyektlərini fiziki baxımdan öyrənmək üçün optik teleskoplar, sonra isə radioteleskoplar ixtira olundu. Optik teleskop birinci inqilab, radioteleskop isə ikinci inqilab hesab olunur).** Hipotazaların təsdiqi, yaxınlaşdırılaraq faktlara, elmi sübutlara çevrilməsi və gümanların, təxminlərin dəqiqləşdirilməsi elmi təcrübələrdən, müşahidələrdən və məntiqdən (məntiqi əməliiaytlardan) asılı olub. Hadisələrdə səbəb və nəticə, başlanğıc və son, zərurət və gerçəkləşdirmə mühüm rol oynayıb. Məntiq, bu baxımdan səbəb və nəticə, zaman və məkan, şərait və inkişaf xüsusiyyətləri, tərkib və bütövün zəruri əlaqələri, hərəkətin və yerdəyişmənin əsasları, təsnifat elementləri, zahiri gerçəklik və daxili məzmun, forma və məzmun çevrilmələri hipotezaların açılması və dəqiqləşdirilməsi üçün mühüm rol oynayır. Elm, xüsusilə fəza elmi təbii ki, hipotezadan başlayıb və sonradan buraya riyaziyyat, həndəsə, fizika, kimya, geologiya kimi elmlər cəlb edilibdir. Məsələn, astrofizika meydana gəlib. Hipoteza hər bir elmi, xüsusilə riyaziyyatı öz arxasınca aparır. Riyazi məntiq hipotezalarda kəşfləri və ixtiraları meydana gətirir. Hər bir elmin mənşəyini hipotezalarda, müşahidələrdə və təcrübələrdə axtarmaq lazımdır. Elmlər (xüsusilə astronomiya elminin sahələri) öz başlanğıclarını daha çox hipotezalardan, fərziyyələrdən götürüblər. Lakin burada ilk hipoteza əsas istiqamətverici rol oynayır. Elmin başlanğıcında **fərziyyə (güman)**, tədqiqatında isə **riyaziyyat (sübut) və məntiq** dayanıb. Analiz və sintez (tezis, antitezis) elə riyaziyyatın və dəqiqliyin sübutu kimi çıxış edir. Məntiq elmi araşdırmanın əsası, metodları cəmi hesab edilməlidir. Ola bilər ki, aparılmış tədqiqatlar nəticəsində məntiq və riyazi hesablamalar ilk hipotezanı inkar etsin. Məsələn, vaxtilə irəli sürülmüş geosentrizm nəzəriyyəsi (Ptolomeyin nəzəriyyəsi) bir hipoteza idi. Bu hipoteza öz dalınca bir çox fəlsəfə nümayəndələrini apardı. Nəticədə sistemli coğrafiya və astronomiya meydana gəldi. Bu hipotezaya əks olan

heliosentrizm ideyası ortaya atıldı. Bu iki hipoteza arasında meydana gələn vəziyyət, elmi mübahisə dəqiqliklə müəyyən etdi ki, Yer Günəş ətrafında və öz oxu ətrafında fırlanır. Burada **ziddiyyətdən dəqiqlik** meydana gəldi və həqiqət üzərə çıxdı. Hipoteza əks-hipotezanı meydana gətirir.

Elmi fərziyyənin əsası və dəqiq sübutu mənfi və müsbətliklərin ziddiyyətində ortaya çıxır. Bu, özü də bir məntiqi düşüncədir. Düşüncələr obyektlərinin mənfi və müsbətlikləri və onlar arasında olan əlaqələrin araşdırıılması elmi faktların əsasını təşkil edir. İnsanlar varsa, elm inkişaf edirsə, tədqiqatlar aparılırsa, hipotezalar da daima mövcud olacaqdır. Təbii ki, məntiqdən, riyaziyyatdan digər hipotezalar da meydana gələ bilər. Bioloji elmləri də hipoteza ilə çox bağlamaq olar. Baxmayaraq ki, bu sahədə məntiq əsasında, laboratoriya və müşahidələrlə, səbəb və nəticələrlə bir çox dəqiq faktlar aşkar edilmişdir. Elmdə ən əsası hipotezanı tutarlı şəkildə irəli sürməkdən ibarətdir. Hipotezanın özü də məntiqə əsaslanmalıdır. Bu baxımdan hipoteza irəli sürülən elm sahələrində bir qədər biliklərin olması vacibdir. Mövcud biliklərin üzərindən üzərindən aşaraq tamamilə yeni bir hipotea irəli sürmək də bir qədər qeyri-inandırıcı olar.  Təbii ki, belə bir prinsip qəbul edilibdir ki, bütün elmləri və fəlsfi bilikləri sual verməklə və sullara cavab axtarmaqla öyrənmək olar. Bu baxımdan da kainat və təbiət biliklərini əldə etmək üçün mütləq qaydada göz görəni hipoteza mənbəyi kimi qəbul etmək lazımdır. Yəni Günəşlə Yer arasındakı və digər planetlər arasındakı qarşılıqlı əlaqələri və şərtləndirici əsasları Yer kürəsinin materiyasında və Günəşin materiyasında axtarmaq lazımdır.

Məntiq və riyaziyyat əsasında elmlərin öyrənilməsini aparmaq mümkündür. Hər bir elmdə səbəb və nəticə mühüm şərtdir. Hansı bir hadisənin(hadisələrin) digər hadisələr üçün səbəb rolunu oynaya bilməsi təbii ki, elmi araşadırmanın əsasıdır.

Yuxarıda qeyd edilən fikirlərə əsasən belə hesab etmək olar ki, mövcud biliklər üzərində bəzi kainat və təbiət hipotezalarını irəli sürmək olar.

Düşüncələri bildirməkdə başlıca məqsədim təbiət haqqında olan düşüncələr bazasına nələrisə əlavə etməkdən ibarətdir. Onsuz da dərk edirəm ki, təbiətdə hər şey biz insanların iradələrindən kənarda mövcuddur. Biz insanlar yarananda artıq hər şey mövcud olub. Bu baxış həm dində, həm də elmdə öz təsdiqini tapıb. Biz insanlar təbiətin qüvvəsinə tabeyik. Onu da dərk edirəm ki, bu qüvvə vahiddir. Ən fövqəlqüvvə (yəni bütün qalaktikaları idarə edən fövqəlqüvvə) vardır. Bu fövqəlqüvvə elə sistemin daxilindədir və həm də kənarındadır. Onda belə qənətə gəlmək olur ki, təbiət qüvvəsi və onu idarə edən qeyri-təbiət qüvvəsi vardır. Günəş sisteminin və digər ulduzlar sisteminin qüvvələri elə vahid fövqəlqüvvənin tərkib qüvvələri içərisindədir və bu vahidin daxilində təsnifata malikdir.

Düşüncələr sistemləşir və bu sistemləşmə ayrı-ayrı sahələr üzrə elmi-fəlsəfi bilikləri meydana gətirir. Elm və fəlsəfəşünaslıq da elə sistemləşmiş, kateqoriyalaşmış biliklər məcmuəsidir.

## Həqiqət və qeyri-həqiqət

Həqiqət gerçək olan və qəbul ediləndir. Həm də üzdə olandır, hansı ki, gözlə görünəndir və duyğu orqanları ilə hiss ediləndir, dərk olunandır. Həqiqət olan şey sübutdur, aşkarlanandır, faktlardır. Həqiqət qeyri-müəyyənliyin müəyyənliyə çevrilməsidir və müəyyən olunan obyektdir. Deməli, həqiqət daha çox gözlə görünən forma və məzmundur. Forma və məzmunun gözlə görünməməsi və uzaqdan eşidilməsi (səs də əlamət bildirəndir) də əslində həqiqətdir. Çünki səslərin eşidilməsi həm universal, həm də fərdi qaydada ola bilər, bir və ya da bir neçə şəxs tərəfindən səslər qəbul edilə

bilər. Elementsiz, forma və məzmunsuz, məkansız və hərəkətlərsiz səslərin olması qeyri-mümkündür. Deməli, səs elementin hərəkətinin əlamətisdir və bu, əsasən sürtünmə sayəsində meydana gəlir. Günəşin səsi varsa, deməli, burada sürtünmə var, qarşılaşma və toqquşma var, sürət yaranır, qüvvə yaranır və bu da əlamətin təzahürüdür.

Qeyri-müəyyən olunan şeylər də faktlardır. Bunlar qeyri-müəyyən həqiqətlərdir. Qeyri-müəyyən həqiqətlərin müəyyənliyə çevrilməsi üçün məsafə (məkan yaxınlığı) amilindən istifadə olunur. Burada da hərəkət başlıca rolu oynayır. **Deməli, hərəkət həqiqətlərin aşkarlanması üsuludur.** Qeyri-həqiqət isə aşkar olunmayan düzgünlükdür. Yəni düzgünlüyün aşkara çıxmayan tərəfidir.

Həqiqət mütləq olmaqla, universaldır, eyni zamanda həm də nisbi olmaqla konkretdir və məxsusidir. Həqiqətin mütləqliyi həm də məxsusilikdə də mövcuddur. Ola bilər ki, gerçək olan (aşkar olan) şey (məsələn, bir nəfərin düşüncəsi və düşüncə obyektləri) hamı üçün həqiqət olmasın. Həqiqətin sadəliyi **universaldır,** mürəkkəbliyi isə məxsusidir. Mürəkkəblik hər kəs aydın ola bilməz. Bunun üçün düşüncələrin dərinləşməsi lazım olur və obyekt dərindən aşkar olunur. Deməli, ən çox həqiqət mahiyyətin dərinliyindədir. Lakin bu da, yəni aşkarlanmanın dərəcəsi də normalarla olmalıdır. Normanın keçilməsi isə həqiqətin tərkibində qeyri-həqiqətlərin olması qənaətini ortaya çıxaracaqdır. **Mürəkkəblik və sadəlik baxımdan hər kəs hər şeyi eyni dərəcədə düşünə bilməz və aşkarlaya bilməz.** Aşkarlanmanın yuxarı həddi qeyri-həqiqətlərdən ibarətdir. **Deməli, tərkib həqiqət və qeyri-həqiqətlərdən formalaşır. Burada həqiqət və qeyri-həqiqət siqnallarının vəhdət şəkilində qəbul edilməsi sayəsində ümumi nisbət meydana gəlir. Buradan da belə nəticə ortaya çıxır ki, həqiqət və qeyri-həqiqət paylanılır. Bu, bir çoxlarına həqiqət, digərlərinə isə qeyri-həqiqət kimi qəbul edilir. Deməli, insanların qəbul etdikləri**

**siqnallar tam da eyni dərəcədə təsir yarada bilmir. Obyektin həqiqi və qeyri-həqiqi mahiyyəti hər kəs üçün mütləq eyniliyi (hər kəs ya həqiqi qəbul etməlidir, ya da bir qayda olaraq qeyri-həqiqi dərk etməlidir) əks etdirə bilmir. Lakin buna baxmayaraq obyekt öz siqnallarını verir və bu siqnalların olması elə həqiqətin özünün olması demək olur. Eyni zamanda hərəkətlər müstəvisində müəyyənliyin qeyri-müəyyənliyə çevrilməsi, yəni, yaxın obyektin uzaqlaşaraq gözdən itməsi həqiqətləri qeyri-həqiqətlərə çevirir. Burada da varlığın mütləq aşkar həqiqət, "yoxluğun" isə mütləq qeyri-aşkar həqiqət kimi dəyərləndirilməsi məsələləri ortaya çıxır.**

Həqiqətin universallığı onun çoxluq tərəfindən aşkar kimi qəbul olunmasıdır. Bu baxımdan da həqiqət daha çox fərdidir, obyektə məxsusluqdur. Fərdi həqiqətə söykənən fərdi aşkarlıq var. Bu, həmin fərd üçün elə düzgünlükdür, müəyyənlikdir. Buna görə də hər kəs öz həqiqətini axtarır, başqasının həqiqətini inkar edir. Düzgünlüklər çarpazlaşanda həqiqətin obyektviliyi daha da üzərə çıxır. Həqiqət axtarışı da elə inkişafın özüdür. Bir şəxsə gerçək olan digərinə gerçək olmadıqda olan şey həmin şəxs üçün qeyri-həqiqətdir. **Deməli, insan marağı daha çox fərdidir. Bir şəxsin həqiqəti digər şəxsin marağına zidd ola bilir. Buradan da maraqların fərdiliyi, konkretliliyi və məxsusiliyi prinspi ortaya çıxır. Lakin həqiqət və qeyri-həqiqət (hər ikisi mütləqdir, lakin qeyri-həqiqət aşkar olunmayan mütləqdir) eyni bütöv məkanın tərkibidir. Buna görə də insan bu məkandan kənara çıxa bilməz. İnsan ümumi həqiqətlər içərisində özünə məxsus həqiqəti seçə bilir. Bu dəyər bir çoxlarında var və həm də ümumilikdə insanların təbii xassələrinə aiddir. Deməli, ümumi insani göstəricilər həqiqətlərin universallığı məsələsini də aşkarlayır.**

Həqiqət faktdır, sübutdur, universal və fərdi sübutdur. Qeyri-həqiqətlər də sübutlardır. Lakin bir çoxlarına sərf

etməyən, buna görə də qəbul olunmayan sübutlardır. Sübutlar isə daha çox hissiyyat orqanlarının qəbul etdikləridir. Həqiqətlər faktlardır, ancaq düzgün olması üçün onun daha çox gerçəkləşməsi, aydınlaşması lazımdır. Bu baxımdan çox görünən şey daha çox həqiqidir, realdır.

## Düzgünlük və qeyri-düzgünlük

Düzgünlük anlayışına iki aspektdən yanaşmaq olar: birincisi, istiqamət nöqteyi -nəzərdən, -məsələn, yolun istənilən koordinat və istiqamət üzrə düzxətli olması, müstəvi səthinin düz (hamar) olması və s., ikincisi isə, düzgün danışmaq, davranmaq, yəni, ədalətli, düzgün (səmimi, dostyana, mehribancasına) hərəkət etmək və s. Hər iki məsələdə müəyyən koordinatlar üzrə bərabərlik (mütləq və təqribi əsaslarla), yəni, elementlərin təqribi əsaslarla bərabər düzülməsi məsələsi mövcuddur. Hər iki məsələdə ümumi müstəvi (burada konkret və mücərrəd müstəvi) üzrə müəyyən istiqamətlərə aid düzgünlük (bərabər düzülüş və oxşar xətlər və koordinatlar) mövcuddur.

**Mütləq bərabərlik** var və bu bərabərlik məsələsində riyazi məsələlər, ədədlərlə hesabalamalar öz əksini tapır. Riyazi ədədlərdə bərabərlik, ölçülərdə bərabərlik var. Lakin təbiətdə hər bir şey də tam düz, yəni bərabər ola bilməz. (Qeyd: lakin bütün hərəkətləri düz istiqamətli hesab etmək olar. Əyriliklər də müxtəlif koordinatlara əyrilən düzlüklərdən ibarətdir). Bu anda sistem də mümkün ola bilməz. Kainat da birtərəfli qaydada tam düzlüklərdən təşkil edilə bilməz. Belə halda kəsişmələr, üst-üst düşmələr, toqquşmalar və qarşılaşmalar ola bilməz və sistem yarana bilməz. Sistem əslində müxtəlif koordinatlardan başlayan və müxtəlif koordinatlarda bitən düzxətlərdən təşkil olunub. Deməli, hər şey qarşılaşmalara və bununla da bütövə tabedir. Bütöv də tərkiblərin özüdür. Müxətlif koordinatlardan başlayan və müxtəlif cəhətlər üzrə

uzanan düzlüklər var. Məsələn, xətt çəkildikdə onun keçdiyi məkanın reallaşması da oxşar parametrlərə görə müəyyən olunur. İstənilən sistem elə müxtəlif istiqamətlərdən başlayan və müəyyən koordinatlarda üst-üstə düşən və kəsişən düzgünlüklərdən ibarət olur. Bu anda rəngarənglik, qeyri-düzgünlüklər və s. kimi vəziyyətlər meydana gəlir. Deməli, müxtəlif koordinatlardan başlayan və müəyyən nöqtələrdə (məkanlarda) kəsişən düz xətlər elə qeyri-düzgünlüyün yaranmasının əsaslarını təşkil edir. Qeyri-düzgünlüklər düzgünlüklərdən törəyir.

Düzgünlükdə eynilik, bərabərlik, tarazlılıq və s. kimi məsələlər öz əksini tapır. Düzgünlük bu baxımdan bir konsepsiya rolunu oynayır və düzgünlüyün mənasının açılmasında məhz eynilik, oxşarlıq, bərabərlik və tarazlıq kimi krieteriyalar böyük rol oynayır.

Qeyri-düzgünlük də əslində, əvvəlcə də qeyd olunduğu kimi, müxtəlif koordinatlardan başlayan və koordinatlarla düzülən elə düzgünlüyün (xəyali və gerçək əsaslı düzxətti yaradan nöqtələrin bir istiqamət üzrə müxtəlif cəhətlərlə eyni sırada düzülməsi) özüdür. Deməli, birtərəfli düzgünlük yoxdur, bu olarsa, xəyali olaraq paralellik olar və kainat da yarana bilməz. Deməli, kainatın yaranmasını qeyri-düzgünlüklər meydana gətirir. Həmçinin düzgünlüklər də qeyri-düzgünlükləri yaradır. Müxtəlif düzgünlüklərin cəmi elə qeyri-düzgünlüklərdir.

Düzgün şəkildə qəbul etmək məsələsində başlanğıc koordinat, yəni, başlanğıc dayaq nöqtəsi amili və onun xüsusiyyətləri mövcuddur. Tərəf (burada mövqe, cəhət və s.) ümumiyyətlə, digər elementə müvafiq olaraq müəyyən edilir. Tərəf məsələsi sistemlilikdə meydana gəlir. Deməli, tərəf, bucaq, istiqamət, məkanda mövqe varsa, onlar da əsasən elementlərin bir-birinə olan yerləşmə cəhətlərindən meydana gəlir. Buradan da belə bir nəticə ortaya çıxır ki, məkanların böyüklüyü və ucsuz –bucaqlığı elə oxar mövqeləri ortaya

çıxarır. Hər bir elementin kainatda öz yeri varsa, onda, belə qənaətə gəlmək olar ki, hərəkət sayəsində elementlər öz məkanlarını dəyişirlər və bir-birilərini əvəz edirlər. Bu əvəzləmə sayəsində mütləq və nisbi düzgünlüklər və qeyri-düzgünlüklər məsələsi meydana gəlir. Məkanların əvəz olunması elə bu kimi amillərin ortaya çıxmasının əsaslarını yaradır. Belə bir prinspdən də çıxış etmək olar ki, tam eynilik yoxdur. **Hər bir elementin tərkib eyniliyi ola bilər. Lakin məkan eyniliyi yoxdur. Çünki hər bir elementin öz məkanı var. Eynilik burada şərti məna kəsb edir.** Qarışıq vəziyyətlərdə də belə tam eynilik anlayışı yoxdur. Bu, sadəcə paralelliklə, oxşarlıqla əsaslana bilər. Tam eynilik yoxdursa (hərəkət zamanı məkan əvəz olunması istisna olmaqla), onda tam bərabərlik də yoxdur. Müəyyən fərqləri özündə daşıyan bərabərlik var ki, bu da oxşarlıqlarla əlaqəlidir. Bütöv anlamda tam bərabərlik olarsa (burada ilk növbədə məkan bərabərliyi), onda kainat haqqında söhbət gedə bilməz.

Ani olaraq mütləq eynilik məkan dəyişməsində ola bilər. Məsələn, 1+1 məsələsində də iki eyni ədədin bir-birinə birləşməsi və cəmləşməsi var. 1, 1, 1, burada eyni ədədlərin hər birinin öz mücərrəd məkanı var. Burada “1” deməklə, yerində qalmaq hərəkətsizlik deməkdir. Deməli, tam eyni məkanlıq elə hərəkətsizlikdir. Kainatda isə ümumən bu hal ola bilməz. Məkan dəyişməsi ilə meydana gələn eyniliyə dair digər bir misal. -məsələn, Yer kürəsinin Günəş ətrafında dövr etməsi zamanı Yer kürəsi bir ildə keçdiyi trayektoriyadan təkrar olaraq keçir. Burada Yer kürəsi ümumi halda eyni məkanları (eyni kosmik fəza koordinatlarını) təkrarlayır. Lakin nəzərə alsaq ki, kosmik fəza da hərəkətdədir, onda da qərara gələ bilərik ki, tam eynilik (bütün parametrlər üzrə eynilik) yoxdur. Məsələn, kosmik fəza müstəvisinin hərəkəti sayəsində fəza elementləri də yerlərini dəyişir. Deməli, Yer kürəsi bütöv halda eyni kosmik fəza elementləri üzərində hərəkət etmir. Hətta hərəkətə görə belə qərara gəlmək olar ki, hərəkət etdikcə planetlərin də

çəkilərində fərqlər əmələ gəlir. Deməli, eyniliklər mütləq digər eyniliklərlə qarşılaşır, buradan da enerji və qüvvə meydana gəlir. **(Qeyd: başlanğıc və son da mütləq olmaqla bərabər, nisbidir. Mütləq başlanğıc və son var, lakin bunlar həm də nisbidirlər. Hər bir son –məsələn, xətlər boyunca, yol boyunca olan son, həm də əks istiqamətə doğru başlanğıcdır. Başlanğıc və son nöqtələrinin şərti əsasları mövcuddur. Başlanğıc və son məsələsi həm də məqsədlərə tabedir. Məsələn, insanlar bir binanı tikib başlanğıc edirlər və sona çatdırırlar. Kainatda isə əvvəli tam məlum olmayan mütləq başlanğıcı şərti olaraq fəza hesab etmək olar. Yəni şərti heçlikdən böyük varlıq yaranıb. Heçlik (əslində bu, varlıqdır) də mütləqdir. Çünki “heçlik” ümumiyyətlə, yoxdur, hər şey var. Aşkar olunmayan heçlik var).** Bir məsələ ola bilər ki, bir nöqtədən düz olsun, digərindən isə düzgün görünməsin, əks olunmasın. Məsələn, bir nəfərin mövqeyi, fikirləri, məsələlərə münasibəti (bir və ya da çoxlu predmetlər-obyektlər üzrə) digərləri üçün qəbul olunmaya bilər. Bu qəbul edilməzlikdən də enerji yaranır və birlik ortaya çıxır. **Deməli, cəmiyyətin, ailənin və dövlətin birliyi əslində fikir müxtəlifliyindədir ki, bu da daxili sistemin və bütövün yaranmasının əsaslarını təşkil edir. Plüralist cəmiyyətlər, liberal dövlətlər, yəni müxtəlif koordinatlardan meydana gələn düzgün mövqelərin cəmi (bu mövqelər başqa koordinatlardan düz olmaya bilir) əslində birliyin və enerjinin yaranmasının əsaslarını təşkil edir.** Deməli, əslində düzgünlük və qeyri-düzgünlük mütləq olmaqla bərabər, nisbi əhəmiyyət də kəsb edir. Burada yanaşmalar situasiyalardan, imkanlardan, istiqamətlərdən və dayaq nöqtələrindən asılıdır. Belə bir prinsipdən çıxış etmək olar: -hər bir şey düzdür (müxtəlif cəhətlər üzrə), koordinatlar və prinsiplər fərqlidir, müxtəlif tərəflərdədir. Bu fərqlilikdən də qeyri-düzgünlük, yəni, müxtəliflik meydana gəlir. Bir nöqtədən düz olan şey digər nöqtədən, tərəfdən düz olmaya bilər.

**Deməli, bütöv elə əyri olan düzgünlüklərdən ibarətdir.** Bir düz olan şeyi digər düz olan şey kəsir. Deməli, müxtəlif koordinatlardan olan və qarşı-qarşıya gələn düzlərin cəmi **mübarizədir və birləşmədir**. Burada parçalanmalar da ola bilər. Məsələn, fikirlərin çarpazlaşmasından, toqquşmasından birliklər də dağıla bilir. Ancaq mübarizələr həm də aşkarlanmalardır. Deməli, düzgünlüyün dərin mənası elə aşkarlıqlardır. Lakin çox aşkarlıqlar da düzgünlüyün tərkibinin rəngarənglikdən ibarət olması qənaətini verməkdədir.

Bu prinsipdən çıxış edərək hesab etmək olar ki, **ədalətin özü də qeyri-ədalətdən** meydana gələndir. Ədalət tərkibində müsbət və mənfiliklər, yəni pozitivliklər və neqativliklər çoxdur. Nisbətdə isə pozitivliklər üstünlük təşkil edir. Düzgünlük tərkibində qeyri-həqiqətlər olan mütləq həqiqətdir. Qeyri-düzgünlük də öz koordinat trayektoriyasında mütləq həqiqətdir. Lakin onun öz başlanğıc və son nöqtəsi olduğundan bu arada mütləq həqiqətdir, doğruluqdur. Hər kəs öz aləmində, daxilində düzdür. Buradan da subyektiv düzgünlük yaranır. Lakin bu subyektiv düzgünlük başqası üçün başqa koordinat nöqtəsi olduğundan qeyri-düzgünlükdür. Deməli, hər şey mütləq və nisbidir.

Bütün düzgünlüklərin, yəni əyriliklərin qəbul edilməsi düzgün deyil. Bu halda sistem də tamamilə və ya da qismən dağıla bilər. Məsələn, orqanizmin daxilinə hər şeyi düzgün hesab edib qəbul etmək olmaz. Bu halda çarpazlaşma şiddətlənə bilər və orqanizmin fəaliyyətini dağıda bilər. Düzgünlük, qeyri-düzgünlük əsasən normalara tabedir. Yəni hər şey hədlər daxilindədir. Düzgünlük və qeyri-düzgünlük şərti sonda bir-birini əvəzləyəndir. Qeyri-düzgünlüklər son olaraq düzgünlüklərdir. Çünki hər şey birtərərfli mütləq qaydada qeyri-düzgün ola bilməz. Ona görə ki, qeyri-düzgünlüklər də nisbidir.

Dairələr, çevrələr də düzgünlüklərdən təşkil olunub. Çevrələr və dairələr tərkib baxımından kiçik düzgünlüklərdən

ibarətdir. Çünki hər bir hərəkət düzgünlükdə həyata keçirilir. Burada koordinatların istiqamətləri dəyişəndə əyriliklər yaranır. Deməli, düzgünlüklər cəmi əyrilikləri meydana gətirir. Buradan da belə bir məntiqi nəticə hasil olur ki, kainat qüvvəsi, hərəkəti əslində düzgünlüklərdən ibarətdir. Düzgünlüklərin müxtəlif başlanğıc və son koordinatları əyrilikləri yaradır. İnsan tam şəkildə yalnız bir istiqamətli düz ola bilməz. İnsan əməlləri və fikirləri müxtəlif koordinatlı düzgünlükləri özündə əks etdirən qeyri-düzgünlüklərdən təşkil olunub. Bu qeyri-düzgünlüklər şərti olaraq düzgünlüyü çox üstələyərsə, yəni, insan həyatında çox dolanbaclıq olarsa, ədalət də pozular. Bu baxımdan da günahları düz bilib tez-tez işlətmək düz deyil. Bu halda insan əlaqələrində tarazlıq da itə bilər. İnsan keyfiyyətləri aşağı düşə bilər. Düzgünlüklərin (şərti və təqribi) çox tərkib etibarilə qeyri-düzgünlüklərə çevrilməsi sistemin tərkibini çox qarışdıra bilər, mürəkkəblik yarada bilər ki, bu da nəticədə xaosa –nizamsızlığa səbəb olar.

Bir başlanğıc digərinin sonu olur. Deməli, kainat müstəvisində başlanğıc və son şərtidir. Bu şərtilik və mütləqliyi və nisbiliyi zəruri edir. Buradan da kainatın ilk şərti başlanğıcının olması qənaətinə gəlmək olur. Bu qənaətin tam düzgünlüyünü aşkarlamaq isə qeyri-mümkündür.

## Sadəlik və mürəkkəblik

Sadəlik əslində, təbiətdə bir və ya da **iki** şərti və mütləq başlanğıcdır. Bu da elementin özündədir. Mürəkkəbliyin təkmil məzmunda birləşməsi elə sadəliyin təzahürüdür. Məsələn, kainat elə ilk baxışda sadə bir quruluşa malikdir. Lakin onun tərkibinin zənginliyi isə bərk və maye halda olan materiyadadır. Deməli, Günəş və planetlər kainatın mürəkkəb ünsürləridir. Burada çoxluqlar yaranıb və çoxluqların əks olunması halları vardır. Kosmik müstəvi isə sadə görünüşlüdür. Lakin ümumi kainat sistemi də uzaqda sadə quruluşa tabedir.

(Qeyd: sadələrin –az tərkibli elementlərin çox tərkibli elementlərə çevrilməsi zamanı əks olunmaların kəmiyyəti-həcmi və miqdarı artır. Günəş və planetlər daha çox əks olunurlar. Əks olunma həm də enerji ilə bağlıdır. Məsələn, kosmik fəzanın özü də enerji sayəsində əks olunur. Enerji sayəsində işıqlanmalar məkanında əks olunmalar artır. Lakin çox enerji də əks olunmaların həcmini azalda bilər. Çox işıqlanma müəyyən elementlərin "yox" olmasına səbəb ola bilər. Günəşə çox yaxın getməklə yaxın gedən materiyanın özünün məhv olmasına səbəb olur. Bu zaman əks edən obyekt enerji kütləsinin artması ilə tərkibini dıəyişir, çevrilir. Günəşə çox baxdıqda, enerji artır və görmə itir. Burada da enerji çoxluğunun əks olunma ilə tərs mütənasibliyi meydana gəlir. Əks olunma özü elementin əlamətlərinin digər elementlər üzərində həkk olunmasıdır, obrazının yaranmasıdır. Elementlərin obrazları da baş beyində əks olunur və onların əlamətləri – formaları və məzmunları əks olunur və dərk olunur. Əks olunma hərəkət sayəsində, məsələn, işığın qaranlığa düşməsi ilə qaranlıqda olan obyekt üzərində meydana gələn hərəkət sayəsində mövcud olur. İşıq düşəndə enerji axını meydana gəlir, sürtünmə olur və siqnallar, yəni, qığılcımlar yaranır. Enerji olmadan enerji axını da yarana bilməz. Bu da özlüyündə əks olunmanı yarada bilməz. Enerjidən uzaqlaşma əks olunmanı zəiflədə bilər. Yəni zil qaranlıq sayəsində ətraf görünə bilməz və gözlər tutular, siqnallar qəbul oluna bilməz və insanlar məhv olar.

Əks olunma həm də yaxınlıq və uzaqlıq məsələsi ilə müəyyən olunur. Obyektin yaxınlaşması onun böyüməsinə, yəni, əlamətlərinin böyüməsinə səbəb olur. Obyekt yaxınlaşdıqca həcmin də obrazı artır, forma genişlənir, daxilə getdikcə isə məzmun da dərinləşir. Deməli, yaxınlıq və uzaqlıq məsələsi də enerjinin düşməsi və onun element

**ətrafında əks olunması sahəsinə yaxın düşməklə əlaqəli olur).**

Sadəlik aşağı məzmunda (ilk məzmunda) iki elementin birləşməsidir. Sadəlik yuxarı mərhələdə bir çox element birləşməsindən də meydana gələ bilər. Bu birləşmə ətraf birləşmə ilə müqayisədə kiçik olarsa və sistemli olarsa, gözü yormazsa, sadə ola bilər. Deməli, sadəlik aşağı, orta və yuxarı mərhələdə görünəndir, duyulandır. Gözün yorulması əslində çox qarışıqlıqdandır. Mürəkkəbliyin və qarışıqlığın ifrat forması beyində də qarışıqlıqları yaradır. Bu anda beyin də siqnalları qarışıq qəbul edir.

Sadəlik elementə münasibətdə bir tərəfdən, daha çox - mənfilikdir, az enerjilikdir. Digər tərəfdən, yəni, başqa məkandan isə enerji bolluğudur. Bu, o deməkdir ki, çox iş görən insan gördüyü iş məkanında mürəkkəb, digər məkanda isə sadədir. Deməli, sadəlik və mürəkkəblik məkana olan münasibət nöqteyi-nəzərdən dəyişəndir. Sadəlik və mürəkkəblik obrazlarda təyin olunandır.

Sadəliyin cəmi mürəkkəblikdir. Sadəlik (adilik) bir məkan üzrə qeyri-çox sayda element toplumudur. Deməli, insan məqsədləri də sadə olanda, istəkləri də az olur. Sadə insanlar öz nəfslərinə hakim olmağı bacarırlar və onu mürəkkəbliyə çevirmək istəmirlər.

Sadəliyi mürəkkəblik, mürəkkəbliyi də şərti sonda (müəyyən hədlər daxilində) sadəlik əvəz edə bilir. Sadəliklərdən (cəmləşərək) mürəkkəbliklər, yəni, təkmilləşmələr meydana gəlir. Təkmilləşmələr sonda sadəliyi əks etdirir. Sadəlik zamanı mürəkkəb əsaslarla qurulan sistem sadələşir və gedilən uzun və mürəkkəb, çətin yollar asanlaşır, qısalır. Sadəliklər tərkibi çox sayda dolanbacların olduğu mürəkkəbliklərin cəmləşməsinin yuxarı həddidir və pikidir. Mürəkkəb yolların birbaşa başlanğıc və sonunu qısa şəkildə tapmaq elə sadəlikdir.

Sadəliklər ya az tərkibli düzgünlüklərdən və qeyri-düzgünlüklərdən, ya da mürəkkəb düzgünlüklərdən və qeyri-düzgünlüklərdən meydana gəlir. Hərəkətin az kəmiyyəti, yolun azlığı, elementlərin əlaqə əsasları sadəlikdir. Bunların əksi isə mürəkkəblikdir. Tam çoxluq heç də tam mürəkkəblik deyil. Bu məsələyə də müəyyən istiqamətlərdən yanaşmalar etmək olar. Sadəlik məkanını, sadəlik özünəməxsusluğunu qarışdrımaq olmaz. Məsələn, bir məkanın sadəliyi və mürəkkəbliyi var. Bu, əlaqəli olsa da digər məkana tam təsir göstərməyə bilər. Məsələn, müdriklik əslində mürəkkəblik və onun sonu olan sadəlikdir, həm də sadəliklər cəmidir. Müdrikliyin sadəliyi başqa keyfiyyətlərin, əməllərin sadəliyi ilə tam eyniləşdirilə bilməz. Sadəsən, - deyənə, iş görməmək də düzgün deyil. Müdrikliyin sadəliyi əslində varlığın mürəkkəbliyidir və təkmilləşməsidir, tərkibin zənginlikdən yuxarıya qalxan həddidir. Bu baxımdan da insanlar çox iş görməlidirlər ki, müdrikləşsinlər, ucalsınlar.

Ümumiyətlə, mürəkkəbləşmənin son həddi isə dağılmağa səbəb ola bilər və mövcud sistem yeni sistemə çevrilə bilər.

## Müəyyənlik və qeyri-müəyyənlik

Müəyyənlik aşkar olunandır, bir çoxlarına və ya da bəzilərinə bəlli olandır. Müəyyənliyin dərəcəsi, eləcə də müəyyənliyin qeyri-müəyyənliyə çevrilməsi və yaxud da əksinə baş verən proseslər koordinatlardan asılıdır. Hər bir element öz məkanında onun bəlli olduğu digər elementlər üçün müəyyəndir. Məkanın dəyişməsi ilə koordinatlar da dəyişir və element digər məkanlarda olan subyektlər üçün aşkarlanmağa başlayır. **Bununla da müəyyənlik bir şərti koordinatda mütləq müəyyən, digər koordinatda isə qeyri-mütləq müəyyən olur.** Hərəkət edən cisim öz müəyyənliyini qeyri-müəyyənliklə əvəzləyir. Qeyri-müəyyənliyə keçid sayəsində mövcud şərti məkandan başqa məkana keçidlər baş verir və

uzaqlaşdıqca əlamətlərinn obrazı da azalır və element gözdən itir. Buradan da belə nəticə ortaya çıxır ki, hər bir elementin obrazını yaradan sfera vardır. Buna əks olunmanın sferası da demək olar. Əks olunmanın sferası elə enerjinin əks olunma sferasıdır. Hər bir elementin öz əks olunma sferası vardır və sferalar da qarşıqdır. Bu baxımdan da kainat elementlərini, məsələn, planetləri, asteroidləri, meteoritləri, ulduzları qarşılıqlı əks olunma sferası ilə aşkarlamaq mümkün olur. **Bütün müəyyənliklərin əsası onun enerji sferası ilə əlaqəlidir.**

Bir nəfərə aşkar olunan şey **subyektiv müəyyənlikdir**. Subyektiv müəyyənlik də obyektin subyektə bəlli olmasından asılı olaraq dərəcələnə bilir. Bu dərəcələnmənin yuxarı həddi tam subyektiv müəyyənliyə çevrilir. Belə ki, bu hədd uzun müddət başqaları üçün müəyyənliyə çevrilmək baxımından əlçatmaz olur. Deməli, qeyri- müəyyənliklə müəyyənlik arasında bir zaman intervalı mövcud olur. Bu da enerji ilə əlaqəlidir. Mürəkkəb müəyyənliyi qəbul edən insanlar daha çox enerjili, dərin düşüncəli olurlar. Deməli, müəyyənliyin yuxarı həddi obyekt üzərindəki düşüncə dərinliyindən asılı olur. Düşüncələrin dərinləşməsi digər obyektlərin də aşkar olunmasının əsaslarını yaradır.

Çoxlarına bəlli olan isə **obyektiv müəyyənlikdir**. Deməli, obyektiv müəyyənlik kollektiv müəyyənlikdir. **Kollektiv müəyyənlik ümumi normativlikdir.** Məsələn, qanunvericilik normaları ümumi müəyyənliyin tərkibidir. “mumi normativliyi isə xüsusi normativlik pozur. Deməli, müəyyənlik həm də daha çox subyektivlikdir. Müəyyənlik gözlə görünəndir, hiss olunandır, duyğu orqanları ilə qəbul ediləndir. Müəyyənlik açıq mahiyyətli olandır, aşkara çıxandır, forma və məzmunu baxımından başqa elementə yaxın olandır. Forma və məzmunu bir çox hallarda bəlli olandır. Müəyyənlik mütləqlikdir. Müəyyənlik rəngdir, iyidir, daddır, görünən formadır, dərk olunan gerçəklikdir.

Qeyri-müəyyən isə müəyyən olunmayandır, aşkar edilməyəndir. Əslində isə bütöv bir kainat sisteminin görünməyən (görünə bilməyən) tərəfidir. Müəyyənlik sərhədlərə tabedir. **Yəni insanlar bəlli hədlər daxilində, öz potensillarına uyğun olaraq qeyri-müəyyən olunanları (“gizli” varlıqarı, mütləq olanları) müəyyənliyə çevirə bilirlər, aşkarlayırlar.** Qeyri-müəyyənlik daha çox gizlənmiş mənfidir və ya da müsbətdir. Qeyri-müəyyənlik müəyyənliyə nisbətən müəyyən hallarda və məqamlarda, şəraitlərdə **üzə çıxmayan rəngsizlikdir**. Aşkar olunmayan rəngsizlikdir. Ancaq kainatda tam rəngsizlik yoxdur, rəngsizlik dəyişəndir, çünki kainat bütün elementlərdən ibarətdir. Elementlər də əlamətlərinə görə iyidir, rəngdir və formadır, məzmundur, bu baxımdan da mütləq varlıqdır. Lakin elementlər varlığı **müəyyən olunan mütləq** və **qeyri-müəyyən olunan mütləqdən** ibarətdir. Müəyyənliyin öz məkanı formalaşır, ya da qeyri-müəyyənliyin müəyyən olunan hissələrinin məkanı üzərə çıxır. Deməli, müəyyən və qeyri-müəyyən olunan şeylər sistemdən ibarətdir. Vahid kainat sisteminin tərkib ünsürləridir.

**Stabillik və qeyri-stabillik**

Stabillik müşahidə olunan hərəkətin müəyyən məkan çərçivəsində və müəyyən zaman ardıcıllığında təqribən eyni olan müşahidəsidir. Burada tarazlıq nöqtələri bir məkandan eyni zaman intervalında dəyişir. Bu daha çox mexaniki hərəkətlərdə (məsələn, təkərlərin sabit sürətlə fırlanması) mövcud olur. Stabil hərəkətlər zamanı yerdəyişmələr edilərkən koordinatlar da yerlərini təqribən və mütləq bərabər əsaslarla dəyişirlər. Bir nöqtədən digər nöqtələrin ardıcıl təkrar olunan zaman intervalında keçməsi və dəyişmələrin ardıcıl bərabərliyi stabilliyin meydana gəlməsini şərtləndirir. Bu baxımdan da stabillik bərabərliyə söykənir. Stabillikdə ədalət vardır. Çünki burada yerdəyişmə bərabərliyi mövcuddur. Bütün

yerdəyişmələr ətraf aləmə təsirlə müşahidə edilir. Bu təsirlər keçici və çox zərərvurucu olmadıqda stabillik də müşahidə edilir.

Dövlətdə, cəmiyyətdə, ailədə münasibətlərdə və əlaqələrdə stabilliyin ədaləti maraqların bərabər şəkildə bölgüsü amilinə söykənir. Hərəkətin eyni ölçü ilə müşahidə edilməsi elə tarazlığı yaradır. Deməli, stabillik elə tarazlıqdan və balanslaşdırılmadan meydana gələndir.

Hər bir sürətin artması (nəzərdə tutulan müstəvi üzrə) və artan sürətlə mexanikanın bir müddət bərəbarə hərəkəti elə stabillikdir. Yəni, hər bir şərti və mütləq məkanda və səviyyədə stabillik müşahidə edilir. Ümumiyyətlə, stabillik o halda yaranır ki, bir dəyişmə zamanı nəzərdə tutulan nöqtə öz ardınca bərabər əsaslı yeni nöqtəni zaman ardıcıllığında gətirir. Bir nöqtədən hərəkətdə olan cismin bir nöqtəsi bir neçə dəfə sabit dəyişmə ilə keçir. Bir nöqtədə digər nöqtənin peydaha olması eyni zaman ardıcıllığı ilə üzərə çıxır. Ümumiyyətlə, belə qəbul etmək olar ki, bütün hərəkət istiqamətlərində sabitlik var və yolun dəyişməsi ümumi sabitliyin qeyri-sabit kimi görünməsinə gətirib çıxarır. Sabitlik (sabit hərəkət) tək düz yolda yox, həm də əyrilən yollarda da meydana gəlir. Sabitlik əsasən dəyişmələrin arasında olan məkan eyniliyi ilə də müəyyən edilə bilir.

Stabil hərəkətlərin qeyri-stabil hərəkətlərə çevrilməsində hərəkətdə olan cismə təsir edən kənar cisimlər də böyük rol oynayır. Bir çəkidə olan cismin hərəkətinin dəyişməsi kənar qüvvələrin təsir dəyişməsinə bərabər olur. Burada hərəkətdə olan cismin üzərində hərəkətdə olduğu səthin hamarlığının dəyişməsi də mühüm rol oynayır. **Deməli, elementlərin hərəkəti onların təsir məkanında olduqları element kütləlrindən asılı olur.** Həm də elementin tərkibində olan atom kütləsinin dəyişmsi elə hərəkətin dəyişməsinə səbəb olur. Buradan da məzmun və forma dəyişikliyi də yarana bilir. Belə

qəbul etmək olar ki, qüvvə elə elementlərin qarşılıqlı təsirlərindən yaranır.

Stabilliklərin məkanları meydana gəlir. Bir məkandan digərinə keçidlər vardır ki, bunlar da stabillik məkanlarının və vəziyyətlərinin dəyişməsi ilə xaraketizə edilməlidir. **(Qeyd: məkandan məkana keçmə və yeni məkan öz tərkib əlamətinə görə fərqlənir. Bir məkan digər məkanla tam bərabər ola bilməz. Burada ya koordinat fərqi olmaldır, ya tərkib, ya da müəyyən ölçü fərqləri müşahidə edilməldir. Bu baxımdan da belə qəbul etmək olar ki, hər bir element bu kainatda öz koordinatına, öz mövcudluğuna xasdır. Kainat təkrarolunmaz məkanlardan ibarətdir. Buna görə də tam mütləq bərabər hərəkətlərlə müşahidə olunan sabitlik mövcud deyil. Hər bir element bir məkandır, bir koordinatdır, başlanğıc və sondur, tərkib və bütövdur. Bu baxımdan da sabitlik özünəxas fərqlilikdən meydana gələn nisbi vəziyyətdir. Hərəkətlərdə olan sabitlik Günəş sistemində mövcuddur. Planetlər Günəş ətrafında təkrarlanan trayektoriya üzrə hərəkət edirlər. <u>Deməli, ən yüksək sabitlik (sabit hərəkət) çevrə hərəkətindədir. Günəş və planetlər arasında nəzərdə tutulan bərabər əsaslı təbii qüvvə tarazlığı meydana gəlir. Buradan da zamanın ədadlə hesablanması, daha doğru hərəkətlərin ədədlərlə hesablanması meydana gəlir. Bu da zaman amilini üzərə çıxar. Bu zaman kriteriyası isə məkan kriteriyasına bağlı olur. Məkan və hərəkət, eləcə də sürət, digər tərəfdən də enerjinin təzahürü və nisbi yoxluğu (təbii qaranlıqlar və işıqlar) zaman üçün əsas dəyərverici kriteriyalar kimi əhəmiyyət kəsb edir. Zaman hərəkətin dəyişməsində, hesablamada bir ölçü kriteriyası kimi böyük rol oynayır. Zamanla da stabilik və qeyri-stabillik meydana gəlir</u>).** Artan dinamika üzrə stabillik həm artmada, yəni, yuxarıya doğru şaquli vəziyyətdə, həm də üfqi vəziyyətdə təqribi və mütləq olan bərabərlikdə özünü təsdiq etmiş olur. Deməli,

stabillik elə qeyri-sabitsizlikdən də meydana gəlir. Stabil hərəkətlərin və nisbi sükunətlərin dəyişməsi və mütləqə çevrilməsi elə qeyri-sabitliklərin meydana gəlməsindən ortaya çıxır. Deməli, sabitlik elə sabitsizlikdən meydana gəlir. Sabitliklər arasındakı məsafələr elə qeyri-stabilliklər məkanlarıdır. Bu baxımdan da tam mütləq sabitlik və tam mütləq qeyri-sabitlik ola bilməz. Stabillik ardıcıllığa əsaslanır. Məsələn, 1+1+1+1-bu bir stabillikdir. Lakin 1+2+4+8 –artıq qeyri-stabillikdir. Deməli, artan və azalan sürətin özü qeyri-stabillikdir. Kainatda, makrokosmosda artan sürət nizamdan kənara çıxan elementlərdə ola bilər. Bu da daha çox nizama tabe olur. Deməli, mikrocisimlər, müəyyən qədər zərər vursalar da, makronizama tabe ola bilirlər. Bu baxımdan da kainatın-makronizamın əsası tarazlıqlardan və bundan yaranan bütöv qüvvədən təşkil olunub.

Stabil sürətlərə təsir edən ətraf amillər vardır. Ətraf amillər daima bir-biriləri ilə qarşılıqlı əlaqədə olur və sürtünmə və itələmə funksiyasını daşıyır. Bir obyektə münasibətdə digər obyektlərin sürtünməsi və itələnməsi elə sabitliyin və qeyri-sabitliyin yaranmasının əsaslarını təşkil edir.

## “Sıfır”, mütləq yuxarı hədd, mütləq aşağı hədd və dəyişkənlik-rəng dəyişməsi və mövcudluğun yoxluğu

Kainatın vahid əsasının və tərkibinin zənginliyi, eləcə də məkanın ucsuz-bucaqsızlığı kainat sisteminin ədədlərlə ifadə olunmasının əsaslarını meydana gətirir. Kainatda enerji mənbələri **(buna ilk növbədə toplu halda ulduzları aid etmək olar. Məsələn, hərəkət daha çox ulduzlarda (Günəşdə) olduğundan, bu məkanda elementlərin sıxlığı və sürəti də çoxdur. Kosmik fəza müstəvisi də hərəkətdədir. Lakin bu hərəkət nisbətən kiçik məkanda, məsələn, ulduzlarda toplanan qədər sürətli ola bilməz. Günəşdə (ulduzlarda) enerji kütləsi çoxdur. Məka isə ümumi kosmik**

**fəza müsətvisindən kiçikdir. Ümumi müstəvinin elementləri burada sürətlə qarşılaşırlar. Sonra isə planetləri də enerji mənbələri kimi qəbul etmək olar. Çünki hər iki tip materiya (Günəş və planetlər) kainat müstəvisini və özlərini hərəkətdə saxlayır. Məsələn, belə qəbul etmək olar ki, planetlər Günəşin hərəkətini də təmin edirlər. Günəşsiz planetlər, planetlərsiz Günəş indiki kimi ola bilməz. Günəş və planetlər sisteminin qarşılıqlı şərtləndirici əlaqələri səbəb və nəticələrdir)** və müstəvinin elementar hissəciklərinin və elementlərin maye, qaz və bərk materiya halında toplaşması kainatın tərkib baxımından müxtəlif rənglərinin əsaslarını təşkil etməkdədir.

**Kainatda şərti sıfırlar var.** Bu koordinat nöqtəsi forma və məzmun dəyişmələrinin olduğu nöqtədir. Məsələn, belə qəbul etmək olar ki, Günəş kosmosun isti və soyuğunun çevrildiyi (soyuğun istiyə, hərəkətsizliyin, yəni, zəif hərəkətin sürətli hərəkətə çevrildiyi) şərti və mütləq "sıfırdır". Bununla yanaşı, zəif və sürətli hərəkətlərin qarşılaşdığı sıfırlar da vardır. Məsələn, belə qəbul etmək olar ki, Yer kürəsi ilə Günəş arasında Günəşin enerji sahəsinin bol olduğu məkanlarla Yer kürəsinin Günəş şüasını əks etdirdiyi sferası arasında şərti sıfır koordinatı vardır. Bu koordinatda "neytrallıq" meydana gəlir. Sağa və sola doğru bir qədər müstəvi üzrə hərəkət zəif olur. Sonra sola doğru, yəni, Yer kürəsinə yaxınlaşmağa doğru enerji artır və Yer kürəsinin enerji sferası meydana gəlir. Sağa doğru isə Günəşə yaxınlaşma təbii ki, enerjini artırır. Burada kosmik fəzada olan "**sıfır qurşağında"** qaranlıq sağa və sola doğru istiqamətə nisbətən daha çoxdur; çünki enerji nisbətən azdır. Planetlər hərəkət etdikcə fəzanın planetətrafı seli hərəkətə gəlir və bu, Günəşdən planetlərə gələn və buradan əks olunan enerjiyə qarışır. Buradan da belə nəticələrə gəlmək olur ki, qaz halında olan materiya (Günəş) ilə bərk və maye halında olan materiya (Yer kürəsi) arasında nisbətən zəif keçilən (hərəkət sürəti az olan) bir qurşaq vardır. Belə güman etmək olar ki, bu

sahə daha çox “ayrıcı” funksiyanı yerinə yetirir. Bu sahə Günəş və planetləri bir-birindən qoruyur və onları məsafədə saxlamağa kömək edir. Neytral müstəvidən Günəş şüaları zəif keçir; sonra isə Yer kürəsinə doğru keçmə artır. Burada Yer kürəsinin öz daxili enerjisi, yəni onun enerjisini təmin edən mərkəzi hissəsi olan nüvəsi cəzbedici mərkəz kimi böyük rol oynayır. **Cəzbedicilik sayəsində Günəş enerjisinin sürəti də artır. Bərk materiya üzərində Günəş şüası çoxaldığından bərk materiyanın rəngi parlaqlaşır. Deməli, enerji əslində rənglərə parlaq verəndir. Ona görə parlaq olur ki, materiyanın özünün tərkibinə təsir göstərir və onu “dağıtmağa”, strukturu aralamağa, elementləri yüngülləşdirməyə çalışır. Bərk materiya Günəş enerjisi isə qarşılaşır, burada enerji ilə (qaz halı deyək) sürtünmə yaranır. Deməli, sürətli enerji əslində parıltıdır. Parıltı da sürətli qarşılaşmadır, sürtünmədir. Günəş enerjisi ilə bərk materiyanın qarşılaşması sanki, məkan uğrunda elementlərin mübarizəsidir. Mübarizədə itələmə də olur. Bunun sayəsində hərəkət yaranır. Məsələn, suyun buxarı elə enerjinin suya tətbiqi sayəində suyuin tərkib elementlərinin öz məkanlarını sürətlə dəyişməsi prosesidir. Buradan da enerji və qüvvə, güc yaranır. Buxarın enerji kimi istifadəsi halları meydana gəlir. Günəş qarşısında çox dayanan bərk materiya öz rəngini itirməklə üzləşir, hətta müəyyən müddətdən sonra formasını da itirə bilir.**

Mütləq yuxarı hədd pikdir, enerjinin pikidir. O da sıfırdır, yəni, sonun başlanğıcla əvəz olunmasıdır, soyuğun istiyə çevrilməsidir. Mütləq aşağı hədd isə mənfidir. Ən aşağı hədd gedib müsbətə, yəni enerjiyə çıxır. Deməli, Yer kürəsinin nüvəsinin olması labüddür və bu Günəşin alternatividir, oxşarıdır. Günəş və planetin nüvəsi arasında dəyişən müsbətliklər və mənfiliklər var. Bu da təbii ki, materiyanın formalarını-qaz, maye, su və bərk halı meydana gətirir. Həmin

məntiqi nəticələr üzrə belə qənaətə gəlmək olar ki, qalaktikalar arasında qaranlıqların sonu işıqlardır.

Rəng dəyişməsi təbii ki, məzmun dəyişməsidir, tərkib dəyişməsidir. Tərkib dəyişməsi isə elementin quruluş dəyişməsidir. Element xassəsini dəyişəndə rəngini də dəyişə bilir. Buradan da belə nəticəyə gəlməkj olar ki, çox sürətlə hərəkət edən bir cisim sürtünmə sayəsində həm öz quruluşunu, yəni, formasını, həm məzmununu və bunlardan irəli gələrək, rəngini dəyişə bilər. Hər bir rəngin, tamın, iyinin öz quruluşu var. Rəng tam itmir. Sadəcə olaraq qarışır. Qarışanda isə gözdən itir. Tam rəngsizlik olmur, struktur dəyişməsindən rəng çevrilməsi meydana gəlir.

**Kəmiyyət və keyfiyyət**

Kəmiyyət ölçüdür, çəkidir, müəyyən müstəvidə olan elementlərin tək və cəm halda çəkisidir. Əgər ən kiçik bölünən varsa, o da enerji və nisbi enerjisizlik prinsipindən irəli gələrək, kainatda ən böyük bölünməzliyə aparıb çıxarır. **(Qeyd: çəki bir elementin və ya da elementlər toplusunun müəyyən bir məkanda digər elementə olan təsirinin dərəcəsidir, kəmiyyətidir. Çəki elementlərin təsir nisbətində müəyyən olunan vahidlikdir, ədədlərlə ifadədir).** Kainatın ən böyük və ən kiçik elementləri vardır və bunlar bir-birinə qarışandır. Bir-birini əvəzləyəndir. Kəmiyyət qüvvə sayəsində, enerji sayəsində yaranan, şərti olaraq yoxa çıxan, bu baxımdan artan və azalandır. Kəmiyyət təsir dərəcəsindən azalır və artır. Qüvvə kəmiyyəti çoxalda və ya da azalda bilir. Məsələn, Günəş şüasının təsiri ilə təsir olan elementin kəmiyyəti arta bilər. Günəş şüası tərkibə daxil olur və tərkibi çoxaldır. Sürtünmənin təsir dərəcəsindən asılı olaraq elementin tərkibi yeyilir, azalır.

**Keyfiyyət nəzərdə tutulan təsir dərəcəsinin əsasıdır.** Keyfiyyət təsir və tətbiq zamanı əldə edilən nəticələrin özüdür. Keyfiyyət istifadə zamanı əşyanın müddətinin uzun olmasıdır.

Eləcə də istifadə olunan bütövün tərkibinin uzun müddət dəyişməməmsidir. Kəmiyyətin çox olması keyfiyyəti artıra bilir. Məsələn, su çənində suyun çoxluğu daha çox sahənin suvarılmasına səbəb olur. Elmdə keyfiyyət-isti, soyuq, rütubət və quruluq kimi hallar kimi də adlandırılır.

Keyfiyyət həm də elementlərin kompleks birləşməsində lazımi elementlərin kifayət qədər müəyyən müstəvidə taraz vəziyyətini almasıdır. Deməli, keyfiyyət məkana bağlı olandır. Məkan da elə elementin tutumudur, həcmidir, ölçüsüdür və tərkib formasıdır.

Ən böyük keyfiyyət elə kəmiyyətin özündədir. Çəki çox olduqca kəmiyyət və qüvvə də çox olur. Bu baxımdan da keyfiyyət mütləq olmaqla yanaşı, nisbidir və müxtəlif bucaqlarda tərəflər üçün fərqlidir. Kəmiyyət də dəyişikliyə məruz qala bilir. Hərəkətdə olan cisimlər öz tərkibini dəyişmək iqtidarında olurlar.

Tətbiq oluna qüvvə kəmiyyəti və keyfiyyəti dəyişir. Məkanları parçalayır və məkanları birləşdirir. Sürtünmə dəyişikliyi meydana gətirir. Bu dəyişiklik kəmiyyət və keyfiyyəti özündə cəmləşdirən məkan dəyişikliyidir. Qeyd olunduğu kimi, keyfiyyət ilk növbədə tutumdur, həcmdir. Kəmiyyətin çoxalması bir çox hallarda keyfiyyətin də aşağı düşməsinə səbəb ola bilər. Bu, daha çox resurs çatışmazlığında özünü göstərə bilər. Kəmiyyət və keyfiyyətin nisbətən eyni vəziyyətlərdə qalması üçün qarşılıqlı əlaqədə olan elementlərin məkana olan nisbətini tarazlaşdırmaq lazımdır. Bu anda resurs çatışmazlığını aradan qaldırmaq olar. Həddən çox sayın artması bu baxımdan məkan çatışmazlığını yarada bilər ki, bu da özlüyündə elə keyfiyyətin aşağı düşməsinə səbəb ola bilər. Məsələn, ifrat dərəcədə nəticələnən urbanizasiya prosesləri yaşayış səviyyəsini, yaşayış keyfiyyətini aşağı sala bilir; çünki resurs çatışmazlığı meydana gəlir.

**Mütləq və nisbi**

**Həyatda hər şey öz nisbi dəyişən məkanında mütləqdir**. Mütləqlik elementdədir, onun özünü müəyyən edən əlamətlərdədir. Element dəyişir, məkan da dəyişir. Deməli, mütləqlik nisbiliyə çevrilir. Hərəkətin mütləqliyi, hərəkətsizliyin mütləqliyi və qarşılıqlı çevrilmələr məsələsi təfəkkürdə meydana gəlir. **(Qeyd: mütləq olan şey əlamətlərini əks etdirəndir, deməli, aşkar olandır. Aşkarlıq da yaxınlıqdan, yaxınlaşmadan meydana gəlir).** Çünki element öz mütləqliyini özü ilə daşıyır. Başqa bir məkana keçdikdə də öz mütləqliyini qoruyub saxlayır. Deməli, aşkar olan və müəyyən halda hərəkət edən bütün elementlərin mütləqlik trayektoriyası meydana gəlir. Həmin trayektoriyada mütləq olanlar qeyri-mütləq olanlara çevrilir. Mütləqlik əsaslara, yəni, əlamətləri əks etdirən kriteriyalara bağlıdır. Əsaslar da elementin mövcudluğunu və formasını əks etdirən təzahürdür. Hər bir element öz əlamətinə xasdır və bu əlamət də onun mənşəyinə bağlıdır. **(Qeyd: kainatın mütləq başlanğıcı yoxdursa, onda qeyd etməliyik ki, elementlərin yaranmasının da mütləq başlanğıcı yoxdur. Başlanğıc və son bu baxımdan müəyyən şərtləndirici, yəni, başlanğısı və sonu müəyyənedici şərti elementlərə söykənir. Tam başlanğıc və son yoxdur. Bu baxımdan da tarixin tam başlanğıcı, yəni, lap ilk başlanğıcı haqqında fikir bildirmək düzgün olmaz).**

Elementlər kimyəvi tərkibini dəyişdirdikdə də baza olaraq öz mütləqliyini, yəni, ilkin əsasını qoruyub saxlayır. Lakin bununla bərabər, yeni tərkiblərin də meydana gəlməsinin əsasları formalaşmış olur. Bu baxımdan da mütləqlik məkanlardan-məkanlara keçir. Bu, daha çox elementlərin yerdəyişməsində baş verir. Kainatda öz yerini tamamilə dəyişməyən element yoxdur. Çünki hər bir materiya hərəkətdədir. Əgər hərəkət baş verməsə, onda sistem də daxilən

təmizlənə bilməz. Sistemdə baş verən dəyişikliklər hərəkətlərə əsaslanır. Hərəkətlər də müəyyən kimyəvi çevrilmələrin əsasını meydana gətirir.  Mütləqlik öz yerini başqa bir mütləqliyə vermiş olur. Mütləqliklər trayektoriyası formalaşmış olur ki, bu da özlüyündə dəyişkənliklər trayektoriyasını ehtiva edir.

Mütləqlik əlamətlərin, təzahürlərin və qeyri-təzahürlərin (aşkar olunmayan mütləqliklərin) əsasıdır. Mütləq zamana münasibətdə ani də ola bilər. Bu, aşkar olunan elementin ani zamanında özünü göstərə bilər. Anilikdən sonra mütləqlik öz yerini yeni mütləqliyə verir. Yəni element bir məkanda yerrini dəyişdikdə yeni elementin meydana gəlməsi prosesləri baş verir. Deməli, hadisələr bir-birini əvəzləyir və hadisələr trayektoriyası formalaşır.

Məkanın dəyişməsi isə həmin elementin nisbiliyidir. Nisbilik əslində yeni mütləqliliyin meydana gəlməsinin əsaslarını yaradlır. Yeni məkanda mövcud olma yeni mütləqdir. Bu baxımdan hərəkət mütləqliklər və nisbiliklər cəmindən ibarətdir. Yox olma ilə nəticələnən keçicilik tam yoxdur, sadəcə olaraq forma və məzmun dəyişməsi vardır. Məkanlar arasında yerdəyişmələr nisbiliyin əsaslarını təşkil edir. Nisbiliklərdən də mütləqliklər yaranır. Nisbiliklər və mütləqliklər də tərkib etibarilə artan və azalanlardır. Yəni mütləqliklər və nisbiliklər hərəkət trayektoriyasında törəmə xassələrinə malikdirlər.

**Nisbiliklər cəmi elə mütləqliklərdir. Hər bir mütləqlik özündə nisbiliyi əks etdirir. Nisbi olan zaman dəyişmə prosesində mütləqliklər yaranır. Deməli, nisbiliklərin özü də elə mütləqliklərdir.**

## Səbəb və nəticə

Makro sistem daxilində hər şey hərəkətdədir. Hərəkət də səbəbdən meydana gəlir və nəticələrin meydana gəlməsinin əsaslarını ortaya çıxarır. Səbəb də hərəkət edənin özüdür.

Kainatda ilk hərəkətin yaranması səbəbini müstəvinin nahamarlıq nöqtələrində axtarmaq lazımdır. Bu nahamarlıq da müstəvi üzrə elementlərin fərqindən, kəmiyyət fərqindən meydana gəlir. Səbəb təzahürdür, nəticə də təahürdür. Səbəb bir vəziyyətdir, nəticə də başqa bir vəziyyət. Deməli, səbəb və nəticə elə vəziyyət dəyişmələridir. Bu vəziyyət dəyişmələri də kəmiyyət və keyfiyət dəyişmələrində özünü göstərir. Səbəb və nəticə zamanı eleçentlər öz tərkiblərini ya azaldırlar, ya da çoxaldırlar. Bu anda ya forma, ya da məzmun dəyişmələri meydana gəlir.

Səbəb və nəticənin əsası kainat sistemidir və burada olan enerjidir, vahid qüvvədir. Səbəb və nəticə elementin özündədir və elementlər arasındakı əlaqələrdədir. Səbəb və nəticə bir-birini təkrar edən, ardıcıl olaraq tamamlayan qüvvədir və qüvvənin sayəsində meydana gələndir. Səbəb və nəticədən də sistemlər formalaşır. Səbəb və nəticələr inkarın əsasıdır. Bu da inkişafdır, törəmədir. Hər bir obyekt digər obyektlərin yaranmasında səbəb kimi əhəmiyyət kəsb edə bilər. Yəni obyektlər şaxələnmə xassələrinə malikdir. Bu da onların törəmə xassələrindən irəli gəlir. Enerji mənbəyi bütün hərəkətlərin səbəbidir. Enerji mənbəyinin özünün yaranması isə hərəkətlərdən meydana gəlir. Deməli, səbəb və nəticənin ilkin mütləq başlanğıcını olduğu şəkildə bilmək insanlar üçün mümkün deyil.

Səbəb və nəticə az kəmiyyətdən çox kəmiyyətə və ya da əksinə doğru proseslərlə müşahidə olunur. Bunun üçün sistem daxilində qısa yollar müəyyən edilir. Yəni azdan çoxun və yaxud da çoxdan azın əldə olunması üçün sistemin tərkibi araşdırılır və element birləşmələri arasında qısa yollar tapılır.

**Başlanğıc və son**

Kainatda başlanğıcın mütləqliyi var. Lakin onun müəyyən edilməsi və tam başlanğıcın bildirilməsi və mütləq hesab edilməsi əslində mövcud insan təfəkküründən uzaqdır. Bəzi

insanlar mütləq başlanğıcları söyləsələr də bir çoxları ona şübhə ilə yanaşırlar. Bu baxımdan insanlar yalnız nsibi başlanğıcı (özündə müəyyən mütləqliyi əks etdirən) müəyyən edə bilərlər. Hər bir şəxs bir elementi başlanğıc hesab edə bilər. Deməli, kainat heç də obyektiv universal əsaslarla hamıya tam bəlli deyildir. Kainat sirli aləmdir və onun mütləq başlanğıcını hər kəs bilə bilməz. Bu zaman insanlar öz normalarından, hədlərindən kənara çıxarlar.

Həm də kainatın başlanğıcı və nisbi sonu arasında bir bağlılıq  mövcuddur. Başlanğıc özündə həm də sonu bildirir. Bu, o deməkdir ki, bir proses özündə başlanğıc və sonları birləşdirir. Hər bir başlanğıc elə sonu, hər bir son da başlanğıcı özündə cəmləşdirir. Başlanğıclar və sonlar müxtəlif istiqamətlər üzrə şaxələnirlər. Bu baxımdan da kainatda təkrarlanan proseslər çoxluq təşkil edir. Belə güman etmək olar ki, kainat elə müəcərrəd və konkret müstəvi üzrə təkrarlanan proseslərdən ibarətdir. Kainatın müstəvisinin əsasını dairələr təşkil edir. Buna görə də başlanğı elə sonu, son da başlanğıcı ehtiva edir.

Mütləq başlanğıc şərtidir. Bununla bərabər, gümanla belə qəbul etmək olar ki, kainatda başlanğıc elə kosmik məkanın özüdür. Məkan elementlərinin müəyyən bir burulğanda cəmləşməsi isə ulduzları və bunlar da müstəvi ilə birlikdə tarazlığı meydana gətirir. Son nisbidir. Çünki çevrilmələrin sonudur. Çevrilmələrin sonu isə yeni elementlərin başlanğıcıdır. Təsirlər və toqquşmalar məsələsində bir hərəkətin sonu yeni hərəkətin başlanmasıdır. Deməli, hərəkətlər trayektoriyası vardır. Başlanğıclar nisbi hərəkətlərdə, yəni, sükunətlərdə mövcuddur. Sonluqlar da nisbi hərəkətlərin özündədir. Elementlə proseslər başlayır, elementlə proseslər sonluğu özündə əks etdirir.

Mütləq başlanğıc və sonluq canlı aləmdə özünü təsdiq etmiş olur. Bu anda forma və məzmun meydana gəlir, çevrilmələr sayəsində forma dəyişə-dəyişə sonda öz

mövcudluğunu itirir. Yeni başlanğıcın əsası qoyulur. Deməli, yaşamaq və ölüm iki ayrı başlanğıclardan və sonlardan ibarətdir. Ölümdən sonra çürümə proseslərinin trayektoriyası meydana gəlir və cisim torpağa, suya və havaya qarışır. Deməli, başlanğıc, yəni, anadan doğöulma təkrar sonluğa, həm də yeni başlanğıca aparıb çıxarır.

## Mütləq dəyişkənlik və nisbi hərəkətsizlik

Dəyişənlik mütləqdir. Çünki hər şey öz mövcudluğunu hərəkətdə təzahür etdirir. Dəyişkənlik olanda məkan da dəyişir, həcm və ölçü də dəyişir. Deməli, dəyişkənlik forma, məzmun, ölçü və kəmiyyətdə özünü göstərir.

Hərəkət olmasa, sistem, tərkib və bütöv, eləcə də qüvvə ola bilməz. Qüvvə əsasdır, dəyişkənliyin özüdür və kainatın vahidliyinin və qüvvələr dərəcəsinin əsaslarını təşkil edir. Nisbi hərəkətsizlik (həm də nisbi hərəkətlilik) isə sükunətdir, həm də hərəkətdir. Sükunətin mütləqliyi onun nisbi hərəkətindədir. Nisbi hərəkətsizlik qüvvələr dərəcəsinin azlığından irəli gəlir. Nisbi hərəkətsizlik dəyişmələrdə özünü təsdiq etdirmiş olur. Əslində hər şey mütləq hərəkətə bağlıdır. Sadəcə olaraq hərəkətin sürət baxımından dərəcələnməsi vardır. Vahid enerji (qüvvə) mənbəyindən çıxan enerjinin yayılması elementlərin hərəkət sürətinin məkanının meydana gıətirir. Deməli, məkanlar da dərəcələnir. Sürətli və sürətsiz məkan zonaları meydana gəlir. Dəyişkənlik və nisbi hərəkətsizlik özündə başlanğıc və sonları əks etdirir. Çünki başlanğıc və sonların özləri də elə hərəkətlərdə mövcud olur. Kainatda tam hərəkətsizlik olmadığından (belə bir ehtimal irəli sürmək olar ki, hərəkətszilik olarsa, alternativ kainata keçid ola bilər. Keçid də hətta belə elementlərdən ibarət olar. Deməli, tam hərəkətsizlik haqqında düşünmək düz olmaz. Bu anda kainatların dərəcələnməsi meydana gələ bilər. Hələlik bu

barədə fikir bildirmək düz olmaz) müstəvi dəyişkənliklə dolu olur, dəyişkənlikdən ibarət olur.

## Hərəkət və hərəkətsizlik

Hərəkəti ilk başlanğıcda yaradan kainat müstəvisinin qeyri-tarazlığıdır, müstəvi üzrə qeyri-kütlə bərabərliyidir. Kainatın bütün yerləri eyni kəmiyyətdə, sürətdə, hərəkətdə ola bilməz. Bu olarsa, yaranış ola bilməz. Yaranış əslində bir-birindən fərqlənən elementlərin hərəkətindən asılıdır. Dəyişən hərəkət sürəti hərəkətlər arasında bir-birini şərtləndirməni meydana gətirir. Hərəkət sürətinin dərəcələnməsi, yəni kiçik və böyük sürətlər amili elə fərqli və zəngin tərkibli hərəkətin meydana gəlməsinin əsaslarını yaradır. Qeyri-tarazlıq məkanında hamar müstəvi elementləri nahamar vəziyyətə keçirlər. Bu keçid hərəkətləri yaradır. Deməli, hərəkətlər çox və azın nisbətindən meydana gəlir. **Hərəkətlər məkan tutmaq uğrunda elementlərin mübarizəsdir, məkan dəyişməlıridir, koordinat dəyişmələridir**. (Nahamar müstəvidə elə Günəş və ulduzlar meydana gəlir). Nahamar müstəvidə hərəkətin cəzbetmə və itələmə əsasında meydana gəlməsi ortaya çıxır.

Meydana gələn hərəkətdən də qüvvə formalaşır. Deməli, kainat nisbi və mütləq hamarlardan və nahamarlardan təşkil olunub. Sürət də bu hamar və nisbi hamarlıqla öz həddini, tərkibini müəyyən edir. **Sürətin azalması əks təsirin çoxalması sayəsində baş verir. Sürtən elementin təsir kəmiyyəti sürtünən elementin təsir kəmiyyətindən aşağı olduqda hərəkət dayanır və az miqdara düşür.** Hərəkət elementlərin müəyyən müstəvi və istiqamətlər üzrə yerdəyişməsidir. Yerdəyişmə çox olduqda və yerdəyişən elementlərinn sayı çox olduqada təsir dərəcəsi də artır (digər elementlərə) və kəmiyyət çoxalır. Bu baxımdan da hər bir təsirin öz məkanı olur və təsir həddi meydana gəlir. Təsir məkanlarının da dərəcələnməsi baş verir.

Hərəkətsizlik isə sürətin azalmasıdır. Ümumiyyətlə, hərəkətdə olan kainat bütövünün daxilində, özündə tam hərəkətsizlik yoxdur. Ən kiçik sürət var və bu, ən kiçik bölünəndədir. **(Qeyd: kainatın ölçüsünün olmaması onun daxili və xarici anlayışını şübhəli edir. Kainatın xarici yox, yalnız daxili vardır. Kainatın xaricinin olması isə yeni kainatın –paralel kainatın olmasıdır. Bu barədə fikir bildirmək çox çətindir).** Element bölünür və ən kiçik hissəsi də hərəkətdə olur. Deməli, tam hərəkətsizlik yoxdur. Kainatda hərəkət dəyişmələri müstəvi dəyişmələrinə (mikromüstəvilərin yaranması və cəm halda böyük müstəviyə keçməsi) səbəb olur. Müstəvi dəyişmələrini də hərəkətdə olan elementlər meydana gətirir. Sükunət, hərəkətsizlik daha çox hiss olunmayan hərəkətdir. Əgər hisslər (insan duyğuları) tərkib hissələrə parçalansa, onda dayanan cismin hərəkətlərini də hiss edə bilər. Daima hərəkət edən Yer üzərində hər hansısa bir elementin tam hərəkətsizliyinin olması mücərrəddir. Hər bir element hərəkətdə olarkən digər eleçentlərlə təmasda olur və ondan qidalanır. Məsələn,Günəş enerjisi və atmosfer Yer kürəsinin qidalanmasının əsaslarını təşkil edir.

## Tərkib və bütöv

Tərkib və bütöv əslində ümumkainat sistemində bütöv kainatın (qalaktikalar və fəzanın) özüdür və onun tərkibidir. Bütöv şərti və təqribi maksimumdur, tərkib isə maksimumu yaradandır. Əgər kainat sərhədləri yoxdursa, onda, belə qənaətə gələ bilərik ki, bütövün də son sərhədləri yoxdur. Bütöv sərhədləri şərtidir və məkan baxımından həm də mütləqdir. İmkanlar daxilində bütövü və tərkibi axtarmaq olar. Eyni zamanda şərti bütövü və tərkibi yaratmaq olur. İnsanlar öz əqli və fiziki qabiliyyətləri sayəsində yeni bütövləri meydana gətirirlər. Bu bütövlər həm də şərti olaraq tərkib hissələrə çevrilirlər. Bütövlərin tam maksimal sərhədləri olmadığından

əldə edilən bütövlər makrobütövlərin sadəcə olaraq tərkib hissələri kimi çıxış edirlər. İnsanların yaratdıqları bütövlər makrobütövün tərkibində olur və onun tərkibini təkrar edir. İnsanların yaratdıqları əslində bütöv tərkibinin yeni formaya çevrilməsidir. İnsanlar kainat bütövünün içərisində mövcud olan elementlərdən sadəcə olaraq öz istəklərinə uyğun bütövlərin formalaşmasını təmin edə bilirlər. Buradan da belə məntiqi nəticələrə gəlinir ki, insanlar təbii quruluşların davamıdır və təbii quruluşların surətini az dərəcədə yarada biləndirlər. İnsanlar yalnız təbiət elementlərindən istifadə edərək bütövlərin formalaşmasını təşkil edə bilirlər. Buradan da belə nəticələrə gəlinir ki, insanlar mikroqurluşlardır və öz daxillərində kainatın əsasını cəmləşdirirlər.

Hər bir tərkib və bütövün obyekti mövcuddur. Bu baxımdan da dəyişən sistemlər məkanında tərkib və bütövlər formalaşmış olur. Hər bir bütöv əslində həm də tərkibdir. Tərkiblərin məzmunu elə bütövlərin məzmununun meyudana gəlməsinin əsaslarını yaradır. Tərkib və bütövün olması əsasən müqayisələr əsasında meydana gəlir. Müqayisə obyektləri və subyektləri tərkib və bütövün ayırd edilməsində əsas rol oynayır. Burada etalon kimi, həm də müəyyənedici kriteriyalar olaraq məkan, müstəvi və məkanda norma, bu baxımdan ölçü, dəyər mühüm rol oynayır. Hər bir tərkib və bütöv hissələrə parçalana bilir. Bu baxımdan da dəyişən tərkiblər və bütövlər mövcuddur.

Qeyd olunduğu kimi, tərkib və bütövü müəyyən edən həm fərqlərdir, həm də miqdardır (kəmiyyətdir). Yəni elementlərin müəyyən məkan tutumudur, həcmidir. Tərkib hissə və bütöv nəzərdə tutulan sistemin əsasıdır. Sistemin təsiri və qüvvəsi onun tərkib hissələrinin birlikdə, bütöv halda hərəkətə gətirilməsidir. Tərkib hissələrin müəyyən təyinatı sistemlərin (struktur və yarımstrukturların) əmələ gəlməsinin əsaslarını yaradır. Sistemlər də dərəcələnə bilir.

**Müsbət və mənfi (pozitivlik və neqativlik)**

Müsbət və mənfi elə enerji və "enerjisizlikdir". Müsbət və mənfi anlayışları enerjinin nisbətində meydana gələn anlayışlardır. Bu, həm də aşağı və yuxarı, enerji mənbəyinə yaxınlıq və uzaqlıq məsələsidir. Müsbət və mənfiyə keçidlər şərti və təqribi sıfır başlanğıcından edilir. Bu başlanğıc nöqtəsindən varlığa və "yoxluğa" (burada azalmağa və artmağa doğru) keçidlər edilir. Müsbət və mənfi elementlərin həcminin artıb-azalması, eləcə də sürətin və enerjinin, həm də qüvvənin artıb-azalması müsbət və mənfinin meydana gəlməsinin əsaslarını yaradır. Mənfilik neqativlikdir və onun artması azalma ilə düz mütənasibdir. Azalma prosesləri hadisələri sola və aşağıya doğru aparır. Azalma (müsbətin azalması) baş verdikdə çoxalma artır, yəni mənfinin əhatə etdiyi sahələr artır. Bu o deməkdir ki, Günəşdən uzaqlaşdıqca enerji də azalır.

Müsbət elementlər sürətdən, kəmiyyətdən və qüvvədən yaranır. Müsbət dəyişmələrdə və hərəkətlərdə meydana gəlir. Nisbi mənfinin (mənfi müstəvidəki elementlərin) hərəkətə gətirilməsi elə müsbətdir, müsbətin artmasıdır. Hərəkət artdıqca müsbət də artır. Müsbətin son həddi (maksimal həddi) forma və məzmun dəyişməsidir. Bu, kainat müstəvisində tədricən mənfiyə keçmədir. Mənfinin artması da müsbətə keçiddir. Belə güman etmək (ehtimal etmək) olar ki, təbiətdə su mənfi halda buza, sonra isə daşa çevrilə bilər. **(Qeyd: buzu hərəkət etdirməklə, formasını nisbi hərəkətsiz vəziyyətdə dayandığına nisbətən olduğu vəziyyətdən başqa vəziyyətə keçirmək olar, yəni ərtimək olar).** Daşdan sonrakı çevrilmənin od olması qənaətinə gəlmək olar. Ya da sonda enerji zəifliyi parçalanmasdır, bu da yeni enerji müstəvisinə keçmədir.

Kainat müstəvisində mənfinin sonu müsbətdir, enerji mənbəyidir. Müsbətin sonu isə mənfidir, nisbi hərəkətsizlikdir. Müsbətlik enerjidir. Enerjinin yuxarı həddi isə enerjisizlikdir.

Enerji olan yerdə sürət olur, sürət də olan yerdə enerji və qüvvə yaranır. Qüvvənin kəmiyyətinin, yəni miqdarının artması elementin kəmiyyətindən (cəmləşmədən) və kəmiyyətin bütöv halda hərəkətə gətirilməsindən asılıdır. Mənfilik soyuqdur, qaranlıqdır. Müsbət isə istilik və işıqlıqdır.

Hər iki amil kainat sisteminin və bütövlüyünün əsası olduğundan insanlarda cəmləşə bilir. Tarazlı (müdrik) insanlarda müsbət və mənfinin nisbəti yaxşı mənada formalaşmışdır. Bu da mütləq olmaqla bərabər, nisbidir. Tarazlığın dəyişməsi var və bu da enerji nisbətinin dəyişməsidir. Enerji nisbətinin dəyişməsi isə xassə dəyişməsinə səbəb olur. Enerjinin artıb-azalması dəyişkənliyin əsaslarını meydana gətirmiş olur.

Ümumiyyətlə, kainatda sərhədlənən müsbət və mənfi var. Bu da onların şərti məzmununu, mütləq və nisbi mahiyyətini üzərə çıxarır.

### Uzaq və yaxın məsafə

Kainatda bir nöqtə digərinə bitişik ola bilir və ondan lap uzaqda yerləşir. Kainat elə ən kiçik, elementar nöqtələrdən (kvarklardan) təşkil olunub. Bu nöqtələrin səpələnməsi və hər birinin tutumu cəmi ümumilikdə müstəvini yaradır. Nöqtələr o qədər çoxdur ki, kainatda yaxın və uzaq, ən uzaq, sonsuz uzaq məsafə anlayışı meydana gəlir. (**Kvarkların toplanması materiyaların hallarını yaradır. Materiyaların halları da onlara təsir edən qüvvənin kəmiyyətindən asılı olur)**. Uzaq nöqtəni yaxından fərqləndirən elə onlar arasındakı nöqtələr olur. Deməli, nöqtələr cəmi və kütləsi onların yaxın və uzaqlığının formalaşmasının əsaslarını meydana gətirir. Məsafənin yaxınlığı ilə uzaqlığı arasında olan görünən müstəvini aralıq elementlər təşkil edir. Bu elementlər də əks olunur. Əks olunma yaxın və uzaq şərti elementin məsafə

amilini meydana gətirir. Ümumi müstəvinin əlamətləri bir nöqtənin digər nöqtədən uzaq və yaxın olmasını şərtləndirir.

Uzaq və yaxın məsafənin müəyyən edilməsi koordinatdan asılıdır. Bu da zaman və sürətə, daha doğrusu isə enerjiyə bağlıdır. Yəni ümumiyyətlə, məkan özü elementdirsə, məkanı müəyyən etmək elə enerji mənbəyindən və enerjinin dərəcələnməsindən asılıdır. Məkanın uzaq və yaxınlığı mərkəzi enerjidən çox asılıdır. **Məsafə dedikdə, əsasən müəyyən ölçülər daxilində yığılmış elementlərin eninə, uzununa, yuxarıya və aşağıya düzülməsi kimi başa düşülə bilər.** Burada müstəvi üzrə nə qədər çox element düzülməsi olarsa, bir o qədər məsafə böyük olar, müstəvi geniş olar. Kainat bütöv bir sistemdir. Kainatda uzaqlıq və yaxınlığı müəyyən edən mərkəzi element, subyekt və obyekt kimi istənilən dayaq element (göy cisimləri)  rol oynaya bilər. Məsafənin sürətlə müəyyən olunmasının əsası enerji mənbəyinə bağlıdır.

Bir nöqtənin digərindən uzaqlaşdırılması əsasən məkan uğrunda mübarizə sayəsində baş verir. Məsələn, dənizdə bir nöqtədə olan su hərəkət sayəsində başqa nöqtəyə keçir.

## Sübutlar və faktlar

Sübutlar və faktlar elementlər və onların xasələrindədir. Sübutlar əlamətlərə görədir. Əlamətlər elə rənglərdir ki, bu da özlüyündə faktlardır. Faktlar əsasən gözlə görünən, hiss olunan, duyulan şeylərdir, hadisələrdir. Faktlar da məkanlara bölünür. Yəni hər bir məkanın öz faktı, sübutu mövcuddur. Məkan özü ilk baxışda elementin təzahürüdür, buna görə də ilk fakt elə elementin özü hesab olunmalıdır. Elementlərin hərəkəti isə hərəkətin sübut və faktlarını meydana gətirir. Sübutlar arasında şərtləndirici əlaqələr vardır. Bu da qüvvə və sürətə, hərəkətə bağlıdır. Element elementin hərəkətini şərtləndirir. Bütün hərəkətlərdə və qüvvədə nahamar müstəvi böyük rol oynayır. Nahamarlıq da hərəkətin, yerdəyişmənin əsasını təşkil

edir. Hər bir hərəkətin əsasını elementlərin yerdəyişməsi təşkil edir. Elementlərin yerdəyişməsi isə sübutlar və faktlar arasında əlaqələrin yaranmasının əsasını meydana gətirir. Sübutlar faktlarda mövcud olur və faktların aşkarlanmasında təkanverici rolu oynayır. Bu zaman, hərəkət zamanı hərəkətə gətirənin özü də aşkarlanır. Deməli, hərəkətə təkan vermə elə aşkarlanmanın, qeyri-müəyyənliyin müəyyənliyə çevrilməsinin əsaslarını meydana gətirmiş olur.

**Nəzəriyyə və təcrübə**

Nəzəriyyə ideallıqdır, daha çox düşüncələrin məhsuludur. Nəzəriyyə düşüncələri qabaqladığından həm də gələcək reallığın əsaslarını təşkil edir. Nəzəriyyə pozitiv yolların müəyyən olunmasıdır; çünki faydalılıq da burada mövcuddur. Nəzəriyyə müəyyən yolların, kompleks istiqamətlərin baxışlarda və düşüncələrdə əks olunmasıdır. Lakin nəzəriyyə birbaşa ideallıqdan asılı ola bilməz; çünki ideallıq elə əslində reallıqdan meydana gələndir. Nəzəri fikirlərin bildirilməsi insanlara xasdır ki, bu da özlüyündə material-maddi aləmə bağlıdır. Nəzəriyyə material-maddi aləmə edilə biləcək təsir yollarının özüdür. Nəzəriyyə öyrənmənin, xassələri bildirmənin üsuludur.

Təcrübə isə reallıqdır. İdeallığın material aləmdə tətbiqi təcrübəni yaradır, təcrübə də reallığın əsaslarını təşkil edir. Lakin bu o demək deyil ki, ideallıq təcrübələrə bağlı olmur. Təcrübələr və nəzəriyyələr hərəkətlərdən meydana gəlir. Bütün təbiət hadisələri bir nəzəriyyə və təcrübədir. Deməli, nəzəriyyə və təcrübə təbiətdən və fövqəltəbiətdən (təbiət də fövqəltəbiətə bağlıdır, ona tabedir, çünki qüvvələr dərəcəsi var) irəli gələndir. Nəzəri fikir bildirmək insanların təbii qabiliyyətləridir. Təcrübə praktiki əməllərdə (insan əməllərində) özünü göstərir. Bundan da ideallıq və nəzəriyyə meydana gəlir. Nəzəriyyə görünən əlamətlərə, hiss olunan və

duyulan əlamətlərə görə ortaya çıxandır, nəzəri fikirdir. Təcrübədən də nəzəriyyənin meydana gəlməsi prosesləri yaşanır. Nəzəriyyənin material aləmə və mənəvi-maddi aləmə tətbiqi təcrübənin əsaslarını ortaya çıxarır. Nəzəriyyə və təcrübə subyektiv əsaslara malik olmaqla bərabər, obyektiv əsasları da özündə əks etdirir. Hər bir şəxsin, fərdin fikirləri subyektivdir. Digər şəxslər tərəfindən qəbul edilən fikirlər obyektiv əsaslara malik olur.

### Obyektivlik və subyektivlik

Obyektivlik obyektə olduğu şəkildə unversal münasibətdir. **(Qeyd: burada olduğu şəkildə dedikdə, burada nisbi mütləq görüntünün əlamətləri nəzərdə tutulur. Tam mütləqlik ola bilməz və hər şey tam mütləq kimi qəbul edilə bilməz; çünki hər şey təbiətin hərəkət qanunlarına tabedir. Hərəkət də baxışların (obyektlərə olan münasibət və möqelərin) dəyişməsinə və inkişafına səbəb olur. Hərəkət mürəkkəb olduğundan və müxtəlif istiqamətli və şəbəkəli olduğundan təsirlər də kompleks xarakterli olur. Deməli, təsirlərin hər birini bir şəxs dəyərləndirə bilməz. Təsirlərin müəyyən olunması çoxistiqamətliliyi meydana gətirir. Buradan da universallıq və fərdilik məsələsi ortaya çıxır. Universal yanaşmalar oxşarlıqlar və nisbi eyniliklərin, fərdi yanaşmalar isə fərdi xüsusiyyətlərin əsasıdır).** Obyektin olduğu şəkil (onun görünüşü, hiss orqanları ilə duyulması) isə onun forma və məzmunundan ibarət olan təzahürüdür, aşkarlığı və gerçəkliyidir. Obyektivlik müəyyən-mütləq obyektə olduğu şəkildə, yəni, insanlara verilən qabiliyyətlər və istedadlar çərçivəsində və bunlardan istifadə edərək yaxından yanaşmadır. Deməli. Obyektivlik elə obyektlərə yaxınlıqdır. Bu, obyektiv (yəni başqalarının da qəbul etdiyi əsaslarla) və subyektiv (fərdi yaxınlıq prinsipi üzrə dəyərləndirmə) ola bilər.

Universallıq prinsipi isə obyektin universal əsaslarını universal dəyərlər, universal kriteriyalar əsasında izah etməkdən ibarətdir. Universal dəyərlər universal və komplekslilik əsasları ilə formalaşır. Universallıqda daha çox kriteriyalar, daha çox koordinatlar, nöqtələr çoxlarına aşkar olunur. Burada obyektin universal xassəsi elə universal qəbul etmənin prinsiplərindən formalaşır. Yəni insanlar hər şeyi universal və mütləq-nisbi standartlar (standartların müəyyən olunması da müəyyən ortalıq kriteriyalarından asılıdır) üzrə qəbul edə bilirlər. Tam mütləq qəbul etmə qabiliyyəti nisbidir və sadəcə olaraq bir şəxs digərindən az və ya da çox dərəcədə nəyi isə qəbul edə bilər. Universal qəbul tam mütləq ola bilməz. Yəni insanlar bir qayda olaraq hər bir obyekti olduğu kimi xarakerizə edə bilməzlər. Burada tam real əsasların insanların düşüncələrindən kənara çıxması halları da meydana gələ bilər. Lakin xarakterizənin oxşarlıqları, uyğunluqları ola bilər ki, bu da universallıq **(obyektin universal görünüşünü elə ümumi kriteriyalarlar əsasında əks etdirmədən)** insanların universal, yəni, oxşar və eyni prinsiplərindən meydana gəlir. İnsanlar oxşar xüsusiyyətləri özlərində cəmləşdirirlər və buna görə də bir obyektə oxşar əsaslarla yanaşırlar. Buradan da belə nəticələrə gəlmək olur ki, insanlar elə universal kriteriyalardan və bunların daxilində olan məxsusi kriteriyalardan, komponentlərdən meydana gəliblər. Yalnız riyazi məsələlərdə **(ədədi hesablama metodlarında tam mütləqlik var. Burada bölgü, vurma, toplama və çıxma əsasında tərkib və bütöv əldə oluna bilir. Burada olan mütləqlik universal mütləqlikdir, yəni hər bir şəxsin təfəkkürü hissələrə parçalanır və hissələrdən bütövü əmələ gətirir)** və təbiətin mexaniki qanunlarında, eləcə də universal insani prinsiplərin qəbul olunmasında müəyyən eyniliklər və oxşarlıqlar ola bilər və bunlar mütləqə çevrilə bilər. İnsan düşüncələrinin dəyişkən əsasları (obyektlərin dəyişməsi, obyektlərin tərkibinin dəyişməsi, düçüncələrin tərkib

hissələrdən ibarət olması, obyektin hər bir məxsusi və universal xassəsini əks etdirməsi və s.) obyektivliyin subyektivliyə və yaxud da əksinə keçməsinin əsaslarını meydana gətirmiş olur. Obyektivlik və subyektivlik universal və fərdi (məxsusi) mənsubiyyəti özündə əks etdirir. Obyektivlik və subyektivlik düşüncələri və əməli müəyyən obyektlərə bağlı edir və material və mənəvi aləm üzərində mənsubiyyəti, məxsusluğu meydana gətirir. Ümumiyyətlə, nəzəri obeyektivlik, praktiki obyektivlik mövcuddur. Subyektivliyi və obyektivliyi birləşdirən əsas amil isə təcrübədir. Təcrübə yaxınlaşmanın əsaslarını yaradır, subyektləri müəyyən kriteriyalar ətrafında cəmləşdirir və buradan da universallıq meydana gəlir. Universallıq obyekltivliyə daha çox yaxın olur. Fərdlilik isə subyektivliyin əsasını təşkiol edir. Lakin onu da qeyd etmək yerinə düşər ki, subyektivliyin cəmi elə obyektivliyin yaranmasını və onun təkibininn dəyişməsinin əsaslarını meydana gətirir.

Subyektivlik obyektə fərdi (şəxsi) münasibətdir. Bu münasibətin ifadə oluinması elə obyektin fərdi məxsusluğunu ortaya çıxarır. Obyektivlik obyektlərdən universal qaydada istifadənin əsaslarını meydana gətirir. Obyektivlik həm də subyektivliyin cəmidir. Obyektivlik təbiətdə olandır. Subyektivlik də əslində təbiətdə olandır. Yəni təbiətdən kənar mövcudluq ola bilməz. (Bu olarsa, insanların gözünə görünən və görünməyən məxluqlara bölünə bilər). Subyektivlik təbiətdə olanlara fərdi münasibətdir və fərdi əlaqədir. Subyektivliyi də obyektivlikdən ayrı düşünmək tam düzgün olmaz. Belə ki, subyektivlik elə obyektivliyin tərkibidir. Obyektivliyin də yuxarı təkmil həddi elə subyektivlikdir. Yəni kollektiv fərdə çevrilirsə, onda obyektivlik də subyektivliyə çevrilə bilir. Subyektivlik subyekt tərəfindən qeyri-müəyyənliyin (aşkar olunmayan obyektivliyin, ya da məhdud həcmdə və sayda aşkar olunan obyektivliyin) obyektivliyə, universal nəzəri və təcrübi əsaslara çevrilməsidir. Subyektivlik obyektlərin fərdi (şəxsi) qaydada müəyyənliyə çevrilməsidir. Subyektivliyin

digərləri üçün inandırılması, yəni, nəzəri fikirlərin universallaşması obyektivliyin meydana gəlməsinin əsaslarını yaradır. Geniş tərkibi etibarilə müəyyən olunmuş subyektivlik əslində obyektivliyin ortaya çıxmasının əsaslarını yaradır. Subyektivlik obyektivliyin davamıdır və onu tamamlanmasının əsaslarını meydana gətirir. **Subyektivlik obyektivliyin həm “aşağı” –alt və ilkin formasıdır, yəni ilkin aşkarlanma formasıdır, həm də “yuxarı”-üst, təkmil formasıdır.**

Qeyri-müəyyənliklər də obyektivlikdir. Deməli, obyektivlik daha çoxdur, sonsuzdur. Mütləq obyektivlik müəyyən olunan obyektivlikdir.

Obyektivlik daha çox ədalətli olmadır. Ədalət isə bərabərlikdir, həm də daha çox aşkarlıqdır. Deməli, obyektivlik ədalətdir. Subyektivlik də ədalətdir, lakin bir qism tərəfindən qəbul edilən ədalətdir. Bu, obyektivliyə zidd deyil, bu baxımdan da aşkar olunduqca ədalətə daha çox çevriləndir.

## Aşkarlıq və gizlilik

Aşkarlıq müəyyən olandır, üzdə olandır. Aşkarlıq zamanı müəyyən məkanı tutan varlığın çox əlamətləri üzərə çıxır, obyekt aydınlaşır. Lakin tam aşkarlıq yoxdur; çünki elementlər kainat bütövünün tərkibindədir. Aydınlaşma elementlərin effektində və görünüşündə (müəyyən məkanlar üzrə) hissi olunmasında özünü göstərir. Aşkarlıq müəyyən olandır və qəbul ediləndir. Aşkarlıq eyni zamanda qəbul edilməyə bilər. İnkar olunan aşkarlıq vardır ki, bu da müəyyənliyin yenidən baxılmasıdır. Aşkarlıq axtaran obyekt üçün müəyyən məkanda üzə çıxandır. Aşkar olan elementdir, elementin böyüklüyü və kiçikliyidir, forma və məzmundur, həmçinin məkanın, müstəvinin özünün müəyyən olunmasıdır.

Gizlilik isə qeyri-müəyyən olandır. Mütləq məkanın aşkar olunmamasıdır, görünməməsidir və hiss olunmamadıdır. Hər ikisi müəyyən məkanlarda və elementlərə münasibətdə

mütləqdir. Yəni hər şey bir məkanda gizli və aşkar oluna bilməz. Lakin böyük bir məkanda demək olar ki, bütün digər məkanların əlamətləri mövcuddur. Bu, o deməkdir ki, kainatın böyük bir məkanında digər məkanının əlamətləri mövcuddur. Məsələn, Yer kürəsində kainatın demək olar ki, bütün əlamətləri cəmləşibidir. Bu, olmasa Yer kürəsi tərkib ola bilməz. Deməli, hər bir tərkib tam ayrı olmur (tam fərqli deyil, xüsusilə eyni sistemlər daxilində olan tərkiblər) və tərkibləri birləşdirən mütləq ümumi kriteriyalar mövcuddur. Aşkarlığın axtarılması gizliliyin müəyyən olunmasıdır. Gizli olan şeylər naməlumdur, lakin gizliliyin bir çox əlamətləri aşkarlıqda özünü göstərir. Deməli, kainatda bütün şeylər sistemləşibdir, sistemin tərkibidir.

## Fakt və güman, fərziyyə, təxmin, ehtimal

Faktlar, qeyd olunduğu kimi, aşkar olunan və müəyyən olunan sübutlardır. Lakin müəyyən olunmayan elementlər və hadisələr də faktlardır, bu faktlar aşkarlanmamış sübutlardır. Fərziyə (güman, ehtimal) faktların əsaslandırılmasına xidmət edir. Fərziyyə də görünə bilməyən faktların bir çox əlamətlərinin əsaslanmasına xidmət edir. Fərziyyənin söylənməsi əlamətlərsiz qeyri-mümkündür. Bu baxımdan insanlar ona görə fərziyyə irəli sürürlər ki, onların əlamətlərini görürlər. Əlamətləri görünməyən və insanlarda cəmləşməyən, siqnalları olmayan şeylər haqqında faktların bildirilməsi qeyri-mümkündür. Deməli, insan mikrokainatdır və buna görə də sirlərə tədricən bələd olmaq qabiliyyətinə malikdir.

Aşkarlıqıların çoxalması (faktların tapılması) gümanların sayının azalmasına xidmət edir. Lakin kainatda güman hesab edilən faktların sayı aşkar olunan və sübut rolunu oynayan faktların sayından sonsuz dərəcədə çoxdur. Deyilənlərdən belə nəticələr ortaya çıxır ki, aşkar mütləqliklər və aşkar olunmayan mütləqliklər vardır. Birinciləri müəyyən məsələlərdə faktlar və

sübutlardır, ikinciləri isə gümanlar və fərziyyələrdir. Gümanlar və fərziyyələr, gizli olan şeylər haqqında təxminlər bildirilir. Təxminlərin dəqiqliyə və mütləq aşkarlığa çevrilməsi üçün isə elementlərin yaxınlaşdırılması zərurəti meydana gəlir. Deməli, yaxınlıq aşkar olan faktlar və sübutlardır, uzaqlıqlar isə faktlar və sübutlar olsalar da əslində, aşkar olunmayan faktlar və sübutlardır. Sübutların artması isə elementlər müstəvisində gəzmənin, səyahətin artması ilə əlaqəlidir. Kainatda fərziyyələr, təxminlər, gümanlar və beləliklə, qeyri-müəyyənliklər yoxdur, hər şey faktlardan ibarətdir, sübutlar zənciri mövcuddur.

## Enerji və enerjisizlik

Enerji hərəkət, sürət və bundan yaranan istilikdir, parıltıdır, yəni, işıqlanmadır, səsdir (ümumiyyətlə, səs toqquşmadan və sürtünmədən meydana gəlir. Buna görə də Günəş elə toqquşmanın və sürtünmənin nəticəsidir, təzahürüdür), təsir yaradandır, bu baxımdan forma və məzmun dəyişəndir. Enerjinin tətbiqi sayəsində elementlərin tərkibi dəyişə bilir. Xassələri dəyişir. **(Elementlər Günəş adlandırdığımız məkanda qarşılaşır, sürətli qarşılaşmadan elə parılt və sıçrayış meydana gəlir. Günəşin kütləsi bu toqquşmalardan meydana gələn sıçrayışın kütləsidir. Sıçrayışın kənar hissələri planetlərə gedib çıxır. Enerjini yaradan səbəb elə müstəvinin müəyyən yerlərdə nahamarlığıdır ki, bu məkanlarda da enerji axını –elementlərin hərəkəti- mövcud olur).** Enerjinin mənbəyi isə zəif enerjisizlikdir. Yəni kainatda enerji (məsələn, Günəş və planetlərin hərəkətindən meydana gələn enerji) elə kosmik fəzanın özündən yaranır və kosmik fəzanı da hərəkətə gətirir (planetlərin və Günəşin sistemli hərəkəti və zəncirvari əlaqəsi kosmik fəzanın enerji müstəvisini və aləmini yaradır), ona enerji verir.

Günəş və hərəkətdə olan digər ulduzlar, planetlər ətrafında olan kosmik fəza daha hərəkətlidir. Burada enerji çoxdur. Enerjinin çox olduğuy yerdə tarazlıq pozularsa, yeni səma cisimləri (buraka bərk materiyalar nəzərdə tutulur) meydana gələ bilər. Günəşin özünün "sönməsi" elə bərk və yumşaq (maye) materiyanı (qaya və suyu) yarada bilər. Burada qaz halına da çevrilmə prosesləri gedə bilər. Bu baxımdan da planetlərin "sönən" Günəşlərdən (Günəş parçalarından) meydana gələn bərk materiya və qaz halında olan materiyadan yaranması ehtimalı da ortaya çıxa bilər. Günəşdən uzaqlaşan (onun tərkibindən qopan) alovun qaza və bərk materiyaya çevrilməsi halları mümkün ola bilər və planetlər yarana bilər. Günəşdən qopan materiyaları (ehtimal ki, Günəşin tərkibini) Günəş özündən uzaqlaşdırıb, ya da digər bir sistem Günəşi parçalayıb və onun hissələrini ondan uzaqlaşdırıb. Bu uzaqlaşma sayəsində planetlərin üst qatlarının alovu soyuyub, daxili enerjiləri (əsas mənbələri-nevələri) isə qalıb. Bu daxili enerji üst bərkimiş hissə ilə bütöv yaradıbdır və Günəş onları öz ətrafında saxlayıb. Ya da kənar sistemin itələməsi sayəsində Günəşdən qopan planetlər onun ətrafında qalaraq dövr etməyə başlayıblar.

Uzaq məkanlar isə nisbətən zəifdir. Burada enerji zəifdir və demək olar ki, güclü enerjinin azalması prosesləri meydana gələ bilər. Enerji mərkəzindən uzaqda yerləşən məkanları sıx məkanlar hesab etmək olar. Burada sıxlıq soyuqluqdan meydana gələ bilər. Bu baxımdan da elementlərin birləşməsi halı yaxın yerlərə nisbətən sıx ola bilər. Məcazi mənada belə bir fikir bildirmək olar ki, Günəşi həmin soyuq məkana tullasaq onda, həmin məkanlar enerjili məkanlar ola bilər. Ya da bu soyuq yerdə soyuyar və planetə çevrilər. Günəş o halda planetə çevrilər ki, soyuq yerin kütləsi Günəşinkindən lap çox olsun. Onda belə bir qənatə gəlmək olar ki, Günəş planetlərsiz ola bilməz, planetlərin ondan ayrılması Günəşin sönməsinə və planetlərə çevrilməsinə səbəb ola bilər. Enerji mənbəyindən

uzaq zəif yerlərdə hərəkətin zəifliyi hərəkətin ən yüksək həddini, yəni enerji mənbəyinə yaxın sferaları qorumaq üçündür ki, bu da nizamın əsasıdır. Nizam əslində pozitiv və neqativ üzərində meydana gəlir. Günəş sistemlərinin sərhədlərində neqativlər var və bu neqativlər getdikcə pozitivliklərlə əvəz olunur. Deməli, planetlər və Günəş əslində kosmik fəzaya tabedirlər və kosmik fəza müstəvisi onların hərəkətini sabitləşdirir. Əks halda planetlər və Günəş xaotik əlaqələr vəziyyətində olardı və ümumiyyətlə isə nizam yaranmazdı. Buradan da belə bir qənaətə gəlmək olar ki, kainat tarazlı sistemə tabedir, tarazlığı yaradandır və bu tarazlıq kainatın nizamının əsasıdır, mahiyyətidir.

Enerjisizlik isə nisbətən qaranlıqlaşmadır, nisbi enerjisizlikdir, enerji kəmiyyətinin aşağı olmasıdır. Tam enerjisizlik isə yoxdur; çünki bu halda element və kainat, qüvvə ola bilməz. Deməli, enerji element hərəkəti üzərində qurulan bir təzahürdür, həm də daxili məzmundur.

### İşıq və qaranlıq (nisbi işıqsızlıq)

Kainat işıqlardan və qaranlıqlardan ibarətdir. Hər iki halda və onların arası olan müstəvidə (bu müstəvi işıq və qaranlığı dərəcələndirir, məkan və qüvvə dəyişdikcə, mənbədən uzaqlaşıb-yaxınlaşdıqca qaranlıq və işıq də nisbi olaraq yerini dəyişir) qaranlıqlaşma və işıqlanma enerji dərəcələnməsindən meydana gəlir. Qaranlıq enerjinin nisbi yoxluğudur. Qaranlıq tam yoxluq demək deyil, çünki rənglərdən ibarətdir. Qaranlığın həddən artıq çoxluğu partlayışdır, forma və məzmun dəyişməsidir. Məsələn, belə təsəvvür edək ki, Yer planetini Günəşdən çox uzaqlaşdırdıqca, onun enerjisi də azalmağa doğru getməlidir. Bu, baş verən halda Yerin öz dağılmağa, tərkibini dəyişməyə doğru gedər. Burada Yer kürəsi partlaya da bilər. Çünki strukturu enerjisizlikdən (yəni çox azalmış enerjidən) dağıla bilər. Günəşdən qəflətən uzaqlaşma Yer

kürəsinin partlamasına və dağılmasına, tərkib hissəciklərə bölünməsinə aparıb çıxara bilər. Yerin tərkibində mərkəzində Yerə enerji verən nüvə olmasa, həddən artıq qaranlıq yaşanar ki, bu da Yeri olmaması demək olar. Deməli, hər bir qaranlıq müstəvisi mütləq qaydada işıqla bağlıdır ki, işıq da hərəkətin saçmasından yaranan əlamətdir. Enerji olmasa, heç bir materiya ola bilməz. Yer planetinin daxili nüvəsi Günəş və kosmik fəza ilə əlaqəlidir. Burada müsbət və mənfi (enerji və şərti enerjisizlik) əvəzləmələri vardır. Yer planetinin daxili qaranlığı onun mərkəzində işıqla əvəz olunur. Bu olmasa, bərk sistem və struktur da ola bilməz. Eləcə də istənilən bir şeyin üzərini qat-qat enerji buraxmayan ortqklərlə örtməklə, həmin şeyi enerjidən azad olmağa sürükləmək olar ki, bu da qaranlıqda qalan şeyin strukturunun dağılmasına gətirib çıxara bilər. Bu baxımdan qaranlıqda çox qalmaq, gün işığında çox qalmaq, içəridə çox oturmaq, havada çox gəzmək olmaz. Bu halda qeyri-tarazlıq yarana bilər. Məsələn, lap çox qaranlıqda olmaq insanı tez qocaldar (enerji çatışmazlığına görə), çünki enerji azlığından strukturunu dağıda bilər, xəstəliklər çox olar. Çox gündə olmaq da insanı enerjisizləşdirər, kobudlaşdırar. Qaranlıqlar və çox işıqda olmalar xəstəliklərdir, vitamin çatışmazlıqlarıdır, xasiyyət kobudluqlarıdır. Xəstəliklərin mənbəyi və zəifləmələrdir. Çox paltarda olmaq da düzgün deyil və bu da xəsətlənmələrin mənbəyidir. Çünki ətraf aləmdən enerji qəbulu azlığının əsasıdır. Enerjinin azlığı elə xasiyyətin kobudlaşmasına, simanın kobudlaşmasına gətirib çıxara bilər.

İnsanları və digər canlıları lap dərin və qaranlıq quyuya sallamaqla orqanizmi partlatmaq, bir anda parçalamaq olar. Çünki daxili enerji xarici enerji ilə təmasını itirdikdə struktur dağılır. Daxili müsbət xarici müsbətlə bir-birini tarazlamalıdır. **(Qeyd:** lap dərinliklərdə olan su ağır su ola bilər, çünki atmosfer və Günəşdən uzaqda mənbəyə malikdir. Təbii ki, bu su ağır olduğuna görə də çox oksigenlidir. Günəşə çıxanda isə

yüngülləşə bilər. Dağlardan gələn su, dağlı torpaqdan gələn su Günəş işığı ilə  sintez olunur və tərkibini yüngülləşdirir. Bu baxımdan da Günəşin düşdüyü dağlardan axan su daha da faydalıdır. Bu suyun tərkibi ağır olmur. Meşəli ərazilərdə də su ağır ola bilər. Çünki bu ərazilərdə də oksigen çox olduqda torpaq da bərkiyir və su da bərk olur. Dənizlərin və okeanların sularında duzun çox olması onların Günəş şüası ilə əlaqəsindən irəli gəlir. Məsələn, dənizlərdə, Xəzər dənizində su duzludur ona görə ki, bu dənizdən başqa bir əraziyə axan böyük çay yoxdur. Şirin çayların suyu Günəşdə qalır və duzlaşır. Okeanın diblərinin suyunun duzlu olması isə şübhə doğurur. Çünki bu hissələr Günəşdən uzaqdadırlar. Ekvatora yaxın olan və isti ərazilərdə göllərin, dənizlərin suyu daha da duzlu olmalıdır. Çünki burada Günəş çoxdur. Duzluluq da minerallarla zənginlik deməkdir. Yüngül suda tez batmaq, duzlu suda isə gec batmaq olar. Duzlu su kristalları bərk ola bilər).

## Varlıq və yoxluq

Yoxluq və varlıq müəyyən məkanda-“-“, “+” deməkdir. Məkan dəyişəndə varlıq yoxluğa, yoxlqu da varlığa çevrilir. Bu proses ümumi kainat varlığının tərkibində baş verir. Deməli, yoxluq sadəcə olaraq ümumi varlığın içərisində olandır. Aşkar olunmayandır.

Kainat vardır, bu baxımdan da varlıq elementin əsasıdır. Elementin təzahürü, forma və məzmunu varlığın əsasını təşkil edir. Hər bir makro çevrilmə makroforman içərisində baş verir. Var olan şey, yəni, element enerjinin təsiri sayəsində (məsələn, güclü hərəkət sayəsində) yeni bir elementə çevrilir. Bu çevrilmə ya bütövün parçalanmasından, ya da tərkib hissələrdən bütövün əmələ gəlməsindən ortaya çıxır. **Varlıq – elementdir; varlıq -səsdir; varlıq-rəngdir, bu baxımdan da qaranlıq və işıqdır; varlıq-hiss olunan, eşidilən, duyulan, dadılan elementdir, şeydir; varlıq- təsirdir, deməli,**

**enerjidir. Varlıqların müxtəlif halları vardır: bərk, maye, qaz halı.** Əgər bir tərəfdə bərk digər ucda qaz halı varsa, deməli, Günəş elə qazlardan ibarət olan varlıqdır. Günəşin əksi ən bərk materiyalardır. Qazlar yaranır-kosmik fəzanın ən kiçik elementinin sürətli toqquşmasından. Deməli, Günəşin mənbəyi elə kosmik fəzanın müstəvisini yaradan plazmadır –element toplusudur. **Planetlərin yaranması prosesləri kosmik fəzadan başlayıb ən bərkdə bitib. Günəşin yaranması mənşəyi böyük hadisəyə gedib çıxır. Ya da ən böyük hadisə baş verməyib, sadəcə olaraq əvvəli (yaranış başlanğıcı) məlum olmayan kainat müstəvisinin (kainat bütövünün) nahamarlığından (toqquşmanı yaradan boşluqlarda) axın yaranırb və Günəş meydana gəlib. Planetlərin əmələ gəlməsinə qədər Günəş indiki kimi olmayıb. Burada mütləq kənar sistem və qüvvə iştirak edib. Ola bilər ki, kənar qüvvənin təsiri sayəsində "çox iri Günəş"dən ayrılmalar sayəsində planetlər yaranıb. <u>Ya da ilk başlanğıcı (mənşəyi) axtarmaq düzgün deyil, mütləq həqiqəti aydınlaşdırmaq çətindir.</u> <u>Sadəcə olaraq kainatda baş verən prosesləri izah etmək kifayət edər. Onu da qəbul etmək olar ki, kosmik fəza plazması, Günəş, planetlər, planetlər üzərində olan varlqlar bir-birilə əlaqəlidir. Bir-birinə tərkibdir. Bu baxımdan da kainat bütövdür.</u>**

Müəyyən olunan **varlıq** mütləqdir və aşkar olunmuş **yoxluqdur.** Varlığı elə canlı varlıqlar (daha çox insanlar) aşkar edirlər. (Qeyd: digər canlılar da axtarışda olurlar və tapmaq qabiliyyəti onlarda da mövcuddur). Deməli, insanlar digər canlılara nisbətən ümumi halda, kompleks olaraq daha çox kainat sirlərinə bələddirlər. Ola bilər konkret hallarda hansısa canlıya (burada heyvanlar nəzərdə tutulur) insana bələd olmayan varlıq müəyyəndir. Yoxluq varlıq sisteminin aşkar olunmayan tərəfidir. **<u>Əslində tam yoxluq yoxdur. Mütləq müəyyən olunmuş varlıqlar var.</u>** Bununla yanaşı, mütləq qeyri-müəyyən olunmuş varlıqlar var. Deməli, qeyri-mütləqlik

elə mütləq olan yoxluğun, əslində isə varlığın özüdür. Tam yoxluq rəngsizlikdir. Bu da kainatda mümkün deyil. Kainat qaranlıq və işıqlardan təşkil olunub. Bu iki rəng digər rənglərin əsasını təşkil edir. Belə hesab etmək olar ki, bütün rənglər işıq və qaranlıq tərkibinə malikdir. **Hər bir rəngdə ağ və qaranın tərkibi var.**

## Forma və məzmun

Forma və məzmun elə elementin özündədir. Hər bir forma elementin müəyyən tərkiblərdə məkanlar (məkan) üzrə cəmləşməsidir. Məkan elə elementlərin tutumudur. Məkanın böyüməsi və kiçilməsi elementin tərkib dəyişməsindən meydana gəlir. Məkanın böyüməsi həm də məzmun dəyişməsini də ortaya çıxarır. Məkanın böyüməsi və kiçilməsi digər məkanların yerdəyişməsinə, bu baxımdan sıxılmasına və digər istiqamətlərə getməsinə səbəb olur. **(Qeyd: canlıların artması və azalması, yəni, cismani elementlərin artması, ruhun artması kainat məkanında mikrosıxlıqları meydana gətirir. Yer üzərində həddən artıq çox canlının artması gələcəkdə təbii tarazlığın pozulmasına səbəb ola bilər; çünki məkan sıxlıqları amili ortaya çıxar).**

Elementin tutumu zamanı müəyyən koordinatlara nisbətdə düz və düz olmayan formalar meydana gəlir. Hər bir məkan özündə bir müəyyən olunan və qeyri-müəyyən olan formadır. Hər bir məkan tərkibdir ki, bu tərkib də formadır. Deməli, istənilən məkan elə formadır və məzmundur. Elementin xassəsi də onun tərkibini yaradandır. Elementin xasssi elementin təyinatını meydana gətirir. Xassələr çevrilmələrdən meydana gəlir. Bu da enerji sayəsində mümkün olur. Enerji materiyaya tətbiq edilərkən yeni məzmun və məzmundan da yeni forma üzərə çıxır. Deməli, hərəkətlər trayektoriyasında formaların və məzmunların yaranması prosesləri mövcud olur.

Forma görünüşün özüdür ki, bu da element varlığının əsas təzahürüdür. Formanın əlamətinin müəyyən olunması elementin görünüşündən meydana gəlir. Elementin enerji sferası onun əks olunmasının əsaslarını yaradır. Elementin məkanı, həcmi, tutumu onun formasını meydana gətirir. Hər bir element hərəkət etdiyinə və müəyyən formaya malik olduğuna görə həm formaya, həm də məzmuna malik olur. Forma məzmunsuz ola bilməz. Forma əlamət, tutumdursa, məzmun mahiyyət və təyinatdır, xassədir. Elementin xassəsi onun digər elementlərə olan təsirindən meydana gəlir. Deməli, qüvvələrin tətbiqi elə xassələrin əsaslarını yaradır. Xassələr də təsirdən meydana gələn dəyişmələrdə özünü göstərir.

Məzmun və forma elementin hərəkətinin əsaslarından ortaya çıxır. Hər bir elementin təbii forması və məzmunu olur. Təbii qüvvə sayəsində yeni forma və məzmun da meydana gələ bilir. Deməli, forma və məzmunlar artandır və həm də azalandır. Bunlar təbiət hadisələrinin xassələrinə bağlı olur. Təbiət daima forma və məzmun dəyişmələrinə məruz qalır. Bu da kainat sisteminin daxilində olan dəyişmələrdən, yəni, hərəkətlərdən meydana gəlir.

Hərəkət və sürət xassələrin meydana gəlməsini üzərə çıxarır. Məzmun hərəkətdən yarandığından forma da hərəkətdən meydana gəlir. Forma və tərkib hərəkətin sürət kəmiyyətini və ölçüsünü müəyyən edir.

## Sistem və sistemsizlik

Kainatın vahidliyi onu deməyə əsas verir ki, əslində bu məkanda sistemsizlik yoxdur. Kainatın bütün tərkibi sistemə və mexanizmə xasdır. Kainat sistem tərkiblərindən ibarətdir. Müxtəlif məkanların sistemliliyi var. Hər bir məkanın sistemliliyi digər məkan üçün əlaqələrin əsasını təşkil edir. Ümumiyyətlə, kainatda sistemlilik fərqi var ki, bu da sistemlərin mürəkkəbliyi və sadəliyini yaradır. Sistemlərarası

əlaqələr bütöv sistemləri meydana gətirir. Hər bir elementin digər elementlə qarşılıqlı əlaqəsi onun sistemliliyini meydana gətirir. Əslində kainat sistemlərdən ibarətdir. Bu baxımdan da sistemsizlik ümumiyyətlə, yoxdur. Deməli, sistemsizlik əslində başqa bucaqlardan olan sistemlilikdir. Hər bir sistemin koordinatı mövcuddur. Müxtəlif məkanlarda tarazlı sistem və qeyri-tarazlı sistem mövcuddur. Qeyri-tarazlı sistem də dəyişmələrdə ortaya çıxır və sabit vəziyyətlərin əmələ gəlməsinə qədər davam edir və öz yerini tarazlı sistemə vermiş olur. Buradan da belə bir məntiqi nəticələr ortaya çıxır ki, hər bir sistem makrosistemə tabedir və dəyişkənlik bu makrosistemin özündədir və dəyişkənlik prosesləri isə tarazlı sistemlərin formalaşmasına qədər olan dövrü əhatə edir. Sistemlər makrodan mikroya qədər dəyişkən əsaslarla davam edir. Sistemlərin tərkibində olan ən kiçik hissələrin qarşılıqlı düzülüş forması sistemlərin qeyri-tarazlığının əsaslarını formalaşdırmış olur. Lakin təbii qeyri-tarazlıqlar əslində təbii tarazlıqların tərkib hissələrində mövcud olur. Bu, o deməkdir ki, hər bir şey nizama tabedir.

**Qüvvə və sürət**

Kainat qüvvəsi elementin hərəkətinin özündən meydana gəlir. Kainat qüvvəsi əsasən hamarlığın nahamarlığa keçməsi ilə və bundan yaranan müstəvi qeyri-tarazlığından ortaya çıxır. Qüvvə və sürət-hər ikisi elementlərin kəmiyyətinə (çəkisinə, ölçüsünə, cəmləşmiş ölçüsünə) bağlıdır. Eyni zamanda elementlərin hərəkət müstəvisi də burada mühüm rol oynayır. Qüvvə elə ilk növbədə elementin kütləsindən və sürətindən meydana gələndir. Çəkinin artması qüvvənin artmasına səbəb olur. Bu da hərəkətlə bağlıdır. Kəmiyyətin çoxluğu hərəkətin sürətini artırır ki, bunun da nəticəsi qüvvə kəmiyyətinin artmasına səbəb olur. Qüvvə və sürət bir-birini şərtləndirəndir. Elementin yerdəyişməsi və sürətli hərəkəti ətraf üçün, yəni

digər elementlər üçün təsiri meydana gətirir. Təsir qüvvəni yaradır.

Kainat vahid makroqüvvədən ibarətdir. Qüvvənin cəmləşməsi həm müstəvinin ümumi qüvvəsini yaradır, həm də tərkib hissələrə öz təsirini göstərir. Bu baxımdan da toplanmış qüvvə həm ümumi sistemə təsir edir, həm də ayrı-ayrı tərkib hissələrə təsir göstərir. Bu baxımdan da paylanmış qüvvələr tarazlığı məsələsi meydana gəlmiş olur. Bu tarazlığın paylanmasında həm ümumi sistemin gücü rol oynayır, həm də xüsusi halda elementlərin gücü böyük təsirə malik olur. Qüvvələrin azalması prosesləri baş verir. Bu daha çox enerjinin az olduğu müstəvidə özünü göstərmiş olur. Enerjinin çox olduğu məkandan az olan məkana doğru elementin hərəkəti zəifləmiş olur. Enerji sahəsinin azalması elə hərəkətin azalmasına gətirib çıxarır. Qüvvə itmir və bu, kainatın vahid qüvvəsinin tərkibində paylanır. Ayrı-ayrı elementin yaratdığı qüvvə ümumi kainat qüvvəsinin tərkibində tarazlıqdan qeyri-tarazlığa keçidlər zamanı baş verir. Əksinə keçidlər də tarazlığın yaranmasına səbəb olur. Deməli, bütün qüvvələr tarazlıqdan qeyri-tarazlığa və əksinə, qeyri-tarazlıqdan tarazlığa keçidlər zamanı meydana gəlmiş olur. Bütün bu proseslərin baş verməsi isə hərəkətlər szayəsində meydana gəlir. Tarazlıqdan qeyri-tarazlığa keçidklər zamanı müstəvinin hamarlığı və qeyri-hamarlığı məsələsi ortaya çxıır. Tarazlığın pozulması və bərpası da qüvvələrin paylanması prinsiplərinin əsaslarını təşkil edir.

## Zaman və məkan

Məkan elementin özündədir və zaman da bu elementin hərəkətinə, hərəkətindən meydana gələn məsafəli əlaqəsinə tabedir. **<u>(Qeyd: qüvvə, sürət tam yoxluqdan yarana bilməz. Yaranış isə zamandır. Yaranmanın başlanması zamanın başlanmasıdır. Deməli, hər bir hadisə təzahürdür, enerjinin</u>**

**<u>nəticəsidir ki, bu da zamanın başlanmasıdır. Ancaq bütün hadisələr kainat daxilində baş verir. Kainatın tam başlanğıcını bildirmək çox çətindir. Bütövlük onun mütləq başlanğıc və mütləq sonunu bilinməz edibdir. Deməli, kainatın əslində zamanı elə əbədi zamandır ki, bu da özlüyündə zamansızlıqdır. Makro aləm zamansız, mikroaləm isə zamana tabedir. Bu da özlüyündə bütöv zamanın tərkibidir. Deməli, kainat sonsuzluğu içərisində zamanların mövcud olduğu sonszuz zamanlıqdan-ümumilikdə isə zamansızlıqdan, yəni, əbədilikdən ibarətdir. Əbədilik də içərisində hərəkətlərin mövcud olduğu zaman təzahürlərindən ibarətdir. Bu fikri bildirməklə, tam yoxluğu haqqında inkarediciliyə gəlirik. Tam yoxluq yoxdur, əbədi varlıq içərisində məzmun dəyişməsi var. Deməli, zaman əslində kainat bütövlüyü üçün yox, onun daxili sistemləri üçündür. Məsələn, Günəşdə təkrar çevrilmələr baş verir. Kosmik məkanın elementləri Günəşdə tərkiblərə ayrılırlar. Bu proses təkrarlanandır və eyni xassəlidir. Deməli, zaman təkrarlanandır. Planetlərin də dövr etmələri təkrarlanandır. Zaman daha çox canlı aləmlər üçündür ki, onların material (cismani) varlıqarı ilə növbəti aləmləri arasında fərq yaradan kriteriyaya çevrilir).</u>** Kainatın bütöv zamanı onun tərkibində olan müxtəlif zamanlardan ibarətdir. Zamanların müxtəlifliyini də sistemlərin və bu sistemləri meydana gətirən məkanların böyük və horizontallıq və şaqulilik üzrə yayılmasıdır. Koordinatların və koordinat nöqtələrinin bir-birindən yaxın və uzaq məsafələri basşlıca olaraq hərəkətlərin müxtəlifliyini və enerji mənbələrinin müxtəlifliyini meydana gətirir. Enerji mənbələrinin müxtəlifliyi də məhz məkanların və kosmik müstəvinin (kainat müstəvisinin) nahamarlıq dərəcəsindən asılı olur. Bu, o deməkdir ki, kainatın heç bir yerində tam iki eyni səma cismini (meteor, asteroid, planet, ulduz) tapmaq mümkün deyil. Bu, olarsa, təkrarçılıq baş verər və bu da özlüyündə

bütövlüyün əsasına zərbə vurmuş olar. Ulduzlar və planetlər fərqli ölçülərə malikdirlər, qalaktikaların məkanları və enerji mənbələri fərqlidir, məkanları və koordinatları fərqlidir. Yəni bir-birindən aralıda yerləşmişdir. Məkan fərqli, hərəkət fərqli, enerji mənbəyinin ölçüsü fərqlidir və bu baxımdan da hər bir məkanda zaman ***(digər məkana nisbətdə. Nəzərə almaq lazmdır ki, müəyyənetmə müqayisə əsasında həyata keçirilir. Müqayisədə koordinatlar müəyyən olunur. Koordinatlar bir nöqtədən digər nöqtəyə uyğunlaşdırılır. Ulduzlar- qaz-enerji mənbələri əsas koordinatlar hesab edilə bilər. Bunlardan gələn enerji isə ətrafa doğru eyni yayıla bilməz. Bu da zaman və məkan fərqini əmələ gətirir. Çünki hərəkətlər də fərlqi olur)*** vardır. Bu prinsipdən irəli gələrək hesab etmək olar ki, Yer kürəsinin hər bir şərti nöqtəsinin öz zamanı var və bir məkan başqa məkandan fərqlənir; çünki məkan və zaman fərqlidir. Bu fərq prinsipindən çıxış edərək belə qənaətə gəlmək olar ki, Yer kürəsinin tam eyni olan iki sistemi, birləşməsi yoxdur. Deməli, bərabərlik nisbidir, bu, oxşamadan meydana gəlir. **Mütləq bərabərlik insanların istəyidir** və təbii oxşama prinsipindən irəli gələrək Yer kürəsinin material aləminin müəyyən əlamətlər üzrə (başqa elementlərə nisbətdə) bərabərləşməsinə çalışırlar. Kainat fərqli sistemlərdən təşkil olunan bir bütövdür. Mütləq, yəni tam eynilik ola bilməz, yalnız nisbi bərabərlik və eynilik var. **Məsələn, bir məkanda olan bir çəkili şey digər məkanda həmin çəkini verə bilməz. Həm də Yer küərisnin hər bir nöqtəsinin, məkanının öz cazibə qüvvəsi vardır.** Eləcə də kainat daima hərəkətdədir və bu hərəkət həmin cisimdə fərqli məkanlar üzrə fərqli təsirləri yaradır. Fərqli təsirlər də fərqli çəkiləri ortaya çıxarır. Deməli, insanlar hərəkət etdikcə zaman da dəyişir, təsir mühiti dəyişir, çəki dəyişir, xarakter dəyişir, orqanizmin xüsusiyyətləri dəyişir. Bu dəyişmələrin çox da hiss olunmaması isə insanlarda nisbi dinamik hərəkətlər çərçivəsində tarazlıqlar sisteminin yaranmasının əsaslarını təşkil edir. Kainatda eynilik, tam

bərabərlik hissi olunmayan olduğundan mütləq, əslində isə dəyişəndir. Buna görə də hər bir materiya aləminin öz məkanı, zamanı və “yaşamaq” dövrü vardır. İnsanlar hərəkət etdikcə məkanı dəyişirlər, hər məkanda fərqli enerji qəbul edirlər, fərqli enerji xərcləyirlər və fərqli əsaslarla öz zamanlarını sona çatdırırlar. **(Qeyd: Yer kürəsinin hər bir nöqtəsi öz zamanına xasdır. Dağların, çayların, okean və dənizlərin və atmosferin öz zamanı var. Buna görə də suda, quruda, göydə yaşayan canlıların öz zamanları, bu baxımdan da öz enerjiləri, öz quruluşları mövcuddur. Bir canlı bir məkanda bir zamana, digər məkanda isə başqa bir zamana tabedir. İnsanlarda qan təzyiqinin dəyişməsi zaman və məkanla əlaqəlidir. Heç bir halda eyni ölçüdə dayanan qan təzyiqi ola bilməz. İnsanlar məkandan məkana keçməklə qan təzyiqlərini dəyişmiş olurlar. Buna həm üzərlərində dayandıqları Yer üzünün enerjisi, həm daxillərində olan enerji, həm də atmosfer və səma cisimlərinin hərəkət vəziyətləri səbb olur. Yer və səmanın qarşılıqlı təsiri hərəkətdə və dayanıq (nisbi hərəkət) vəziyyətində olan insanlara təsir edir. Bu təsirin ifrat dərəcəsinin azaldılması və daxili tarazlığın qorunması insanın daxili sisteminin möhkəmlənməsidir. Zəif insanlar ətraf mühitin təsirlərinə dözə bilməzlər).** Şərti bir məkanda çox ağır və hərəkəti zəif olan cisim soyuqdur. Ona görə də həmin cismin zamanı uzundur. Məsələn, çox böyük planetlər soyuq olar. Çox böyük bir qaya parçası ümumi nisbətdə soyuq olar. Yüngül olan şey isə nisbətən istidir və onun zamanı isə qısadır. **Deməli, məkan böyük olduqda (çoxlu toplanmış cisimlər) zaman uzun, məkan kiçik olduqda isə zaman qısa olur**.

Zaman hərəkətə və məkana bağlı olduğu üçün dəyişmələrdə uzanma və qısalma ilə özünü göstərmiş olur. Zaman elementdirsə, elementin içərisindədirsə, onda, hərəkətlə də bağlıdır. Məsafənin müəyyən koordinatdan uzaqlaşması elə hərəkət və yerdəyişmədirsə, zaman da bu yerdəyişmədə və

məsafədə özünü göstərəndir, təsdiq edəndir. Element hərəkət edir, müəyyən koordinatdan uzaqlaşır və zamanı da özü ilə aparır. Zaman mərkəzi enerji mənbəyindən asılı olaraq yaxınlaşır (qısalır) və uzanır. Məsələn, Günəşə yaxınlaşdıqca zaman qısalır, Günəşdən çıxdıqda yeni zaman meydana gəlir və uzanma başlayır. Günəş bu baxımdan zaman çevrilmələrinin özüdür. **(Qeyd: belə bir fərziyyə irəli sürmək olar ki, Günəşə yaxın getmək üçün Günəşin özündən çıxan və Günəşdə çevrilmiş nəticə elementindən istifadə etmək olar. Yəni Günəşin təsir edə bilməyəcəyi ("külə döndərə bilməyəcəyi"-ən yüksək enerjidə kül yoxdur, qaza və ən kiçik zərrəciyə çevrilmə var və bu da şərti yoxluqdur, yeni başlanğıcdır) və ondan olan element Günəşə yaxın gedə bilər. Həmin element də elə Günəş şüasının özüdür. Bunu da mexaniki yolla əld etmək absurddur, hələlik qeyri-realdır).**

Zaman enerjidir, yerdəyişmələrdə və çevrilmələrdə müşahidə olunur, meydana gəlir. Enerjidən uzaq olan məsafələr mövcud olur. Hər bir məsafə öz zamanına məxsus olur. Məsafə yaxınlaşıb-uzaqlaşdıqca zaman da qısalır və uzanır. Zamanın uzanması və qısalması məsafələr arasında sıx əlaqənin yaranmasının əsaslarını təşkil edir. Məsafələrin dərəcələnməsi və sahələr üzrə bölünməsi zamanın dərəcələnməsinin (burada qısalıb-uzanmasının) əsaslarını təşkil edir. Zamanın dərəcələnməsi (artıb-azalması) də çox ehtimal ki, elementlərin xassələrinin əmələ gəlməsinin əsaslarını təşkil edir.

Zaman qısaldıqca elementə məxsus olan məkan da məhv olmağa doğru gedir. Məsələn, Günəşə yaxın olduqca zaman da qısalır və bu anda məkan fərqi meydana gəlir. Məkan nisbəti ortaya çıxır. Günəşin məkanı ilə ətraf kosmik fəzanın məkanı arasında fərq yaranır. Çünki elementlərin hərəkəti də müxtəlif olur.  Bu baxımdan da kainatın bütöv məkanı içərisində fərqli məkanlar vardır. Məkan özü ilə zamanı daşıyır və zamanın

əsaslarını meydana gətirmiş olur. İnsanlar hərəkətdə olurlar və məkan dəyişmələri edirlər. Bu anda fərqli məkanlar üzrə fərqli zamanlara daxil olurlar. Hər bir nöqtənin öz zamanı mövcuddur. İnsanlar zamanlardan-zamanlara daxil olurlar və öz orqanizmlərini də bu zamanlara uyğunlaşdırırlar. Bu anda orqanizmin daxili tarazlı sistemi ilə ətraf müxtəlif zamanlı məkanların təması meydana gəlir. Zamanların dəyişməsi, məkanların dəyişməsi insanların səhhətinə öz mənfi təsirlərini göstərə bilir.

## Canlı və cansız aləm

Canlı aləm cansız aləmdən, yəni, bərk materiyadan, ətraf elementlərdən, Yer kürəsindən yaranıb. Çünki Yer kürəsinin özündədir. Canlı aləm hərəkətdə olan tərkiblərin əhatəsindən meydana gəlib. Deməli, canlı və cansız aləmin hər ikisi hərəkətdədir. Bərk və mayeni hərəkətə gətirən qazdır. Enerji axınıdır. Qaz elementin bərk və maye cisimlərə nisbətən daha sürətli halıdır. **Deməli, enerji mənbəyi, sürət mənbəyi daha çox qazdadır. Qaz halı sürətin yuxarı həddindən yaranır. Qazın soyuması, enerjidən uzaqlaşması isə mayeləşməyə və bərkləşməyə səbəb olur. Bu baxımdan suyun bərk və qaz halı olur. Suyu sürətləndirməklə qaz halına çevirmək olar; çünki sürət sayəsində elə enerji yaranır ki, bu da qaz halını meydana gətirir. Belə bir güman da bildirmək olar ki, bərk materiyanın sürtünməsi onu maye və qaz halına çevirə bilər. Onda belə bir fikir də bildirmək olar ki, yerin daxilində olan və enerji kimi istifadə edilən neft və qaz bərk materiyaların sürətli hərəkətindən meydana gəlir. Onda da yenə belə bir nəticəyə gəlmək olar ki, tektonik (vulkanların və zəlzələlərin çox olduqları ərazilərdə) ərazilərdə yerin daxilində qaz və neftin çox olması ehtimalı böyükdür. Digər bir ehtimal da ondan ibarət ola bilər ki, meşəliklərin çox olduğu yerlərdə hərəkət və enerji də çoxdur, çünki**

**canlanma da çoxdur. Bu çoxluq yerin daxilində mayenin çoxluğuna və bərk materiyanın qazlaşmasına səbəb ola bilər. Buna görə də belə ehtimal etmək olar ki, müşəli ərazilərdə, bol solu ərazilərdə neft və qaz da çox ola bilər.**

Canlı aləmin meydana gəlməsində həm də Günəşin rolu böyük olub. Canlı aləmin daxili enerjisində (daxili "nüvəsi"ndə) Günəşin əksi var. Yəni canlı aləm Günəşdən faydalanır. Canlı aləm bərk materiya ilə lap yüngül materiyanın, eləcə də mayenin qarışığıdır. Canlı aləm bərk materiyanın hərəkətdə olan yumşaq və çox yüngül tərkibidir.

Belə bir hipotezadan çıxış etmək olar ki, torpaq da əslində hərəkətdə olandır. Sadəcə olaraq onun hərəkəti hava və su, eləcə də qaz kimi unuversal qaydada hiss olunmur. Torpağın hərəkəti ətraf aləmlə olan əlaqələrdən də meydana gəlir. Günəş şüaları torpağa təsir edir, bununla yanaşı, su da torpağa təsir edir və torpağı hərəkət vəziyyətində saxlayır. Lap bərk materiyanın da hərəkəti mövcuddur. Lakin onun hərəkəti torpağa nisbətən azadır. **Torpaq özündə daha çox oksigeni cəmləşdirir**; çünki oksigen soyuqdur. Buraya suyun və günəş şüalarının düşməsi torpağı hərəkət vəziyyətində saxlayır. Oksigeni yeni enerji elementi ilə qarışdırır. Torpağın hərəkəti onun tərkibini təşkil edən atomların hərəkəti ilə əlaqələidir. Canlı aləm torpaq, su və hav arasında, eləcə də qaz arasında bir aralıq mövqedə yerləşən varlqıdır.

Canlı varlıqlar turşudan, duzdan və şirindən ibarətdir. Belə ehtimal etmək olar ki, turşusu çox olann insanlar immunitetli olarlar. Onlar şirin yeməkləri daha çox üstün tutarlar ki, tarazlığı yarada bilsinlər. Turşuluğu az olan insanlar isə turşa üstünlük verərlər ki, tarazlığı, immuniteti təmin edə bilsinlər.

## Material-maddi və mənəvi aləm

Material aləm əsasən bərk, maye və qaz halında olan aləmdir. Maddi aləm isə canlıların maddi tələbatları üzərində

qurulan aləmdir. Maddi aləm material aləmin davamıdır. İnsanların maddi maraqları material maraqlara da söykənir. Ən yüksək hədd isə yüngül olan qaz aləmidir. **Deməli, enerji Günəşdən başlayıb (güclülükdən zəifləməyə doğru trayektorik müstəvi üzrə) Günəşdə də bitir.** Kosmik fəza burada aralıq vasitə rolunda çıxış edir. Günəş-Günəş trayektoriyası arasında kosmik fəza-ən yüngül element, ağırlaşan Günəş şüası, ondan da ağır olan-sıxlığına görə-atmosfer və ondan da ağır olan su, ondan da ağır olan torpaq və digər bərk materiya mövcuddur. Sonradan canlı aləm –bu vəhdətdir, canlı aləm  təkrar olaraq bərk materiyaya və havaya qarışır. Deməli, bütün proseslər bərk materiya ilə yüngül və qaz halında olan, eləcə də varlıq və yoxluğu ifadə edən zaman və məkan prinsipi üzrə davam edir və proseslər bu prinsiplərlə təkrarlanır, nisbi başlanğıc və sonu əldə edir.

Maddi aləm öz tələbatını material aləmdən (torpaqdan, sudan, havadan, Günəşdən) götürür. Deməli, ondan yaranıbdır. Lakin bununla bərabər, insanların mənəvi aləmləri də mövcud olur. **Mənəvi aləm material aləmin yuxarı və ali son həddidir. Mənəvi aləm insanları idarə edən siqnallar, yüngül hissəciklər aləmidir.** Bu yüngül hissəciklər enerji axınıdır. Enerji axını güclüdür və insanların fiziki quruluşuna söykənir. Enerji axını Günəşə, ulduzlara və kosmik fəzaya bağlıdır.

Mənəvi aləm kosmik fəza və Günəşlə torpaq, su və hava arasında bir vasitədir. Mənəvi aləm ucada olduğundan daima insanları buna doğru sürükləyir, cəlb edir. Mənəvi aləm kamilliyə doğru insanları aparır və onları yetişdirir. Mənəvi aləmin ucalması insanları material aləmdən uzaqlaşdırır. Mənəvi aləm ucalmadır, aliləşmədir; çünki bərk materiya aləmindən nisbi olaraq ayrılmadır. Bu baxımdan da kosmik fəzaya və səma cisimlərinə yaxınlaşmadır. **Səma cisimləri təmizlikdir, paklıqdır, buna görə də saf mənəvi aləm elə paklığın insanlarda əksini tapmasıdır.** İnsanlar material-

maddi aləm üzərində öz nizamlı münasibətlərini yaratmaqla ucala bilirlər. Mənəvi aləm insanları ucaldır, buna görə də daha çox nizamlı edir; çünki material aləmin nizamından (bərk materiyanın nizamından) üstün olan və bərk materiyanı tənzim edən yüngül və daha çox enerjili materiyaya doğru aparır. Deməli, mənəviyyat insanları daha da enerjili edir, saflaşdırır və saflığın əsasını təşkil edən kosmik fəzaya və Günəşə bağlayır. Bu, o deməkdir ki, insanların mənəvi aləmi, yəni onların madi aləmlərinin uca forması öz əlaqəsini səma cisimləri ilə -paklıq və yüngüllük, eləcə də enerjisi bol olan hissə ilə bağlayır. İnsanların ucalması onların maddi aləmdən əl çəkmələri ilə, yəni, bu aləmə çox bağlanmamaları ilə bağlıdır. İnsanların maddi aləmə sıx bağlılığı onlarda zəif enerjini meydana gətirir; çünki maddi aləmi idarə edən yuxarı yüngül və enerjili aləmlə insanların təmasları zəifləyir. Bu anda yalnız material aləmin daxili enerjisinə daha çox bağlanma yaranır. Enerjinin yüksək sahələri ilə əlaqələr zəifləyir.

## Təbiət və fövqəltəbiət haqqında

Təbiət, yəni insanlardan (onların iradəsindən) asılı olmayan quruluş, varlıq elə kainatın özüdür. İnsanlar və digər canlılar kainatın tərkibi olan təbiət üzərində və təbiət içərisində qərarlaşıblar. Deməli, canlılar kainatın tərkibi olan təbiətin məxluqlarıdır. Fövqəltəbiət (təbiətdən üstün olan, lakin ondan ayrı olmayan, təbiəti öz tərkibi kimi görən və sonu olmayan kainat) isə, hələlik belə qeyd edək ki, vahid kainatın özüdür, bütövlüyüdür. Günəş sistemi və onun daxil olduğu ulduzlar sistemi məhz fövqəltəbiətin daxilindədir. **(Fövqəltəbiətə bəzən alternativ kainatı da aid etmək olar. Lakin bu haqda fikir bildirmək çox çətindir. Alternativ kainat ya qeyri-təbiətdir, qeyri-materiya aləmidir, ya da kainatın ağılagəlməz sonszuluqda bütövlüyüdür).** Fövqəltəbiət böyük qüvvənin özüdür. Hər bir ulduz (Günəş) sistemi, qalaktikalar sistemi bir

təbiətdir, ümumtəbiətin, (ümumkainatın) tərkibidir. Ona görə təbiətdirlər ki, onların tərkibi də bizim təbiət hesab etdiyimiz Günəş sisteminə xas olan elementlərə onlar da xasdırlar. Hələlik deyək ki, çatışmayan odur ki, canlı aləm yalnız Yer kürəsində tapılıbdır, müəyyən olunubdur. Deməli, Yer kürəsi digər materiya aləminə nisbətən kainatın daha yetkin və ali bir quruluşudur; çünki kainatın bütövünü özündə əks etdirən insanlar məhz bu planetdə qərarlaşıblar. Gəlinən qənaətlər onu deməyə əsas verir ki,  təbiətlər də sistemlənir, dərəcələnir. Bütövdə, sonda isə makroquruluşu meydana gətirirlər. Buradan da belə nəticələr ortaya çıxır ki, təbiətlər arasında olan əlaqələr vahid kainat sisteminin əsaslarını təşkil edir. Bizim yaşadığımız təbiət həm öz hissəsinə tabedir, həm tərkibi olduğu Günəş sisteminə tabedir, həm də əlaqədə olduğu qalaktikalar sisteminin təsirinə məruz qalır. Deməli, insanlar həm Günəş sisteminin, həm də kainatın varlıqlarıdır. İnsanlar öz siqnallarını Günəşdən, planetlərdən və ulduzlardan götürürlər.

Hər bir ulduz sisteminin özünəxas təbiəti (həm də təbiətindən irəli gələrək məzmunu) olduğundan vahid kainatın tərkibi bütöv bir qüvvədən (əsasən cazibə qüvvəsindən) ibarətdir. İtələmə qüvvəsi isə bu cazibə qüvvəsinin içərisindədir. **Yəni əslində hər şey kainat daxilində cəzb olunur. Hər şey bir qayda olaraq itələnsəydi, onda vahidlik haqqında söhbət gedə bilməzdi. İtələnmə cəzbetmənin başqa koordinatdan həyata keçməsidir.** Koordinatlar ona görədir ki, cəzbetməni itələmə kimi xarakterizə edir. Cəzbetmə və itələmə əslində vahid "çəkişmə"dir ki, bu da özlüyündə bütövə xidmət edir.  İtələmə qüvvəsi də ona görədir ki, ümumi cəzbetmə müstəvisində materiyalar itələnə-itələnə geniş məkanı əhatə edirlər.  İtələmə qüvvəsi cazibə qüvvələri mərkəzləri arasında özünəxas sfera yaradan bir qüvvədir. Bir element digər elementi ona görə itələyir ki, itələyən element və itələnən element başqa elementlərlə cazibədə olur. İtələmə elə çox güman ki, cazibə qüvvəsindən meydana gəlir.  Cazibə

qüvvəsi (mərkəzlərə cəzbedici qüvvə) bütün səma cisimlərini bütöv bir kaniat məkanında saxlayır. Məkanın özü elə vahid enerji qüvvəsidir. Kainatda əsas qüvvələri taraz formada materiyalar, yəni, göy cisimləri, eləcə də göy fəzası meydana gətirir. Kosmik fəza və göy cisimləri vəhdət şəkilində vahid cazibə qüvvəsinin təsiri ilə bütöv kainatın tərkibini meydana gətirirlər. Fövqəltəbiət dedikdə, biz insanlar öz düşüncələrimizdə Günəş sistemindən kənara çıxırıq. Təbiəti bir obyekt kimi böyüdürük.

## İSİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT:

**Azərbaycan Respublikasının Konstitusiyası və konstitusiya aktları. Azərb. dilində, Bakı – Qanun - 2003. 128 səh.;**

**Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutu. Qədim yunan fəlsəfəsi antologiyası. "Yeni Nəsil" AJB, Bakı, 2002, 180 səh.;**

**Azərbaycan Respublikası Maliyyə Nazirliyi. Azərbaycan Respublikasının 2014-cü ilin dövlət və icmal büdcələrinin layihələrinin təqdimatı.**
**www.maliyye.gov.az/sites/default/files/2014-1.pdf;**

**Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu. 21 dekabr 2010. "Azərbaycan" qəzetində dərc edilmişdir (17 fevral 2011-ci il; №37;**

**"Səhiyyə, təhsil, idman və mədəniyyət sahələrində bir sıra müəssisə və obyektlərin özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 23 avqust 2006. http://e-qanun/az/files/framework/data/12/c f 12370.htm;**

**Uşaq bağçaları. Azərbaycanda məktəbəqədər təhsil. http://azerbaijans.com/content 875 az.html;**

**"Azərbaycan Respublikasında körpələr evlərinin, körpələr evi-uşaq bağçalarının, uşaq bağçalarının, xüsusi uşaq bağçalarının və uşaq evlərinin inkişafı ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı. http://www.edu.gov.az/view.php?lang=az&menu=73&id=4 909;**

**Azərbaycan Respublikasının Səfirliyi haqqında Əsasnamə. www.mfa.gov.az/files/file13_13pdf;**

**Nərmin Nəsirli. http://sia/az/ru/news/economy/314108/ 28.09.2012;**

**İsveç iqtisadiyyatında geriləmələr qeydə alınıb. http://www.aztv/az/readnews.php?lang=az&id=10833;**

**Laqard: ABŞ iqtisadiyyatında qeyri-sabit vəziyyət davam edir. 06.01.2013. http://anspress/com/index.php?a=2&Ing=az&nid=182739;**

**S&P Fransanın kredit dərəcəsini endirdi. 09.11.2013. www.hafta-ichi.az/news.php?id=104993;**

**"SWIFT": "Dünya bazarında yuanın payı artıb". http://www.aztv.az/readnews.php?lang=az&id=12347;**

**Çin lunaxodu Yerə ilk fotoları göndərdi. 16.12.2013. www.xezerxeber.com/XeberOxu.aspx?id=79890;**

**R.Ə.Hüseynov. H95. Astronomiya. Ali məktəblər üçün dərslik. Bakı: "Maarif" nəşriyyatı, 1997, 468 səh.;**

**İ.H.Cəfərov. Elementar zərrəciklər fizikasının əsasları. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2009, 287 səh.;**

**Большая советская энциклопедия. 23. Третье издание. Москва. Издательство. «Советская энциклопедия». 1976. səh.418;**

**«Стандард энд пурс» сохранил кредитный рейтинг Китая на уровне АА-. 01.12.2013. http://russian.people.com.cn/31518/8471263.html;**

**Синергизм в управлении проектами. www.hr-portal.ru/blog/sinergizm-v-upravlenii-proektami**

**Испанская Конституция. Перевод Пере Романа. Посольство Королевства Испании в Российской Федерации, 1995. http://vivovoco.rsl.ru/VV/LAW/SPAIN.HTM**

**ELŞƏN MİSİR OĞLU NƏSİBOV**

# İNKİŞAF VƏ SÜLH İDEYALARI

## IV KİTAB

***Və Təbiət haqqında düşüncələr...***

Kağız formatı 60x84 $^{1}/_{16}$. Ş.ç.v. 15,75. Tiraj 300. Sifariş 77.

*«Elm və Təhsil» nəşriyyat-poliqrafiya müəssisəsi*